AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# MANAS DASTANI

*Nəsr variantının qurucusu: Keneş YUSUPOV*

*Tərcümə edəni: Adil CƏMİL*

Bakı – 2009

Azərbaycan Milli Elmlər Akademiyası
Folklor İnstitutu Elmi şurasının
qərarı ilə nəşr olunur

REDAKTORU: Hüseyn İSMAYILOV
AMEA Folklor İnstitununun direktoru,
filologiya elmləri doktoru, professor

NƏŞRİNƏ MƏSUL: Əziz ƏLƏKBƏRLİ
filologiya elmləri namizədi

**Manas dastanı**, Bakı, "Nurlan" nəşriyyatı, 2009, - 290 səh.

Azərbaycan oxucusuna ilk dəfə təqdim olunan bu dastan möhtəşəm qırğız eposu "Manas"ın Kenç Yusupov tərəfindən nəsr şəklinə salınmış və Adil Cəmil tərəfindən tərcümə edilmiş yeni, həm də ən yığcam variantıdır. Manasın dünyaya gəlişindən dünyadan gedişinə qədər baş verən olaylar – epos qəhrəmanının uşaqlıq illəri, düşmənlərlə döyüşdə ilk qələbələri, kalmık və çinli basqılarına cəsarətli cavabları, yurdunun və xalqının azadlığı naminə qanlı savaşlara atılmağı, ata yurdunu işğaldan azad etməyi və s. əsərdə yığcam, lakin bütün gerçəkliyi ilə öz ifadəsini tapıb. Əminik ki, bu kitabı oxuyanlar türk oğlu Ər Manasın qəhrəmanlığı barədə bitkin təsəvvür əldə edəcəklər.

M $\frac{4603000000}{N\text{-}098\text{-}2009}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2009.

## *ÜMUMTÜRK FOLKLORUNUN «MANAS» ZİRVƏSİ*

*Türk xalqlarının bədii təfəkkür tarixində öz tutum və siqləti ilə seçilən möhtəşəm abidələrimizdən biri «Manas» trilogiyasıdır. Böyük və Ulu türk «gövdəsindən» şaxələnən qırğız-qıpçaq «budağının» bu bəşəri və yaşarı abidəsi soy köklərimizdən tarixi bilgi verən əvəzsiz qaynaqdır.*

*«Manas» öz həcmi etibarı ilə dünya ədəbiyyatının nadir və monumental incilərindən sayılan məşhur eposlardan – «İliada» və «Odisseya»dan iyirmi dəfə, «Mahabharata»dan üç dəfə böyükdür. Bu, təkcə fiziki həcm böyüklüyü deyil, həm də məna, məzmun, mündəricə böyüklüyüdür. Hazırda «Manas»ın 65 variantı mövcuddur. Hələ də elmə məlum olmayan variantların izləri göründüyü üçün bu istiqamətdə axtarışlar davam edir.*

*Son illər ümumtürk dastanlarının, daha geniş mənada, türk folklorunun tədqiqi və təhlili, ortaq və oxşar mədəniyyətimizə çağdaş prizmadan baxış türk xalqlarının müxtəlif elmi konfrans, simpozium və yubiley tədbirlərində ön plana çəkilməkdədir.*

*1995-ci ilin avqust ayında Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilmiş «Manas – 1000» yubiley tədbiri dünyanın 70-dən artıq ölkəsindən bu əsrarəngiz dağlar diyarına dəvət almış türkoloqları, manasşünasları, yazarları, eləcə də türk cümhuriyyətlərinin dövlət başçılarını bir araya gətirmişdi. İştirakçılardan biri də bu sətirlərin müəllifi olmuşdu. Ulu Öndərimiz Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan Nümayəndə Heyətinin tərkibində «Manas-1000» yubiley tədbirində iştirak etdiyim günlər unudulmaz xatirəyə çevrilib. Mən bu tədbirə «Manas» eposundan bir parça çevirərək nəşr etdirdiyim kitabça ilə getmişdim. Əslində 80-ci illərdən tərcümə və tədqiq etməyə başladığım «Manas» ruhumda əbədi dolaşan və məni rahat buraxmayan bir əsərə çevrilmişdi. Tədqiqatlarımın yekunu olaraq «Manas» eposu və türk dastançılıq ənənəsi adlı monoqrafiyam (Bakı,*

*«Elm» nəşriyyatı, 2002) işıq üzü gördü. Lakin yarım milyon misralıq bir dastanın tərcüməsini başa çatdıracağıma əmin olmadığım üçün yığcam variant axtarışında olub Azərbaycan oxucusuna «Manas»ı tanıtmaq istədim. Bu variant tapıldı!*

*Tanınmış qırğız yazıçısı Keneş Yusupovun nəsr şəklinə saldığı «Manas dastanı»nı oxucularımızın ixtiyarına vermək üçün çevirməyə başladım. Əslində K.Yusupov «Manas»ın Türküstan, Əfqanıstan, Çin variantlarının hamısından istifadə etməklə özünün ortaq, mükəmməl, həm də yığcam versiyasını yaratmışdır. Eposun ən dəyərli versiyaları sayılan S.Karalayev və S.Orozbəyov mətnlərindəki süjet olayları, irili-xırdalı obrazlar «Manas»ın nəsr variantında əsasən saxlanılmışdır.*

*Qardaş Türkiyə Cümhuriyyətində «Manas» dastanının araşdırıcıları Fuad Körpülü, Zəki Velidi Toqan və Abdulkadir İnandır. Doktor Naciyə Yıldızın, prof. doktor Əminə Gürsoyun, prof. doktor Fikrət Türkmənin çapa hazırladıqları kitablar isə son illərin manasşünalığında yeni hadisədir. Bu sıradan Fikrət Türkmənin Alimcan İnayətlə Türkiyə türkcəsinə birgə çevirib nəşr etdirdiyi «Manas dastanı» (K.Yusupovun variantı, Atatürk Kültür Mərkəzi, Ankara, 1995) təqdirəlayiqdir. Biz öz tərcüməmizdə əsasən həmin nəşrə əsaslansaq da, bu sahədə ümumi təcrübə və bilgilərimizə güvənərək təhrif olunmuş etnonim, toponimlərin və b. kəm-kəsirlərin bərpasına, obraz adlarının düzgün yazılışına çalışmışıq. Bu yöndə «Manas»ın qırğız dilindəki Orozbəyov variantına mötəbər mənbə kimi yanaşmışıq.*

*İndisə «Manas» dastanının yaranma tarixi, toplanıb yazıya alınması, əsərin leytmotivi, süjet sistemi, qəhrəmanları barədə oxuculara konkret bilgi vermək istəyirik. «Manas»ın mənzum variantlarından birini əzbər söyləyən şəxsə manasçı deyirlər. Manasçılar el arasında ən istedadlı adamlar sayılırlar. Çünki belə adamlar ilk növbədə fenomenal yaddaşa, improvizasiya qabiliyyətinə, aktyorluq istedadına malik olmalıdır. Manasçı eposun bütün ruhunu: döyüş səhnələrini, qalibiyyət və məğlubiyyəti, kədər və sevinci, işıq və qaranlığı, xeyir və şəri, dost və*



*düşməni, bir sözlə, olumdan ölümə gedən yolun mənəvi fasillərini səsinin ahəngi, əl-qol hərəkətləri ilə dinləyiciyə olduğu kimi çatdırmağı bacarmalıdır. Bu baxımdan manasçı bir aktyorun teatrını yaradır.*

*Elə qırğız tapılmaz ki, «Manas»dan bir boyu, yaxud bir epizodu əzbər bilməsin. Məhz buna görə də dünya şöhrətli yazıçı, akademik Çingiz Aytmatov «Manas»ı qırğız xalqının sinonimi hesab edirdi.*

*Qırğız xalqının «Manas»dan başqa da dastan, nağıl, eləcə də digər folklor nümunələri mövcuddur. Lakin bu nümunələrin «Manas»la müqayisəsi damlanın dənizlə müqayisəsinə bənzədiyi üçün xalqın yaratdığı ayrı-ayrı ata sözləri, zərb-məsəllər, nağıl, rəvayət və lətifələr sısqa bulaqlar timsalında «Manas» nəhrinə qovuşmaq məcburiyyətində qalır. Bə beləcə «Manas» az qala xalqın bütün ağız ədəbiyyatını öz «ağuşuna» alır.*

*Adətən «Manas»ın yaranış dövrünü IX-X əsrlərə ünvanlayırlar. Uyğun tarix belədir. Eposun mühiti IX-X əsrlərin mühitinə tam uyğunluq təşkil edir. «Manas»dan əvvəlki dövrün ictimai-siyasi ab-havasını öyrənməklə eposun hansı tarixi zəmində yarandığını, formalaşdığını öyrənmiş oluruq. Bu baxımdan VII-VIII əsrlərdə Yenisey ətrafında mövcud olmuş qırğız xaqanlığının tarixini nəzərdən qaçırmağa haqqımız yoxdur.*

*Türk xaqanlığının süqutundan sonra (VIII əsr) bu xaqanlığın 50 il vassalı olmuş uyğurlar hakimiyyətə gələrək qırğızları da özlərinə tabe edirlər. Di gəl ki, uyğurların hakimiyyyətinə tabe olmaq istəməyən qırğızlar bu xaqanlığa qarşı ardıcıl və mütəşəkkil mübarizə aparırlar. Nəhayət, 840-cı ildə uyğur xaqanlığı zəifləyir və qırğızların başçısı Ajo özünü xan elan edərək uyğur xanına bildirir: Sənin ömrün bitdi.*

*Ajo ədəbi obraz Manasın tarixi əsli, başqa sözlə, prototipi sayılır və bu fakt göstərir ki, Manas konkret şəxsiyyət olub. Manas öz igidliyi, şücaəti, yenilməzliyi ilə əfsanəvi qəhrəman obrazına çevrilir, lakin o, əfsanə qəhrəmanı deyil! Məhz bu məqamda əfsanəvi qəhrəmanla əfsanə qəhrəmamna eyni priz-*

madan baxmaq olmaz. Dastanın başlanğıcında verilmiş şəcərə də Manasın konkret şəxsiyyət olduğunu təsdiqləyir.

Azərbaycan folklorunun aşıq ədəbiyyatı qolunda tez-tez üzləşdiyimiz «usta-şəyird» ənənəsi «Manas» eposunun yayımı və yaşaması üçün də səciyyəvidir. Təcrübəli ustad manasçılar şəyirdliyə götürdükləri yeniyetməni, gənci tam formalaşmadan onların xalq arasında çıxış etməyinə icazə verməmişlər. Maraqlı cəhətlərdən biri də budur ki, xalqın qəbul etdiyi, inanıb qulaq asdığı manasçı «ilahi vəhyin adamı» olmalı, yuxuda ona vergi verilməlidir. Ona görə də tanınmış manasçılar dastanı söyləməzdən öncə öz yuxuları barədə danışaraq tamaşaçı kütləsini inandırmağa çalışmışlar ki, guya onlar bu yuxuda Manasın, onun igidlərinin ruhu ilə görüşüb söhbət etmişlər.

İlk manasçılar – Çaysan Irçı, Iramandın Irçı haqqında yalnız rəvayətlər və ehtimallar mövcuddur. Onların söylədikləri «Manas»dan nişanə qalmamışdar. A.Auezova görə dastan qəhrəmanı Manas haqqında ilk mənzumələri yaradan adamın Çaysan Irçı olduğu güman edilir. Eposun S.Orozbəyov variantında Çaysan Irçı Manasın qırx çorosundan (igidindən, dəlisindən) biri olan ozan kimi qələmə verilir. Oxuculara təqdim olunan bu variantda isə Manası ilk vəsf edən ozan kimi Iramandın Irçıoğlunun adı keçir. Haqqında dürüst məlumatlar olan manasçılar bunlardır: Keldibəy Barıboz oğlu, Balıq (Bəymurat Kumar oğlu), Tınıbəy Çapı oğlu, Çoyuk Ömür oğlu, Toqolok Moldo, Şapak Irısmendiyev, Saqımbəy Orozbəyov, Canıbəy Koçekov, Cakşılıq Sarıkov, Moldobasan Musulmankulov, Akmat Rismendiyev, Sayaqbəy Karalayev, Mambet Çokmorov, İbrahim Abdırahmanov, Baxış Sazonov, Aktan Tınıbəyov, Cusup Mamay.

«Manas» eposunu ilk dəfə yazıya alıb, bəzi parçalarını rus dilinə çevirən və əsərə elmi analiz verən görkəmli qazax ziyalısı Çokan Vəlixanov olmuşdur (1856). Bir qədər sonra, XIX əsrin 60-cı illərində «Manas»ı tam şəkildə yazıya alıb onu dünya xalqlarına çatdırmaq niyyətinə düşən məşhur rus şərqşünası, türkoloq, etnoqraf, arxeoloq V.V.Radlov olmuşdur. Akademik yazıya aldığı «Manas»ı 1885-ci ildə Sankt-Peterburqda qırğız dilində rus transkripsiyası ilə nəşr etdirmişdir. Həmin il Radlov alman dilinə tərcümə etdiyi «Manas»ı Leypsiqdə nəşr etdirmişdir.



«Manas» eposunun toplanıb yazıya alınmasında və öyrənilməsində öncüllük etmiş Ç.Vəlixanov və V.Radlovdan sonra bir çox alimlər bu eposun araşdırılmasında böyük zəhmət çəkmişlər. Akademik V.Jirmunskinin, M.Auezovun, V.Yunusəliyevin, A.Bernştamın, P.Berkovun, S.Abramzonun, K.Raxmatullinin, M.Boqdanovanın, R.Qadırbayevanın, S.Musayevin manasşünaslığa verdikləri töhfələr zaman-zaman yaşamaq zorundadır.

«Manas» eposunda 300-dən artıq irili-xırdalı obraz özünə yer alıb. Əgər bütün hadisələr eposun baş qəhrəmanı Manasın ətrafında cərəyan edirsə, bu hadisələrdə iştirakçı olan hər hansı obraz (böyük ya kiçik) birbaşa, yaxud dolayısı yolla Manasa bağlanır.

Dastanın baş qəhrəmanı Manas kimdir? Onun epik bioqrafiyası ilə tanışlıq göstərir ki, Manas qırğız türklərinin arzu və istəyindən doğulan, Xızır peyğəmbərdən ölməzlik və dönməzlik alaraq əfsanəfi igidliyi ilə elinin, ulusunun işğal olunmuş dədə-baba torpaqlarını özünə qaytaran, pərən-pərən düşmüş qəbilə və tayfa qohumlarını ətrafına yığaraq onları «qırğız xalqı» adlanan etnik mənsubiyyətə tapındıran, xalqının azadlığı, yurdunun firavanlığı naminə qanlı döyüşlərə atılan, bir sözlə, tarix qarşısında tarixi borcunu yerinə yetirən fəvqəl bir insandır.

Dastançılar Manasın portretini olduqca təbii «söz fırçası» ilə çəkmişlər. Gözündən «od yağan», «ağzından alov çıxan», qeyri adi bu insan sanki «günəşin nurundan», «ayın işığından», «dənizin dalğasından», «buludun sərinliyindən» yaranıb. Bu epitetlər, eləcə də onun geyiminin, silah-sursatının və Ağqula atının təsviri Manasın zahiri portretini cızır. Onun zəngin daxili aləmi isə ayrı-ayrı boylarda, epizodlarda yadda qalan bədii ifadə vasitələrilə açılır.

*Dastanın aparıcı obrazlarından biri də Manasın ömür yoldaşı Kanıkeydir. Bütün hadisələr bu qadının gözü qabağında cərəyan edir. Əgər Manas xalqın yaratdığı ideal ərən obrazıdırsa, Kanıkey də ideal qadın surətidir. Hər iki obraza olan sonsuz ümumxalq məhəbbəti qırğız türkləri arasında bu gün də yaşamaqdadır. Kanıkeyi sevdirən əsas cəhətlər onun qayğıkeşliyi, qonaqpərvərliyi, xeyirxahlığı, mərdliyi, mətinliyi və ağıllı olması ilə səciyyələnir. Kanıkeyin şəxsində azad türk qadınının cəmiyyətdəki müstəsna rolu dəyərləndirilir. Məhz bu obraza münasibətdə Manas dövrünün qadına münasibəti aydınlaşır.*

*Dastanın mənfi qəhrəmanları da öz təbii məziyyətləri, davranış və münasibətləri ilə diqqəti cəlb edən maraqlı obrazlardır. Dastançılar mənfi qəhrəmanları zəif, gücsüz, maymaq insan kimi deyil, güclü, hiyləgər, fəndgir, cəsur və ağıllı obrazlar kimi təqdim edir. Belə güclü və ağıllı düşmən qəhrəmanlara qalib gələn Manasın və onun qırx çorosunun ərənlik şöhrəti daha da böyüyür...*

*«Manas» eposunu türk xalqlarının digər eposları ilə müqayisə edərkən ortaq və oxşar motivlərin şahidi oluruq ki, bunlar da qohum mədəniyyətimizin eyni köklərindən xəbər verir.*

*Əziz oxucu! Azərbaycan türkcəsində ilk dəfə nəşr olunan bu dastanı oxumaqla Manas və onun mühitilə yaxından tanış olmaq, orta çağ türk yaşam tərzini bədii şəkildə izləmək imkanı qazanacaqsan. İnanıram ki, Ər Manasın dastanı damarlarında türk qanı axan hər kəsi duyğulandıracaq...*

*Tanrı Türkü qorusun!*

***Adil CƏMİL***
***filologiya elmləri namizədi***



## MANASIN COCUQLUĞU



Lap qədim əyyamlarda – karvan dövründə, kəmərini çıxarmadan at üstündə quş yuxusu yatan ərlər zamanında ac aslanlara bənzəyən sifətilə düşmənə dov gələn, bayrağı göy üzündə dalğalanan, şöhrəti aləmə yayılan, başından ağ qalpağı çıxmayan, atı kişnəyən, coşquyla yaşayan Qırğız deyilən çox əski bir millət vardı. Onların bayrağı göy mavisi idi. Dostlarından çox düşmənləri vardı.

Bir zaman Tanrı dağındakı əski qırğızlara başçılıq edən, xalqının şöhrətini uzaqlara çatdıran Qaraxan adlı xan taxta çıxdı. Onun qəhrəmanlığı sözə, zənginliyi də tərifə sığmazdı. Şöhrəti göy üzündəki ulduzlara yetişmişdi.

Tanrı heç bir şeyi əbədi yaratmamışdır. Tanrı bu qorxunc dünyada gəlim-gedimi, böyük-kiçiyi özü nizamlamışdır. Bir gün qara yeri titrədən Qaraxan da o biri dünyaya köç etdi. Onun taxtında oğlu Oğuz xan oturdu. Oğuz xan da adlı və heybətli idi, qoşunu da boldu, Türk elinə, qırğızlara başçı olub, kükrəyib Gündoğan tərəfdəki obalarını, düzənliklərini, dağ və meşələrini aslan kimi dolandı. O da dönüşü olmayan yerə getdi. Oğuz xandan sonra Bəbir xan, ondan sonra Tüböy xan, ondan sonra Kögöy xan taxta çıxdılar. Kögöy xandan sonra

Noqoy xan gəldi.

İllər keçəndən sonra, qaranlıq bir gecədə saxsağan Noqoy xana uğursuz bir işarət verdi. Zaman-zaman ona kin bəsləyən, malına, mülkünə və yerinə göz dikən Qara-Kitay xanı Esenxan savaşa başladı. Noqoy xanın beli qırıldı, gen dünyası daraldı. Ala Dağdakı qırğızların ağ otağı yağmalandı, ocağı söndü, türk qəbilələri darmadağın oldular.

Noqoy xanın Orozdu, Üsen, Bay, Cakıb (Yaqub) adında dörd oğlu vardı. İndi onlar qırılan qılınc kimi karvan köçünə başladılar. Biri Altaya, biri Orola, biri Kaşqara, biri Tibetə sürüldü.

Qırx qırğız ailəsi ilə Cakıb qolları bağlı Kalmıkda, Çində dolaşıb Altaya gəldi. Sürgün edilən bu qırx qırğız ailəsini yerləşdirən, bölünmüş, dağılmış xalqı bir araya gətirən Ağbalta oldu. Qırğızlar Ağbalta Batırın himayəsinə sığındılar. «Ağıllını dinləsək millət olarıq, Ağbaltanın sözünü eşitməsək atalarımızın qəzəbinə düçar olarıq» deyərək bir araya gəlib and içdilər. Ağbalta Batırın bir sözünü iki eləmədilər.

Ağbalta ağsaqqal və müdrik bir insan idi. Onu hər zaman dəstəkləyən, ona yol göstərən bir mələyi vardı.

Qırx qırğız ailəsi Altaya gəldi. Amma sığmmağa yer, yeməyə qovut, geyməyə əlbisə tapmadılar. İndi nə edəcəyik deyə düşünərkən haradan ağlına gəldisə Ağbalta boz buğanı yıxıb qurban kəsərək xalqına belə söylədi:

– Xalqın beynini əxlaqsızlar (yaramazlar) pozar. Millətlərin pisi olmaz. Kalmıklar da, mancular da yaxşı millətdi. Dünya kalmıkın təbəssümünə, xoş qılığına aldandı. O isə hər kəsi ustufca ələ keçirir. Əlinə düşsən çırpınan quş olarsan. Malın, mülkün yoxsa əskilərsən, varsa rahat yaşayarsan. Kalmıklarla tutaşmayaq. Mal-heyvan saxlayaq, əkin-biçinlə məşğul olaq. Altayın torpağı qızıldı. Əkərsən meyvəsi, qazarsan qızılı var. Zəhmət çəksən torpaq, dua etsən Tanrı verər. Çalış, qırğız, belini bağlayıb başını qaldır.

Yurdsuz qırğızlar Ağbaltanın sözlərini haqlı sayıb kalmıkların xanına Ala Dağdan gətirilən, gümüşlə süslənmiş köhləni



hədiyyə etdilər. Altayda yaz üçün yaşıl yaylaq, qış üçün düzəngah (qışlaq) seçdilər və orada məskunlaşdılar.

Günlər keçdi, illər keçdi. Kalmıkla manculların arasında qalan Altay qırğızları yenidən canlandılar. Mal-heyvanları çoxaldı, qırx ailə yetmiş ailə oldu, qoşun düzəldib ayparalı bayraqlarını dalğalandırdılar və düşməni hürkütdülər.

Cakıb bəyin yurdunda nəsildən nəslə keçən bir cüt ağ otaq (alaçıq), onun ətrafında da qırx bəyaz çadır quruldu. Uşaqlar oynamaqda, ağulda mallar dolu, dağlarda ilxılar otlayırdı. Evlərin bacalarından çıxan tüstü yurdun ruzi-bərəkət içində olduğunu göstərirdi.

Cakıb tündükdən (bacadan) girən gün işığı üzünə düşəndə qalxaraq qara tuluqda yaxşıca qarışdırılmış bal kimi qımızdan bir kasa başına çəkib, qara atına minərək yurddan ayrıldı. Atını qamçılamaq məqsədilə gümüş saplı qamçısını qaldırar-qaldırmaz kükrəyən köhlən quş kimi yurddan uzaqlaşdı.

Qırx ocaqlı qırğız Altaya üzgün halda üz tutan zamanlarda Cakıb ağzından süd iyi gələn bir cocuq idi. Heç kəsin diqqətini çəkməmişdi. Uşaqlığında kalmık, monqol və çinlilərin amansız davranışlarını görən bir kölə idi. Dünyadan ümidi kəsilmədiyindən o, əziyyətə, aclığa, əzab və iztirablara dözə bilmişdi. Çinlilərin və kalmıklarm dilini öyrənməyə məcbur oldu. Ağıla doldu, bığ yeri tərləməyə başladı. Boy-buxunlu bir igid oldu. Əvvəlki südəmər Cakıbdan əsər-əlamət qalmadı. Kalmıkların arasında özünə hörmət qazandı, onlarla alış-veriş etdi. Axırda Cıyırdı adlı xanımının üstünə kalmıklardan Bəydövlət isimli bir qız da aldı.

Cakıb səkkiz ildən sonra Altayda özünə ev qurdu. Aşağı-yuxarı on ailəni bir araya gətirib bir odaya yerləşdirdi. Meyvəli ormanları olan geniş yerlərdə heyvandarlıqla məşğul oldular. Mal-qaranın məhsulunu, qımızı, maralın özünü, buynuzunu, eləcə də qunduzun, su samurunun xəzini, tapdıqları qızıl-gümüşü, xəncəri qonşu ölkələrin ipək, çay və ətriyyatı ilə dəyişdirdilər. Yaxşı pul qazanaraq get-gedə varlandılar.

Altayda 30 il çinlilər və kalmıklardan əziyyət görən Cakıb

bəy artıq onlara xan seçilmişdi. Qışda su samurunun dərisindən başına papaq, yazda altunla süslənmiş ağ qalpaq qoya bilən, əyninə kürk geyinib, belinə xəncər bağlayıb, bulud yalmanlı cins ata minə bilən bir ərənə çevrilmişdi. Beş yüz bəyaz dəvəsi, ilxısı, naxırı, sürüsü vardı.

Ağulu heyvanla, heybəsi yeməklə, xəzinəsi altunla dolu olan Cakıb bəyin ürəyində bir dərdi vardı. Onun dərdi bu idi: saya gəlməz sürüləri, mal-dövləti vardı. Yalançı dünyadan gözü doymuşdu. Hər gün ət-yağla bəslənirdi. Ancaq qara günlərdə onu qoruyacaq, ocağını sönməyə qoymayacaq, taxtına varis olacaq bir övladı yoxdu. Övladı olmayanın dünyası daralarmış. Cakıb bəyə obada «qoca», «sonsuz qoca» deyirdilər.

Cakıb bu dərdlə gəzməyə başladığı günlərin birində müqəddəs dağdakı ziyarətgahların birinə gələrək dua etdi. Göz yaşı axıtdı. Sonra Azoo-Belin (qırğızca «əzablı aşırım» deməkdir – A.C.) kənarındakı Calqız Arçaya (tək ardıca) varıb Tanrısı Ağ Taylakı çağırıb, övladım yoxdur deyə ağlayaraq dərdinə dərman istədi. Xatunu Çıyırdını – özünü günahkar hiss edən miskin qadını da özü ilə gətirib atalarının məzarı üstündə dua edib Tanrıya yalvardı.

Tanrı onu duymadı.

Cakıb bəy naxıra, sürüyə baş çəkməyi bəhanə edərək hər gün erkən obadan uzaqlaşırdı. Bir gün dərd-qəm içində, cin vurmuş kimi, pərişan ovqatla dağlarda dolaşır, saçını-başını yolaraq «Tanrım, məndən bir cocuğu nə üçün əsirgəyirsən?» deyə üzülürdü.

Cakıb axşama doğru, Ulu Dağa kölgə düşəndə özünə gəlib dərhal atının başını yurda çevirdi. Tanrı belə istəmişsə başqa çarə yoxdur-düşündü. Cocuqsuz dünya quşsuz yuvaya, quşları yox çinara, baxımsız kiçik gölə, otsuz çölə bənzəyər.

Cakıb bəy dağdan enərkən dərədəki Qara Önkür (qara mağara) yolunda yaşı yetmişi haqlayan, saqqalı sinəsinə dəyən bir dərvişlə rastlaşdı. Dərviş Qara Önkürə arabir gəlirdi. Qıpçaq nəslindəndi. Dünyanı dolaşırdı. Ev-eşiyi, çoluq-çocuğu yox idi.



Tez-tez qırğızların yurduna gəlirdi, çox zaman Kalmık, Çinli, Mancur və Uyğurdakı türk soydaşlarına baş çəkir, Əndicana, İrana qədər gedirdi. Quş kimi köçəri bir ömür sürürdü. Dünya malından doymuş bir adam idi. Bu dərvişlə danışmaq istəyən Cakıb atından düşdü. Əlindəki tuluqdan qımız, heybəsindən qurut çıxarıb ona verərək:

– Dərviş, malın əzizdir, canın? – soruşdu.

– Ey Cakıb bəy, məndən malımı soruşma – dedi.

Mənim malım yoxdur. Dünyadan doymuş insanam. Göyün altındakı dünya mənimdir. Sənin dünyan da mənimdir. Mən sizin kimi mal hərisi deyiləm.

Cakıb:

– Ay övliyam, bunu bilmirdim, qəzəblənmə – dedi.

– Tanrımın yaratdığı insanlara qəzəblənmərəm–dedi dərviş. Bəs sən niyə küskün görünürsən, Cakıb?–soruşdu. Sənin ki malın-mülkün boldur!

– Yaşım qırx səkkizə çatdı. Gəncliyimdə mal yığmışdım. Gördüm ki, mala-mülkə sahib çıxacaq övlad imiş, övladı olmayanın malı–mülkü qurusun, övladı olmayanın yuvası dağılmış şəhərə bənzəyirmiş.

Cakıb dərvişə dərdini anlatdı. Dərviş fikrə getdi:

– Bir yerdən eşitmişəm. Tibetə gedəsi olsam min çeşit otdan hazırlanmış bir dərman gətirəcəyəm. Keçmiş əyyamlarda atalar xatunu doğmazsa bu dəvadan istifadə edərmişlər.

Cakıb dərvişə dua edib, əlinə qızıl verib yola saldı.

Övlad arzusu ilə yanan Cakıb bəy kədərli şeirlər söyləyərək Altayın dağ və düzənliklərində hüznlü-hüznlü dolaşırdı:

Qırmızı saplı baltanı
Qırılsa kim birləşdirər?
Darmadağın olan xalqı
Dağılsa kim birləşdirər?

Sağlam, sınmaz aybaltam
Qırılsa kim birləşdirər?

Başsız qalan bu millətə
Kim adil xan ola bilər?

Zavallı Cakıb yurduna yaxınlaşanda hıçqırtılı səsini kəsdi. Akımbəyin Mendibay adlı çəlimsiz oğlu qarşısına çıxıb onu salamladı. Cakıb bəyə acıyan cavan oğlan soruşdu:

– Dədəcan, niyə belə ağlayırsan?

Cakıb yalnız indi özünə gəlib göz yaşlarını sildi. Oğlanın sualına cavab verməyən, atını dirəyə bağlamadan, sağa-sola baxmadan birbaşa evinə (alaçığına) keçdi. Bu əsnada çöldə heç yerə bənd etmədiyi atı qaçdı. «Cakıb bəyin atını tutun» səsləri eşidildi. Cakıb buna əhəmiyyət vermədi.

Çıyırdı ərinin pal-paltarlı yatağa uzandığını görəndə qorxudan rəngi avazıdı, ipək döşək salıb yanında əyləşdi. Xatun, Cakıbın son zamanlardakı dərdindən hali olduğu üçün dinibdanışmadı, nəsə soruşmağa cəsarət etmədi. Uşağı olmadığı üçün üzü zəfəran kimi saraldı. Axır ki, Çıyırdı:

– Kişi, nə oldu sənə, nə dərdin var? – soruşdu. Cakıb gözlərini bir nöqtəyə zilləyib susurdu. Handan-hana danışdı:

– Bu qarımış vaxtındamı mənə uşaq doğub nəslimi davam etdirəcəksən? Bunu dərk etmirsənmi? Məni cocuqsuz qoyub cocuq kimi nə bağırırsan? Mənə «sonsuz kişi», sənə «qısır qadın» dedilər. Uşağımı qoxlayıb üzündən öpsəydim muradım qalmazdı. Nə qardaşımın üzünü gördüm, nə də uşağımın. Uşağı olmayan sənin kimi bir qadını quyuya atsammı yaxşıdır, çölə tullasammı? Sonsuz qadından vəbalı keçi yaxşıdır.

İpək əlbisə geyinmiş Çıyırdının ürəyi tez-tez döyünməyə və sızıldamağa başladı, öləydim – dedi. Yer qəbul etmədi. Bağrı yanır, gözlərindən yaş tökülür, üzüntü içində qıvrılırdı.

Axşama yaxın yorğun bir halda gələn Cakıb uzandığı yerdə xoruldayıb dan yeri ağarıncaya qədər tərpənmədən uyudu.

– Bəyim, gecə qaçan Tuuçunakın (atın adı) arxasınca gedən uşaqdan xəbər yoxdur. Anası çox nigarandır. Qalxıb onun uşağını tapaydın, niyə belə heç nə olmamış kimi rahat yatırsan? – deyən rəngi avazımış zavallı Çıyırdı Cakıbı oyatdı.



– Ay xanım, daha qəm yemə. Bu vaxtacan ömrümüzü həsrət içində keçirtdik. Yaxşı bir yuxu görmüşəm. Anka quşu kimi heybətli bir quşu tutmuşdum. Yer üzündəki heyvanlar bu quşun heybətindən qorxurdular. Ona uzun ipək ip bağladım. Bu taleyə işarədir. Tanrım yol açsın (lütf etsin) bizə – deyib Cakıb tündüyə baxaraq Tanrıya üz tutdu.

– Dediklərin, gördüklərin çin olsun, bəyim! Tanrım versin! Başına taleh quşu qonub yəqin – dedi Çıyırdı və sevincək əlavə etdi ki, mən də uğurlu bir yuxu görmüşəm. Alma yemişdim, içindən altmış qulac uzunluğunda əjdaha işıq salaraq çıxıb ata dönüb uzandı.

Bunu başqalarına söyləyəkmi, yoxsa bir kəsə bildirməyək – deyə ər-avad qəti fikrə gəlmək istəyirkən çöldə ucadan danışan bir qadının səsi gəldi.

Qapıda Mendibay adlı uşağın anası Xanımcan görünərək hay-küy salmağa başladı. Aulda belə şər-şamaxı qadın yox idi:

– Ey Cakıb! Dünəndən bəri sənin atının arxasınca gedən uşağımdan bir xəbər yoxdur. Sən isə vecinə almadan evində rahat oturub arvadınla əylənirsən. Övladı olmayan övlad qədrini nə bilər?! Sizin dünyanızın bizim üçün bir dəyəri yoxdur, uşaq dəyərlidir, uşağımı tap!

Cakıb bəy tərbiyəsiz qadına baş qoşmasa da, laqeyd də qala bilmədi. Tələsik durub qapıya çıxdı və hər tərəfə adamlarını göndərdi. Özü isə qoyun çobanının mindiyi qızılı atı minib Mendibayı tapmaq üçün Qara Su nəhri boyunca sürdü. Cakıb çarəsiz, ümidsiz gedirkən bir adacıqda lənətə gəlmiş Mendibay heç bir şey olmamış kimi oturmuşdu, Tuuçunak da yanında.

Heç bir şeydən qorxmayan Mendibay Cakıb bəyə ağlagəlməz hadisələri danışdı:

Mendibay Tuuçunakın arxasınca düşərkən çöldə görünən qırx cocuq atı tutur. Meşədən çıxan pələngi isə gürzlə vurub-öldürüb dərisini Tuuçunakın üstünə örtürlər və biz Cakıb bəyin uşaqlarıyıq deyirlər.

Heyrətə gələn Cakıb aula dönüb uşaqdan eşitdiklərini xanımına danışdı.

* * *

Ertəsi gün Cakıb xanımları, auldakı ağsaqqalları və doğmaları ilə danışaraq gecə gördüyü yuxuya görə böyük bir ziyafət verməyə hazırlaşdı. Cakıb ziyarətə Altaydakı on iki qəbilə ilə birlikdə Qırğızı, Qazağı, Noyqutu, Noqoyu, Türk soydaşlarını, bunlardan başqa inciməsinlər deyə Kalmık və Tırqut Monqolları da dəvət etdi. Sərvət düşkünü Cakıb bu dəfə xəsislik etmədi. Sevincindən topladığını, yığdığını xərcləməyə başladı. İki qızıl xəzinəsinin ağzını açdı. Saysız ilxısından doqquz qara qısraq, sürüsündən doxsan qara qoyun, bir neçə baş dişi dəvə və inək kəsdi. Cakıbın ziyafətinə çağrılanlar xəbərləşib bir yerdə gəldilər. Ziyafəti Ağbalta idarə etdi. Yetmiş qırğız ailəsi iki gün qonaq qaldı. Cakıb bəy yağmalanmış qırğıza unutduğu xeyir-duanı xatırlatmaq üçün at kəsdirdi. Ac xalqı doyurdu, geyindirib-kecindirdi. Əlinə pul verdi, uzaqdan gələnlərə, ən dəyərli qonaqlara at bağışladı.

Ziyafətə gələnlər Cakıbın bu comərdliyinə mat qalmışdılar. Bəziləri ziyafətin səbəbini Mendibayın sağ-salamat tapılmağında görürdülər. Fəqirlər və qəriblər isə «sahibsiz qalan malını Cakıb bəy qoymağa yer tapmadığı üçün sovurur» deyirdilər. Kalmıklar, monqollar bəsirətli xalq olduğu üçün o dəqiqə şübhələndilər, bu işdə bir qüsur axtarıb «qırğızın malı var, amma dövləti yox. Cakıbın bizə yaltaqlanması bizə tabe olmasındadır» deyə düşündülər. Cakıb bəy isə «Allah-təala bizə o yuxunu boş yerə göstərməyib, bu, xeyirli bir işdən xəbər verir, yuxum çin olsa ürəyimdəki buzları əridirmi» deyə dua edib diləklərini dilədi.

Cakıb bəy ziyafətdən sonra Qıpçaq, Noyqut, Noqoy və Türk qəbilə başçılarının və öz doğmalarının yuxusunu yozmaq üçün bir yerə topladı. Onları məclisə dəvət etdi, hər birinə əlbisə geydirdi.

Bilicilər, ağıllılar, ağsaqqallar başlarını əyib, uzun ağ saqqallarını tumarlayıb Cakıbın gördüyü yuxunu diqqətlə dinləməyə başladılar. Cakıb belə söylədi:



– Xalqım! Bir əcayib yuxu gördüm. Gördüm ki, Ala Dağda dolaşıram. Bir quş tutmuşam. Qəribə görkəmi var. Quyruğu və başı parıldayır, ayaqları xəncər kimidir. Əlimdən çıxan zaman mavi göyün altını, qara yerin üstünü qarışdırdı, göydəki qanadlılar, yerdəki ayaqlılar ona tərəf gələ bilmədilər, hamısı məhv oldu. Xalqım, yuxumu yozun. Bunun mənası nədir?

Oturanların heç birindən səs çıxmayanda ağ saqqallı, dünya görmüş Bay Cigit Cakıbın yuxusunu yaxşılığa yozdu:

– Ey Cakıbım, xanımının və sənin gördüyün yuxu çox gözəl yuxudur. Millətə xeyirlidir. Çiyninə taleh quşu qonmuşdur. Arzuladığın oğul övladın dünyaya gələcəkdir. O, aslan kimi heybətli bir igid olacaqdır, dünyaya sahib çıxacaqdır. Çiyninə dövlət quşu qonacaqdır. Yuxularınız çin olsun. Niyyətiniz hasil olsun. Tanrı köməyiniz olsun!

Dağılışan qonaqlar Tanrıya üz tutub sevincindən hıçqıran Cakıba xeyir-dua verdilər.

Ziyafətdən bir gün sonra Cakıbın aulundakılar göydə insana bənzəyən bir parça qara buludun yer üzünü örtdüyünü gördülər. Qadın şamanın, baxşı və uzaqgörənlərin izahına görə bu, bəd xəbərə işarət idi. Nəhayət, deyilənlər doğru çıxdı, bəd xəbər sürətlə aula yayıldı.

Cakıb bəyin verdiyi ziyafətin xəbəri Kalmık və Kitay xanlarına çox tez çatmışdı. Bu xəbəri eşidəndə qorxunc sifətli, ümmanlar dolusu qan tökən Esen xan yerində dayana bilmədi.

Kitayların və Kalmıkların Qırğızlarla köhnə ədavəti, bitib-tükənməyən intiqamı vardı. Esen xan «Qırğız xanları bizim Qərb və Şimal tərəfdəki basqılarımıza əngəl törətdilər. Bir neçə dəfə ipək, qumaş, çay və dürlü əşyalarımızı, karvanlarımızı qarət etdilər. Bu gün öldürsən sabah dirilən belə inadcıl xalq görmədim» dedi.

Esen xan sarayındakı vəziyyəti öncədən sezərdi. Əcayib sirləri bilən uzaqgörənləri, falçıları, Biclik Kitabını (kalmıkların müqəddəs kitabı) oxumuş sehrbazları çağırtdıraraq:

– Lənətə gəlmiş qırğızlar yenəmi dirildilər? Bunların sirrini

mənə açıqlayın – dedi.

Biliciləр, kahinlər üç gün evdən çıxmadılar. Axırda Esen xana diz çökərək belə dedilər:

– Esen xan həzrətləri, biz söyləsək yanılarıq və sizin qəzəbinizə gələrik. Bunun doğru cavabı Conq-Bəycindəki Qara xanın sarayında açıq səma altındakı daş sandıqda saxlanılan qədim müqəddəs kitabda yazılıbdır. Oraya adam göndərib öyrənə bilərik.

Esen xan buna inandı. Qardaşı Qara xana məktub yazıb möhürünü basdı. Qırğızlardan, Türklərdən, Qazaxlardan qarət etdikləri qumaşı, pələng dərisindən kürkü, bir kisə qızılı hədiyyə qoydu. Dörd-beş kahinlə yola saldı.

Esen xanın məskunlaşdığı dağın insanları onun qohum-əqrabaları idi. Bir zamanlar qırx xanlı çin padşahlığının ordugahı Qara xan, Aloeke, Esen xan, Əziz xan adlı dörd qardaş tərəfindən idarə edilirdi. Onlar dədə-babalarından qalan kiçiyin böyüyə, övladın ataya sayğı göstərmək kimi adətlərini pozmayaraq yaşadan, yurdda şöhrəti yayılmış cəsur xanlar idi. Qara xan qırx xanlığın sarayını idarə edirdi. Əziz xan, Esen xan, Aloeke Pekinin (orijinalda Bəycin) Orta və Çet-Bəycin xanları olaraq obaları idarə edirdilər. On min nəfərlik orduya sərkərdə olub Şimal ilə Qərb tərəfdəki xanlıqları padşaha tabe olan yurdların xanlarıydılar.

Göndərilən kahinlər üç aya gedib çıxdılar. Müqəddəs kitabda belə yazılmışdı:

«Şimaldakı qırğızlar arasında Manas adlı bir igid doğulacaqdır. Manas Kalmık və Kitayı qarışdıracaqdır. Göy ilə yerin yaraşığı olan ulu şəhər Pekini xarabaya çevirəcəkdir. Altı ay xan olacaqdır. Kitay qəhrəmanları ona dustaq olub öləcəklər».

Bunu eşidən zalım Esen xan vurulmuş ayı kimi titrədi. Özünü itirdi, fəryad qopardı və qana susamış kimi bağırmağa başladı:

– Vəhşi qırğızların hamilə qadınlarının hamısını cəzalandırın! Uşaqlarını əsir alın, Manası tapıb gətirməsəniz heç birinizi sağ buraxmayacağam.

Yaranmış bu çətin vəziyyəti görən kalmık casusu yeddi



gün, yeddi gecə yol gedib özünü Cakıb bəyə çatdırdı. Bu xəbəri ona eşitdirdi. Qırğızlar qaça bilmədilər. Ertəsi sabah kalmık əsgərləri buynuz çalaraq Cakıbın aulunu dövrəyə aldılar.

Nə edəcəyini bilməyən Cakıb bəy Kalmıklara baş əyərək at kəsib, qımız içkilərinə qonaq etdi. Kisə-kisə qızılları hədiyyə verdi. Çarəsizcəsinə göz yaşı tökdü. İçlərindəki kitay təmsilçisindən qorxan kalmık əsgərləri Cakıb bəyin sözünü eşitmədən Esen xanın əmrini yerinə yetirdilər.

«Hamilə qadın qalmasın!» – deyə irəli atılan əsgərlər qırğızların evlərini arayıb – daradılar.

Kalmık əsgərləri yetmiş qırğız ailəsinin hamilə qadınlarını topladılar. Onlara heç yazıqları gəlmədən qılınclarıyla qarınlarını yarıb körpələrini çıxartdılar və itlərə yem etdilər. «Qırğızların tumunu kəsəcəyik. Esen xanın əmri belədir» – dedilər.

Əsgərlər auldakı südəmər körpələrdən tutmuş yaşı on yeddiyə qədər olan uşaqların heç birini buraxmadan sıraya düzüb adlarını soruşaraq saydılar. Manas adlı uşağı tapa bilməyəndə qaça bilməyən uşaqların bəzilərini öldürüb, qalanlarını gedərgəlməz Pekinə apardılar. Xan aulunu beləcə yağmaladılar.

Qırğızlarda doğulan uşaqların sayına nəzarət etmək üçün hər beş ailəyə bir kalmık gözətçi qoydular. Kalmık gözətçiləri uşaq tapdıqları, yaxud hamilə qadın gördükləri evin üstünə qara ip bağladılar. Bu işarələrə toxunan adamın başı kəsilməliydi. Qırğızlar qara geyindi, qadınları qara örpək örtdü. İtləri gecə-gündüz uladı. Ölmək istəyib ölə bilməyən, öz canlarına qıya bilməyən ağrılar içində qıvrıldılar.

Xalqın iniltisindən hürkmüş quşlar uçmadılar, ağaclarda bülbüllər ötmədilər, itlər hürmədilər.

Aloekenin göndərdiyi əsgərlər Qırğızlar arasında Manas adlı cocuğu tapa bilməyəndə hər yeri cəhənnəmə çevirərək onu başqa Türk ellərində axtardılar. Oralarda da tapa bilməyəndə Buxaraya, Səmərqəndə girdilər. Axırda Səmərqənddə Çon Eşenin oğlunu – Car Manas adlı bir cocuğu tapıb, gözlərini və ayaqlarını bağlayıb sevincək Pekinə gətirdilər. Kalmık gözətçi-

lərinin məlumatına görə Çon Eşenin Manas adlı cocuğunu Kitay qırx arşın dərinliyindəki zindana salıb bəladan qurtulduğunu düşünərək rahatlıq tapdı.

Bu xəbəri eşidən Cakıb belini möhkəm bağladı. O müdhiş günlərdən çox keçməmiş uşaq gülüşü və ağlaması eşidilməyən aulu bir yerə toplayan Ağbalta xalqın qəlbini ovudub belə dedi:

– Axırda görəcəyimiz günlər yaxşı olacaq. Tanrım dilədiklərimizi verər. Başınızı qaldırın! Yataraq ölməkdənsə savaşaraq ölək! Hər kişi düşmənin silahına baxsın. Gizlicə silah düzəldək!

Daşa damğa basan, dəmiri torpaq kimi yoğuran Döqür Usta başda olmaqla gözətçilərə hiss etdirmədən meşədən kömür gətirib, dağdan dəmir çıxarıb Davud atanın örtülü qara keçə evini dəmirçixanaya çevirərək polad qılınc və mizraq düzəltdilər. Hər kişi üçün bir qılınc və bir mizraq qayırdılar.

Ağbalta bunların Qoxusunu dəriyə büküb torpağa basdırdı və üzərinə nişanə qoydu.

* * *

Bir il keçdi. İki il keçdi.

Yorulmuş Cakıb bəy Ağbaltanın sözünə qulaq asıb Kalmıka, Tırqota qızıl və heyvan verib otlağını geri aldı.

Cakıb sonrakı zamanlarda əvvəlkindən də güclü, qüvvətli oldu, üzünə rəng gəldi, könlü açıldı, mal-qarasının, ilxı-sürüsünün sayını daha da artırdı. Cakıbın qüvvətlənməsində bir səbəb vardı. Sevimli xanımı Çıyırdının hamiləliyindən üç ay keçmişdi. Cakıb bunu xanımının yemək yeməməsindən və ürəkbulanmalarının çoxalmasından duymuşdu. Çıyırdı qırğızın da, kalmıkın da, kitayın da yeməklərini istəmədiyi üçün səhərdən axşama kimi üzülüb ağlayaraq istədiyi şeyin aslan ürəyi olduğunu söylədi.

Qırğızlarda aslan ovlayacaq ovçu qalmamışdı. Ağbaltanın məsləhəti ilə Kalmık, Tırqan, Qazax, Türk qəbilələrinə adam göndərib şəhərlərini arayıb-daradılar. Axırda Kanqayın qara ovçusunun aslan ovlamaq xəbərini eşitdilər. Çıyırdı ilxıçıya pul



və qızıl verərək həmin aslanın ürəyini gətirtdi.

Bildirçin kimi büzüşən Çıyırdı xanım aslanın ürəyi ilə ciyərini bir yerdə qaynadıb bişirəndən sonra həsrətində olduğu bu əcayib şorbanı elə yedi ki, suyu da qalmadı.

– Bəyim, mənə can gəldi – deyən Çıyırdı yeddi gün, yeddi gecə tərləyərək heç bir şey yemədən rahat yatdı.

Doqquz ay keçdi. Çıyırdının qarnı böyüdü, doğum günü yaxınlaşdı. «Kalmık rahibi əsgərbaşı ilə gəlir» xəbəri qırğızlara yetişdi. Cakıb bəy özünü itirdi; key vəziyyətdə qalıb nə edəcəyini bilmədi.

Ağıllı Ağbalta meşədə bir dəyə tikdirib Çıyırdını gizlədi və yeddi gənci ona keşikçi qoydu.

Əsgərbaşı aulu toplayıb əmri oxudu:

– Yer üzündəki günəş görən xalqların hökmdarı olan Çin Maçin xanı Esen xanın doğum günü üçün qırğızlar dəyərli hədiyyələr hazırlasınlar!

Qırğızlar qərara gəldilər:

– Acgöz kafirlərə səsimizi çıxarmadan hədiyyələrimizi verək cəhənnəm olsunlar. Uşaq görmək intizarındayıq. O uşağa gələsi qada-bəla bu əsgərlərə gəlsin.

Qırğızlar qarışıqlıq salmadan, deyə-gülə qızıl-gümüş toplayıb bəzədikləri ata gözəl bir qız mindirdilər. Heybəni qızıl-gümüşlə doldurdular, sağmal heyvanları yola çıxartdılar.

Əsgərbaşı sarayına döndü.

Qırğızlar Çıyırdını saxladıqları üçün çox sevindilər.

Gözlənən gün də yaxınlaşdı. Çıyırdının doğum anı gəldi. Xanımın sancısı başladı. Sancı başlayanda Cakıbın evinə baxşılar və qadın şamanlar toplaşdılar.

Cakıb əfsun oxuyub ağbozdan qısraq,bayquş başlı qoyun, ay buynuzlu inək və dəvə qurban kəsdi.

Aulda Çıyırdının bağırtısı yeddi gün səkkiz gecə kəsilmədi.

«Şəfqətli quş, Umay Ana, quş ana, şəfqətini əsirgəmə, kömək et» – deyə qadın şamanlar, baxşılar sıçrayıb davul çalıb Umay Ananı yardıma çağırdılar. Atəş Anaya sığınıb ocaq qa-

ladılar, südü yağa qarışdırdılar, ardıc ağacı yandırdılar.

Yetmiş qırğız ailəsinin kişiləri Çıyırdının doğum sancıları keçirməkdə olduğunu eşidən kimi sevincək Cakıb bəyin evinə yollandılar, yavaşca gəlib baş verənlərə diqqət kəsildilər. Tanrım bizə görək nə verəcək deyə uşaqdan böyüyə hamı dağa-daşa sığındı.

Doqquzuncu gecə Çıyırdının sancısı kəsildi deyə qadınlar həyəcanla qışqırdılar:

– Cakıb bəy, xanımın indi doğacaq!

Bu sözü eşidən Cakıb hönkür-hönkür ağlayıb «körpə səsi eşitsəm sevincimdən ürəyim partlayar» deyib aulda bənd ala bilməyib dağlara üz tutdu.

Cakıb bəy xanımı oğlan doğarsa muştuluq vermək üçün çadırların arasına qırx boz atın qulanını bağlatdı.

Belə şey görünməmişdi. İnsanlar sevinərək göyə baxdılar, ətraf aləm səssiz və sakit idi, qanadlı quşlar uçmur, axan çaylar axmırdı. Auldakı itlər hürmür, otların başı sallanmırdı.

Bu bir xoş xəbər nişanəsi idi. Bu körpədən kimsə qorxmadı, hürkmədi. Hamı səbirsizliklə marağında olduğu sirrin açımını gözləyirdi.

Altayı silkələdi «məə» deyib ağlayan çağanın səsi, sanki qara yer yarıldı, aləmi titrədən bir göy gurultusu eşidildi. Ağ otağa ağ işıq düşdü. Göyqurşağı kimi əyilən parlaq bir işıq topası isə Cakıbın aulunun üstünü örtdü.

İndi dağ başında heyvanlar böyürdü, bağçadakı quşlar oxudu, yerdəki ilanlar süründü, auldakı itlər hürməyə, atlar kişnəməyə başladı.

Ovcunda qan doğulan uşağın on beş yaşındakı uşaq qədər ağırlığı vardı. Çırpıntıları otuz yaşlı insanın gücündən xəbər verirdi. Uşağın ağzına yemək veriləndə üç tuluq yağı bir dəfəyə yedi. Nəcabətli qadın Çıyırdı körpəyə döş verən zaman məməsindən öncə süd, sonra qan gəldi. Xanım buna dözə bilmədi.

Yetmiş qırğız ailəsinin xoşbəxt günləri gəlmişdi, neçə aylardan, neçə illərdən bəri uşaq ağlamağını eşitməyən qırğızlar çox



sevindilər.

Aulun kişiləri bu anlarda uşağın atası Cakıbı xatırladılar. Ona bu xəbəri verib hədiyyə almaq üçün alaçıqların arasına muştuluq üçün bağlanmış qırx at balasına (qulana) minərək hər tərəfi axtardılar. At tapmayanlar da çoxdu, kimisi piyada, kimisi atlı getdi.

Aulda kişilərdən yalnız Ağbalta tərəddüd içində evdə qalmışdı. Sulayka bunu görüb çaşdı. «Qoca, müjdədən qalma, yüyürən tapmaz, qisməti olan tapar. Cakıbın sevincini paylaş» deyə yalvar-yapışdan sonra onu yola gətirdi.

Ağbalta Göyçolok atını ovdan qalan tula kimi səyirtdi. Cakıb bəy dağ ətəyindəki göy çuxurun üzündə, çay qırağında qara yalmanlı qulana minik öyrədirdi.

Zavallı Cakıb Ağbaltanın gətirdiyi sevincli xəbərdən huşunu itirdi. Sonra özünə gəlib şükr edərək aula döndülər.

Ağbalta Cakıba çatdırdığı müjdənin əvəzində doqquz heyvan muştuluq aldı. Cakıb bəy özünü itirmədən boz evinə girib Çıyırdıya gözaydınlığı, körpəsinə xeyir-dua verdi.

– Var ol, xanım. Övladının beşik bağı möhkəm olsun. Balanı Tanrı qorusun!

– Var ol, bəyim, diləyin hasil olsun – deyərək Çıyırdı körpəni döşündən ayırıb ərinə uzatdı.

Cakıb qışqıra-qışqıra ağlayan çağanın göbəyini qoxladı. «İxtiyar vaxtımda atası olduğum oğlan budurmu» deyə körpəni qucağına alıb diqqətlə baxdı. Tanrının verdiyi bu cocuq ağır başlı, aslan boyunlu, gözü açıq, qaşları çatıq, sərt, qaplan kimi heybətli, güclü-qüvvətli bir oğlan idi. Cakıb cocuğun kürəyində mavi damğa gördü. İki çiynində qoruyucu mələk dayanmışdı.

Zavallı Çıyırdı «ey vücudumun bir parçası olan göz bəbəyim, səni doqquz ay, doqquz gün canımda, qanımda gəzdirib çətinliklə doğdum. Ağ südümün haqqını verəsən» – deyə üzüntülər içində Umay Anaya dərdini anlatdı.

Çıyırdı uşağı doğarkən gözünə görünən bir dərviş haqqında Cakıba da, yaxınlarına da heç nə danışmadı. Bu, ananın

qəlbində bir sirr olaraq qaldı.

Bir ağ saqqallı dərviş gözə görünüb «oğlun böyüyəndə igid olacaq, ona polad ox verdim. On iki yaşına girəndə bir ustaya yay düzəltdirəcəksiniz. Həddi-buluğa çatanda altı igidə verilməsi üçün göydən altı qılınc enəcəkdir» – eyə körpənin alnını üç dəfə sığallayaraq qeyb olmuşdu. Çıyırdı dərvişin söylədiklərini heç kəsə demədi.

Cakıb «yuxuda gördüyüm düz çıxdı, Allahım, bu körpənin baxtını ver, ömrünü uzun eylə, düşməndən intiqamını alsın, itirdiklərimizi tapsın» deyə diləklərini dilədi.

Kədərli xalq isə: «Çətinliklərlə üzləşirkən hamımız bir övlad istədik. Diləyimiz hasil oldu, bu balamız dünyaya kəmənd atan oğul olsun, iztirablarımızı unutdursun, başımızı qurtarsın! Ayaqlar altında qalan bayrağımızı qaldırsın, qılıncımızı kəskin etsin. İtirdiyimiz torpaqları geri alsın! Yolu-izi açıq olsun!» deyə birlikdə Tanrıya yalvardı.

Qırğızların ahı hər halda Tanrıya çatmışdı, ya da Tanrı bu zavallı xalqa acımışdı deyə son zamanlar Kalmık və çinlilərin qırğız, qazax və türk qəbilələrinə basqıları səngimişdi. Çon Bəycindəki xanlar arasında daxili çəkişmələr, qırx xanın hakimiyyət uğrunda davası köçəri xanlara basqın etmək üçün onlarda bir hal qoymamışdı. Xalq arasındakı Kalmık sərdarları, casus və xəbərçiləri qar kimi əriyib gizlicə yoxa çıxdılar.

Bunu duyan Cakıb aulun sayılıb-seçilənlərini, yaxınlarını toplayıb dedi:

– İxtiyar çağımda oğul sahibi oldum, heyvanlarım əskilmədi. Çəmənlər göyərəndə, heyvanlar otuxanda Üç Aralda bir ziyafət verəcəyəm.

Yurdun sayılıb-seçilənləri Cakıba qoşuldular. Cakıb bu məqamda ayrı düşən üç qardaşını da düşünüb sevincini onlarla bölüşməyi arzuladı. Lakin onlardan bu vaxta qədər bir xəbər yox idi. Bunu fikirləşdikcə ürəyi sızıldadı. Oroz Opalda, Bay Kaşqarda, Üsön isə Tibetdə qalmışdı.

Cakıb hər şeydən əvvəl qazağa, noyquta, kataqana, Türk



qəbilələrinə, alçına, uyşuna, naymana, qıbçağa, abaka, taraka, arğına dörd-beş ay öncə övladının ziyafətinə dəvət üçün xəbər göndərdi.

Neçə vaxtdan bəri bu ziyafəti gözləyən qırğızlar alaçıqlarını təzələdilər, evlərini səliqə-sahmana saldılar. Qadınlar qara örpəklərini başlarından açıb ağ örpək örtdülər. Qızlar saçlarını cürbəcür hörüb naxışlı qalpaqlarını başlarına qoydular. Kişilər kəsmək üçün heyvan hazırladılar, ocaq qaladılar, odun yığdılar, cıdır atı hazırladılar, qonaqları qarşılamağa müntəzir oldular.

Cakıb bəy bir gün Ala Dağdakı noqoyun evinə bənzəyən, Altayda altı dirəkli bir ev tikib bəzədi.

Evi ardıc tüstüsünə verdi, davul çaldırıb baxşıyla bəlanı qovdurdu.

Ağbalta əvvəlcə Cakıbın fikrini bəyənməmişdi, sonra xalqın ziyafətə həsrət qaldığını görüb «zavallıların könlü açılsın, başları bir araya gəlsin» deyə qəbul etdi və ziyafət işlərini öz üzərinə götürdü. Bu səbəbdən o, rahat yata bilmədi. Gecə-gündüz çalışdı. Ziyafət yeddi gün davam etdi. «Cakıbın oğlunun məclisi bizim də məclisimizdir, indi də xidmət göstərməsək, nə zaman göstərəcəyik» deyərək arcını, kalmıkı, noqoyu, qıpçağı qonaqpərvərliklə qarşıladılar. Oyun, güləş, qılınc-qalxan, yay-ox yarışı, cıdır yarışı düzənləndi.

Cakıbın ziyafəti Altayda tez yayıldı.

Kalmık, tırqot, çinlilər və monqollar «Bu qırğız ağ otaq qurduğu üçün belə qürrələnir? Onun bizim bilmədiyimiz bir cocuğu var. Aloekeyə xəbər verərik» deyə pis niyyətlə aullarına döndülər.

Cakıb hər qəbilənin başda gələnlərinə, yaxınlarına, müdrik ağsaqqallarına ziyafətin sonunda əlbisə geyindirdi. Uşağını qucağına alıb xanımının qoluna girərək ortaya çıxdı:

– Əziz qardaşlarım! Tanrının verdiyi oğluma ad verin – deyə Cakıb dizi üstə oturub diləyi üçün dua etdi.

Uşaqdan yayılan işığa baxıb ona layiq bir ad tapa bilməyən xalq çaşıb qaldı.

Ah, Tanrım! Elə bu məqamında bəyaz çadıra dərisi yırtılmış əlbisə geyinən, əlində bəyaz əsa tutan, belinə çaxmaq daşı bağlayan, ayağına çarıq keçirən bəmbəyaz saqqallı, ağ külahlı dərviş girdi.

– Millət! – dedi, üzü işıldayan dərviş, – icazə versəydiniz üzü nurlu bu uşağın adını mən verərdim.

Hamı bir ağızdan: – Olsun! Ağzından çıxan xeyirli olsun, uşağın adını sən ver, qoca – dedi.

Dərviş davam etdi:

– Söyləmək məndən, söz Tanrıdan. Uşağın adı Manas olsun! Ulu adına layiq bahadır olsun! Bəlalardan uzaq olsun!

Sonra gözlərində od parlayan övliya dərviş əlindəki əsasını uşağın üstünə silkələyərək «Manas, ox keçirməyən kürklü ol! Ox yetişməyən atlı ol! Sənə toxunanları qılıncdan keçir, qarşına düşmən çıxsa belini qırıb qisasını al! Səninlə tutaşan səni üstələməsin, sənə toxunana aman vermə! Bozqurd ol, qırx kişiyə bərabər ol! Adını saxla.» – dedi.

Oradakılar «dediklərin olsun, Tanrım versin» – deyə günəş işığının süzüldüyü çadır nəfəsliyinə baxaraq Göy Tanrıya sığındılar. Çıyırdı xanım övladına ad verən adama əlindəki ipək qumaşla qızılı verim deyə düşünürkən ağ saqqallı dərviş bir anda gözdən itdi. Onu çöldəkilər də görmədi.

Manas Manas olunca, adı-sanı duyulunca yurdda ona tərəf – müqabil çıxmadı.

Balaca Manas qıyya çəkəndə bağdakı heyvanlar hürkür, meşədəki qaplanlar qaçırdı.

Manas körpəliyində ağlamaq bilmirdi, bir az böyüyəndə dəcəllik etməyə başladı; ayaqyalın ocağın içindən keçir, sıx meşələrdə təkbaşına dolaşırdı. Ev boyda qayaları dağlardan halləyirdi. On beş yaşlı uşağın əlini sıxaraq ağladırdı.

Uşaqcığaz üç yaşına çatanda Çonq Cindi adı ilə tanınırdı. Cavan oğlanlarla oturub-dururdu. Güc verib Göy öküzün buynuzunu sındırırdı. Onunla güləşməyə kimsə çıxmırdı.

Çonq Cindi beləcə dörd yaşına yetəndə yavaş-yavaş döyüşməyə başladı. Qarağacı kökündən qopartdı. Gücünü-qüvvəsini göstərdi. Suda batmadı, odda yanmadı. Aslan kimi heybətli oldu, bəlalı Cindi deyə çağırıldı.



Çonq Cindi beş yaşına gələndə öz bacarığını millətə göstərdi, öküz gücü ilə sal daşları qaldırdı, ilanın başını əzdi, bir tuluq qımızı bir nəfəsə içdi.

Gənc Manas altı yaşına gələndə ucaboy bir cavan oldu, igildlərlə ayaqlaşdı. Çon Cindi adını üstündən atıb öz adı ilə çağırılmasını istədi.

Manas yeddi yaşına gələndə dostları ondan uzaqlaşmağa başladılar. Dəliliyi artdı, bir quzunun əti ilə doymadı, onunla görüşəcək tay-tuş qalmadı.

Manas səkkiz yaşına girincə hər gün çöllərdə dolaşdı. Ev üzü görmədi, karvan yolunda dayanıb keçən tacir və karvançıları soyub malını-mülkünü uşaqlara payladı. Auldakılar Cakıbın ipə-sapa yatmayan yeganə oğlu haqqında dedi-qodu yaysalar da heç kəs Manasın qabağına çıxa bilmədi.

Bir dəfə Manas auldan qırx uşağı toplayıb Altaym geniş düzlərinin birində əyləncə düzənlədi. Oyunun şirin yerində dağın başından kalmık, tırqot, monqolun qudurmuş səksən cocuğu sallana-sallana gəlib aulun cocuqlarına ilişdi.

«Sərsəri qırğızların cocuqları əylənməyə yer tapıblar. Onlara əylənməyi göstərərik! Esen xan atamız bunların dərisini soyub gözünü oyacaq!» deyə şeşələndilər. Onların birinə «kişisənsə gəl» dedi Manas. Kalmıkın, monqolun cocuqları hər yandan qırğız cocuqlarım dövrəyə aldılar, çığır-bağır salıb davaya başladılar. Qaçan qırğız cocuqlarım böyük-kiçik demədən dəyənəyin ağzına verdilər. Sakitcə kənarda duran Manas «artıq yetər» deyə araya girdi.

«Bir buna bax, səfeh qırğız!» deyə kalmık cocuqlarından biri dəyənəklə Manasın başına vurdu.

Manas dəyənək yedikdən sonra yerində dura bilmədi. Yerdəki dəyənəyi götürüb kalmıkların başına bir oyun gətirdi ki, vurduğu uşaqlardan on ikisi öldü. Manasın gücünü görən kal-

mık cocuqları başlarını götürüb qaçmağa başladılar. Qırx qırğız cocuğu kalmıkları qovmağa başladılar.

Manas kalmıklara çatıb onların dərsini vermək məqamında qarşısına Cakıb bəy çıxdı.

«Ey, yaramaz!» deyə Cakıb Manasa təpindi, «kalmıklara nə cavab verəcəyik! Bu hərəkətlərinlə başımızı yeyəcəksən, dayan!» söylədi.

Manas qırx cocuğu arxasına salıb heç bir şey olmamış kimi aula döndü.

Ertəsi gün kalmıklara yanı balalı heyvanlar aparan Ağbalta belə dedi:

– Aulumuzdakı Çonq Cindi deyilən uşaq dava salıb, onu özümüz cəzalandıracağıq. Ayağınıza gəldik, uşaqların əməlinə görə bir-birimizlə düşmən olmayaq.

Onun mal-dövlətini alıb içkisini içən kalmıklar belə dedilər:

– Qırğızlar, sizi nə qədər bağışlamaq olar! Çonq Cindinizə yiyə durun!

«Oldu» – dedi sirri içində saxlayan Ağbalta.

Həmin hadisədən sonra Cakıb oğlundan nigaran idi. Nigarançılığını xammına da bildirib Manası Oşpura vermək qərarına gəldi. «Bu uşaqdan uşaqmı düzəldəcək, xanzadəmi düzəldəcək, igidmi əmələ gətirəcək, özü bilər. Əlini onun əlinə verək, həm də kalmıkların gözündən uzaq olsun» deyə atına minib yola çıxdı.

Cakıbın bildiyinə görə Oşpur çobanbaşı Tengir Baya tabe olan, öz işini yaxşı bilən, özü düz, sözü düz bir adamdı. Oşpur gəncliyində dünyadan bezdiyi üçün eldən-obadan ayrı düşmüşdü. O, dağın zirvəsində tək-tənha oturub axşama qədər düşüncələrə dalardı. Gecələr yatmasa da gündüzlər bunu büruzə verməzdi. Sirrini kimsəyə açmazdı. Bir neçə dil bilirdi. İxtiyar çağında belə külünglə daş yaran, əliylə hər şeyi qıra bilən bir kişiydi. Yeddi gecəyə Kalmık və Çinə gedib-gələ bilirdi. Oşpur dağlardan nadir hallarda aşağı enərdi. Ömrünün böyük bir hissəsini bəyaz qarlı, mavi buzlu zirvələrdə, maralların kövşədiyi, quzuların otladığı yerlərdə, qoyunların arasında keçirmişdi.



– Oşpur bəy, hardasan? – dedi Cakıb yüksək səslə, – sənə bir qul gətirmişəm.

– Buradayam, Cakıb bəy, – deyən Oşpur ağ çadırdan çıxdı. Cakıb bəyin oğlu ilə onun auluna gəldiyini görüb diqqətlə atabalanı süzdü. Oşpur Manasın şərəfinə bir sarı keçi balasını (çəpişi) qurban kəsdi.

Cakıb dedi:

– Oşpur, əzizim, sən çox şey bilirsən. Bildiklərini bildirməsən də mən bunu hiss edirəm. Bu uşağı adam et. Səni Tanrıya, oğlumu sənə əmanət edirəm.

Oşpur bəyin sözünü dinlədikdən sonra özündə cəsarət tapıb dedi:

– Oldu, bəyim. Auldakı Çege Bay ilə oynasın.

– Oğlumun göz yaşına baxma! Vur, döy! Yatdığı yer yumşaq olmasın, əzizləmə – deyən Cakıb auluna qayıtdı.

Manas Oşpurun yanında qaldı.

Ertəsi gün qara keçə üstündə xoruldayan Manası Oşpur dan üzü yuxudan qaldırdı:

– Ey, Manas! Sən bura yatmağa gəlmisən. Çobansan. Dediyimi eləməlisən, qalx!

Öz evlərində yuxudan doymayan Manas bu gün səsini çıxarmadan gözünü açdı.

Oşpuz onu sorğu-suala tutdu:

– Mənə de görüm necə insan olmaq istəyirsən?

– Bahadır olmaq istəyirəm – dedi Manas.

Oşpur yenə soruşdu:

– Bahadır olmaqla nə etmək niyyətindəsən?

– Bahadır olsam düşmənlərimi parça-parça edəcəyəm – dedi Manas.

Oşpurun marağı bir qədər də çoxaldı:

– Eləmi! Niyə düşmənlərini öldürəcəksən?

Manas buna cavab vermədi.

– Xalqımı yağmalayıb soyduğu, öldürdüyü üçün desənə –

dedi Oşpur və yenə sual verdi:

– Qan tökərəkmi bahadır olmaq istəyirsən?

Manas: – Bilmirəm.

Oşpur: – İndi məni eşitsən bahadır olacaqsan.

Manas çobanın dediklərinə razı olduğunu başını tərpətməklə bildirdi.

Oşpur Manası böyük bir çayın axdığı dərin dərəyə tərəf apardı. Çayın o tərəfindəki qayalığı ona göstərib «biz indi o taya keçməliyik, yol tap» – dedi.

– At ilə keçə bilmərikmi? – soruşdu Manas.

Oşpur Manası süzüb dedi:

– Ərənlər ən çətin sınaqlardan keçməli olurlar. İgid olmaq istəyirsənsə igidliyini göstər.

Manas pal-paltarlı çaya atıldı. Bir daşa dəyib suya yıxıldı. Az qaldı boğulsun. Gözü Oşpurda idi.

Oşpur çayın apardığı Manası gözdən qoymayaraq sahil boyu onu izləyirdi. Manas çarəsiz qalmışdı. Çay həqiqətən onu aparırdı. Çayın burulğanına düşəndə Manasın gücü qalmamışdı. Oşpur əlini uzadıb bu məqamda onu sudan çıxartdı:

– Bahadır olmaq asan deyilmiş – dedi və gülümsədi. Manas isə:

– Bahadır döyüşdə özünü göstərir, düşmənlə savaşır, daha suda boğulmur – dedi.

Oşpur xatırlatdı:

– Suda döyüşmək, yeri gəlsə çay keçmək hər an bahadırların başına gələ bilər. Yuxudan qalxıb bir anda gücünü toplamağı bacarmalısan.

Oşpur Manası qarşı tərəfdəki qayalığa keçirib daşlı dərəni göstərdi:

– Bu dərədəki daşları iki gündə bir yerə toplayacaqsan – dedi.

Manas daha da qəzəbləndi:

– Ondan qalamı quracağıq?

Oşpur soyuqqanlılıqla:

– Xeyr! Sənin gücünü sınayacağıq. Onları bir yerə yığdıqdan sonra evə qayıda bilərsən!



Oşpur atına minib, Manası dərəyə qoyub getdi.

Manas burada iki gecə qaldı, min bir əziyyətlə ev boyda daşları bir yerə topladı. Üçüncü gün Oşpur gəldi, toplanan daşları görüb Manasın çiyninə vurdu:

– İndi sənin gələcəkdə bahadır olacağın bəlli oldu, Manas!

Oşpur o vaxtdan sonra Manası rahat buraxmadı. Onu yaylaqdakı Süd-göl deyilən suyu çox dərin gölə – yan-yörəsində Kamçatka ördəkləri görünən yerə apardı. Belinə ip bağlayıb suya atdı. Beləcə Manasa üzmək öyrətdi.

Bu, Oşpurun əziyyətlərinin başlanğıcı idi. Nə olursa-olsun Oşpurun verdiyi əziyyətlər Manasın xoşuna gəlirdi. Oşpurun dediklərini diqqətlə, canla-başla, etiraz etmədən dərhal yerinə yetirirdi. İgid olmağın o qədər də asan başa gəlmədiyni artıq anlamışdı Manas.

Bir ay ərzində Manas yayın necə çəkilməyini öyrəndi. İki ay ərzində mizraqdan istifadənin sirlərini öyrəndi. Üç ay ərzində qılınc oynatmağı öyrəndi. Dörd ay ərzində kişi yarışlarına (at üstündən, yəhərdən bir-birini salma məşqi) alışdı. Beş ay tamam olunca Oşpur ilə tutaşdı (güləşdi), nərə çəkib Manas onu bir əli ilə qaldırdı, Oşpur isə fənd işləyib ayağını çalmaqla Manası yerə sərdi. Oşpurun bilmədiyi şey yoxdu. Tibet və Çindən öyrənib gəldiyi sirri, bir dəyənəklə otuz adama cavab verməyi, kəmənd atmağı Manasa öyrətdi.

Altı aydan sonra o ətli-qanlı cocuq şümal bir oğlan olmuşdu, əvvəlki nadincliyindən əsər-əlamət qalmamışdı. Bundan sonra Oşpur Manasa arxayın olub, onu Çege Bayla bərabər qoyun otarmağa göndərdi.

Oşpur dedi:

– Yaxana kalmıkın nişanını tax! Yoxsa kalmıklar sənin ayağını və qollarını kəsər.

– Oşpur ağa, kalmıkın nişanını taxıb yaşamaqdan ölüm yaxşıdır – deyən Manas ağ qalpağını, kementayını (keçədən üst geyimi) geyinib, qılıncını belinə bağladı.

Manas on yaşına yetər-yetməz çıxmağa dağ, savaşmağa düşmən tapa bilmədi. O, dağdakı çoban uşaqlarından qırx nəfəri bir yerə toplayıb dəstə düzəltmək istədi.

Həlim bir yaz günündə Manas ilə Çege Bay dağa qoyunları otarmağa çıxartmışdılar. Qarşı təpədəki qayalıqdan çıxan bir qurd (canavar) sürüdəki axsaq bəyaz quzunu yaxalayıb göz önündəcə parçaladı. Bunu görən Çege Bayın qorxudan ödü ağzına gəldi; çığırmaq üçün səsi də gəlmədi, ardıc ağacına çıxıb budaqdan sallandı.

– Ey, bu hansı itdir? – soruşdu Manas.

– İt deyil, qurddur, bizi də yeyəcək, çıx bura – dedi yaşca böyük olan Çege Bay.

– Qurd olanda nə olar, bu saat onun ciyərini çıxardacağam – deyə on yaşlı Manas qurdun arxasınca düşdü. Az qaldı quyruğundan yapışsın, amma çata bilmədi. Qurd qaçıb getməkdə idi. Manas axan qanın izi ilə onu təqib etdi. Qurd qayanın önündəki qara mağaraya girib gizləndi. Manas da onun izi ilə mağaraya girdi.

Manas mağaraya girəndə gözünə inanmadı; içəridə yaraşıqlı libaslı qırx kişi əyləşmişdi. Qanadlı atları vardı. Gözlərindən nur yağırdı. Onların yanında Oşpurun axsaq quzusu mələyə-mələyə durmuşdu. Böyüklərdən çəkinən Manas onlara salam verdi. Soruşdu:

– Ağalar, quzunu qapan qurdu görmədiniz ki?

– Gördük, – dedilər. Oturanlar bir-birilərinə baxaraq gülümsədilər: – O qurd elə bizik, biz qırxlarıq.

Manasın onlara inanmadığını görən qırxlardan biri bir anda qurd cildinə girdi. Manas daha inandı.

Oturanların böyüyü dedi:

– Biz qırxlar sənin yoldaşlarınıq. Nə zaman dara düşsən köməyinə gələrik. Qırxlar Manasla görüşüb-öpüşdülər və sözləşdilər. Bu əsnada mağaraya Çege Bay girdi.

– Onun adı nədir? – soruşdu qırxların böyüyü. Manas tanışlıq verdi.



– Kadoo Bayın oğlu Çege Baydır, çobandır.

– Bu uşaq sonra sənə can yoldaşı olacaqdır, adı Kütübi olsun – deyərək qırxlar qeyb oldular. Manas ilə Çege Bay geri dönüb qoyun-quzularım saydılar, əksik çıxmadı. Manas bu gördüklərini yaxşılığa yozdu. Həminki bəyaz quzunu Çege Bayla kəsib qızardaraq yedilər.

Gündüz dağdakı qoyunlara hücum çəkən qurdları görən çobanlar axşamüstü dərədəki qoyunlarını sayıb yoxladılar. Ağıldakı qoyunların və otlaqdakı atların heç biri əksilməmişdi. Oşpurun qoyunlarına da bir şey olmamışdı. Ağılda həminki axsaq quzu da vardı. Oşpur qoyunlarını otara-otara təpə boyunca gələrkən dərədəki çuxurda Manas başda olmaqla qırx cocuğun əyləndiyini gördü. Cocuqların əylənməsini yaxından görmək üçün atdan düşüb bir söyüdün altında əyləşdi.

Cocuqlar artıq böyümüşdülər. Onlar ordo (xan qərargahını ələ keçirmək üçün savaş oyunu) oyunu oynayırdılar. Sonra qazandakı əti çıxarıb yeməyə başladılar. Cocuqların arasında Manas Opol dağı kimi əzəmətli görünürdü. O, bu görünüşü ilə digərlərindən fərqlənirdi. «Bahadıra itaət edək» deyən qırx cocuq Manasın başına fırlanırdı. Manas bununla kifayətlənməyərək onlarla bir qədər sərt davranıb özünə «bəy»deyə müraciət etmələrini tələb etdi.

Yeməyini yeyəndən sonra Manas söyüdün kölgəsinə çəkilib yuxuya getdi. Bir azdan qara kalmık Kancarqol (Xəncərqol) yolunu azmış it kimi dabanbasma gəlirdi. Bu kafirin əməllərini Oşpur yaxşı bilirdi. Bu adam Kalmık və Çində, Sibirdə ad çıxaran, insanın başını əli ilə üzə bilən, əlini hara vursa xəncər kimi kəsən və buna görə də Kancarqol adlandırılan bəlalı bir şəxs idi. Oşpur ürəyində «fürsət tapsam Kancarqol ilə təkbətək nə döyüşərdim» düşünürdü.

Kancarqol yol boyu düzlənmiş uşaqları fırlayıb tullayaraq qapınçısından keçirməyə başladı. Uşaqlar çaşqın vəziyyətdə sağa-sola dağıldılar, bəziləri qorxdu. Kalmık atdan düşüb uşaqlardan dördünü əli ilə vuraraq öldürdü. Sonra onların cəsədini

bir yerə yığıb üstündə oturdu.

Manas uşaqların səs-küyünə oyandı. O, Kancarqola tərəf aslan kimi şığıdı. Onun gücünü hiss edən Kancarqol da öncədən tədbirli idi. Oşpur düşündü:

«Heyf, Manas bu təcrübəli kafirə basıla bilər, kaş onun yerinə mən olaydım! Kancarqol Manası parçalasa Cakıba nə cavab verəcəyəm.»

Manas ilə Kancarqol meydana girib bir-birilərini qorxutmağa başladılar. Kancarqol Manasa həmlə edib əli ilə onu vurmaq istədi.

İgid Manas cəld bir tərəfə atıldığından Kalmıkın əli söyüdə keçdi. Bir anda Manas ayağı ilə onun boş böyrünə vurub qaldırdı və yerə çırpdı. Kancarqol yerə sərildi.

Oşpur Manasdan arxaym olaraq düşündü ki, bu uşaq görəcəyini görmüş, öyrənəcəyini öyrənmiş, igid bir oğlan olmuş, sağ-salamatkən aparım Cakıba təhvil verim. Odur ki, yola düşdü.

Oşpuru görən Çıyırdı sevincindən qışqırdı. Həyəcandan ona verməyə hədiyyə, geyindirməyə əlbisə tapa bilmədi. Yalnız bunları deyə bildi.

– Sənə qurban olum, Oşpur! Manas quzum salamatmı? İki ildir onu görmürəm. On uşağı varmış kimi ərim onu görməyə getmədi. Manas adından kalmıkların, çinlilərin xəbəri varmı? Maldan, puldan nə istəsən səndən əsirgəmərəm. Mənim oğlum adam olacaqmı?

Sözdə xəsis, dərin düşüncəli Oşpur belə dedi:

– Oğlunuz salamatdır, kimsəyə əyilməz, yenilməz bir igid həddinə gəldi. Ona söyləyəcəklərimi söylədim, verəcəyimi verdim. Daha kalmıklardan, çinlilərdən qorxusu yoxdur. Uşağa ehtiyacınız varsa gətirə bilərsiniz.

Ertəsi gün Cakıb bəy Manası gətirmək üçün Oşpurla bərabər getdi. Cakıb çocuğunun gənc bir oğlan həddinə çatdığını görüb sevindi:

– Sənə qurban olum, ay quzum, bəri gəl bir söhbət edək. Qoca kalmıkı döymüsən, çaxmağıyla bıçağnı almısan. İndi kalmıklar bizim başımıza oyun açmazlarmı?

Manas soyuqqanlılıqla:

– Mən, onu qənimət almışam. Qəniməti verməyəcəyəm. Bir də ay ata, nə zamana qədər bu sıxıntı içində yaşayacağıq? Daha kalmıkın qabağından qaçan deyiləm, öldü var, döndü yox! – dedi.

– Ay oğlum, yoldaşlarına heyvan kəsib yedirtmisən, israfçılıq etmisən – dedi Cakıb.

Manas dilləndi:

– Ay ata, qəzəblənmə. İnsana bir dünya mal tapılar. Bu qədər sahibsiz heyvanı otarıb nə qazanacaqsan? İnsana bir azca sərvət yetməyirmi?

Cakıb oğlunun söylədiklərinə cavab tapa bilmədi. Manasın ağıllandığını, böyüdüyünü görüb daxilən məmnun oldu.

Oşpur əlini Manasın çiyninə qoyub vidalaşırkən soruşdu:

– Manas, oğlan çağına gəldin. İndi səni atana verib gedirəm. De görüm məndən nə öyrəndin?

– Necə bahadır olmağı, necə döyüşməyi – dedi Manas.

– Xoşuna gəlməyən hər kəslə döyüşəcəksənmi? – soruşdu Oşpur.

– Döyüşmək istəsə, əlbəttə! – dedi Manas.

Oşpur dedi:

– Manas, sağ qulağınla da, sol qulağınla da eşit. Yalnız xalqının düşmənləri ilə döyüşəcəksən. Hər zaman xalqını düşünəcəksən, sonra özünü. Bu, hər igidin məramıdır. Mənim sənə vəsiyyətim budur.

Manas nəsihətini bitirən Oşpurun önündə diz çökdü.

* * *

Cakıb bəylə Manas sübh çağı yola çıxdılar. Gündoğan tərəfdə günəşin şəfəqləri buludlar üzərində əks edirkən günbatan tərəfdə ay hələ gözə dəymirdi. Yal-yamacları bəmbəyaz qarla örtülən dağlar kül rənginə bürünmüşdü. Səmanı düz xətt kimi

kəsən quş səfi, yerdə saralmış otlara ələnən şəfəqlər göz oxşayırdı.

Cakıb bəy göydə pərvaz edən quş kimi at üstündə məğrur oturan ucaboy oğlunu diqqətlə süzüb bir vaxtlar dilədiyi «yanımda bir oğlum olsaydı dərdim olmazdı» arzusunun gerçəkləşdiyinə şükr edərək xanımına tez yeitişmək üçün atının başını buraxdı.

Tör-Su çayını keçib Ağ-Ötəyə yetişəndə uzaqdan burum-burum yüksələn toz-duman içində at sürüsü (ilxı) göründü. Cakıb ürkmüş atların qabağını kəsib damğalarına baxaraq onların öz atları olduğunu gördü.

Cakıb atları qovlayan tanımadığı kalmıkdan «atları hara aparırsınız» soruşdu.

Kalmık Cakıbın sözünə məhəl qoymadan atları qabağına qatıb çıxıb getdi.

Atların arxasınca gələn Iyman adlı ilxıçı Cakıbı görüb acı-acı ağladı:

– Kalmıklar bizi döyüb, yurdumuzu yağmalayıb, atlarımızı sürüb gedirlər, bəy.

Bu zaman Manas gəlib çıxdı, ağlayan ilxıçını görüb atasından soruşdu:

– Bu ilxıçını kim döyüb, ata?

Cakıb düzünü dedi:

– Həminki kalmıkların işidir bu, oğlum. Dava yer, örüş davasıdır. Bir az əvvəl onlara örüş haqqı verdiyim mal-qoyun və beş at görünür bəs etməyib. Bunları az bilib atlarımızı otlaqdan çıxarıblar.

Atların arxasındakı qızılı yəhərli ata minmiş kalmık bəyi Kortuk Cakıbı tanıyıb qaba səslə bağırdı:

– Ey, vəhşi qırğız! Örüşün sahibini tanıyırsanmı? Heyvanlarına bir yer tapa bilmirsənmi? İndi sənə göstərərəm! Toxumunuz kəsilsin...

Bunu deyib kalmıkca söyüş söyən Kortuq Cakıbı atından yerə saldı.

– Ay ata, bunlar nə deyirlər? – soruşan Manas hələ bir şey anlamamışdı.

Cakıb isə: – Ay oğul, uşaqlar belə sözləri anlamaz – deyib həyəcanlandı.

Bu zaman kənarda duran kalmık irəli atılıb Cakıbı qamçı ilə vurmağa başladı. Bəyin papağı yerə düşdü, çənəsindən qan axdı. On kalmık Cakıbı dövrəyə alıb o ki var döydülər. Bunu görən Manas dözə bilmədi. İlxıçı Iymanın əlindəki kəməndi qapıb kükrəyən Kortuqun üstünə atdı. Kalmıkın başı parçalandı, beyni kəməndə taxılı qaldı. Bunu görən kalmıklar atlarının yüyənini çəkib özlərini itirdilər. Sonra Manası tutmağa çalışdılar. Mizraq və qılıncla həmləyə keçən kaklmıklar Manası dövrəyə aldılar. Manas atını bir tərəfə sürüb kəmənd atmaqla onları bir-bir atdan yerə saldı. Kalmıkların yeddisi yerə düşdü. Manas göy atını dəhmərləyərək qaçan kalmıkların arxasınca sürdü.

Cakıb Manasın arxasınca düşüb onu çağırsa da göy ata yetişə bilmədi. Ağlaya-ağlaya deyirdi:

– Dayan, oğlum! Özünə gəl! Bir dönüb arxana bax! Vay-vay... Gör nə iş tutmusan. Arxan-dayağınmı var sənin? Kaş ki, qırx yoldaşını gözləyəydin. Təkbaşına kalmıkları öldürə bilərsənmi? Dayan, övladım, dayan!

Manas atasına acıyıb atının başını yığdı. Cakıb yalvarışla:

– Qurban olum sənə, oğlum. Bu kalmıklar indən belə səni rahat buraxmayacaqlar. Baxarsan, günü sabah Kortuqu öldürdüyün üçün intiqam almaq istəyəcəklər. «Qan haqqı» tələb edəcəklər – dedi.

Manas atının cilovunu yığmış vəziyyətdə soruşdu:

– Qan haqqı nə deməkdir?

Cakıb izah elədi:

– Oğlum, birisini öldürəndə zərərçəkmiş tərəf qan haqqı istəyir. Qan haqqı olaraq at, qoyun, dəvə, inək, qızıl, yaxud başqa qiymətli şeylər ödənc kimi verilir. Bunlar ödənilməsə ailədən bir nəfərin öldürülməsini istəyirlər.

Aula çatmağa az qalmış Manas fikrə getmişdi: «kalmıklar Kortuqun qan haqqı əvəzinə bizi əsir alıb malımızı yağmala-

maq istəməzlərmi?». Sonra Cakıba yaxınlaşdı:

– Ay ata, sən məni uşaqmı sayırsan?

Cakıb dedi:

– Böyümüsən, ağıllanmısan. Daha hara böyüyəcəksən? Div kimi boy-buxunun var.

– Mənə güvənirsənmi? – soruşdu Manas.

– Güvənirəm – dedi Cakıb.

– Mən səndən bir şey soruşacağam, amma düzünü de.

– Baxır nə soruşursan, oğlum.

– Oğul atadan nə soruşa bilər. Cavab isə ağıllı bir atanın böyümüş oğluna doğru sözlərindən ibarət olmalıdır.

– Elə isə soruş, oğlum. Bundan sonra sənə həqiqəti söyləyəcəyəm. Səndən heç nəyi gizlətməyəcəyəm.

– Ata, soyunu-sopunu bilməyən adam olmaz. Mənim yeddi arxa dönənimdən danış. Altaya gəlişinizdən başlayaraq hamısını damş.

– Hə, oğlum, sən soruşdun, mən də söz verdim... Atanın da uşağına söyləyə biləcəyi söz var, söyləyə bilməyəcəyi söz var. Amma sən ata-babanın keçmişini bilmək istəyirsən. Onlar barədə sənə bir az böyüyəndən sonra danışmaq istəyirdim. Soruşmağın böyüməyindən xəbər verir.atalarımızın keçmişi nəsildən-nəslə əmanətdir. Sənin öyünə biləcəyin, qürur duya biləcəyin bir xalqın var. Soyun qırğız sözündən dönməyən, savaşda cəsur, ağıllı və inadcıldır. Dostunu, düşmənini tanıyan, namuslu, cəsur, döyüşkən və qırx qəbiləli, cənnətlik bir xalqın vardır...

Cakıb bəy oğluna yeddi nəsil dönümünün qəhrəmanlıqlarını misal çəkərək ulu babası Noqoy xanın tarixinə gəldi:

– Baban Noqoyun yeddi arxa dönəninin hamısı xan olub. Onların hər biri aslan kimi güclü olublar. Noqoy xan da onlardan əksik kişi olmayıb. Kimsənin qabağında əyilməzdi. Tacını kimsənin başına qoymazdı. Qonşuları ilə yaxşı davranardı. Düşmənə haqqını yedirtməzdi. Noqoy xan bir yaz günü ulu babalarının izinə düşüb Ala-Toodan köç edir. Otlaq axtara-axtara Yenisey, Altay, Minq-Suuya qədər gedib çıxır. Orada çox



qədimdən məskunlaşmış qırx qırğız qəbiləsi və on iki türk soylu qəbilə ilə yaylağı öz aralarında bölüşürlər, heyvan alış-verişi edirlər, adətlərini birgə qoruyurlar, düşmənə qarşı bərabər savaşırlar. Ancaq altı aydan sonra Ala Too (Aladağ), Əndican, Alay kimi yumşaq havalı yerlərə gəlib qışlayırlar. Baban Noqoy Esen xanla döyüşdə ürəyinə ox sancıldığı üçün can verərkən oğullarına və xalqına acı-acı ağlayaraq belə vəsiyyət edir: «Xoş niyyətli ərənlərim, köklü xalqım, bizim düşmənə məğlub olmağımızın səbəbini indi anladınızmı? Düşmənə əsgərimiz az olduğu üçün boyun əymədik. Xalq birləşmədi. İçimizdən çürüdük. Birlik və bərabərliyimiz pozuldu. Adətlərimizdən uzaqlaşdıq. Arzu və həvəsimiz qalmadı, müdriklərin sözünü saya salmadıq. Adətləri buraxdıq, pis yola düşdük, kiçiklər böyüklərə hörmət etmədilər. Uşaqlar atalarını eşitmədilər, qadınlar kişilərini saymadılar. Tanrını tanımadıq. Beləcə yurdumuzdan qeyrət, iman, heysiyyət, qüvvət getdi. Ağıllı başçılarımıza və məmləkətimizə qarşı çıxan həqiqətən sizsiniz. Düşmənə qucaq açan sizsiniz. Bundan ibrət götürün! Bunu sonrakı nəsillərə, uşaqlarınıza çatdırın...»

Oğlum, Noqoy baban öləndən sonra xansız qalan xalq özünü itirir, xəzinə tükənir, mal-mülk talan edilir, igidlər kölə olur, incə belli qız-gəlinlər cariyə (hərəmxana qadını) olurlar. Belə zilləti Tanrım kimsəyə göstərməsin, zamanında güclü olan köçmən (köçəri) xalqın başına fəlakət və dərd gəlir. Ocağı sönür, başı müsibətinə qarışır. Qəddar Esen xan «bu qırğızlara kömək əli uzadanların kim olduğunu anlaya bilmirəm. Onları soyub soğana çevirsəm də yenə başlarını qaldırırlar. Birləşib bir araya gəlsələr yenə qovğa çıxaracaqlar» deyə qırğızların salamat qalanlarını dağ-dərəyə, çöl-biyabana qum kimi dağıdır. Qırğız cocuqlarını çinlilərin, kalmıkların atlarına mehtər (ata baxan) təyin edir. Qarışıqlıq salan qırğızların dilini kəsir, əlinə çiv çalırlar. Usta oxçuların gözlərini oyurlar, söz eşitməyənin qulağına qurşun tökürlər. Ata minib quş kimi tənha dolaşan xalq indi günün çıxmağını, batmağını görə bilmir. Onlar dustaq

oldular, dərdlərini kimsəyə söyləyə bilmədilər, quma axan su kimi tutmağa yer tapmadan özlərini itirdilər. Çin xalqı Esen xan əlinə keçirdiyi köçmən türk və qırğız igidləri ilə vəhşi kimi davrandı. Kalmık, monqol və tırqotlardan keşikçi qoyub dağa və ata alışmış xalqı qəsb etdikləri heyvanlara baxmağa yönəltdilər, onları sərhədə yaxın yerləşdirib Çin səddinin önündə qalxan əvəzi istifadə etdilər. Zavvalı xalq bir dəri, bir sümük qalmışdı. Qəbahət xalqımızdaydı. Onlar neçə ildən sonra Altayda zorla birləşə bildilər. Bax, indi sən doğuldun. Ağıla doldun, qüvvətə doldun. Oğlum, ata-babaların xalqı göz bəbəyi kimi qoruyub, onlara həyan olub, əmanət kimi saxladılar. Atalıq borcunu yerinə yetirdilər. Mən onlar kimi ola bilmədim. Əhvalım yaxşı olmadı. Ağlım, qüvvətim yetərincə gəlmədi. İndi sənin zamanındır, sənin yerinə yetirəcəyin işlər var. Umudum sənədir. Xalqın səndən gözlədiklərirni gerçəkləşdir. Şərəfini qoru. Qorxduğum şey budur: artıq arxa çevirəcəyin ata-baban, o qüvvətli qırğızlar yoxdur. Ətrafında toplaşan dostların yoxdur. Təksən, övladım...

Ürəyindəkilərini söylədiyi üçün rahatlıq tapan Cakıb dərindən bir ah çəkdi. Manas fikrə getdi. Manasın ağlına sözləşdiyi qırxlar gəldi. O anda kükrəyən at belində, göy bayraqlı, qara kürklü, davaya hazır qırxlar qarşısında peyda oldu. Onlar Manasdan başqa kimsənin gözünə görünmədən, sözləri eşidilmədən söhbətə başladı. Manas onlara Kortuku öldürdüyünü söylədi.

Cakıb bəy oğlu sapsağlam ikən birdən-birə, heç bir şey yox ikən onun irəli, geri dönüb danışdığını, boş-boşuna qəhqəhə çəkdiyini görüncə çox qorxdu. Oğlumu cin vurdu, deyə nə edəcəyini bilmədi. O, bu qorxulu məqamda xanımı Çıyırdını xatırladı. «Tez özümü xanıma çatdırım, çöllərdə tək-tənha dolaşdığı üçün Manasın dəli olduğunu bildirim» deyə atını qamçıladı.

Cakıb bəy atını bağlamadan, kimsəyə baxmadan qamçısını sallayaraq yüyürdü. Gözlərindən yaş tökülürdü. Başını əyib dalğın-dalğın yüyürürdü. Çıyırdının çadırına fəlakət xəbəri



gətirdi:

– Ey xanım, bunu kimsə bilməsin, yaxşımı? Bizim işığımız söndü. Gözümüz oyuldu. Həyatımızı qaranlıq basdı. Fəlakət gəldi-deyə Cakıb dizlərinə vurdu.

Çıyırdı həyəcan içində:

– Nə deyirsən, dilin yansın, qoca! Ağzındakı sözlərini itə söylə. Balamın halı necədir? Ölürəm, tez söylə-dedi.

Cakıb Manasın sarı səhrada tək dolaşıb dəli olduğunu bildirdi.

– Gözümün işığı, bircə balamı səhrada niyə tək buraxdın? Ağılsız qoca, mən bayquş ana oldum, uşağından bezən isə sən oldun. Sənin Manasdan başqa kimin var? Soyun qurusun, nəslin kəsilsin! Balamı mənə göstər. Nə olursa-olsun atım yedəkləyib onu evə gətir. Oğlum çöllərəmi düşüb, başımın bəlası qoca?-deyə fəryad qopardı Çıyırdı gözlərindən yaş tökərək.

Çıyırdının dünyası qaraldı, o, sanki oda atılmış kimi qıvrılmağa başladı. Bu aciz qullar arasında Çıyırdı kimi yaşlı vaxtında bir oğul tapıb onun da pis xəbərini eşidərək üzülməyən qadın ola bilərdimi? Bu qadınlar dünyasında balasına kömək əli yetməyən və bu səbəbdən yuvasına ilanlar daraşan torağay kimi qıvrılan bir başqa zavallı var idimi?

Cakıb aula gələndə başqa bir bəd xəbər də eşitmişdi. Kalmıklar Kortuqun qan haqqı olaraq ertəsi gün Cakıbın oğlunu hamının gözü qabağında məhv etmək istəyirdilər. Hər iki dərd Cakıbın ürəyini sıxdı. O, Ağbaltanı çağırıb onu dinlədikdən sonra özünə gəldi. Cürət edib dost və qonşu qazax, nayman, konquratlardan kömək istəməyə adam göndərdi.

Zavvallı Çıyırdı kalmıklar gəlməzdən öncə Manası görmək istəyirdi. Nə edəcəyini bilmirdi.

Çıyırdı başındakı bəyaz örtüyü açıb, yerinə qara örtük örtdü. Belini qurşadı, nurlu üzü saraldı. Ərinin heç minmədiyi boz daylağına minib oğlunu düşünərək «ölübsə də ölərəm, yaşayırsa birlikdə qayıdarıq» deyə üz tutdu çöllərə.

«Bircə oğlum Manasla birlikdə mən də kimsəsiz çöllərdə

divanə olub tərki-dünya kimi dolaşaram. Yeganə oğlumdan ayrılıb yaşamağımın bir mənası yoxdur» deyə ağlayırdı Çıyırdı.

Kimsəsiz çöldə Çıyırdının ətəyini küləklər yelləyirdi, atının quyruğu və yalmanı dalğalanırdı. O,bir dağın ətəyində Manası axtarırdı. Atlarını otaran Manas anası Çıyırdını görüncə qarşısına çıxdı:

– Ana, xeyirdimi?

Çıyırdı heç nə demədən atın üstündəki Manasa sarılaraq gözlərini boşaltdı, yalvardı, ağladı:

– Qurban olum sənə, bircə balam! Göydəki günəşim! Sağmısan? Varmısan? Başm sağmı?

Çıyırdı oğlunu sağ-salamat görüncə rahatlandı. Qəlbi rahatlandı, təsəlli tapdı, ağlamadı, dünyaya təzədən gəlmiş kimi sevincək yola çıxmağa hazrlaşdı. Atasının söylədiklərini eşidən Manas «Allah insaf versin, ata» deyib qəh-qəhə çəkib güldü.

Manas ilə Çıyırdının qabağına birdən-birə atlarını yedəyə alan yeddi kalmık çıxdı. Onlardan birisi Manası tanımışdı. «Kortuku öldürən odur» deyə bağırmağa başladı. Biri atlarına baxdı, altısı Manası vurmaq üçün yaxınlaşdılar.

– Nə olar, bircə oğluma toxunmayın! Mənə rəhm edin-deyə Çıyırdı Manasın qabağına keçdi.

Manas isə:

– Ana, nə edirsən? Bunlar altı adam deyilmi? Altmışı gəlsə də bir şey çıxmaz-dedi.

Bu məqamda kalmıklar Çıyırdının atının cilovundan yapışıb apardılar. Manas hiddətləndi.

– Ey, çək əlini cilovdan, öldürərəm səni!

Kalmıklar məhəl qoymadan atı yedəyə aldılar. Manas iki kalmıkı çiyinlərindən tutub bir-birlərinə elə çırpdı ki, hər ikisi o andaca can verdi. Bunu görən kalmıklar atı buraxıb qaçmağa başladılar.

Manas ilə Çıyırdı aula dönəndə Cakıbın qorxudan ödü partlamışdı. Oğlunun sağ-salamat olduğunu görüncə qəlbi rahatlandı, şükr edərək ağ təkəni kəsdi, əhvalı düzəldi. Ürəyində



düşündü: «Tanrının yazdığını görəcəyik. Daha qırğızlar gücləniblər. Kalmıklar məhv olsun. Oğlum Manas var ikən savaşıb görərik!..»

Manas kalmıkların basqın edəcəyi gün heç nəyi vecinə almayıb gün çıxana kimi yatdı.

«Qırğızlar igidlərimizi öldürdü, qardaşıqsa köməyə gəlin, qırğızları məhv edək» deyə mancular altay kalmıklarına xəbər göndərdi.

Mancular ilə Altay kalmıkları qan qardaşı olsalar da bir-birlərini nəinki tutmur, hətta bir-birlərinə qısqanırdılar. Bu çağrışa cəmi dörd yüz əsgər toplandı. Altay və mancu kalmıklarından düzələn yeddi yüz əsgər qırğızlardan intiqam almaq üçün əllərində bayraq yola çıxdılar. Acgöz Altay kalmıkları Cakıbın yolda otlayan səkkiz min atını görüb ələ keçirərək yola düzəldilər. Yolun yarısında Mancu əsgərləri ilə Kalmık əsgərləri atları bölüşmək üçün dava-dalaşa başladılar. Sayca üstün olan Altaylılar «Manculları məhv edəcəyik, qadınalrını, qızlarını əsir alacağıq» deyə onların aullarına basqın etdilər. Son nəfəsinə qədər döyüşəcəklərinə and içən manculların qadınları və qızları, hətta uşaqları əllərinə xəncər alıb üç yüz əsgərə kömək etdilər, evlərini qala kimi qorudular. Mancuların içində bi nəfər ağıllı gənc-Manasın öldürdüyü Kortuqun oğlu Şakum bu ağır vəziyyətdən xilas üçün qırğızların üstünə qaçmağı məsləhət bildi.

Atlarını kalmıklar apardığını öyrənən Cakıb altmış nəfərlə yola çıxmışdı. Qarşısına Şakum çıxıb ağladı və dərdini anladıb Cakıbın ayağına döşəndi:

– Qurban olum, bahadır Cakıb, Altaylılar aulumuzu yağmalayıblar. Sizin heyvanlarınıza otlaq, örüş verdiyimə qəzəblənib mənim aulumu yox etmək istəyirlər. Bizi qurtarın. Qonşun, qohumun olaq, ölən atamın qanını da sizə bağışlayıram.

Bu zaman arxa tərəfdən qırğızların köməyinə gələn Qızıq, Nayman, Uyşun, Alçın, Arqın və Türklərdən ibarət əsgərlər bir ağızdan dedilər:

– Atası ölən oğlanın aulunu yağmalanmağa qoymarıq!

Bunu deyən əsgərlər döyüşə atıldılar. Hər qəbilədən olan yeddi yüz səksən əsgər yeri-göyü titrədən bir nərə ilə hücuma keçdi.

Yeniyetmə Manas qılınc-qalxanını qurşayıb, göy nizəsini əlinə alıb, göy atına minib savaş meydanına girdi. Qırxların qoruduğu Manas yolundakıları təmizləyə-təmizləyə irəliləməyə başladı. Altaylı kalmıklar Manasın qarşısında duruş gətirə bilmədilər. Onların qoşunbaşı oxla öldürüləndən sonra atlarına qamçı vurub qaçmağa başladılar.

Cakıbın nəzəri Manasda idi. Dəli bir nərə çəkən Manas kalmıkların arxasınca düşmüşdü. Cakıb əlindəki göy bayrağı Ağbaltaya verdi. Manasın arxasınca düşüb ona yetişdi və atının cilovunu çəkərək ona yalvardı:

– Qurban olum, oğlum, daha bəsdir, dayan! Kalmıkların bayrağı endirildi.

Zəfərdən sonra Cakıb və Ağbalta aula dönüb başı bəlalı Mancularla danışıqlarını başa çatdırmaq istədilər.

Manculu kalmıkların böyüyü-Dögön adlı ağsaqqal itaətini bildirərək Cakıb ilə Ağbaltanın önündə diz çökdü:

– Qırğız qardaşlar, əvvəllər bir-birimizə düşmən olmuşuq. İndi xasiyyətinizi bildik, döyüşçü olduğunuzu, qəhrəmanlığınızı gördük. Sizinlə bir millət olmaq istəyirik. Bizi qohumluğa qəbul edin.

– Uzaq qohumdan yaxın qonşu yaxşıdır. Artıq kimin kim olduğunu öyəndik-dedi Cakıb.

Ağbalta:

– Ağsaqqal haqlıdır. İndi mancular və kalmıklarla qohum olduq. Yurdumuz bir, ocağımız bir, yaylamız bir, adətimiz bir oldu-deyə qəbilə başçılarını, üzdə olanları ağ otağa dəvət etdi.

Savaşda ölən yüzə qədər adamın çoxu manculardan və kalmıklardan ibarət idi. Dögön:-bu ölənləri necə dəfn edək, – deyə üzünü Ağbaltanın gətirdiyi qocalara tutdu.

Kimsədən səs çıxmadığı üçün Manas dilləndi:



– Əgər məsləhətdirsə, dediklərimə əməl edərsinizsə mən belə düşünürəm, qardaşlar. Altaylı kalmıklarla savaşda hər xalqdan igidlər öldü. Gəlin yeni adətlərə görə onların hamısını bir yerdə basdıraq.

– Ağıl yaşda deyil, başdadır, Manas doğru söylədi-dedi qocalar.

Təpədə böyük bir xəndək qazıb igidləri atı və silah sursatları ilə birlikdə torpağa gömdülər. Uzaqdan sal daşları öküzə qoşub bura gətirdilər, məzarlığın üstünə dikəltdilər və üzərinə yazdılar: «Altayın şahinləri uçub gəlib bu işıqlı təpəyə birlikdə qondular».

Qırğız, qazax, noqoy, qıpçaq, türk, arqın, mancu və kalmık başçıları toplaşdılar. Cakıbın qəmbərbozlarından (atlarından) ağ boz qısrağını gətirib qurban kəsdilər, sonra «yaşayası olsaq bir təpədə yaşayaq, öləsi ölsaq bir çuxura gömülək» deyə and içdilər.

Ağbaltanın rəhbərlik etdiyi qəbilə ağsaqqalları cənazə çıxan evlərə gedib başsağlığı verdilər. Cakıb bəy comərdlik göstərdi. Dörd yüz atını manculardan atası ölən yetimlər və cənazə çıxan evlər arasında bölüşdürdü.

Bu zaman atası ölmüş Macik mancu kalmıkların bəyi seçilərək atasının yerini tutdu.

Düşmənə qarşı birgə döyüşən, bayrağı birgə tutan xalqları Cakıb auluna gətirib ağırladı, bir gecə qonaq saxladıqdan sonra ertəsi gün adət üzrə at bağışladı, gözəl paltarlar hədiyyə etdi. «Təzə qohumlar tapdıq, yetmiş ailə idik, yeddi yüz ailə olduq, gerisini Tanrıdan diləyək» dedi.

Cakıbın aulu qısa müddətdə şəhərə döndü. Mancu kalmıkları torpaqda çalışırdı. Çadırlara alışa bilmədilər, torpağı xəmir kimi yoğurub kərpic kəsdilər. Daş yığdılar, onları qurudub divar hördülər və oraya qara şəhər adını verdilər. Dörd bir yandan gələn karvanlar bu şəhərdən əksilmirdi. Yavaş-yavaş xalq ticarətə öyrəşdi.

Manas «nə qədərki sağam qara torpağın altına (daş evlər

nəzərdə tutulur-A.C.) girməyəcəyəm, babalarım kimi sərbəst yaşayacağam» deyə qara şəhərdən bir qədər aralıdakı dağa çıxaraq qırğızlarla çadırda yaşadı.

* * *

Manas on bir yaşına çatanda artıq uşaqlarla oynamaqdan çəkindi; bozqurd oyunu da oynamadı, əvvəlki nadincliyini buraxıb böyüklərlə doqquz korqol (oyun növü) oyununa başladı. O vaxtdan doqquz korqol oyunu Manasdan qalmışdır dedilər.

Çinlilərin, kalmıkların, tırqotların arasına kəşfiyyatçı göndərib onların sirrini öyrənməyi, ordunu necə qurmağı, saxlamağı, aul içinə gözətçi qoyub düşmənə qarşı silah işlətməyi, silahları gizləyib saxlamağı Manasa Ağbalta öyrətdi.

Bir dəfə Manas yorulub yatırdı. Atların doğan vaxtı gəlmişdi. Manas atlara baxmaq üçün Aymanboz atına minərək dağ yolunu tutdu. Div kimi əzəmətli Aymanboz daha səkkiz yaşına girdiyindən Manasm altında büdrəmirdi.

Manas dağdakı çobanlara yaxınlaşıb doğmamış qısraq kəsdi. Azəmil suyunun kənarında, doqquz yolun qovşağında yurd salıb sıxıntılarını canından çıxarmaq, dincəlmək istədi.

Manas yurd saldığı yerdə aşıq oynayırdı. Elə bu zaman böyük bir karvan gəldi. Karvanda çinli, kalmık, tırqot və sart vardı. Karvanbaşı olan çinli ilə kalmık, sart ilə tırqot Manası saymadan onun qərargahına keçdilər.

«Ey, dəvəni çək!» dedilər kənarda duranlar. Əylənməkdə olanlar da bağırdılar.

Altı çin mühafizi boynuna ipək sarılı, altun taxılı dəvəni yedəklərinə almışdılar. Xanın dəvəsini təkcə kalmık və çinlilər deyil, hamı tanıyırdı. Bu dəvəyə kimsə «çıt» deyə bilməzdi. Xanın adamı ilə xanın dəvəsinə kəc baxanlar ölümlə cəzalandırılırdı.

Xanın adamları söz eşitmədən dəvələrinin ovsarından tutub çin dilində nəsə danışaraq qərargahı keçdilər. Bu əsnada aslan Manas əlindəki aşığı kənardakı aşığa vurdu. Aşıq sıçrayıb uçaraq önündəki dəvənin ayağına ox kimi sancıldı, dəvə yerə sərildi. İkinci aşıq öndəki eşşəyin ayağına saplandı və o da yıxıldı.

– Xanın dəvəsini yıxdı. Bu qırğızı yaxalayın, deyə bağırdı karvanbaşı.

Altı nəfər Manasa cumdu. Manasın igidləri onların qabağını aldı. Tərəflər döyüşməyə başladı. Ər Manas çinlilərin karvanbaşını altun kəmərindən yapışıb yerə çırpdı, başını bədənindən ayırdı. Karvanbaşının öldüyünü görən çinli, kalmık və sartlar yazıq-yazıq baxıb dayandılar.

– Bizə toxunan bu adamların cəzası ölüm olsun, öldürün,- dedi Manas.

Bunu eşidən otuz uşaq çinli kalmıkları öldürdülər. Karvandan on sart sağ qaldı. Onlar da yalvarmağa başladılar:

– Bizə qıymayın! Biz türk soyundanıq, üçümüz uyğuruq. Bizdə günah yoxdur. Malımızı alın, canımızı bağışlayın...

Manas qılıncını sıyırıb dedi:

– Əgər türk soyundansınızsa bu sirri açın. Yoxsa çinli və kalmıklar kimi sizin də başınızı bədəninizdən ayıraram.

Dəvələrə xidmət edən sartlar sirlərini açdılar...

Çinlilər ticarət məqsədilə türk ellərinin dilini bilən bir çox uyğuru Kaşqardan Terezə gətirmişdilər. İllərdən bəri onlara türk, qırğız, qazax və noqoy ölkəsinə gedən karvanların dəvələrini saxlatmış, yeri gələndə tərcüməçi kimi istifadə etmişdilər.

Altı ay öncə kalmık xanı Alooke «Altaydakı qırğızlardan Manas adh bir bəla çıxdı. Altı ayda dörd yüz kalmık əsgərinin başmı yedi. Ehtiyatlı olmasaq çin xaqanlığınacan gəlib bizi də əjdaha kimi udar. Əsgər toplayıb balaca ikən onu məhv edək. Əsgər ver!» deyə çin xanından tələb etdi.

Esen xan Alookeyə: «Bu kalmıkın qonşusu olan bir ovuc qırğıza gücü yetmir, yaxud bizə vəziyyəti tam anlatmırlar. Alookeyə inamım qalmadı daha.» deyə qəzəbləndi. «Qırğızlardan Manas adlı başqa bir oğlanı gətirib məni inandırdınız» deyən Esen xan titrəyərək Çonq Eşenin Çar Manas deyilən oğlunu tutub gətirən görücüləri, sehrbazları öldürdü. Onların bağır-

masından göy inildədi. Alooke xüsusi bir karvan düzəldib dünyanı gəzən tacirlər kimi geyinən kəşfiyyatçılarını qırğızların vəziyyətini, gücünü öyrənməyə göndərdi. Onlara «əgər gücünüz çatsa Manası öldürün» deyə əmr etdi. Karvan bələdçi sartların köməyi ilə beş aya gəlib Altaya çıxdı, Manasın özü ilə rastlaşdı.

Manas ölən çinli və kalmıkların silahlarını qənimət olaraq igidlərinə payladı. Sonra hər tərəfə səkkiz xəbərçi göndərib bildirdi ki, atam Cakıb, ağıllı Ağbalta qırx beş dəvəyə yüklənmiş bu mal-dövləti gəlib qırğızlara qatılan mancu kalmıklarına paylasın. Ertəsi gün xalq gəlməyə başladı. Xəbərdən sonra Cakıb və Ağbalta da gəlib çıxdı. Baş verənlər Cakıbı çox qorxutmuşdu. Odur ki, üzünü Manasa tutub dedi:

– Ay-vay, Manas, nə etdiyini bilirsənmi? Sən məni məhv edəcəksən! Kaş sənin səsini eşidən günü öləydim. Dərdli başım yenə dərddən qurtulmadı. Unutma ki, Çin xaqanının xəzinəsini qəsb edən sağ qalmayacaqdır. Xana toxunan yaxşılıq görməz. Başımız dərdə girdi. Otuz il öncə Esen xanın qılıncıyla Altaya sürüldüyümüzü nə tez unutduq?! Eşit məni, oğlum, sartları yükləri ilə birgə yola sal getsinlər.

Bunu eşidən Ağbalta dedi:

– Oğul olsa ər olsun! Ər olmasa yox olsun! Olan oldu. Öləni həyata qaytara bilməyəcəksən, Cakıb. Pekindən bura beş aylıq yoldur. Çinlilər gələnə kimi bir çarə taparıq. Qəm yemə, Cakıb, qəniməti yoxsul xalqa payla.

Qoca Ağbaltann cəsarətli sözlərindən sonra Manas ilk dəfə olaraq atasının üzünə bunları dedi:

– Yazıqlar olsun, atacığım, ağlınız harda qaldı! Səni əcəldən sərvət qurtarmaz. Sərvətin qurusun sənin. Üzülmə. Boş yerə qorxma! Qorxduğun üçün bu günə düşmüsən. Esen xan səni sıxışdırsa məni tutub ver. Çinli və kalmıkdan qorxub əsə-əsə yaşamaqdansa at belində ölmək daha yaxşıdır.

Manasın sözünü eşidən Cakıb birdən-birə yerində donub qaldı. Manas dedi:

– Ağbalta ağa, dəvələri paylaşdır.



Ağbalta qırx beş dəvəni qırx ata-oğul qırğız, türk, təzəcə qohum olmuş iki yüz evli mancu kalmıkları arasında bölüşdürdü. Lap axırda sümüyü qırılmış dəvə Cakıba düşdü. Cakıb dəvəni kəsdi, yükünü boşaltdı, gördü ki, içində zümrüd, cəvahir, bəyaz inci və ipək var. Digər qırx dəvədən polad qılınc, lampa, qumaş, ipək, çin ipəyi vardı. Bunları bölüşən xalq evlərinə döndülər.

Manas heç kəsin üstünə getmədi, kimsədən bir quruş almadı. «Bizə qatılmaq istəsəniz sizə yad olmarıq. Suçunuzu əfv etdik» dedi.

Ağbalta on tacirə ev tikdirdi, minməyə at verdi, evləndirib əl-ayağını bir yerə yığdı. Ay doğmamış tacirlərdən xəstə hal birisi gecə ikən bir at tapıb Kalmıklara tərəf üz qoydu.

Çin xanı Esen xan tərəfindən öldürülən Noqoy xanın Orozdu və Bay adlı iki oğlu Opol dağmda məskunlaşıb günlərini keçirirdilər. Orozdunun on cocuğu arsında birlik yox idi. Bir-birlərinə düşmən kəsilib hey çəkişirdilər. Mal-heyvan üstündə dava-dalaşları səngimirdi. Araları tamam dəymişdi. Səksən yaşlı Orozdu uşaqlarmın arasındakı bu qalmaqaldan çox üzülürdü. Bayın Bakay və Taylak adında iki övladı vardı. Bu iki qardaş bir-birləri ilə yaxşı dolanır, ağıllı davrandıqları üçün sərvətə qərq olmuşdular. Orozdunun oğlu onların heyvanlarını əllərindən aldı, geri qaytarmadı. Bunu görən Bay uşaqları ilə birlikdə Kaşqardan qaçıb Yarkəndin ortasındakı şəhərə gəldi.

Bir gün Bay oğlu Bakaya dedi:

– Oğlum, dinlə məni. Qohumlarının halı belədir. Atlanıb baltanı kəmərimə taxıb Altayı aramağa çıxacağam. Cakıb adlı qohumumuzdan, o tərəfə sürülən qırğızların yaşayıb-yaşamamağından xəbər tutacağam. Özlərini tapmasam, öldü-qaldısından bir xəbər eşidərəm yəqin. Qırğızlar heysiyyətli xalqdır. Tanrı kömək edibsə yəqin ki, bir araya gəlib yurd-yuva qurublar. Gedim axtarım. Tək də olsam gedəcəyəm.

On səkkiz yaşına yenicə yetmiş ağıllı Bakay atasının haqlı olduğunu söylədi:

– Bu yaxınlarda bir yuxu gördüm, ata. Ağsaqqal dərviş qa-

çaraq gəlib mənə dedi: Sənə yoldaş olacaq Manas kimi aslanın var. Qardaşını tap, sənin güvəncin odur-deyib gözdən itdi.

– Yuxun çin olsun, yuxu olaraq qalmasın-deyən Bay Tanrıya yalvardı.

– Altaydan birini tapsan mənə xəbər elə, ata, ölməsəm arxanca gələcəyəm.

Yetmiş yaşım haqlamış Bay arvadı öləndən sonra evlənməmişdi. «Gəncliyim geridə qaldı. Daha məni ölüm gözləyir» deyən qoca qorxu-ürkü bilmədən belini bağlayıb yola düzəldi. Üç gün gedəndən sonra vəhşi çöldə arx qazıb, körpü salmaqda olan, qarışqa kimi qaynaşan altı min adamla rastlaşdı, onlar döyüşə atılan əsgərlər kimi idilər. Çayı başqa səmtə çevirib, arx, körpü düzəldərək yolu ələ keçirmişdilər. Neskara adlı div onların rəhbəri idi.

Zavallı Bay arxın istiqamətini dəqiqləşdirən Basankul adlı adamın yanına getdi. Basankul onun atını kəsdi, əlinə bel verib arx qazdırdı. Bay iki gün ac-susuz işlədiyindən bayılıb yerə çökdü. Adamlar qocanı öldü bilib arxın kənarındakı söyüdün altına sürüdülər. Üstünü torpaqla örtdülər. Bayın bəxti varmış, çalada yarm gün qaldıqdan sonra özünə gəldi. Ətrafına baxıb balaca dəlikdən çöldəkiləri gördü.

Müdhiş yayını qurşamış Neskara div kimsəyə hiss etdirmədən, kimsəni şübhələndirmədən arxın qırağına, Bayın yatdığı yerə gəlib Çabdar atı ilə danışdı. Bay Çabdar atın insan kimi danışan, sahibinə ağıl öyrədən sehrli heyvan olduğunu gördü.

Bu danışıqdan Çabdarın insan bilmədiyi bir sirrdən də bəhs etdiyini Bay duydu:

«Bu yarı yolda padşahın körpüsünü boş-boşuna ələ keçirdin. İndisə Esen xanın əmrini yerinə yetir. Sənin tutub gətirəcəyin Manas adlı uşaq günü-gündən güclənməkdədir. O səni məhv edəcək. Onu uşaqkən yaxalayıb məhv et. Arxı qazdırdığın altı min adamın qarnını doydurub altı min ata mindir. Əllərinə silah ver. Sənin altı min atlı, güclü əsgərin olar. Qabağına heç kəs çıxa bilməz. Ora tələs!»



Neskara div altı min adamı çəkib Altaydakı Cakıb bəyin atlarını ələ keçirmək, oğlunu tutmaq üçün hərəkətə gəldi. Çöldə toz dumana qarışdı.

Bay torpaqdan sıyrılıb çıxdı. Bir qatır tapıb minərək gedənlərin arxasınca düşdü. Altı gün yol getdi. İnsan üzü görməyəcəyəmmi, yoxsa acından-susundan bu kimsəsiz keçidlərdə, kimsəsiz dağlarda öləcəyəmmi deyə gedirkən Uludağın kənarına çatanda gözlənilmədən qabağına bir atlı çıxdı. Yaşlı Bay atlının salamına kalmıkca cavab verdi. Ağsaqqalı görən Cakıb atını çəkərək bu yad adama gözucu nəzər yetirdi.

«Var ol, bahadır» deyə ağsaqqal qatırını sürdü.

«Var olsun ağsaqqal» deyə Cakıb saqqalını tumarladı.

«Oğlum, sənin adın nədir?»-soruşdu qoca.

Cakıb cavab verdi:

– Adımı-sanımı sordunuz: İlk atam Bayqur dövlətli bir kişi olub. İkincisi Bəbir xan, üçüncüsü Tüböy, dördüncüsü Kögöy. Kögöydən Noqoy, Noqoydan mən oldum... Otuz ildən bəri Altayın dağlarında yaşadım. Adım Cakıb...

Bay heyrətlə:

– Ah, aman, Tanrım! Cakıb sənsənmi? Ürəyim, sağsanmı? Mən qardaşın Bayam,-dedi.

Cakıb özünü atın üstündən ataraq qatırın üstündəki qocanı qucaqlayıb yerə düşürdü, gözlərindən yaş tökdü, ağladı, ağladı. İllərdən bəri bir-birindən ayrı düşən qardaşlar çöldə ağlayıb dərdləşdilər. Bir-birlərinə qovuşduqlarına sevinən zavallılar gözlərindən yaş axıdıb bir hovur oturdular.

Bay dedi: – Cakıb, səni axtara-axtara atım quş kimi qanad açdı. Torağay kimi uçdu.

Cakıb isə yuxusunu xatırladı:

– O günləri ya Tanrı xəbər vermişdi, ya da ruhlardan işarət gəlmişdi, nəydi yuxum qaçdı, özümə yer tapmadım, ürəyim yerindən oynadı, pərişan oldum, elə hey səni düşündüm, qardaşım, yuxuma girdin. Gözləməyimə dəydi, indi yuxum çin oldu.

Gün görmüş iki qardaş bir-birlərinə sarılıb başlarına gələni

danışdılar. Sevindilər, pərən-pərən düşsələr də ölməyib görüşdüklərinə görə Tanrının qismətinə mat qaldılar.

– Neçə uşağın var, Cakıb? – soruşdu Bay.

Cakıb dedi: – Bir.

– Uşağının adı nədir? – soruşdu Bay.

Cakıb dedi:

– Adı Manasdır. On üç yaşı var.

«Ad verən bilərək vermiş, adı qutsal bir addır. Atalarımızın ruhu köməyi olsun» deyə Bay Tanrya üz tutdu. Sonra əlavə etdi: İndi ağlımdakən söyləyim. «Manası tutub gətirin» deyə Esen xanın göndərdiyi Neskara adlı div altı min əsgərlə gəldi. Bunu gözümlə gördüm, qulağımla eşitdim.

– Onda yola çıxaq, Bay, – deyən Cakıbın ürəyi əsdi, qəlbi sızladı, cəld aula gedən yolu tutdu.

Cakıb aula xəbər verdi. Neskaranın əsgərlərinin minlərcə olduğundan qorxuya düşdü.

– Bu çinli və kalmıkların əsgəri çox imiş. Bunlar bizi yağmalayacaqlar. Neskara gördüyünü diri udan divdir. Bunlara at, qız bəxşiş verək, heyvan və qızıl hazırlayaq – dedi Cakıb.

«Ay ata, düşməni görüb qorxuya düşmə. Ürəyin sökülməsin. Daha qorxma! Canını sıxma. Sağ ikən, yaşadığım halda xalqımı tutub onlara necə verim? Alnıma yazılıbsa bir oxdan öləcəyəm. Qara canı əsirgəmədən vuruşmalıyıq. Bu qudurmuş kalmıkların cəzasını verməliyik» dedi Manas.

Manasın fikrini Ağbalta dəstəklədi, qonşu türk qəbilələrinə, altı günlük məsafədəki qazaxlara xəbər göndərdi.

Neskaranın ac qalan altı min əsgəri yolunu azıb Cakıbın qışlağı olan Kenq-Arala keçərək yoldakı Monqolların yurduna basqın edib on min at ələ keçirmişdilər. Sayları beş yüzə çatmayan monqollar «haradan çıxdı bu vəhşilər, ya savaşmağın yolunu bilməyirlər, ya da acgözlük edirlər» deyə onların arxasınca düşdülər.

«Ey, siz kimsiniz? Düşməniniz kimdir?» deyən heyvanları oğurlanmış monqol bəyi Caysanqbay at üstündə bağırdı.



Dil bilən sərt Basanqkul səsləndi:

«Ey, Cakıb bəyin aulu harada? Onu axtarırıq».

Caysanqbay cavab verdi:

– Ey, o, Qulan yaylasında. Onların ucbatındanmı bizim heyvanlarımızı talayıb aparırsınız? Onlar bir çöpünü belə yedirtməyən pis insanlardır. Qisasınız varsa onlardan alın, bizim heyvanlarımızı geri qaytarın.

Atları çox olan hiyləgər Cakıb oğlunu gizlədib yolumuzu azdırdı, bunun atlarını verib Cakıbı tutaq – deyə Neskara bir çarə düşündü.

«Ey, heyvanlarına dəyməyəcəyik. Bura gəl. Bizə Cakıbın oğlu Manası tap» deyə Basanqkul Caysanqı çağırdı. Basanqkul dedi:

– Bu qədər insanlar arasında yolu tanıyan birisi yoxdurmu? Yolu tanımadan ora gedib çıxmaq olarmı? Ey, atımı, aulumu yağmalasan belə Manas bahadırı ələ verməyəcəm.

Basanqkul Caysanqı tutmaq üçün qovaladı. Monqolun oxçusu Sart Basanqkulu vurub atından saldı. Onun öldüyünü görən Neskara Monqolların üzərinə yeridi. Çinlilərin əsgərləri çox olduğundan Caysanq auldan çıxıb qaçmağa məcbur oldu.

Neskara Monqolların aulunu yağmaladı. Kişilərinin başını kəsdi, on beş yaşındakı qızlarından yüz otuzunu, qara qaşlı gözəl gəlinlərindən iki yüzünü seçib qənimət olaraq götürdükdən sonra dəvələrini bağırdaraq, eşşəklərini anqırdaraq yola düzəldilər.

* * *

Cakıb xəbər verdikdən sonra davul çalındı, qırğzlar bir nəfər kimi ayağa qalxdı. Cakıbın auluna sığınan Altaylı türklərdən və digər qəbilələrdən ordu quruldu, Ağbalta sərkərdə oldu.

Manasın idarə etdiyi altı yüz nəfərlik ordu dağ keçidinin ağzında Neskaranın qabağını kəsdi. Birdən-birə peyda olan ordu Neskaranın altı min dörd yüz əskərini çaş-baş qoydu, onlar arxalarına belə dönüb baxa bilmədilər.

Manasın ordusu Kalmık-Çin sərhəddində Neskaranı yarım gün saxladı, sonra Altaylı türklər, qazax, nayman, moğol, uyşunlardan ibarət böyük bir ordu Manasa yardım etməyə gəldilər. «Ya öləcəyəm, ya görəcəyəm... Manasın başını Esen xana çatdıracağam» deyən Neskara qəzəbləndi.

Kök Çoloqunu mahmızlayıb ortaya çıxan bəyaz saqqallı Ağbalta dedi:

– Ey, Neskara div! Qanlı qəzanın lənəti, andı vardır. Oyunu qurulduğuna görə oynayaq. Tək-tək çıxaq!

Çinlilərdən Danq-Danq adlı pəhləvan Ularboz atını oynadıb, ucu polad mızrağını uzadıb, qazan boyda gürzünü əlinə alıb ortaya çıxdı.

Qırğız tərəfindən Moğolun azman bahadırı olan Künös pəhləvan gürzünü götürüb nərə çəkərək ortaya çıxdı. İki bahadır mızraq oynadıb bir-birlərinə həmlə etdilər. Tərəflər bir-birlərinə üstün gələ bilməyib dayandılar. Mizraqdan bir şey çıxmadı, gürzə əl atdılar. Gürzləri əllərindən çıxdı. Əyilib götürmək istədilər. Danq-Danq pəhləvan atının ayağı yerə saplanan zavallı Künösü vurub yerə saldı. Künös öldü. «Qüvvətli divinizi öldürdüm. İndi əcəli gələn çıxsın» deyə Danq-Danq boynuna tökülən saçlarını düyüb atını ortada oynatdı.

Bunu görən igid oğlan Kökçö nərə çəkib meydana atıldı.

«Ey, ey, oğlum, dayan bir!» deyə Aydarxan oğlunun atının cilovundan yapışdı, «sən hələ uşaqsan, pəhləvan gücünə yetməmisən, on altı yaşındasan, bu işə qarışma. Onu mənim öhdəmə burax, kafirə mən cavab verəcəyəm».

Kökçö atasının sözündən çıxa bilmədi, atının başını çevirib üzüntülü halda yerinə qayıtdı.

Soylu Aydarxan Altay qazaxlarının həqiqi bahadırı idi. Əlinə mızrağını alıb atını qamçılayaraq Danq-Danqa bütün gücü ilə hücum çəkdi. Aydarxan Danq-Danqın uzatdığı mızrağı onun bədəninə sapladı.

Bu əsnada çinlilərdən Küdöng adlı pəhləvan Aydarxana həmlə etdi. Hirsi başına vurmuş, canını ovcuna almış bu pəhləvanı – Küdöngü görcək Aydarxan qaçdı. Bunu görən Manas dözə bilməyib, əlindəki bayrağı Ağbaltaya verib Ağqula atını səyirdərək Küdöngə tərəf üz tutdu. Yetməyi ilə Küdöngü qalpaq kimi vurub yerə sərdi. Onların Iranqsoo adlı pəhləvanı Manasa tərəf mizraq fırlatdı. Manas onu bir həmlədə devirdi. Yerə düşən, uçuruma sərilən Iranqsoo mizraqla vurulduğundan qanı fışqırdı, Çinli oxçusu Manasa ox atdı. Bunu görən ər Manas ikinci yayı çəkincəyə qədər qılıncla Şanqmusarın kəlləsini uçurdu. Yaralanan atını bir kənara çəkərək əmisi Baya verdi. Bay dua etdi.

Manas Manas olandan, Manas adını alandan bəri, yaşı on üçə gəlincəyə qədər bunca düşmən öldürməmişdi. Bu qədər qan töküb, baş kəsməmişdi. «Gələcəyim yerə gəldim, gözləmədiyim şeylərlə üzləşdim» deyən ər Manas indi də arzuladığı Neskaranı gözlədi.

Qarşısına çıxanı sağ buraxmayan, on doqquz yaşlı Neskara Türk oğluna düşmən idi. Saçlar dağınıq, çuxur gözlü, yastı burunluydu, burnunun hər dəliyi on iki şibe, qırx monqol girib oba qura biləcək qədər böyükdü. Div Neskara Çabdan qamçıladı.

«Sən qırğız oğlusansa, mən də çinli oğluyam, mənim nəyim əskikmiş, canını alıb, qanını içərəm» deyə Neskara dağ keçidini aşıb bağırtı ilə hücuma keçdi: – İndi Neskaranın igidliyini görərsən! – söylədi.

«Mərə kafir, səni cəhənnəmə göndərəcəyəm, qırğızları yox etməkmi istəyirsən, yox etmək istəyən bahadır sənmisən? Oyacağam gözünü, sökəcəyəm ödünü» deyə ər Manas Ağqulasını qamçıladı. Manası xətalardan qoruyan göydə buludları aşaraq süzən Alp Qara Quş idi.

Ər Manas döyüşməyi öyrənmişdi, getdikcə qüvvətlənirdi. Manasın heybətindən qorxan əlli div qaçıb gedərkən Neskara zırpı canından umudunu kəsib, atını qamçılayaraq əsgərlərinin ətrafında dolaşdıqdan sonra qaçdı.

Manas «Qaçanı qadınlar belə məğlub edər» deyə bəyaz mizrağını möhkəm tutaraq onun arxasına düşdü.

Çabdar şeytan kimi uçan heyvan idi, altı min əsgəri altı dəfə dolaşdıqdan sonra qaçdı. Manas Ağqulanın belinə yataraq qaçan Neskaranı yaxalamaq üçün çapırdı. Qaçan Neskara öz-özünə deyinirdi: «Dünya qurusun. Esen xanın məni bilə-bilə ölümə göndərdiyini niyə anlamamışam? Çinlilərin qutsal kitabındakı «Manas heç bir düşmənə basılmaz» sözlərinə niyə inanmamışam?»

Neskara əsgərlərindən uzaqlaşaraq qara yola girdi, o Pekinə tərəf qaçarkən gözləri ataş kimi qızardı, tükləri ördək kimi pırpızlandı. Ağqula adlı atı ilə onun arxasınca düşən Manas adlı igid yetişib Neskaranın kürəyinə sirli mizrağını vurdu. Sirli mizraq kürəyinə saplanmış vəziyyətdə div qaçmaqda idi... Neskara atını yuxarı sürdü, yorulmuş Ağqula yoxuşda yıxıldı. Çox çevik olan Çabdar ağ buludlu göyün altmda bitən otların üzərində uçurdu. «Yerin dibinə girsən belə səni tapacağam» deyə Manas inadla Neskaranı qovurdu. Manas dağın arxasına burulanda atası Cakıb və Tuuçunakla qarşılaşdı.

– Dayan, oğlum, dayan! – deyə Cakıb yalvarışla Manasın arxasınca düşdü: – Çin əsgəri Neskara qaçdıqdan sonra, ordunun öndərləri öldükdən sonra əsgərlər təslim olublar. Boş yerə özünü yorma.

Manas nəfəs aldı və ordusunun yanına döndü. Neskaranın ordusu Manasın hökmü altına girdi, bayraqları endirildi. Monqolların Neskaranın əsgərləri içərisindəki dörd yüz civarında Sartın malını, mülkünü ələ keçirdiyini eşidən Manas bərk qəzəbləndi:

– Ey, Monqollar, ağlınızı itirmisinizmi? Əsirlərin malını alaraq vəziyyətinizin düzələcəyinimi düşünürsünüz? Bunları görən nə deyəcək? Onların malını geri qaytarın!

– Biz almışdıq! – deyə günahkar-günahkar, utana-utana dilləndi igid Umot.

Manas: – Kinin, küdurətin varsa mərdi-mərdanə, igid kimi savaşaraq qalib ol, mala-mülkə aldanmayın. Nəfsiniz tox olsun. Mal toplamaq ər işi deyil. Mal lazımsa məndən alın. İstədiyiniz qədər ala bilərsiniz.



Monqol öndərləri Cakıbın yanına gəldilər:

– Manas mərdlik edib bizi ölümdən qurtardı. Ona tabe oluruq və bizə öz ağlı ilə qalib gəldi. Doğru danışdı, səhvlərimizi üzümüzə vurdu. Monqol igidləri açıq ürəklidirlər. Düşmənlərdən çox çəkdik, dost kim, düşmən kim, qohum kim imiş öyrəndik, gözümüz açıldı. Siz ata-babadan adət-ənənəsi olan millətsiniz. Altaya yolunu azan bir ovuc Monqolu qanadlarınızın altına alın. Əliniz altında xidmətinizdə olarıq.

Manas dilləndi:

– Sizlər yaxşı niyyətlə gəlsəniz bizim üçün yad olmazsınız. Qohumluqdan qalmayın. Yediyimiz yemək, içdiyimiz su eyni olacaqdır. Göyün altındakı torpaqları dağıtmayaq, genişləndirək. Bir xalq olaq.

Cakıb Tanrıya dua edib bozqısrağı kəsdirdi. Neskaradan qalan qəniməti Manas neyləyəcək deyə düşünən xalq axşama qədər maraqla gözlədi. Manas Neskaranın əsgərləri arasındakı qızlara, qadınlara və uşaqlara toxunan, mal-mülkünü yağmalayanları qələbəlik xalqın gözü qabağında edam etdirdi. Onların atlarını, əşyalarını yağmalanan adamlar arasmda bölüşdürdü. Altı min üç yüz çinli əsgərinin silahlarını, atlarını qənimət olaraq alıb onları sərbəst buraxdı:

– Başçınız başını götürüb qaçdı. Sizin canınıza xətər toxunmayacaqdır. «Gedirəm» desəniz yol, «qalıram» desəniz-yurd. Sizi döyməyəcək, sizi söyməyəcəyik. Bizə qatılıb təbəəmiz ola bilərsiniz.

Əsgərlərin yarısı «öz yerimizə dönəcəyik» dedi. Manas onlara belə dedi:

– Esen xana söyləyin: Göyün altnda yaşayırıqsa bir gün görüşərik. O zaman bahadırlar kimi danışarıq.

Üç min altı yüz çinli əsgər diz çökərək yalvardı:

– Manas bahadır, sən Əlevkə ilə Esen xanın qorxduğu qədər cəsur bir igidsənmiş. Bizi qəbilənə qəbul et, qəbilənə girək.

– İstədiyiniz qəbul olsun! Qəbiləmizə girmək istəyənlərə qapımız açıqdr! Xalqa yardımçı, Manasa yoldaş olun. Sizə kin

bəsləməyəcəyik – dedi Ağbalta.

Aul başçısı Ağbalta qırğızlara qatılan çinlilərə yata biləcəyi yer, yeyə biləcəyi yemək, minə biləcəyi at verdi.

Monqollar başı bəla çəkmiş, amma ruhunu itirməmiş qəribə bir xalq idi. Onların Quldur adlı başçısı Manasın yanına gəldi:

– Bundan sonra kökümüz bir, xalqımız bir olacaqdır, Manas. Gənc olsan da qəhrəmanlığına söz yoxdur, yetişmisən. Sən yalnız Cakıba, ya da qırğızlara yox, Altaydakı bizim kimi başsız, dağınıq xalqlara da gərəksən. Ərən yanında ər ordusu olmalıdır. Tənha ağac gözə dəyməz. Lazım bilirsənsə hər qəbilə başçısı qırx ailədən qırx oğul çıxardıb sənə can yoldaşı kimi versin. Sən bu uşaqları orduna qat. Onlar hər işdə sənin yanında olsun, ölümə də bir yerdə getsinlər, onlar sənin kölələrindir. Onlar qüvvətli olarsa sən çinar kimi olarsan! Ağabəyim Künös pəhləvanın intiqamını Neskaradan aldın. Mənim də Geqambay adında bir oğlum var. O, sənin yoldaşlarından, uşaqlarından biri olsun. Yanına al!

Cakıbın aulunda məskunlaşan Altay türkləri, Kanqaylılar, Monqol, Alçın, Uysun, Arqın, Qazax, Noyqut qəbilələrinin başçıları Quldurun sözünü haqlı bilib Manasa can yoldaşı vermək istədilər. Böyük-kiçik bir araya gəlib qəti qərar qəbul etdilər.

Manas on dörd yaşına yetib yeniyetmə bir igidə çevriləndə sabahdan axşama qədər Altayı dolaşdı, qarşı tərəfdə Opol dağını, Kanqayın təpələrini aşıb, çayları adlayıb, meşələri keçib, özünü ovçuluğa verib yoldaşları ilə on-on beş gün yoxa çıxırdı. Bir dəfə Manas yeddi yoldaşı ilə bərabər on bir gün yoxa çıxanda Cakıbın ürəyi durmadı, yollara boylanıb dilləndi:

– Onlardan xəbər-ətər yoxdur, yoxsa oğlum yaramazlıq edib kalmıklarla tutaşdığı üçün başında bəla var? Elə deyilsə niyə gecikdi?

Quru keçidə çatanda qarşısına göy dəmirdən zireh geyinmiş, əlində mizraq tutan, belinə qılınc bağlayıb, çiynindən tüfəng asan bir sürü əsgər çıxıb Cakıbı ortaya aldılar:

– Cakıbın oğlu Manası tanıyırsanmı? Bizə bələdçilik edib



onun auluna apar, – dedilər.

Bunların dost olmadığını sezən Cakıb karıxmayaraq soruşdu:

– Adətimizə görə böyüklərə salam verilir, adı-sanı söylənir. Bu adəti bilirsinizmi, haralısınız?

– Danışma, qoca! Əvvəlcə özünü tanıt – deyə əsgərlər onu dövrəyə aldılar.

– Adım Berdikədir. Atam türkdür. Əslimiz Altaylıdır. Cakıbla düşmənik. O, Manası aradan götürsəydiniz bizim də canımız qurtarardı. Bizə göz verib, işıq vermir – dedi Cakıb və soruşdu:

– Bəs siz kimlərdənsiniz?

Anladı ki, Esen xan on bir əsgəri seçərək göndərmişdir. Kalmıklar, çinlilər bu qırğızlarla döyüşsə hamı dağa-daşa qaçıb canını qurtaracaq. Başqa çarə tapmaq lazımdır. Xaqan Çin-Maçinin hər yerindən bacarıqlı pəhləvanlardan on bir igidi seçib göndərmişdir. Esen xan belə demişdir: «O Manası ya zəhərləyib öldürün, ya da əl-ayağını bağlayıb hüzuruma diri gətirin. Əks halda geri dönməyin!»

Əsgərlər «xanımızın göndərdiyi adamlarıq, elçiyik» deyə yola çıxmışdılar. Cakıb əsgərləri başqa səmtə yönəldib öz auluna gəldi. Gördüklərini tədbirli Berdikəyə, aul başçısı Ağbaltaya, qardaşı Baya və digərlərinə danışdı. Sonra əlavə etdi: – Bu çinlilər, kalmıklar Manası sağ buraxmayacaqlar, ona kin bəsləyirlər. Ağlıma bir şey gəlib. İndii türk oğulları ilə qırğızların qəbiləsi böyüyüb. Düşmənlər ehtiyat edir. Auldaklardan birinə pul və heyvan verək. Qəbul edərsə qan ödəncini ödəyək, «Manas budur» deyə çinli və kalmık elçilərinə yaxalandıraq. Beləcə rahat olaq.

Bu sözləri eşidən Bay dərhal Cakıba qarşı çıxdı:

– Sözlərinə fikir ver, əzizim! Atalarımız heyvan satsa da can satmamışlar. Hansı insan öz doğmaca oğlunu pula-paraya satar?! Bu gün qırğızın yurduna fəlakət gətirəsi düşmən yoxdur. Karıxma. Altı min düşmənə cavab verən Manas üçün bu on bir əsgər nə imiş ki?

Cakıb çaşqın vəziyyətdə fikrə gedirkən həmin on bir əsgər

Manası ortalarına almış vəziyyətdə gəldilər. Manas isə onları vecinə almayaraq, məğrur dayanmışdı.

Bunu görən Cakıbın halı dəyişdi, dili tutuldu – atamı soruşurdunuz, bax bu kişidir – deyə Manas əsgərlərə Cakıbı göstərdi.

– Ey, bir az əvvəl bizi yolumuzdan azdıran bu kişidir, yaxalayın, başına dəri geyindirin – dedi əsgərlər.

Dörd əsgər vaxt itirmədən Cakıbı yaxaladılar. Cakıbın sözünü dinləməyən əsgərlər dərhal onun əllərini bağladılar.

– Ey, əsgərlər nə edirsiniz? Dayanın! Xanın adamısınızsa mərifətiniz olsun! Onu dinləmədən nə edirsiniz? Məni qəzəbləndirməyin – deyən Manas atasını xilas etmək istədi. Əsgərlər çığır-bağır saldılar, «onun özünü bağlayın» deyib Manasa hücum etdilər.

Manas elə qəzəbləndi ki, gözlərindən od saçıldı, əsgərlərin dördünü birdən yaxalayıb göbələk kimi yerə sərdi, ondan sallanan beşini şil-küt elədi, ikisini bir əlində elə sıxdı ki, bir-birlərinə yapışdılar. Sonra dedi:

– Söz eşitmədiniz. Bunumu istəyirdiniz? Xanınız kişidirsə gəlsin, gücünü göstərsin, ondan qorxan yoxdur. Gedib özünə deyərsiniz.

Manas yarımcan qalan əsgərlərin qırmızı perçəmlərini (paqonlarını-A.C.) qoparıb üstlərinə atdı. Manasın yanında duran dəliləri əsgərləri dövrəyə alıb, atlarının quyruqlarını və yalmanlarını kəsdilər.

Cakıb bəy ocağını təzələdi. İkinci xanım Bəydövlətdən bir oğlu oldu, «Manasımın dayansa dağı, əyilsə dirəyi olsun» deyə adını Abikə qoydu. Cakıb bəyin sadəcə heyvanları deyil, nəsli də artdı, aulu genişləndi, çəmənlikləri uzandı. Qonşuları-kalmık, tırqot, monqollar ilə yerləri bölüşdü, sərhədləri dəqiqləşdirdi, daş qoyub üzərinə yazı yazdırdı, hərə öz yerinə sahib oldu.

Altaydakı uca dağların ətəkləri çox gözəl yerlər idi. Quzeyində Altun-Göl, güneyində Bargöl yerləşən bu dağlarda hansı quşdan, heyvandan desən var idi. Ər Manas ova çıxdı. Yanında qırx dəliqanlı igid vardı. Bir o qədər də yoldaş tapdı. Ov quşunu özü ilə götürdü, ceyran ovlamaq üçün yay da gəzdirdi, qurddan-quşdan vurub ürəyincə əylənmək istədi.

Manas və dostları Çarkasdan deyilən yerə çatıb ev qurdular, dəliqanlılar atlarını oynadıb cıdıra çıxdılar. İtlərini buraxdılar, yayı çəkib, oxu buraxdılar, quş vurdular, sunqur quşu oyunu oynadılar, sonra qurd, tülkü, mavi tülkü ovladılar. Güləşdilər, ip çəkib yarışdılar.

Uşaqlardan birisi böyük adam kimi danışmağa başladı:

– Biz də əlimizə mizraq alıb, qılınc tutub döyüşdük. İgidliyimiz qalmayıbsa gəncliyimiz də tükənib demək. Dostlar, artıq özümüzdən bir xan, yaxud da bəy seçməyin vaxtıdır, nə deyirsiniz? Ona itaət edib dediyini yerinə yetirək, belə birlik olmasa olmaz! – dedi Çegebay – hansınız bu fikrin tərəfdarısınız?

– Çegebayın sözündə həqiqət var, – deyə uşaqlar bu təklifi birlikdə qəbul etdilər. Belə qərara gəldilər ki, xan seçib ona tabe olsunlar.

Bu məqamda Aydarxan oğlu Ər Kökcö soruşdu:

– Elə isə kimi seçək, şərti necə olsun?

*Dərin düşüncəli, sözü keçərli Salamat oğlu* Aynakul xan seçiminə istiqamət verdi:

– Mənə qalsa bir şərt qoymaq gərəkdir. Hamınıza bir şərt qoyuram: Kim xan olmaq istəyirsə onun mindiyi atı dərhal qurban kəsəcəyik. Oldumu? İndii kimin cəsarəti çatır çıxsın qabağa.

Bir az əvvəl səs-küy salan uşaqların hamısı ağzına su alıb durdu. Heç birisi «Mən atımı qurban kəsirəm» deyə irəli çıxmadı.

Aynakul üzünü onlara tutdu:

– Hamınız varlı uşaqlarısınız. Amma bu şərtdən qaçdınız. Xan olacaq bir insan üçün bir at nədir ki? Atanızın oğlu deyilmisiniz?

Uşaqlar lal-dinməz dayanırkən Aynakul «Xan olmaq üçün atını kəsə bilərsənmi» sualını Mancuriyalı Şakunduya, Oşpurun oğlu Nazarbəyə, Əsgərin oğlu Çabakıya, Aydarxanın oğlu Kökçöyə, Paraqoco oğlu Kaldora, Anzarın oğlu Koyona verdi, heç biri atının kəsilməyinə razılıq vermədi. Axırda Aynakul uşaqların ən kiçiyi olan on beş yaşlı Manasa üz tutdu:

– Cakıb bəyin oğlu Manas bəy, sən nə deyirsən?

Manas dedi:

– Atını kəsib xan olmaq xalqımızın adətində yoxdur. Əgər ət yemək istəyirsinizsə Ağqulanı kəsək. Bunu sizdən əsirgəməyəcəyəm. Atı bura gətirin.

Bunu eşidən Çegebay dilləndi:

– Ağqulan zəifləyib, sümüyü qalıb. Bir tikə əti çıxmaz, onu qurd da yeməz. Cakıb bəyin qısrağını mən bəsləyirdim. Manas verirsə onu kəsək.

– İndi ki, belədir qısrağı kəsəyin – dedi Manas.

Uşaqlar Manasın qabağında boz qısrağ qurban kəsdilər. Əti-ni böyük qazana doldurdular. Manası hündür bir yerə çıxarıb «altun taxtın» deyə əyləşdirdilər, yanına göy bayraq sancdılar. «Manas bizim xanımızdır» deyə qışqırdılar. Səs səsə qarışdı:

– Xanımızı Tanrı qorusun!

– Var ol, Manas!

– Geniş çöllərin qurdu ol, Manas!

Uşaqalrın səs-küyü Çarkastanı silkələdi.

«Xana kömək edək! Onun igidlərindən olaq! Manası eşitməyənlər Altaydan kalmıkların yanına getsin» deyə sıraya düzülüb baş əyən uşaqları görən Manası gülmək tutdu. O, beləcə xan vəzifəsini yerinə yetirdi və dedi:

– Bunu istəməsəm də siz məni xan seçdiniz. İndi ki belədir sözünüz söz olsun! Sabah Altaydan o tərəfə keçəcəyik. Kalmıklara qədər bütün yolları yoxlamalıyıq. Yaxşı yerləri tapmalıyıq. Yolun vəziyyətini görməliyik.

Bundan sonra Manasın bir sözünü iki eləmədilər. Ertəsi gün səksən nəfər gənc igid Altayı aşıb yol getdi. Gözəl, səfalı yerlərdən keçdilər. Manas iki nəfəri kalmık və çin tərəfdən məlumat gətirməyə göndərdi. Təpələrə keşikçi qoydu. Kükrəyib axan Urkul çayı boyunca üç yol qovşağında, yamyaşıl meşədə üstündə min yuva qurulmuş xan çinarın kölgəsində dövrə vurub altı gün vəziyyəti yoxladılar. Yeddinci gün Manasın göndərdiyi uşaqlar geri dönüb məlumat verdilər. Esen xanın yüklənmiş qırx beş dəvədən ibarət karvanı gəlirdi. Altı şivə, on uyğur, on kalmık bu karvanı gətirirdi. Doqquz yüz əsgər Nuuker adlı bir bahadırın başçılığı ilə karvanın arxasınca gəlirdi. Bir təpəyə çatanda Nuukerin nəzərləri Manasgilə sataşdı. Yüz əsgəri onların üstünə göndərərək tapşırdı ki, əsgər olsa öldürün, uşaq olsa çıxın gəlin. Əsgərlər coşqunluqla axan Urkul çayının sahilinə yaxınlaşdılar. Çayı keçə bilməyən əsgərlər sahildə çaşqın vəziyyətdə qalıb o taydan baxan uşaqlara qəzəbləndilər:

– Görəcəksiniz, çayı keçib gözünüzü çıxardacağıq. Əsgərlər dən biri Nuukerə xəbər gətirdi ki, bəs çay daşıb, keçmək mümkün deyil. Bunu eşidən kimi o əmr verdi: – ölən suda təmizlənər. Diri qalan çayın o biri sahilinə çıxsın!

Suya girən yüz əsgərin iyirmisi çayda boğulub getdi, qalan səksəni sürünə-sürünə islanmış vəziyyətdə Manasa yaxınlaşdılar. Əsgərləri soyuqdan büzüşmüş, titrəyən vəziyyətdə görən uşaqlar at belində xısın-xısın gülməyə başladılar.

– Haradan gəlib haraya gedirsiniz? Qılıncı niyə gəzdirirsiniz? – soruşdu əsgərbaşı.

– Görmürsünüz əlimizdə quş, yanımızda tazı, belimizdə qılınc ova çıxan ovçularıq. Bəs siz kimsiniz? – soruşdu Manas.

– Çin xaqanının adamlarıyıq. Əsgərbaşı Nuuker sizi gətirməyə əmr etdi – dedi.

Manas soruşdu:

– Ey, Nuukerin igildləri, açıq danışın, kiminlə döyüşməyə gedirsiniz, kiminlə dost olmağa gəlmisiniz?

Döyüşçü dedi: – Off, bizim dostdan çox düşmənimiz var. Düşmənin kim olduğunu Nuuker başa salar.

Manas qeyz ilə qamçısını yerə vurdu:

– Elə isə söz qanmayan, mətləb anlamayan adamlarsınız.

– Ey, bu qırğızın sözü zəhərmiş, tutun onu – deyən Nuukerin bahadırı Manası göstərdi.

– Ey, məni tutub aparan sənmisən – deyən Manas iti qılmcıyla həmin döyüşçünün başını kəsdi. Səksən əsgər birdən Manasa tərəf şığıdı.

Manas dayandığı yerdən tərpənmədi. Uşaqlar əsgərləri məhv etdilər. Manas sanki heç bir şey olmamış kimi səksən igidlə birgə qaldığı yerə gəlib rahatca gecələdi.

Yüz əsgərdən bir xəbər eşitməyən Nuuker qoşununu yeridərkən qara çaya tuş gəldi. Manas və dəliləri çaym qarşı tərəfində dayanıb Nuukerin əsgərlərini saydılar. Manas dedi:

– Meşənin hər tərəfində ocaq qalayaq. Əsgərlərimizi çox bilsinlər.

Ertəsi gün Nuuker qovaq və söyüd ağacından sal düzəltdirdi, əsgərlərini çaya buraxdı. Dörd sal ilə suya girən döyüşçülər bir-birlərinə ilişib çaya töküldülər, çoxu suda boğuldu. Nuukerin adamları Manasdan soruşdular:

– Siz hansı xalqın uşaqlarısınız?

Manas dedi:

– Ehey, əcdadımız türkdür. Ulu babam Tüböy xandır. Babam Noqoy, atam Cakıbdır. Adım Manasdır.

– Bizim axtardığımız elə sizsiniz – deyə Kımkar adlı pəhləvan qılıncını sıyırıb Manasa tərəf gəldi.

– Bu düşmənlə döyüşmək yaxşı olmaz, onlara toxunmadan, sağ-salamat evə dönməyimiz məsləhətdir – dedi Kökçö.

– Ey, əzizim Kökçö. Əcəli gəlməyən ölməz. Xan taxt üstündə olmaz. Əsgərin çoxluğundan qorxma. Boş-boş danışma! Atlanaq – dedi Manas.

Manas hazırlaşıb təkbaşına döyüşə atılmaq istəyərəkən Aynakul qabağını kəsdi:

– Manas, sən xansan, xan döyüşə girmir.

Bu əsnada Manasdan məzəmmət eşidən Kökçö Kımkar adlı pəhləvanla döyüşürdü. Kökçö mizrağı ilə Kımkarı göy qatırdan yerə saldı. Bolçonq adlı bir əsgər gözlənilmədən Kökçönü vurmaq istəyərəkən ər Manas onu oxla gəbərtdi.

Bunu görən Nuuker dayana bilməyib atını Manasa tərəf sürdü. Manas da qorxmadan atını Nuukerə tərəf sürdü. Bu məqamda Kökçö dilləndi:

– Ey, xan Manas, sənə demədimmi sən xansan, döyüşə girmə, onu bizim öhdəmizə burax!

Bu zaman Kökçəyə kəmənd atan Nuuker onu atdan saldı. Yaxaladığı Kökçönü daşa çırpmaq istəyərkən Manas Ağqulasını sürüb Nuukerə yetişdi, onun çiyinlərindən yapışıb yuxarı qaldırdı. Kökçö Nuukerin əlində, Nuuker Manasın əlində gedirdilər. Manas Nuukerin başını üzəndə uşaqlar «Manas» deyə hayqırdılar, özlərini itirmiş düşmən əsgərlərinə hücum çəkib onları darmadağın etdilər.

Dağlar da «Manas, Manas» deyə hayqırdı.

Meşələr də «Manas, Manas» deyə əks-səda verdi.

* * *

Aydınq gölün kənarı. Göl mavi buz kimi parıldayırdı. Sivri dağların başı üstündən bulud karvanı gəlirdi. Ağ Otaqdan çıxanda göylərə dirənən Ulu dağın gün işığında qızaran təpələri, alov rəngli buludlar, yamyaşıl vadilər görünürdü. Göyün üzündə kiçik parçalara ayrılan, hərdən də köpük kimi şişib şəkildən şəklə düşən buludlar sürünürdü.

Dünyanın bu gözəl günündə, günəş dağların arxasından çıxanda Altaydakı qırğız Cakıbın aulunda zurna və davul çalındı. Təkcə davul çahnardısa bəd xəbərə işarə olunduğundan xalq tələşlanardı, zurnanın çalınması yaxşı xəbərə işarə idi. Sübh tezdən çalınan zurnanın səsi dağları yerindən oynadırdı.

Bu gün Cakıbın aulunda toy-bayram idi. Obadakı təpənin üstündə Kaşqar xalısı sərilmişdi. Noyqut, Totu və Sartların sorağı gəldi. Yurd başçılarının, türk qardaşların gələcəyi xəbəri yetişdi.

Çox keçmədən yurd başçıları, bəyzadələr Cakıbın bəyaz evinə toplaşdılar. Ağbalta sözə başladı:

– Ey millətim, hamımızın çəkdiyi sıxıntıları anlatmaq istəyirəm. Beli bükülən xanımız Tanrının köməyi ilə təzədən qəddini düzəltdi, qüvvətləndi. Təzədən kök atdıq,budaqlarımız tumurcuq bağladı. Az da olsa əsgərimiz var. Bizə sataşanlara gücümüzü göstərdik. İndi ətrafımızda düşmənlərimiz var. Baxıb dayanmayaq. Ayıq olaq. Özümüzü qoruyaq. Babamız Noqoy kimi bir gün fəlakətə uğramayaq. Keçmişdə babalarımızın sa-

rayı, xanı, bayrağı vardı. Xalqın qüvvətli xanı olmalıdır. Əgər məsləhətdirsə xalqa sahib çıxacaq birisini xan seçək.

Yerdən səslər gəldi:

– Afərin sizə, çox haqlısınız.

– Bilgə kimi danışdın. Xan soyundansan, Ağbalta.

– Yaşa, Ağbalta!

Gurultulu alqışlardan sonra ağsaqqallar söhbətə başladılar.

– Qalan sözü ağsaqqalımız Berdikə söyləsin, – dedi Ağbalta.

Aulun ən ağıllısı olan Berdikə ağ saqqalını sığallayaraq gələnlərə baxdı. Dedi:

– Altayın qəbilə başçılarının hamısı və türklər bir yerə yığışmışıq. Altı şəhərin adamı bir yerdəyik. Hansı kişilər kişisi, igidlər igidi, ağlı ilə yol açan, sözü ilə sirr açan, qılıncıyla düşmən kəsən «mən xan olacağam» deyə meydana çıxacaq?

İzdihamın qabağına «xan olmaq istəyən mənəm» deməyə cəsarət göstərib çıxan tapılmadı. Xalq gözlədi. Ağsaqqallar yerə baxdılar, cavanlar lal-dinməz durdular.

Berdikə dağı-daşı dolaşan uşaqlara, gənc igidlərə baxıb dedi:

– Bu günkü pöhrələrimiz sabah köklü-gövdəli çinar olacaqdır. Bu cavanlar arasmda xan olası kimsə yoxdurmu?

Uşaqların arasında Salamat oğlu Aynakul söz söyləməyə usta idi. Üzünü xalqa çevirdi:

– Millət, atalar, ötən günlərdə səksən uşaq yaraqlanb ova çıxmışdıq. Boz qısrağı kəsib Manası özümüzə xan seçmişdik. Bizim seçdiyimiz xan sizə yarıyacaqmı, bunu bilmədiyimiz üçün sakit dayanmışıq.

Berdikə nəşəli bir ovqatla sözünə davam etdi:

– Bu yaramazın sözünü eşitdinizmi? Gənclərin gözü yaxşı görür, niyyətləri sübh günəşi kimi təmizdir. Tanrım, uşaqların dilədiyini ver! Xalqın dilədiyini ver, qırğızın dilədiyini ver!

Ağbalta dilləndi:

– Ey millətim, qocalı-cavanlı burdasınız, deyəcəyinizi elə burda deyin. Qəlbinizdə bir şey qalmasın.

Bu məqamda Aslan Manas Opol dağı kimi heybətli şəkildə



yeriyərək ortaya çıxdı:

– Qısraq kəsib xan seçmək uşaqların işidir. Bütün xalqa xan olmaq başqadır. Türk övladları, hər millətin öndərləri və ağıllılar, hamınız buradasınız, məndən xan olmaz, başqasını seçin.

Manas ətrafına boylanıb ağsaqqal Berdikənin yanına gəldi. Berdikə altı qulac ağ keçəni yerə sərdi və dedi:

– Bizim dediyimiz məsləhətdirsə, əmrimiz yerinə yetirilirsə xanı belə seçək.

Bunu deyən Berdikə Ağbalta ilə birlikdə Cakıb bəyi ağ keçənin ustünə oturtdular. «İndi bildik ki, xanımız Cakıb olacaq» deyə ağ keçənin üstündəki Cakıb bəyi yuxarı qaldırmaq istədilər. Cakıb keçəni qaldırmaq istəyənləri saxladı:

– Dayanın! Xalqım, hörmətinə görə sevinirəm. Mənim kimi bir qocanı buraxıb belə cavan oğlum Manası xan seçin!

Cakıb gözlərindən yaş töküb ağlayaraq dayandı. «Bizi Altayda xalq edən Cakıbdır, bizi Altayda aslan edən Manasdır» deyə hayqıran xalq Manasın da bəyaz keçənin üstünə gətirilməsini və ata-oğulun birlikdə xan seçilməsini istədi.

Dalğalanan izdihamın içindən çırpınıb çıxan ağsaqqallar, alimlər Cakıb ilə Manası ağ keçəyə qoyub qaldırdılar. Cakıb yenə dilləndi:

– Ey, millət, məni dinləyin! Göydə bir ay, bir günəş olur, bu Tanrının qüdrətidir. Xalqın başında bir xan, bir bayraq olur – bu atalarımızın adətidir. Qoy xanımız Manas olsun, ondan yapışın!

Bu sözləri deyən Cakıb ağ keçədən endi, Manası xan olmağa namizəd göstərməsinə xalq da razı oldu. Yerdən səslər eşidildi:

– Manas!

– Manas! Biz səni Tanrıdan diləyib aldıq!

– Yaşa, Manas!

Manası ağ keçənin üstündə qaldıranda izdiham yarılaraq ona yol verdi. Qurbanlıq atlardan qırmızı qısrağı Manasın qabağında kəsəndə xalq sükuta dalmışdı. Manas başına qıraqları qızılla bəzənmiş, yuxarısı böyük xan qalpağını qoyub Toruça-

ara minəndə izdiham uğuldayırdı. Xeyir-dualar eşidilirdi:

– Məqsədimizə yetdik. Axıracan xan ol, Manas!

– Xan Manası Tanrı qorusun! Manas yaşasın!

– Düşmənin gözünə ox olsun!

Noqoy xandan miras qalan mavi bayrağı Cakıb otuz il dərilərə sarıyaraq yükün arasında birtəhər qoruyub saxlamışdı. İndi o bayrağı götürüb sapladı. Cakıb bəy «oğlum Manas xan oldu» deyə doxsan qısraq kəsib doqquz gün düyün düzənlədi.

* * *

Manas Bay ilə danışaraq igidlərini göndərib Kaşqar tərəfdən Bakayı gətirtdi. Qaplan Bakay qocaman dağ kimi əzəmətli idi, iti baxışları vardı, boynu buğa boynuna, budları dəvə buduna bənzəyirdi. Qanadlı ata oxşayan bir ata minmişdi, əyninə mavi əlbisə geyinmişdi. Sağ çiynində hər şeyi altı ay qabaqcadan xəbər verən, bilmədiyini bildirən, duymadığını duyduran mələk vardı. Açıq gözlü, təcrübəli, şirin dilli, heç nədən çəkinməyən ağıllı bir adam idi.

Manas Kalmık və Çini dolaşaraq dilini, sirrini, adətlərini öyrənən, sözü keçən bilgə Bakayı xalqın vəziri təyin etdi. Bakay dedi:

– Manas, səni görmək arzusu ilə on il dolaşdım. Daha səni tapmışam, başqa arzum yoxdur. Sənə dost olacaq bir insanı – Acıbəyi də özümlə gətirmişəm.

Arqının xanı Acıbəy atasından küsüb sarayını tərk etmişdi. Özü kimi Aslan ürəkli bir insan axtarırdı. Manasın igidliyi barədə eşitmişdi. Onu yuxuda görüb «bu igidlə qardaş olacağam» deyib yolun ağına düşmüşdü. Bu zaman Bakayla rastlaşmışdı. Ağıllı Bakay «igidin qanadı igidlə çıxar» deyə qara əlbisə geyinib qırmızı ata minən Acıbəyi Manasa silahdaş və qardaş olmağa layiq bilib özü ilə gətirmişdi. Acıbəy çatal saqqallı, qırmızı üzlü, uzun boylu, enli kürəkli, igid duruşlu, yenilməz söz ustası, yetmiş dil bilən, xan qarşısında susmayan bir insan idi.

Bakay Manasa belə dedi:

- Ətrafımıza bax. Keçmiş babalarının yolunu öyrən. Xanlığı iti qılıncla, nizəylə qoru. Yerini köksünlə genişləndir. Xalqını ağılla, igidliyinlə idarə et.



Sakitcə oturan insanları süzən heybətli Bakay yenə danışmağa başladı:

– Manas! Sənə bir məsləhətim var. Sənin doqquz baban xan olmuşdur. Doqquzunun da yanında qırx qardaşı, silahdaşı olmuşdur. O adəti yaşat. Meşələrimizi, çöllərimizi qoruyan igid oğlanlar arasından, eləcə də digərlərindən qırx yoldaş seç özünə!

Xan Manas deyilənlərdən nəticə çıxarıb yaxşıların yaxşısından, igidlərin igidindən qırx ərən seçdi özünə. Bu igidlər sırasında Monqol Caysanqı, Quldurdan Çalıbayı, Mancurdan Masiki, Kanqaylı Keldineyi, Danqitdən gələn Qayıb xanı, Daqalıxdan Munarı, yenə Altaylıların hamısından: Alçın, Uyşun, Nayman, Abak, Qırğız, Qıbçaq, Noyqut, Noqoy, Özbək, Totu, Nabat, Əndicanlı, Qazax, Qaraqalpaq, Döölöşü ətrafına topladı. Qırx igidə başçı qaplan təbiətli, qurd gözlü, ağır başlı, şirin sözlü Kırqıl təyin edildi.

Qırx igid Xan Manasın ətrafında dolaşdı. Manas göydən enən, düşməni təşvişə salan altı qılıncı igidlərinə bağışladı. Ən davamlısını özü götürdü. Xeyir-dua üçün qəmbərboz atların qulunlarından qırx igidin şərəfinə qurbanlar kəsdirdi.

Xan Manas babası Noqoydan qalan iti polad qılıncı götürdü-ota dəyəndə yandıran, daşa dəyəndə parçalayan, gecə qınından çıxanda od kimi közərən, düşmənə tərəf tuşlananda qırx yeddi arşın uzanan qılıncı; Açalbarsı Bakaya Verdi, qırx igid dizi üstə çöküb and içdi:

– Xanımız Manas! Xan ilə canımız bərabərdir. Əgər xana qarşı bir günah işlətsək, niyyətimiz pozulsa qoy uca Tanrı cəzamızı versin! Canımızı bu qılınc alsın!

İgidlər bir-bir qılıncı öpərək altından keçdi.

Manasın qılıncı altından keçən qırx igidin hamısı bahadır adlandırıldı. Hər birinə ağ otaq verildi. Hər birinin atları fərqli şəkildə bəzədildi.

Ər Manas ətrafında qırx igidi olmaqla talesiz qırğızın ocağını yandırdı, bir-birindən ayrı düşənləri qovuşdurdu, çevrəsini

böyütdü, Kalmık və Monqolu sakit bir vəziyyətə gətirdi. Əvvəlki zavallı millət artıq dərdlərindən qurtulub, bəyaz qalpağını geyinib «Tanrım, xan Manası qoru» deyə üzüntü və sıxıntıdan uzaq yaşamağa başladı.

* * *

Manas doqquz il bənzəri olmayan xan oldu. Manas taxta oturduqdan sonra xalqı möhtaclıqdan qurtardı, bahadırları çoxaldı. Altay, Qazax, Türk, Uyğur, Monqol və qonşu qəbilələr arasında etibar sahibi oldu. Qırğızlar onlardan qız aldılar, onlara qız verdilər, onları ata mindirdilər, onlarla mal-mülk dəyişdirdilər, karvan düzəldib alver etdilər. Manasın torpağı Altaydan Kaşqara, Kaşqardan Tibetə, Tibetdən Səmərqəndə qədər uzandı.

Manasın səltənətini Kalmık xanı Alookenin, Çin xanı Esen xanın, Mancu xanı Neskaranın gözləri götürmədi. Onlarda keçmiş kin-küdurət hələ də qalmışdı. Məğlubiyyətləri yaddan çıxmırdı. Odur ki, «baxarsınız, qırğızlar» – deyə qırğızları hədələməklə oradan çıxan bu xanlar öz aralarında belə məsləhətə gəldilər ki, «türkləri iplə boğmaqdansa onları bir-birinin üstünə qaldırmaq faydalıdır». Kalmık və Çinin rahib, sofi, qələndər və dərvişəlri casusluq edərək aulları dolaşdılar. Kaşqar, Monqol, Səmərqəndə gedən karvan qırğız elindən keçirdi, bunların çoxu Alooke ilə Esen xanın göndərdiyi xüsusi adamlar idi.

Qəddar Esen xan bir-birinə yaxın olan Türkləri, Uyğur və Kalmıkları Qırğızlara qarşı qaldırdı. Manasın gücünü, qəzəbini bilən qonşuları bu düşmənçilikdən vaz keçdilər. Esen xan quyuya düşən ayı kimi çırpındı.

Altaydakı düşmənlərin durumunu yaxşı bilən Manas Çin və Kalmıkların hərəkətini sezərək Kalmık ilə Qırğız sərhəddinə növbətçi qoyub ordusunu hazır vəziyyətdə saxladı.

Bahadır Manas səfərə çıxanda daha heybətli görünürdü. Qulağı qalxan kimiydi, gözlərindən atəş yağırdı. İri və qapaqlı gözləri vardı. Görünüşünə gəlincə, bir baxanda qaplana, bir baxanda aslana bənzəyirdi. Ağlının və gücünün mükəmməl olduğu bir yaşda idi.



## XAN MANASIN ZƏFƏRLƏRİ



Kalmık xanı Alooke Danqu şəhərinin hökmdarı Kayıp Danqı saraya çağırdı:

– Kayıp Danq, Qaraşəhərin xanı Manasın sonu gəldi. Şəhəri Tırqot və Monqollar tikmişlər. İçməli suyunu üç gün kəsdir, sonra ona zəhər qarışdır. Xalqını öldür, gecəykən qapılarını aç. Arxanca ordu girəcək-deyə əmr etdi.

Kayıp Danq bunu qəbul etdi, şəhər bələdçilərini çağırıb ertəsi gün Qaraşəhərin suyunu kəsdirmək üçün gizlicə adam göndərdi. Alookenin əmrini eşidən Kayıp Danqın rahibləri axşamüstü bu xəbəri Manasa çatdırıb əvəzində qızıl aldılar.

Manas elə həmin gün Qaraşəhərin suyuna zəhər qatmalı olan kalmık və xain monqolu öldürdü. O gün Danqu şəhərinə yürüş etdilər. Qadınlar, uşaqlar və qocalar şəhərdən qaçdılar. Kayıp Danqın qızı Qarabörk qırx qız ilə xalq arasında qalıb düşmənləri ilə vuruşdu, çox igidləri atından saldı. Qarabörk Bakayı da yaralamışdı.

Manas nişançı qızın igidliyini görüb onu diri tutdurub hüzuruna gətirtdi. Xan qızının gözəlliyini görəndə onu öldürmə-

yərək belə bir gözəllə evlənmək istədi. Qız atasının öldüyünü öyrəndikdən sonra «Manasa ərə getmək yox, atamın intiqamını almaq istəyirəm» deyə israr etdi. «Qız nazı ilə sevilər» deyən Manas Qarabörkün bu qarşıdurmasından, qəhrəmanlığından məmnun oldu.

Ələ keçən Kayıp Danqı qızının yanına gətirdilər, Kayıp Danq ilə Manas barışdılar. Üç qəhrəman dost oldu. Buğda toxumunu çeynədilər, əl tutdular, çubuq qırdılar, əllərindən qan çıxartdılar:

«Buğda ruzi-bərəkətdir. Buğda kimi təmiz niyyətlə yaşayaq. Bir-birimizə pis niyyətlə baxsaq çubuq kimi qırılaq. Düşmən üstünə bir gedək. Düşmənləşsək qanımız axsın!»-deyə bahadırlar Tanrıya üz tutdular.

Kayıp Danq böyük bir düyün düzənlədi. Bay, Ağbalta, Berdikə, Bakay başda olmaqla Danqu şəhərindən bu ziyafətə izzətli qonaqlar gəldilər. Xan Manas şanına yaraşan bir qaydada Qarabörk ilə evləndi. Kayıp Danq adətlərə görə Türk ustalarına qızı Qarabörk üçün on iki mərtəbəli ev tikdirib içərisini cürbəcür əşyalarla bəzədi. Bu evin gözəlliyini ozan Caysan yarım gün vəsf etməklə bitirməmişdi.

* * *

Günlərin birində Cakıb auldan altmış ağıllını bir yerə topladı, ağsaqallar məclisi qurdu. Əcəba, görəsən nə deyəcək, deyə hər kəs düşünməyə başladı. Qocalar qısraq kəsib tədbir olan evdə yerləşdilər. Dili bal, sözü şəkər Cakıb belə dedi:

– Gün görmüş qocalar, sizə söyləməli dərdim var. Görmədiyimizi gördük, içmədiyimizi içdik. Gəzdik, dolaşdıq. Gördük ki, Altay bərəkətli yer imiş. Başıboş dolaşmışdıq, indi canlanmışıq. Qurumuşduq, indi göyərmişik. Amma düşmənlərimiz çoxalır. Kalmık və çinlilər bizə gün verməyəcəklər. Halımız yaxşı ikən özümüzə yer axtaraq. Məsləhətdirsə hamımız Altaydan Ala Dağ və Əndican tərəflərə köç edək.

Aulun böyüyü Berdikə bu sözü bəyənmədi:



– Heyvanlarına yer dar gəldiyi üçün belə söyləyirsən hər halda. Düşmənlər artıq bizdən qorxub-çəkinməyə başlayıblar. İndi hara qaçmalıyıq ki? Qazandığımız malı-mülkü havayamı sovuraq?!

Qocaların sükutunu Bay pozdu:

– Cakıbın dedikləri doğrudur. «Qorumaq istəyəni qoruyaram» buyurmuş Tanrım. Ucsuz-bucaqsız sərhədləri olan çin əsgərlərinin sayı-hesabı yoxdur. Altaydakı qırğızm ordusu qüvvətli deyil. Bir gün gəlib bizi yox edə bilərlər! Şərqdə Sarı Arxa, Şimalda İdil, Nura Suyu, Opol dağı var. Oralar ata-babamızın böyüdüyü yerlərdir. Bu tərəflərə bir baxaq.

Bu əsnada Qəmbərin oğlu Aydarkan belə dedi:

– Başımıza bir iş gəlməyib, niyə köçmək niyyətinə düşmüsünüz? Yoxsa çinlilərmi gəlir? Yoxsa kanqaylı gəlir? Olum var, ölüm var. Hara getsək də əcəlimiz gələndə öləcəyik. Alnımıza yazılanı görəcəyik.

– Ay dünya! Göbəyimizin qanı tökülən torpaqdan yaxşı nə var!-dedi Bay.

Manas belə dedi:

– Millətim, düşmənin kölgəsindən qorxub qaçmayaq. Məni xan seçdiniz, xanın sözünü dinləyin! Babalarımız düşmənə qanını versə də torpaqlarını vermədi. Çinlilər torpaqlarımızı əlimizdən aldılar. Torpaqlarımızı geri alaq. Bunu bacarmasaq qırğız deyilik. Şərəfimizi qoruyaraq, intiqamımızı, torpaqlarımızı aldıqdan sonra Ala Dağa köç edək.

Manasın sözünü hamı bəyəndi.

Beş gündən sonra Manasın hüzuruna müxtəlif boylardan çıxmış səkkiz yüz min nəfərlik ordu gəldi, bayraqları dalğalanır, zirehləri parıldayırdı.

Manas ilk yürüşünü Altaydakı böyük xanın, yəni qırğızlarla zaman-zaman döyüşüb torpaqlarını zəbt edən Tekes xanın üzərinə etdi.

Xan Manas Tekes xana məktub yolladı:

«Tekes xan, qırğızlardan aldığın torpaqları geri qaytar,

igidlərimizin qan ödəncini, otuz ildən bəri aldığın vergiləri qaytar, əks halda üz-üzə gəl!»

Məktubu alan Tekes xan qəzəbləndi:

«Sürgündəki bir ovuc qırğızdan çıxan bahadır Manas budurmu?»

Tekes xan Kuyas adlı adamını Şərqdəki qırğızlara göz qoyub xəbər vermək üçün casusluğa göndərdi.

Tekes düşmənə qarşı tədbir görməkdə ikən yeddi gündən sonra casuslar gəlib:

– Qırğızlar bizdən əvvəl hərəkətə gəliblər-dedilər. Özünü itirən Tekes Kuyasa yalvardı:

– Kuyascığım, bir çarə tap!

Kuyas qürrələndi:

– Ələ keçirə bilmədiyimiz qırğız öz ayağı ilə gəlir. Əcəli gəlib deyəsən gəlsin görək!

Sehrbaz Kuyas gecəynən yola düşüb qırğızların hücuma keçəcəyi tərəfə yan aldı. Geniş dağ dərəsindəki otları, bitkiləri, söyüd və qovaq ağaclarının hamısını insan şəklinə salıb çoxlu əsgər kimi göstərdi.

Ertəsi gün Kuyas gəlib Tekesin könlünü ovutdu:

– Rahat ola bilərsən, çoxlu əsgər hazırlayıb sərhəddə yerləşdirdim. Gedib baxa bilərsən.

Tekes sərhədə gəlib baxdı ki, düşmənə qarşı döyüş vəziyyətinə gətirilən, əli toppuzlu və qılınclı pəhləvanlardan ibarət böyük bir ordu var. Tekes Kuyasın hünərindən məmnun olub «bunlarla qarşılaşan qırğızlar məhv olacaqdır» deyə qonşu xanlara xəbər vermədən, yardım istəmədən rahat yatdı.

Dördüncü gün Manas böyük ordusuyla Tekesin torpaqlarına gəldi. Ordubaşı Aydarkul Tekesin saysız-hesabsız əsgərləri ilə qarşılaşdığından çaşıb Manasa xəbər getdi. «Bu qədər kalmık əsgərinə gücümüz yetməz. Fəlakət olar» dedi bəzi qorxaq minbaşılar.

«Qaçaraq boynumuzun arxasından zərbə almaqdansa qarşılaşıb ölək»-deyə qəzəblənən Manas gedib baxmaq üçün təkbaşına o tərəfə üz tutdu. Bahadırı tək buraxmamaq üçün Bakay da ona qoşuldu. Yolda Bakay belə dedi:

– Manas, onların qarşısına mən çıxacağam, mən gedib baxacağam. Kalmıklar tutsa qoy məni tutsun, sən salamat qal.

Bakay düşmənə tərəf yol aldı. Sıraya düzülən kalmık əsgərləri tərpənmədilər. Bakay çaşıb qaldı. Bakay nizəsini uzadanda onlar da nizələrini uzatdılar. Bakay əlinə qılınc alanda onlar da eyni hərəkəti təkrar etdilər. Qışqıranda, qışqırdılar. Bunun hiylə olduğunu bilən Bakay rahat şəkildə gəlib vəziyyəti Manasa danışdı:

– Manas, mənim bildiyimi bildinmi, duyduğumu duydunmu, bu bir hiylə imiş. Kalmıkın sehrbazı öz ovsunu ilə yerdəki otları, qovaq və söyüdləri əskər şəklinə salıb, onlarla döyüşüb qalib gəlmək çətin olacaq-deyən Bakay gülümsəyərək bunu da əlavə etdi: – bu çinlilərin bilmədiyi hiylə yoxdur.

Qırğızlar yalançı əsgərlərlə döyüşmədən ayaqlarına barıt qoyub od vurdular. Barıt «çoxsaylı ordunu» yandırmağa başladı.

Manasın əsgərlərinin sarayına soxulduğunu görən Tekes xan yanındakı sehrbaz Kuyası öldürdü, özü də diri ələ keçməmək üçün ürəyinə xəncər saplayıb intihar etdi.

Manas Tekes xanın xalqını, minlərlə əsgərini saraya toplayıb belə bir əmr verdi:

– Çox bayraqlı igidlər! Göy Tanrının övladları! Tekes xanın əsgərlərinə toxunmayın! Kalmık əsgərləri xalqımıza istəyərək hücum etməmişlər. Bunların xalqını, malını, mülkünü talan etməyin! Əgər kimsə Kalmıkın, Tekesin xalqına pislik etsə cəzası ölüm olacaqdır!

Manas Aydarkanı yanına alaraq əsgərlərinə nəzarət etdi.

– Bu kalmıkların nəyinə yazığımız gəlməlidir ki? Bizə yazığı gəlməyənin günahı yoxdur məgər?-deyən əsgərlərin Manasdan inciyənləri də oldu.

Xan Manas Tekes xanın xalqını Tötönün keçidinə çağırdı. Yığışan Kalmıklara Manas belə dedi:

– Ey millət! Başmıza dərd gəldi. Bizi küsdürən, təhqir edən

xanınız ilə birlikdə onun mahiyyəti də öldü. Xanlığa alışmış xalq olmusunuz. Xansız, başsız gününüz qaranlıqdır, uğurunuz olmayacaqdır. İndi öz istəyinizlə özünüzə xan seçin, öz bayrağınızı daşıyın.

Manasın sözünü xalq bəyəndi. Bəyaz saçlı, gözlərindən alov yağan ağsaqqal Manasa yaxınlaşdı:

– Gənc olsan da kişisənmiş, igidsənmiş! Sənin kimi övladı olan xalq ölməz!

Bunu söyləyən ağsaqqal Kalmık bütlərinə diz çöküb dua oxudu. Kalmıklar da ona qoşuldu.

Xan olmaq üçün bir neçə bəy, bahadır və Danqın adı oxundu. Amma heç kəs xan olmaq məqsədilə irəli çıxmadı.

– Bir xalqdan bir xan çıxmazsa o xalq Tanrının qəzəbinə gəlmişdir demək. Qoca da olsa özünüzə bir xan seçin-dedi Bakay.

Qaraca adlı, yaşı səksəni adlamış bir qocanı xalq irəli verdi.

– Mən yaşlanmışam, yorulmuşam. Cavanlardan seçin!-deyən Qaraca xalqa təzim etdi.

Yerdən səs gəldi:

– Yaşlı olsan da ağıl səndən çıxdı. Kalmıklar yaşlılarına sayğılıdırlar.

Qaraca tərəddüd etdi, yanına Saykal adlı işvəli, nazlı qızı gəldi. Qız çubuq kimi incə belli, süd kimi bəyaz vücudlu, xoruz kimi boynu olan, udduğu boğazından görünən bir gözəl idi. O, atasına belə dedi:

– Ata, nə edirsiniz? Ölən Tekesin libasınımı geyinmək istəyirsən? Hökmdarlığa həvəsinmi var? Bu, heç yaxşı deyil.

Qaraca dilləndi:

– Övladım da razı deyil.

Bir qədər duruxandan sonra Qaraca üzünü xalqa tutub dedi:

– Ey millətim, mən sizə xan tapdım. Temir xanın oğlu Teyiş xan olmağa layiqdir. On səkkiz yaşında bir oğlandır. Teyişi xan seçin!

Qaraca qışqırtı ilə bu təklifi verərkən izdiham «Teyiş xan!» deyə uğuldadı.

Xan Manas bundan məmnun olmadı. Teyişi xan adətincə bəyaz keçəyə əyləşdirib hər tərəfindən tutub yuxarı qaldırdılar. Beləcə onu xan elan etdilər.

Temir xanın ən kiçik oğlu Teyiş xan atasının bəmbəyaz inci kimi gözəl şəhərinin idarəçiliyini ələ alandan sonra yeddi arxa dönənindən bəri görünməyən bir böyük tədbir düzənlədi. Kalmıklar bu dəfə Altaylara, Kaqaylara və Mancuriyadakı Türk qəbilələrinə, Qırğızlara, Monqollara və bir çox xalqlara özlərini əməlli-başlı göstərmək istədilər. Kalmık gəncləri və qocaları belə düşündülər:

– Türk qəbilələrindən nəyimiz əskikdir? Qırğızlar çox belə tədbirlər keçirib. Biz də Şərqdə bir gurultu qoparaq!

Teyiş xan qırğızlar üçün cıdır təşkil etdi. Yarışan qırx ata mükafat olaraq dəvə verdilər, qısraq kəsdilər, kımız içdilər. Xalq iki tərəfə bölünüb güləşməyə başladı. Qızğın döyüşdən qalib çıxanlar mükafat aldılar.

Tədbirin qızışan vaxtında bəyaz ata minmiş düymə saçlı, on yeddi yaşlı Kalmık qızı Saykal meydana çıxdı!

– «Saykal, Saykal!»-deyə yerdən bağırtılar eşidildi. – Tanrı sənə bərabər insan oğlu yaratmamışdır-deyib qışqırdılar.

Qız olmasına rəğmən doqquz qulac uzunluğunda nizə tutub, döyüş silahlarını qurşanıb, çevik atına minib meydana çıxan Saykal yenilməz bahadıra bənzəyirdi.

Saykal gözləsə də igidlərdən kimsə cəsarət edib onunla savaşa çıxmadı. Bu addımı yalnız əcəli gələn ata bilərdi, başqası yox. Qırğızlar Tekesin yanında bahadırları ilə ad-san qazanmış Saykalla savaşa çıxacaq bir insanın olmadığını gördülər.

– Bu qədər kişi arasında bir cəsarətli kişi yoxmu?! Qələbə mənimdir, mükafatımı verin!-dedi Saykal.

Qadının sözünü eşidəndə xan olduğunu unudub qüruruna sığışdırmayan Ər Manas onunla savaşmaq qərarına gəldi.

Manas leysan tökəcək bulud kimi kükrədi, savaş silahlarını qurşanıb, sirli nizəsini götürüb, Ağsarqıla qamçısını vuraraq

Saykal qızm qabağına çıxdı. Ər Manas gözəl, geniş alınlı, hamar sinəli, buğda gözlü Saykalı görüncə ağlı başından çıxdı, «Öldürməyəcəm, çox gözəldir, mənim alacağım qızdır» deyə düşünüb nizəsini ehtiyatla qızın sağ çiyninə uzatdı.

Həddini bilməyən qız döyüşməyə davam etdi. Bahadır Manasın sinəsini nişan alıb ona zərbə vurdu. Səndərləyən Manasm gözlərindən od sıçradı, mindiyi atı bir tərəfə çəkərək özünü düzəltdi. İkinci qarşılaşmada qız Saykal hayqırtı ilə gəlib Manasa nizə vurdu. Nizənin ucu Manasın qoltuğundan girib o biri üzündən çıxdı. İki div nizələri tullayıb böyür-böyürə savaşa keçdilər. Saykalın vurduğu nizənin qırığı hələ də Manasın bədənindən sallanmasına baxmayaraq o, utanaraq qızla döyüşünü davam etdirdi. Sağ tərəfindən həmlə edən Saykal Manasın yaxasından yapışanda Ər Manas «qadına basılıb orduyamı qayıdım» deyə qəzblənərək baltasını çəkib Saykahn üstünə atıldı. Qız qalxanı ilə özünü qoruyub Manası çaşdırdı. Qız Saykal qaplan Manasın sağ çiyninə zərbə vurdu, qamçıyla vurub onu atın üstündən aşırmaq istədi.

Bu əsnada Ağbaltanın aslanlarından biri olan Çubak atını ox kimi süzdürərək meydana çıxdı:

– Ehey, bu da oyun yox, döyüşdür!-deyib Saykalın mindiyi atın başına vurdu. Saykalın atı ürküb bir tərəfə sapanda Çubak Manasın sol çiynindən qaldırıb qəddini düzəltdi.

Bu zaman Ağbalta ox kimi süzüb meydana çıxdı:

– Qovğa qopacaq, igidlər, dayanın!

Bu əsnada kalmıkın Doqo adlı bahadırı Ağbaltanın üstünə gəldi:

– Ey, qırğızlar, bir qıza bahadırınız Manas rəzil oldu. Bir adamın üstünə ikiniz necə gəlirsiniz?!

– İki igid mücadiləyə çıxıb. Qalib, məğlub məsələsi var. Oyunu pozma!-deyən Çubak Doqoya tərəf əlini yelləyib gözdən itdi.

Qazaxlardan Aydarkan, qırğızlardan Bakay gözlənilməz olaylar meydana gəlməsin deyə araya hakim çıxartdılar. Teyiş hakim oldu. Hakim oyunu dayandırdı. Bahadır Manas bədəninə saplanmış nizəni ətindən çəkib çıxartdı. İgidin qoltuğu tərəfdə açılan yaradan qan axırdı. Bu, Manası gücdən salmışdı. Min cürə otdan hazırlanmış orcemin adlı məlhəm yaranın üstünə qoyulanda qan dayandı, Manasın gözləri açıldı.

Qəzəblənəndə qabağına çıxanı asıb-kəsən Manas hiddətlə Ağsarqıl atını oynadıb toz-duman qopararaq yenidən meydana çıxdı. Bunu görən qız Saykal da heç bir şeydən qorxmayan kişi kimi, dişi aslan sayağı hayqırdı. Manas özünü danladı:

– Niyə gözəlliyinə bənd olub bu qadına zəiflik göstərdim. Düşmənə yazığı gələnin özü yaralanır.

Sonra iki div savaşmağa başladı. Üçüncü dəfə tutaşarkən Saykal atın boynuna sürüşdü. Manas atının büdrəməyinə baxmayaraq Saykala nizə vurdu. Saykal özünü itirdi. Dönüb öz adamlarının arasına qaçdı. Manas Ağsarqıl atını çapıb onun arxasınca düşdü. Manas atasının yanında gizlənən Saykala yetişə bilmədi, əsgərləri yarıb ona yaxınlaşa bilmədi, atını oynadıb «bahadırınızı meydana çıxarın» deyə kalmıklara bağırdı.

Teyiş, Aydarkan tez-tələsik Manasın yanına gəldilər və belə dedilər:

– Bahadır Manas, mükafat sənindir!

Manas onlara bərk qəzəbləndi:

– Mənə mükafat lazım deyil. Qadına qalib gəlmədən millətin üzünə necə baxa bilərəm?!

Ər Manas Bakayı, Teyişi və Aydarkanı götürüb Qaracagilə yollandı. Gördü ki, Saykal qız savaş libasını çıxarıb, saçlarını açıb, yarasına məlhəm qoyur, amma qüvvətdən düşüb.

– Bahadır, sonunda qələbə sənin oldu!-deyə qəbilə başçıları, tədbiri hazırlayanlar Manasın qabağına çıxdılar.

Ölümdən qaçan Manas kimsəyə qulaq asmadı, inadından əl çəkmədi, heç kəsi eşitmədi:

– Saykala məğlub olmadan, ya da ona qalib gəlmədən geri dönəsi deyiləm! Onu çıxarın! Şərəfinizi qoruyun!

Qaraca bəy çox ağıllı, hazırcavab bir kişi idi. Vəziyyəti belə

görüb dedi:

– Bahadır etiraz etmirsə Saykalın atını Ər Manasa bağışlayaq, ona bir təskinlik osun.

Saykalın atını gətirən qoca belə dedi:

– Ər Manas! İgid bağışlayan olar! Bizi bağışla! Mükafat sənindir! Şərəf sənindir! İstəmirik qəzəblənəsən, bahadır!

Bu xoş sözlərdən sonra qəzəbi soyuyan Manasın ovqatı düzəldi və belə dedi:

– Dediklərinizi eşitdim. Hədiyyənizi gördüm. Hədiyyə böyüklərə yaraşır. Onu qocaman Qaraca bəyə bağışlayıram.

Toplaşanlar Manası alqışladı. Saykalın atının cilovundan tutan qoca Qaraca minnətdarlıq etdi:

– Yerin genişlənsin, qəbilən çoxalsın!

Ondan sonra qız Saykal Manasın gözünə görünmədi. Aslan Manas yaxşı niyyətlə ötən savaşı unudub qızın qəhrəmanlığından məmnun olaraq ürəyində «Tanrı qismət eləsə almalı qızdır» deyib Qaracanın evinə dönə-dönə boylandı, adamların arasında baxışları ilə qız Saykalı aradı.

Tədbirin tamamında yarışan atlılar gəldi. Manasın Ağqulası öncül olmuşdu. Manas Ağqulanın qazandığı mükafatı dörd qəbilənin adamları arasında bölüşdürdü.

Altı günlük tədbir bitəndən sonra Manas öz ordusu ilə atlanıb Aral tərəfə üz tutdu, yorulan əsgərlər fürsət tapıb dincəldilər.

Qara-Göl deyilən yeri Orqo xan idarə edirdi. Orqo xan Türk qəbilələri ilə az savaşmamışdı. Bu dəfə xəbərçi bəd xəbərlə gəldi:

– Altaylı qırğızlar indi baş qaldırıb boyun əyməyən qəbilələri özlərinə qataraq ordu qurublar. Turqut, Monqol, Uyğur və Kalmıkları sel kimi süpürləyib Çinə tərəf hərəkət edirlər.

Orqo xan davul çaldırdı. Adamları vasitəsilə sərhəd qonşularına, valilərə məktub göndərdi, onlara xəbər verib qoşun topladı. Həqiqətən Kalmık əsgərlərinin sayı yeddi yüz minə çatdı.

– Qırğızların bizimki qədər əsgəri yoxdur. Onların qabağını alacağıq!-dedi minbaşılar.

Orqo xanın ordusu saraydan bir qədər aralıda qırğızların yolunu gözlədi.



Sel kimi gəlməkdə olan Manasın ordusu göründü. Nəhayət, iki tərəfin əsgərləri bir-birləriylə burun-buruna dayandılar.

Orqo xan tərəfindən Atan deyilən pəhləvan çıxdı. O, iki gözü peysərində, başı keçə evi kimi, iki qaşı hirsli qara köpək kimi, boyu üç qulac, hər gün bir inəyi mədəsinə ötürən, hiddətlənəndə iki yüz pəhləvanı bir-birinə bağlayıb qaldıran div idi.

Orqo xan pəhləvan Atana üz tutub dedi:

– Pəhləvan Atanım, qırğızların Manas deyilən pəhləvanıyla ancaq sən bacararsan. Yalnız sənə güvənirəm. Onun öhdəsindən gəl!

– Qırğız kimdir ki? Günəşin dəydiyi yer üzündə məndən başqa pəhləvan varmı, əcəba? Parça-parça edərəm Manası! – deyərək pəhləvan Atan qılınc-qalxanını qurşadı.

Orqo xanın əsgərləri iki tərəfə bölünüb Atana hörmət üçün yol açdılar. Bu əsnada Orqo xanın əsgərlərinin içindən cılız bir qoca sıyrılıb çıxaraq pəhləvan Atanın yolunu kəsdi: – Pəhləvan Atan qocanı süzüb istehza ilə dilləndi:

– Ey, bu qarışqamı, insanmı? Yoxsa ayaq altında qalıb öləsi bir şeymi?!

Bunu deyən Atan atının cilovundan tutan qocaya təpindi:

– Çəkil yolumdan!

Qoca nazlanıb inad göstərərək Atana yol vermədi. Bu əsnada hirslənən Atan gücünü xalqa göstərmək üçün qocanı götürmək istədi. Atanın mindiyi at fınxırıb ürkərək qocaya yaxın getmədi. Pəhləvan Atan atını dəhmərləyib qocaya yaxınlaşdı və onun çiynindən tutub yuxarı qaldırdı. Bu zaman həmin qoca qiyamət qopardı. Pəhləvan Atanın belindən tutub mindiyi atın üstündən qaldırıb yerə çırpdı, sinəsindən basdı. Atanın başını ot yolurmuş kimi qopartdı. Qoca təmkinlə maral sifətli Dankaraya minib qırğızlara tərəf getdi.

Kalmıklar «bu qoca insandırmı, cindirmi» deyə çaşıb qaldılar.

– Yaşa, pəhləvan Köyüş! Kalmıklara görəcəyini göstərdin!-dedilər Manasın əsgərləri-ona yol verərək.

Baxdılar ki, həmin qoca qırğızların Köyüş adlı sehrbaz igidi imiş. O, səhər tezdən Kalmıkların arasına girib casusluq edirmiş. Axırda bir yolla Atam məğlub edib qayıtmışdı.

Özünə gələn kalmıklar Orqo xanın yanına qayıdaraq gördüklərini danışdılar və davul çaldırıb əsgərlərini qırğızların üstünə yönəltdilər.

Qızğın döyüş başladı. Qalxanlar parçalandı, qanlar töküldü, oxlar vıyıldadı, yer yarıldı, böyük bir gurultu qopdu.

Ər Manas Orqo xanı vurub yaraladı. Bayrağı devrilən xan öldü. Xansız savaşmağa cəsarət etməyən kalmık əsgərləri qaçdılar. Ər Manas Orqo xanın qaçan əsgərlərini təqib etmədi. Manasın ürəyində bir ağrı vardı-onun da bir çox əsgəri ölmüşdü. O, döyüşdən sonra qanla suvarılan bu yerləri görmək istəmirdi. Odur ki, Bakayın arxasınca çıxıb bu yerdən aralanmaq istədi.

Dişədiş savaşan iki tərəfin itkisi sonsuz sayda idi. Döyüş zamanı yağış kimi göllənmiş insan qanı ilə torpaq qırmızı çamur vəziyyətinə düşərək arx kimi axırdı. Yerdəki toz-dumandan göydəki günəş görünmürdü. Cəsədlər dağ kimi üst-üstə qalaqlanmışdı. Əcəli gələn igidlər ölmüşdü, dişləri ağaran atlar yatılı qalmışdı. Qırıq nizə, sapsız balta, qınsız qılınc, kalmık, qırğız qarışıq çamur kimi yoğrulub uyuyurdu.

Manas bu mənzərəni gözdən keçirəndə həlak olmuş cavanları gördü. O, dərhal buradan uzaqlaşmaq istədi. O, öldürməyi bahadırlıq hesab etmirdi...

Manas yedəyinə aldığı atını buraxıb Bakaym yanına gəldi. Ömründə ağlamayan zavallı igid gözləri yaşla dolmuş vəziyyətdə başını ağabəyinin çiyninə qoyub acı gözyaşları tökdü. Sonra Bakaydan soruşdu:

– Ağabəy, bu qırğınlardan, bu döyüşlərdən nə zaman qurtulacağıq?

Görüb-götürmüş, ata mindiyi zaman yolçu, döyüşdüyü zaman əsgər olan Bakay belə mənzərəni dəfələrlə görmüş insan kimi heç çaşmadan bahadır Manasa belə dedi:



– Ər Manas, xalqının başını qurtardığın zaman savaşdan qurtulacaqsan.

Bahadır manas üzünə soyuq su səpilmiş kimi diksindi. Müdrik Bakay söhbətinə davam etdi:

– Qələbə düşməni öldürmək deyil. Qələbə xalqın azad olması deməkdir. Xalqı qurtarmaq kişilərin işidir. Tanrı bunu hər kəsin alnına yazmır. Nadir insanlarınkına yazır. Sənin alnına bu yazılmışdır. Nə zaman xalqmı muradına yetirsən, o zaman borcundan çıxmış olarsan. Səni bundan ötrü Tanrıdan istədi xalq. Ağlama! Sən kişisən, bahadırsan! Kişilər millətinin ocağını nizə və qılıncının ucu ilə genişləndirir. Xalq bahadırlığı, igidliyi həmişə yüksək dəyərləndirir və belə kəsləri dəstəkləyir.

Ertəsi gün xan Manas savaşda ölən igidlərini silahlarıyla birlikdə bir xəndəyə dəfn etdirdi. Hər birinə baş daşı qoydurdu, daşlar Opol dağı kimi əzəmətli idi.

Cırqalanqın boyunda, Ciluu-Suyun suyunda xan Manas igidlər qüvvətlənsin, atlar dincəlsin, yaralılar yaxşılaşsın deyə üç gün üç gecə istirahət verdi onlara.

Göydə para Ay qalıb, çoban ulduzu görünərkən, dan üzü Orqo xanın xatunu Samankul xanım əvvəllər heç vaxt geyinmədiyi Qırğız libasını geyinib iki uşağını yanına alıb, saraydan bir-birinə bənzəyən on boz atı seçib, dilmancı Irmanı tərcüməçi kimi götürüb araba dolusu qızıl, ipək, qumaş və dəyərli hədiyyələrlə Manas xanın yanına gəldi.

Qırğızların adətinə görə oğlu Qaratayı qabağa çıxarıb Iramanın oğluna şeir söylətdi və beləcə dəbdəbəylə qaydanı yerinə yetirdi.

Samankul xanım xan Manasın önündə təzim edib belə söylədi:

– Bu həyatda qara ilə ağ, gündüz ilə gecə, pislik ilə yaxşılıq bərabərdir, xanım! Ərim ölüb dul qalsam da dünən oğlum xan taxtına əyləşdi. Əksik olmayın, qayda bilən xansınız. Mən baxtsızı öldürmək istərsən, buradayam. Başımın bu qarışıq vaxtında gəldim, Manas!

Xan Manas xoş niyyətli, ağıllı danışan qadının rəftarından

məmnun oldu:

– Bir qadın xan önünə sayğıyla gəlirsə onu bağışlamaq olar, xatun. İki oğlunuz yanınızda yardımçınız olsun! Şəhəriniz hüzr içindədir, qayğılarınızla məşğul olun, rəhbərlik sizin əlinizdə olsun.

Iramanın oğlu Bahadır Manasın igidliyini, mərdliyini, Samankul xatuna öyərək şeir söylədi. Manas söyləyicini çox bəyəndi. Odur ki, Samankul xatuna üz tutub dedi:

– Xatun, əgər izn versəydiniz bu oğlan bizi sabah axşam əyləndirərdi.

– Olar, olar, bahadır-deyən Samankul xanım öz şəhərinə dönüb oğlu Qaratayın başına bəylik tacı qoydurdu. Iramanın oğlu isə bahadır Manasın qırx igidindən biri oldu. Onu Irçı oğlan deyə çağırdılar.

Opol dağının ətəyində, otuz çayın qovşağında-səfalı bir yerdə yerləşən Surlu şəhərini Akun qırx beş il xan olaraq idarə etmişdi. Doqquz yolun qovşağındakı bu şəhərə hər xalqdan gələn karvanlar əksilməzdi. Ticarət inkişaf etdikcə xalq zənginləşmişdi. Şəhər rifah içindəydi. Akunbeşimin Kalmık və Çində hörməti vardı. Tekes xan ilə Orqon xan qardaş kimiydilər. Yedikləri içdikləri bir, əsgərləri bir idi. Bir-birlərinə dəstək və yardımçı olaraq yaşayırdılar.

Bunu bilən Manas «Tekes xandan sonra Orol xan rahat durmayacaq, bir fəlakət başlayacaq» deyə Akun xan tərəfinə dil bilən adamlarını göndərib yol-izin vəziyyətini və düşmənin hərəkətini öyrəndi. Akun beş-altı gün öncə yola növbətçi qoyub, əsgər toplayıb aşağıdakı kalmık və çinlilərə məktub yazıb möhürləyərək xəbərçisi ilə göndərmişdi.

Tədbirli qoca bundan dörd ay öncə Tekes xana belə demişdi:

– Qırğızlardan pislik gələcəkdir. Esen xandan əsgər alıb savaşa erkən başlayaq.

Tekes xan isə arxayınlıqla demişdi:

– Bizim ordumuz qırğızların hücumunu dəf edib onların dərsini verəcəkdir.



Akun xan uşaqları, qadın və qocaları şəhərdən çıxarıb aşağı göndərdi. Surdan görünən bir yerdə qırğız ordusunu gözlədi. Baltaya bənzəyən bayrağı, köksündə zirehi, başında dəbilqəsi, əlində toppuzu, yanında qalxanı, belində qılıncı olan əzəmətli bahadırları, pəhləvanları topladı.

Manas ağsaqqalları, ağıllıları, qırx igidini və sərkərdələrini bir yerə yığıb dedi:

– Tekes xan və Orqo xanı həmişə bizə qarşı qısqırdan Akun xandır. Kenq Çüydən Altaylıları qovub, torpaqlarını işğal edib. O torpaqları geri alaq!

Manas altı igidi ilə yollara baxıb gəldikdən sonra belə dedi:

– Minbaşı, dəstələrə ayrılıb ayrı-ayrı hücuma keçək. Boşboşuna qırılmayaq.

Dəstə başçısı Kökçö, Urbu və Kırqıl seçildi.

Manas öz ordusunu dərədən-düzdən keçirmədən, dağ keçidindən deyil, dağ arxasından keçərək, kimsənin gedə bilmədiyi sərt yollarla vaxtından qabaq Akun xanın şəhərinə yetişdi.

Akun xanın ordusu düşmənin önünü kəsmək üçün çoxdan tədbir tökmüşdü. Savaş ər savaşıydı. Neçə igidin qanı töküldü, neçəsinin kəlləsi uçdu.

Ər Manas Kalmık bahadırı Tulus ilə qarşılaşdı. Tulus haykürçünün biriydi. Adəti üzrə bağırmağa başladı:

– Aslanın deyil, Tanrı olanın gəlsin, qırğız!

Dərsini verib kökünü kəsəcəyəm, göyə baxdırıb inlədəcəyəm. Son nəfəsində Tulusun qəhrəmanlığını anlat xalqına!

Bakay Ağbaltaya dedi:

– Başabəla Tulusun nizə oynatmaqda usta olduğunu eşitmişdim. Tulusun qarşısına Manas çıxsa yaxşıdır. Qız Saykal ilə döyüşdən sonra belə düşünürəm ki, Manas xan oldum deyə bahadırlığı unutmasın.

Tulus göy dəmirdən zireh geyinmişdi. Əzəmətli bir qalxanı vardı, əlinə göy mizrağını, öküzün belinə bənzəyən yayını aldı. Qaplan kimi heybətlə atını mahmızladı.

Manas Ağqula atına minib ayaqqabısını buduna keçirdi,

belində qılıncı sallanır, baltası parıldayırdı. O, ağ sunqur quşu kimi bağıraraq meydana atıldı.

– Manas dedikləri sənmisən? Başını qoparacağam! Əcəlini mən gətirəcəm! Əzərəm səni!-deyə hayqıraraq Tulus gürzü Manasa vurdu.

Çevik Manas Tulusun vurduğu gürzü qalxanıyla dəf etdi. Qəzəblənən Manas hay-küylü bahadır Tulusun Ağalbars ilə sağ əlini kəsdi, qaçmaq istərkən də baltasıyla vurdu.

Kalmık və Çinlilərin on iki pəhləvanı qəzəblənib Manasın üstünə cumdular. Hər iki tərəfin əsgərləri savaşa atıldılar.

Qanlı döyüş, ölüm-dirim savaşı iki gün, iki gecə davam etdi. Qırğızlar Akun xanın əsgərlərini toz-dumana qataraq məhv etdilər.

Məğlub olduğunu anlayan Akun xan əsgərlərini, qərərgahını buraxıb qaçdı. Manas Ağqula atına qamçı vuraraq Akun xanın ardınca düşdü. Bəyaz alınlı, sivri qulaqlı, qasırğa kimi hikkəli Ağqula Akun xanın atına yetişdi. Bahadır Manas yetişib-yetişməz mizrağını oynatdı. Arxasından yetişən qırx igidin biri Aynakul Akun xanın başını qılıncla uçurub mizrağının ucuna keçirdi və xanın maraqla gözləyən ordusunun qarşısına gəlib fırlatdı.

– Qırğızlarla döyüşmək istəyən düşmənin sonu bax, budur-deyə hayqırdı Aynakul. Əsgərlər tamam təslim odular. Manas dedi:

– Bizim düşmənimiz Akun xan idi! Zəfər və şərəf bizimdir! Yetər! Qocalara toxunmayın!

Manas əsgərlərini Akun xanın şəhərinə soxulmağa qoymadı, onun malına-mülkünə toxunmağa imkan vermədi. Bahadır Manasın hədəfi Alooke idi. Öz-özünə düşünürdü:

– Alooke, Alooke! Bir vaxt gələr, Tanrım səni mənim əlimə verər. Atalarımın intiqamını alaram. Əndicanı xilas edərəm. Dünyanı başına yıxaram.

Altaya mavi bayraqlı qələbəlik ordu girdi. Çalınan zurna dağları silkələyirdi. Bu, bahadır Manasın öz auluna zəfərlə döndüyünün ehtişamı, işarəti idi.



* * *

Ər Manas Altayda günəş işıldayarkən, bəyaz çadırın arxasındakı təpədə oturub Ağbaltaya dedi:

– Göz bəbəyim, ustadım Ağbalta əmi, Ala-Dağa köçək deyib durursan. Sən görmüsən, amma mən dədə-baba torpaqlarını görməmişəm. Ala-Dağda Kalmık var, vəziyyəti bilmədən necə köç edək?! Xanın məsuliyyətini kim daşıyacaq?!

– Oğlum, Manas! Sözündə həqiqət var, haqlısan. Altaya gələndən bəri Ala-Dağdakı qırğızların yaşayıb-yaşamadığı haqqında bir xəbər tutmamışıq, nə də gedib axtarmamışıq. Mənə icazə ver, Ala-Dağa gedib gəzim-dolaşım, yolun solunu, sağını öyrənib qayıdım-dedi Ağbalta.

Manas dedi:

– Yol uzaq, aşılması çətin, əmi, yorulacaqsınız. Cavan olsaydınız bir şey deməzdim. Ora mən getməliyəm. Görüm necə yerlərdir. Köç edəcəyimiz yolu-yolağanı öyrənməliyəm. Xalqımı arayıb-axtarmadan kalmıklarla savaşaraq yaşamalıyammı? Dədə-baba torpaqlarını görməliyəm, soydaşlarımızı tapmalıyam. Üzünü görməsəm də Ala Dağın həsrətini çəkirəm.

Ağbalta Manasın söylədiklərini təsdiq etdi:

– Ala Dağa gedər olsan Kataqan xanı-əmin Koşoyun yanına get. Qırğızların əziz aslanı odur. Alookeyə başını verməyən, Ala dağdakı qırğızları birləşdirən, kimsəyə yenilməyən, nərə çəkib igidləriylə birlikdə düşmənin canma vəlvələ salan Ər Koşoya üz tut, onunla danış! Yeganə güvəncin o insandır, sənə yoldaş olacaq igid odur! Biz Altaydan getməliyik. Bu Altay bizə uyğun gəlmir. Çinlilər bizə düşməndir.

Manas dedi:

– Yanıma çox döyüşçü götürsəm Kalmıklar bundan şübhələnər və mənim olmadığımdan istifadə edib xalq arasında qarışıqlıq salarlar. Ova çıxmış kimi gedəcəyəm. Kutubəy sərkərdə kimi qalsın. Oralar sakitdirsə, yer varsa, mən qayıdandan sonra Ala-Dağa köç edərik.

* * *

Altaydakı şəfəqlər yenicə sökülürkən Ər Manas Ala-Dağ yolunu tutub göydəki ulduzları seyr edərək gedirdi.

Özü ilə ərzaq götürən Manas yaxşı yerlərə diqqətlə baxır, meşələri, kiçik təpələri, sıra dağları, aşırımları keçib yorulmuş Arqımak atının üstündə oturub al-əlvan çəmənliklərdən iz salaraq maralı qoyun qədər olan bərəkətli Qarqıra ilə rastlaşdı. Qarqıranı keçdikdən sonra uca dağların dövrəsindəki göz yaşı kimi büllur Issık – Gölü gördü.

Bahadır Manas atdan düşüb məğrur-məğrur dayanan Ala-Dağa, gözəl, füsunkar Issık – Gölə doyunca baxdı, diz çöküb torpağı öpdü, üzünü Tanrıya tutdu.

– Ulu Tanrı, vətəni görməyi mənə nəsib etdiyin üçün, sənə şükürlər olsun! Ala-Dağım, mənə güc ver! Issık-Göl kimi təmizlik ver! Dədə-babamın səhvlərini düzəldim, düşmənləri bu yerlərdən qovub çıxarım, xalqımı öz torpaqlarına toplayım...

Bahadır Manas göldə üzünü yudu, oynayıb-üzən balıqlara tamaşa etdi, sevincindən gözləri doldu.

– Ah, canım Issık-Göl, gəzdiyim yer sən deyilsənmi? Belə gözəl yer, belə göl harada var!

Manasın vücudu əsdi, özünü göydə uçan quşlar və sürünən buludlar kimi azad hiss etdi. Manas düşündü: Əgər buralar genişdirsə elə qırğızların qismətinə yazılan yerdir.

Ər Manas bu yerlərin sahibi olmuş dədə-babalarının ruhuna rəhmət dilədi, amma bu torpaqların indiyə qədər kalmıkların əlində qaldığına təəssüf etdi. Ağbaltanın göstərdiyi yolu xatırlayıb-əziz əmisi Koşoyun görüşünə tələsib dərələrdən sel kimi, təpələrdən yel kimi aşıb gedirdi.

Ağıllı Koşoy qocalığa boyun əymədi. O qədər dözümlü idi ki, hələ cavan oğlana oxşayırdı. Əvvəlki qocalığından, igidliyindən, düzgünlüyündən heç nəyi itirməmişdi. Qeyrətli Koşoyun yarı yaşındakı dostları isə qüvvətdən düşmüş, yerindən qalxa bilməyən, ata minə bilməyən bir hala gəlmişdilər. Evlərinin yanında oturub hürüşən itlərə, böyürən öküzlərə, kişnəyən



atlara baxırdılar – səssiz-səmirsiz...Axşama kimi bürüşüb-bükülüb otururdular. Axşamçağı gəlinlərinin verəcəyi yeməkləri gözləyirdilər.

Koşoy xanın sallanan bəyaz saqqalı qızıl kəmərinə çatmışdı, baxışları iti, gözləri qaraquş gözü kimi diri idi, adətə uyğun hikmətli sözlər söyləyərdi, yeməyini nəzakətlə yeyərdi, zehni açıq idi. Onun adını eşidənlər «Koşoy xan», «Koşoy Ata», «Xan Ata», deyə çağırır və ona diz çöküb sayğı göstərirdilər.

Xan Koşoy alovlanan ocağın oduna baxırdı. Birdən əl atıb yan cibindən qurd aşığını götürdü və ayı dərisinə atdı. Aşığın istiqaməti yaxşı bir şeydən xəbər verirdi.

Bahadır Koşoy Manasın gələcəyini övliya kimi bildi.

At-Başını, Geç-Töbösünü ağuşuna alan böyük qalasını daşdan hördürən, şəhər quran, yeddi bölgədəki qırğızları bir yerə toplayıb xalqa çevirən əvəzsiz igid, ağıllı, qulağı dəlik, kəskin baxışlı Ər Koşoy xanımma gecə gördüyü röyanı yozdurdu. Koşoy xanın xanımı bəyinin kiminlə qarşılaşacağını öncədən deyə bilən qadın idi.

Xan Koşoyun söylədiyi belə idi:

– Gecə bir yuxu gördüm. Yuxumda qılıncımı gündoğana tərəf uzatmışdım, o tərəfdəki qara dağ ikiyə ayrıldı. Bu necə yuxudur? Əlimə qızıl bağlı bir qaraquş almışdım. Onu dünyanın dörd bucağına buraxmışdım. Ona kömək edən bir kəs yox idi. O bir aslanı ovladı. Bütün canlı varlıqları öldürürdü. Qırğızların çoxu onun kölgəsinə sığınmışdı. Bu nədir? Bu yuxunu yoz, xanım!

Xanım yuxunu belə yozdu:

– Bəyim, qınından çəkdiyin qılıncın Gündoğanı yandırması Altaya sürülən Cakıbın yeganə oğlu Manasın gəlməkdə olduğuna işarətdir. Cəsarətinə cəsarət qatacaq, sənə qol-budaq olacaq, bahadır Koşoy əmimdir deyə dünyaya xan olacaqdır. Uçurtduğun qaraquş qəhrəman Manas deyilmi? Açılan ətəyin bağlanacaq, quruyan bağların göyərəcək, sönən ocaqların alovlanacaq, ölən ruhun diriləcəkdir!

Xanımın sözü bitməkdə ikən çöldən Kutunay deyilən

növbətçi təlaş içində Koşoya xəbər gətirdi:

– Sevgili xan Koşoy, insana bənzəməyən alp gördüm, belə insan olmaz, qarşısına çıxan yaşamaz! Bənzəri görünməmiş bir adam gəlir. Boyu dağ boyda! Belə bir igid görməmişəm. Qara ağızlı qaplan kimi atılır. Quyruqsuz göy yalmanlı aslan kimi şütüyür.

Bu xəbəri eşidən Xan Koşoy sanki xanımı oğlan doğurmuş kimi sevindi:

– Tanrım göndərdi! Xızırın kömək etdiyi xalq imişik biz. Babalarımızın nəsli Ala Dağa gəlir, onu görəcəyimiz günlər də varmış!

Bunu deyən Koşoy atlanıb qonağı qarşılamağa çıxdı.

Koşoy əmi əlini gözünün üstünə qoyub aşağıdakı yola baxdı. Gördü qırğı kimi ata minən, ox keçirməyən paltar geyinən, dağın yarısı boyda əzəmətli bir aslan gəlir. O aslan Manasın elə özü idi.

– Tanrım, itirdiklərimiz tapıldı, bir ovuc qırğızın şərəfi beləcə qorunmuş oldu-deyə ağladı Koşoy, gözlərindən yaş axıdaraq.

Aslan Manas qarşısında görünən əsgərlərə heç məhəl qoymadan saymazyana gəlirdi.

Ər Koşoy ox keçirməyən polad paltarını geyinib atına minmişdi. Uzun bığları sallanır, gözləri çoban ulduzu kimi parıldayırdı. Qulaqları qalxan kimiydi. Döyüş silahlarını qurşanıb biləyinə altun çərçivəli baltasını taxaraq Opol dağı kimi əzəmətlə dayanırdı. O, Manasın qarşısına çıxıb salam verdi:

– Cakıb bəyin bircəsi, oğlum Manas, sağmısan? Çinardan qalan körpə budağım, atadan qalan övladım Manas, varmısan?

Ər Koşoy qollarını açaraq balasına sarılan quş kimi Manası bağrına basdı. Ağlayan Koşoyun göz yaşları qara yağış kimi yağırdı.

Bahadır Manas belə dedi:

– Ağsaqqalım Koşoy əmi, tədbirli ustad, övliya, yuxarı çəksəm köməyimsən, aşağı çəksəm dayağımsan! Ər əmim Koşoy, sağmısan?



Ər Manas Koşoyun iqamətgahına gələndə yer-yerdən ona salam verən xalq sevincdən «Manas!» deyə qışqırdılar.

Bahadır Koşoy dua edib qurban olaraq qısraq, ay buynuzlu inək kəsdi. Koşoyun qalasında böyük şadyanalıq oldu.

Ər Manas ilə Bahadır Koşoy gecə səhərəcən yatmadılar, bir-birlərinə başlarına gələnləri danışdılar. Heç bir şeyi ürəklərində saxlamayıb sıxıntılarını boşaltdılar.

Xan Koşoy Altaya gedən qırğızların xəbərini aldıqdan sonra nə edəcəyini bilmədi. Gülsünmü, ağlasınmı-bunu bilmədi zavallı Koşoy!

Ər Koşoy Manasa belə dedi:

– Oğlum, Manas, mənim yerimi soruşsan Mediyanın çölündə, Övliyanın keçdiyi yerdə, Baabədin adlı bir ananın oğluyam. Baban Noqoy xan öləndə, kalmık və çinlilər qırğızları qamçı qabağına qatıb zülm verəndə başıma qırx igidi toplayıb kalmıklarla təkbaşına savaşdım. Neçə igidlər öldülər, qırx igidim də öldü. Mən yetmiş yerdən yaralandım. Yaxınlarım bundan xəbər tutmadı. Tək-tənha dolaşdım. Axırda kimsəsiz bir dağa çıxdım. Çeç-Töbödə özümə gəldim. Boş-boşuna dolaşanları bir yerə yığdım. Müxtəlif qəbilələrə mənsub insanları bir araya gətirdim. Qohum-əqrabam az olsa da ətrafımdakılar sağlam insanlar idi.

Peyğəmbərə bənzəyən Kataqanlı, ağ saqqallı Xan Koşoy «oğlum, Manas» deyə övliya kimi danışırdı:

– Tərki-dünya olub dolaşarkən fədakar qırğızların arasından sənin kimi bir igidin çıxacağına ümid bəslədim...

Qəhrəman, ağıllı Koşoy «oğlum Manas» deyə danışırdı, həm də aydın, anlaşıqlı danışırdı:

– Oğlum, nə zaman Altaydan köç edib öz yerinə gələcəksən? Öz xalqına nə zaman dirək olacaqsan? Təkbaşına qalan, sahibsiz qalan millətinə nə zaman sahib çıxacaqsan? Gəl Issık-Gölünü tap, bu yerlər səni gözləyir, qırx qəbilə qırrğızını ayağa qaldır!

Manas belə dedi:

– Axtardığım igid əmi, övliya sifətli imişsən. Səni görüncə canıma can qatıldı. Babalarımın Qarqırasını, Issık-Gölünü,

Ala-Dağını gördüm. Bir az təsəlli tapdım. Ala-Dağda məskunlaşan, qılınc qurşanıb kalmık, çinlilərlə savaşaraq yurdunu qoruyan qeyrətli qırğızları gördüm. Ürəkləndim, cəsarətim artdı, həsrətim bitdi. Koşoy əmi, indi Altayda bir yığın qırğız qalıb. Çinlilər çox, qırğız az. Qələbəlik çinlilərlə mən təkbaşına vuruşdum. Çinlilərdə qisasım qalıb. Mən o yerlərə qayıtmalıyam, onlarla döyüşü davam etdirməliyəm.

Bunu eşidən Koşoy üzüldü, gözlərindən yaş süzüldü:

– Aslanım Manas, sözümü dinlə! Qoynu geniş Ala-Dağı, dədə-baba torpaqların Tekes, Alay, Əndican, Yeddi-Suyu vaxt gələr görərsən. Çinlilər əsgər göndərib Altaydakı xalqına zülm etməsin! Nəslimizi kəsməsin! Oğlum eşit! Qırğızları toplayıb Ala-Dağa köç! Ölməyib sağ qalsam çox çəkmədən arxanca gəlib səni taparam, yer yaşıllaşanda, xalq məskunlaşanda, yaz gələndə qarşına çıxaram. İndi xəbər gəldi ki, çinli Esen xan «Qırğızları doğrayacağam» deyə savaşa hazırlaşır. Tələs, oğlum, tələs!

– Koşoy əmi, diləyin canıma qüvvət versin! Sözlərin düşmənə ox olsun! – deyə Tanrıya üz tutdu Manas.

İnsanları yaxşı anlayan Xan Koşoy Manasa diqqətlə baxıb onu sınadı:

Altun ilə gümüşün
Tozundan yaradılmış kimi.
Göy ilə yerin
Dirəyindən yaradılmış kimi.
Ay ilə günəşin
İşığından yaradılmış kimi.
Altı qalın qara yerin
Dayandığı dirəkdən,
Ayişığı altındakı irmağın
Dalğasından yaradılmış kimi.
Havadakı buludun
Kölgəsindən yaradılmış kimi.
Göydəki ay və günəşin
İşığından yaradılmış kimi



Ər Manasla kimsənin bacara bilməyəcəyi bəlli. Bəd nəzərdən, pis niyyətdən uzaq olasan-dedi Koşoy məmnunluqla. Xan Koşoy torpağa, suya üz çevirib Tanrıdan Manasa uğurlar dilədi, adətə uyğun xeyir-dua verdi:

– Qarşına kimsə çıxmasın, arxanca kimsə düşməsin! Qarşına çıxan düşmən mərd olsun!

– Gəldiyin yoldan getmə! Keçdiyin Sudan təkrar keçmə! Uyuyan ulu dağların üstündən uçaraq yuvana qayıt!-dedilər baxşılar davul çalaraq.

Ər Manas Altaydakı qırğızlar qoxlayıb qüvvət tapsınlar deyə dədə-baba yurdundan bir ovuc mamırlı torpaq götürüb belinə bağladı və Koşoy ilə vidalaşıb Altaya üz tutdu.

Arxası üstə yatan azman bahadırlar kimi uzanan Ala-Dağ sanki Manasa xeyir-dua verirdi.

* * *

Çin xanı Esen xanın altun sarayının dövrəsində ocaqlar qalanıb, davullar çalınan zaman bütün şəhər riqqətə gəldi, bir günlük məsafədə olan yerlərə xəbər yetişdi. Xan vəzirləri, sərkədələri, müdrikləri, uzaqgörənləri təlaşla saraya toplaşdılar.

Esen xan onlara üzünü tutub belə dedi:

– Bu quldur qırğızların üstünə devləri, pəhləvanları neçə dəfə göndərdik. Nə sağ qayıdan oldu, nə də qənimət ilə dönən. Bu yaxınlarda rahiblər qırğızların tək bahadırı olan Manasın Ala-Dağa köç etmək üçün yer seçməyə getdiyini xəbər verdilər. Fürsət yetişib. Qırğızları soyub soğana döndərməyinizi əmr edirəm. Xalqı yox olan kimi Manasın kökü kəsiləcəkdir. Tək ağac çinar ola bilməz. Minbaşı Coloy bahadıra ox batmaz zireh geydirəcəyəm. Ordubaşı yenə Mancu Neskara olacaqdır. Məsləhətçiniz görücü Qaraçay olacaqdır. Qisasımı alacaq bahadırlarım, öləsi olsanız qırğızlarla döyüşüb ölün! Onları məğlub edə bilməsəniz Çin səddini geri dönmək barədə düşünməyin!

Aləmi alt-üst edən Coloy adlı bahadır xanın önündə əyilib təzim etdi:

– Ulu göyüzü altında əvəzsiz olan mərhəmətli Esen xan! Hüzurunuza qırğızları yox etmədən gəlməyəcəyik. Manasın başını gətirib gələcəyik.

Ox batmaz, yumruq boyda düyməsi olan zireh geyinən, quzğun kimi şığıyan ata minən, poladbaş kalmıkların xan Coloyu ağzından duman, gözlərindən alov çıxararaq ordusunu hərəkətə gətirdi. Bu biçimsiz kafirin boyu-posu belə idi: saçları dağınıq, hirsli-hikkəli, qudurmuş donuz kimi, qaşları yanmış orman kimi, qalın dodaqlı, qısa boylu, dolu yanaqlı, geniş alınlı, bir buğanın ətindən doymayan əcayib bir pəhləvan idi.

Coloyun arxasında at oynadan pəhləvan Neskara, onun arxasında bəzədilmiş qatıra minən Döödür Alp, onun arxasında qırmızı qolsuz kürk geyinən nişançı Karaçoy qırğızların «kökünü kəsməyə» gedirdilər.

Saysız ordunun içində od-alovdn çəkinməyən divlər, pəhləvanlar vardı. Bir bölümü suvari, bir bölümü piyada olan, qarğı ilə silahlanmış əsgərlər, ox atanlar, baltaçılar, kəmənd atanlar, çox sayda nişançılar tozanaq qopararaq gedirdilər.

Çin xanı Esen xanın əsgərlərinin gəlməkdə olduğunu Altaydakı qırğızlar iki gün əvvəl öyrənmişdilər. Ala-Dağa-Koşoyun yanına gedən Manasdan xəbər gəlmədiyi üçün təlaşa düşən Ağbalta ilə Kutubəy bir-biri ilə danışaraq gündüz dincəlmədən, gecə yatmadan aulu Min Sudan keçirdilər. Ətraf meşələri dolaşırdılar. Ulu Dağdan yol salırdılar. Qüvvətli igidlər isə düşmənin qabağını kəsmişdi.

Kutubəy Oralma dağının burnunda durub düşmənləri gözləyirdi. Aman, Allah, qara qurd kimi çox sayda əsgər tozu dumana qataraq, yeri-göyü lərzəyə salıb sel kimi axın-axın gəlməkdə idi.

Kutubəy yaşıl düzənlikdən tapdığı Telkizil atını sağdan, soldan qamçılayaraq qırğızların yanına gəldi və vahimə ilə bu xəbəri onlara çatdırdı. Bu arada Cakıb hiddətləndi:

– Sizə demişdim əjdahanın ayağını basmayın, Çinlilərə toxunmayın. İndii məni bəlaya saldınız. Axırda görəcəksiniz...



Ağbalta, hanı sənin bizi Çinlilərdən qurtaracaq Manasın? O başıboşun harada olduğu məlum deyil! Səni qəhr olasan, xeyirsiz Ağbalta!

Ağbalta yerindən qalxıb belə dedi:

– Uzaqbaşı öləcəyik, Cakıb. Ölməyən kim var? Döşəkdə yataraq ölməkdənsə savaşaraq ölmək daha yaxşı deyilmi? Ölümdən qorxan igiddirmi? Dərdli başımız yerə girincəyə qədər Qara Kitay Mancu ilə çarpışmayacağıqmı? Manas bizi Kalmıklara qurban verməz. O, ya bunu bilmir, ya da yaxında deyil. Kalmıklara boyun əyməkdənsə döyüşüb ölməyimiz yaxşıdır! Qeyrətə gəlin, millət!

Kutubəy hayqırdı:

– Düşmənin qabağını kəsək! Qırğızları düşmənə təslim etsək aslana (Manasa – A.C.) nə cavab verəcəyik?!

Belə söyləyən Kutubəy ac aslan kimi gərilib dəmir nizəsini əlinə aldı, «Manas» deyə nərə çəkib təkbaşına özünü düşmən qoşununa vurdu. Sağa, sola baxmadan canını dişinə tutub düşmənlə burun-buruna gəldi, mizrağını iki sıra igidə sapladı, qılıncı qırılanda yayını çəkərək dişə-diş döyüşdü.

Yetmiş qırğız ailəsi içərisində düşməndən qaçan yalnız Cakıb oldu.

Ağbalta gələn düşməni görüb az sayda olan qırğız əsgərlərini idarə etdi.

Kükrəyən at kimi cövlan edən Coloy əlibayraqlı əsgərlərini Kutubəyə tərəf hərəkətə gətirdi. Oxlar dolu kimi yağdı. Düşdüyü yeri yandırıb-yaxdı. İgidlərin toppuzu və zirehi parçalandı.

Kutubəyin Telkizil atı çevik bir köhlən idi. Lazım olduğu yerdə qoşunun içinə özü girir, bəzən dörd ayağı ilə sırayıb igidlər kimi döyüşürdü. Lazım olan yerdə özünü qabağa atıb düşmənə fürsət vermirdi. Beləcə düşmənlə təkbaşına vuruşan Kutubəyi görən qüvvətli, cəsarətli Ağbalta «Canımız bir, qanımız bir, əcəl gəlmişsə bir yerdə ölək, ölməsək səni xilas edəcəyəm» deyə Kulagər atını qamçılayaraq dəli bir nərəylə özünü qoşuna vurdu.

Ay kimi sarı çöldə savaş yeddi gün çəkdi. Ər Balta yeddi

yerindən yaralandı, iki gözü dumanlı gördü. Cəsarətli Kutubəy doxsan yerindən yaralanıb qan içində qaldı. Əsgərlər qüvvətdən düşüb halsızlaşanda, çinlilər dəmir iplə kəmənd atıb onları tutmaq istəyəndə Ağbalta miskin bir halda vəsiyyətini söylədi:

– Əzizim Kutubəy, baxdım Manas görünmür, öləcəyik. Arzu etdiyim Ala-Dağa qovuşmadan öləcəyik, kafirin əlində öləcəyik.

Ağbaltanın sözünü eşidən Kutubəy sanki vücuduna bir şey batmış kimi diksindi:

– Ağbalta əmicanım! Bahadır sənin kimi ölürmü?! Kalmıklarla döyüşsək Balta əmim yardım edəcək, «düşmənin nəfəsini kəsəyin» deyəcək, düşünürdüm. İgidin əcəli igiddən gələr. Əmi, nə deyirsən? Qüvvətdən düşmüsənsə atın var, çap get savaş meydanından.

Sonra Kutubəy «dayan, əmi» deyə atını ona tərəf döndərib Ağbaltanın mindiyi Kulagər atın cilovunu əlinə keçirərək, irəli atıldı. Dağ aşırımını, dağları keçib onu (Ağbaltanı-A.C.) və özünü xilas etdi.

İki igid arxasına baxıb gördülər ki, qara kalmık və çin əsgərləri görünmürlər. Bu əsnada Ağbalta Kutubəyə övladı kimi yalvardı:

– Qurbanın olum, Kutubəy, sönən çırağımı yandırdın, ölən canımı diriltdin. Canım sənə qurban olsun. Ölməsəm xalqıma bunu anladacağam, əski Noyqut xalqına səni xan təyin edəcəyəm.

İgidlər dan üzü atların kişnərtisinə oyandılar. Buna sevinən təkcə Kutubəy ilə Ağbalta deyildi, onların atları da kişnəyib ayaqlarını yerə döyürdülər.

Göz qırpımında boz təpələrin üstündən birdən-birə boz qurd Manas günəş kimi parladı. Onu görən Ağbalta ilə Kutubəyin sönmüş çırağı yenidən yandı. Yenidən qeyrətə gəlib cəsarətlənən iki igid Çin və kalmık əsgərlərinin qabağını kəsib döyüşməyə başladılar.

Ağbalta kövrəldi:

– Ey, aslanım Manas, sağsanmı?! Ey yalan dünya, görəcəyimiz günəş, içəcəyimiz su varmış!..



– Balta əmi, sağsanmı? Köçənləri gördüm, xalq sağ-salamatdır, amma sizin ikinizi görmədim deyə, məyus oldum-dedi Manas.

Bu zaman Cakıb Toruçar atıyla sallana-sallana ortaya çıxdı. Manasa bu iki bahadırın çinlilərə göstərdiyi şücaətdən danışdı.

Cakıb bəyin sözlərini eşidən Ər Manas düşmənin üzərinə aslan kimi atıldı.

Bozqurd Manas sehirli mizrağını əlinə alıb dəli bir nərə çəkərək çinli və kalmıklara hücum etdi.

Manas və Cakıb gələn zaman Balta zirehini geyinib bəyaz qartal kimi hay saldı:

– Ehey, aslanım, sağmı gəldin? Burnu gicişən çinlilərlə döyüşüb əylənək! Bizimkilər uzaqlaşana kimi döyüşü davam etdirək, oğlum Manas, sözümü dinlə!

– Nə deyirsən, Balta əmi, -dedi Manas, kükrəyərək. Manas kükrəyəndə dağlar silkələndi. Üzünü Ağbaltaya tutub qəzəbləndi: – Səni qırğızların oxumuşu bilirdik, bəs bu sözlər nədir deyirsən? «Vur, qaç», döyüşü aparsaq «qırğızın Manası qaçdı» deməzlərmi? Bundan düşmən ürəklənməzmi? Arxamızdan qovub bizi bir-bir yaxalamazmı! Balta əmi, səni eşitmək istəmirəm. Əcəlim gəlibsə öləcəyəm!

Ağbalta utandığından yerə girdi.

– Görürəm, Ağbalta, heydən düşmüsən! Qayıt evinə. Əcəlim gəlibsə öləcəyəm! Mən bunlarla döyüşməliyəm. Bunlardan qisasımı almasam yaşaya bilmərəm!-deyən Manas dişlərini qıcayıb hiddətlənərək Toruçar atının başını çevirdi, kükrəyərək iki yanına göz gəzdirdi.

Qan itirməkdən üzülən Ağbalta halsızlaşdı, qorxdu, təlaş keçirdi, gözü doldu. O, əllərini qaldırıb Tanrıya yalvardı:

– Ey Tanrım! Bu Manas minlərlə əsgərin qabağına tək çıxdı. Yalqız at yoxuşdan çıxmaz. Manasım təkbaşına, başa çıxa bilməz. Göydə ay olmasa gecə necə olar? Çinlilərin əlinə fürsət düşsə yazıq qırğızın halı necə olacaq?! Qüvvətli çinlilərə məğlub olsaq adımız bədnam olacaq. Tanrım, güc ver! Yeganə boz-

qurdu qoru!
Ağbaltanı Manasın çorosu (dəlisi, igidi-A.C.) evinə apardı. Manas qınsız qılıncını qurşanıb yağışını tökməyə hazırlaşan bulud kimi qırxlar və Kutubəylə bərabər Toruçar atının başını çevirib gəlməkdə olan qələbəlik düşmənə tərəf yol aldı.

Çinlilərin cəsur igidi, təcrübəli, açıq göz Neskara aslan Manası görcək az qaldı özünü itirib atdan yıxılsın:

– Coloy dədə, bir buna bax! Mənim gördüyüm bu bəlanı sən də gördünmü? Odur, təpədəki atlını deyirəm, sir-sifətindən əcayiblik yağan bir igiddir. Qaplan kimi heybətli, aslan kimi qüdrətli görünüşünə baxdınmı? Onunla döyüşən çətin sağ qalar! Elə o, Manasın özüdür. Məğlub olası aslan deyil. Bu qorxunc qırğız sağ qalsa, görəcəksiniz, Pekini alt-üst edəcəkdir. Coloy, ağılla iş görək. Onunla döyüşməyək, ona at bağışlayıb hələlik çıxıb gedək. Sonra daha yaxşı əsgər toplayıb onunla savaşaq.

Coloy belə dedi:

– Böyüyümüz Esen xan göndərəndən sonra döyüşmədən geri necə qayıdaq. Qayıtsaq «Manasdan qorxub qaçmısınız» deyə boynumuzu vurdurmazmı? Bizə qalsa bu qan içənlə döyüşərdikmi? Ən yaxşısı budur ki, birlikdə hücuma keçək! Əsgərləri hərəkətə gətirək. Manasgil yorulub qüvvətdən düşən kimi yaxalayaq!

Coloy ilə Neskara əvvəlcə Manasın üstünə əsgərlərini göndərdilər.

Pəhləvan Qaracoyun başçılıq etdiyi min atlı, kərkədan minən Döödür Alpın başçılıq etdiyi min döyüşçü, Boroonçunun başçılıq etdiyi min yayçı, qılınc qurşanan min əsgəri idarə edən Neskara və Coloy əsgərlərin arxasından bağırırdı:

– İrəli! Məhv edin bu mənfur qırğızları! «Manası diri buraxsanız özünüzü ölmüş bilin» sözləri də eşidilirdi.

Pəhləvanlar bunları eşitdikcə qudurmuşcasına Manasa hücum çəkdilər.

Oşpurun oğlu Kutubəy kiçik yaşlarından Manasa sadiq



dost idi. Odur ki, üzünü Manasa tutub dedi:

– Can dostum Manas! Axıra kimi sənin yanında olacağam. Əcəl gələrsə birlikdə ölərik. Bu kafirlərlə qüvvəmiz tükənincə, ölüncəyə qədər savaşmalıyıq, Manas.

– Qarışqa kimi çinlilərin kökünü kəsəcyik! Çinli, kalmık, mancu savaşmadığımız, döyüşmədiyimiz xalq deyil ki! Məğlub etmədiyimiz xalq deyil ki!

Ər Manas qırmızı Toruçar atını oxkeçməz zirehlə çullayaraq çinlilərə qarşı nifrətlə döyüşə atıldı. Düşmən yer üzünü duman kimi bürümüşdü, göydəki ulduzlar qədər çoxdu. Çinlilərin çoxluğundan qara torpaq, göy və günəş görünmürdü. Bahadır Manas Toruçar atıyla döyüşə girib dağ kimi pəhləvanları qılıncından keçirdi, dalğa kimi gələn çinliləri tar-mar etdi. Hər yer toz-dumana bələndi, dağ dərəsində insan qanı çay kimi axdı.

Xızırın dualadığı qəhrəman Manas özünü qoşuna vurdu. Çinlilərin qırx pəhləvanını ortaya alaraq yağış kimi yağan oxlara məhəl qoymadı.

Qırx çorosunun (igidlərinin, silahdaşlarının-A.C.) öldüyünü Manas sonradan bildi. Uşaqlıqdan bir yerdə böyüdüyü, bir yerdə oynayıb, bir yerdə yatıb-duran, bir yerdə at çapan qırx dostundan ayrıldığı üçün, onları xilas edə bilmədiyi üçün Manasın gözlərindən yaş süzüldü, ürəyi göynədi.

Qəhrəman Manası indi görəydin ki, sağına, soluna, baxmadan, ölümü heç düşünmədən, qırx dostunun intiqamını almaq üçün dalğa-dalğa gələn çinli igidləri necə gəbərdir.

Çevik, şirin dilli, döyüşdə cəsarətli bahadır Kutubəy kalmıkların Borunçu adlı bahadırına nizəsini sapladı.

Bu bahadırın öldüyünə qəzəblənən Neskara və Coloy «Esen xanın yanına diri qayıtmayaq» deyə qələbəlik çinlilərə bağırıb Kutubəyi öldürməyi əmr etdilər. Kutubəy oxçuların, yayçıların, mizraqçıların dövrəsində qalınca həyatdan ümidini kəsdi.

Aslan Manas çarəsiz qalan Kutubəyi görüncə onu xilas etmək üçün qələbəlik əsgərin arasına girdi. Şöhrətli alp ərənləri atından saldı, qan axıtdı, kükrəyib coşdu.

Manasın əjdaha kimi heybətindən qorxan çinli bahadırlar qaçmağa başladılar.

Manasın hayqırtısı dağı-daşı parçalayırdı, nə qədər çinli və kalmık öldürərək bahadır Kutubəyi xilas etdi.

İki ərən qaçan düşmənə görəcəyini göstərdi. Biri mizrağı, biri qılıncı ilə.

Ölən atların leşi dağ kimi qalaqlandı. Bir o qədər də igid ölmüşdü. Ovalıqlar toz-duman içindəydi. Çala-çuxurlarda qızıl qan göllənmişdi.

Ölümdən qurtulan çinlilər isə nə edəcəklərini bilməyib qaçdılar.

Düşmən Altaydakı Qara Dağa dirənəndə çinli və kalmıkların bahadırı Neskara Manasın qabağına keçdi:

– Bahadır Manas, sözümü eşit! Qırğızlarda söz uludur. Aslanlığını gördük. İntiqamını aldın. Ey bahadır, biz sənə itaət etdik. Sənə atımız, başımız hədiyyə olsun! Başımızı kəsmək istəsən bax, buradayıq! Öldürmək istəsən, buyur, hazırıq! Əsil igidsənsə sözə gəl. Üç gün ara verək! Döyüşü saxlayaq. Bəyimiz, xanımızla danışaq! Əsgərlər qaçmaz. Üç gün sonra çinli və kalmıkların xanı deyə səni xan seçək! Xalqa xəbər verək! Qəzəblənmədən sözə gəl!

Neskara bu sözləri deyəndən sonra Manas üç gün ara verdi, döyüşü saxladı.

İlanı yuvasından çıxarmağı bacaran Neskara mavi libasını geyinərək əsgərlərinin yanına getdi, kalmık və manculların igidlərini, çinlilərin ünlü divlərini topladı:

– Bahadırlar, onu «üç gün ara ver» deyə saxladım. «Səni xan seçəcəyik» deyə inandırdım. Qoy bu fikir qırğızları yuxuya versin. Biz də Esen xandan əsgər istəyək. Əsgər toplayıb özümüzə gələk, hazırlığımızı görüb qırğızları qəfil ovlayaq.

Neskaranın sözünü eşidən əsgərbaşıları, döyüşçülər ona haqq qazandırdılar.

Neskara nişançı Qaraçoyu yanına çağırdı. Dövlət məmuru olan Qaraçoy gözəl ata minmişdi. Düşməni tülkü kimi ovlayan, atdığı ox iynənin gözündən keçən çevik Qaraçoy gəldi.



Neskara dedi:

– Bahadır Qaraçoy, artıq Çin tarixinə damğanı vuracağın zaman gəldi. Sənə at başı ağırlığında qızıl hədiyyə veriləcəkdir. Adın daşa yazılıb saraya hörüləcəkdir. Bu Manasın canı mindiyi atında imiş. Atından ayrı düşsə işi qolay olacaq. Bunu bacarmasan Esen xan bizi it kimi gəbərdəcək.

Qaraçoy söz verdi. Çinli və kalmıklar daşdan istehkam qurub düşmənə qarşı üç gün hazırlıq işləri gördülər.

* * *

Çinlilərin məqsədini Manas gec anladı.

Verilən vaxt tamam olanda-üç gün, üç gecədən sonra, dan yeri ağaranda çinli və kalmıkların qələbəlik ordusunda davullar çalındı, qarışqa kimi qaynaşan əsgərlər qırğızlara hücum çəkdilər.

Div Manas kəmərini bağlayıb bu boyda qoşunun qabağına təkbaşına çıxaraq düşməni mizrağıyla devirdi, baltasıyla parçaladı, izdihamı bölüb pozdu, aranı qarışdırıb əsgərləri çaşdırdı. Qəhrəman Manas kalmık bəylərini çaya tökdü, Kutubəy onların çoxunu məhv etdi.

Çaydan keçə bilməyən Coloy sahil boyunca sərsəm kimi qaçdı. Bəyaz ata minmiş Qaraçoy üç min əsgərlə canını qaçırmağa başladı. Çayın qırağında dayanmış Coloy keçidi əngəlləyib əsgərləri geri – döyüş meydanına qaytardı, qacanı öldürdü.

İki tərəfin əsgərləri çayın iki sahilinə ayrılıb bir-birlərinə ox atdılar, zirehlər parçalandı, şiddətli çarpışma getdi.

Qara dumana bənzəyən qələbəlik düşmənin qarşısında Manas dağ kimi dikəldi. Toruçar atını oynadıb düşməni alt-üst etdi. Canavar kimi atı Manasla eyni gündə doğulmuşdu. O, aslan Manasa layiq yorulmaz, iri dırnaqlı, geniş sağrılı, iti sürətli və çevik bir at idi. At boynunu əyərək qanadlı atlar kimi uçurdu.

Toruçarı görən Qaraçoy Manası gözdən qoymasa da fürsət tapa bilmədi. Kalmıkların Coloyu Manasın qarşısına çıxıb onu

Qaraçoya yaxınlaşdırmq üçün bir çarə düşünərək belə dedi:

– Su doldurulmuş tuluq kimi qabaran Alp Manas! Atların parçalayıb kökünü kəsən Coloy mənəm. İndi səni məhv edəcəyəm, yaxın gəl!

Bunu eşidən Ər Manas atını qamçılayaraq Coloya hiddətləndi:

– Qadın yox, kişisənsə, sözünün üstündə dur, aslansansa dayandığın yerdən qaçma!

Gözü qızan Ər Manas Toruçarını mahmızlayaraq Coloya hücum çəkdi. Qəzəblənmiş Manas bu dəmdə çinlilərin Qaraçoyuna fikir verməDİ. Bu girəvəni əldən verməyən Qaraçoy bir daşın dalında gizlənib Manasın Toruçarına ox atdı. Toruçar dağ keçisi kimi yerə döşəndi. Ər Manas atın üstündən cəld sıçrayıb onun başını qaldırdı. Atın ürəyinə sancılan oxu çıxaranda yerindən qan fışqırdı. O, ətrafındakı düşmən əsgərlərinə baxmayaraq uşaqlıqdan bəri bir yerdə olduğu dostu və sirdaşı Toruçar atından ayrıldığına çox kədərləndi.

Davullar çalındı. Coloy bağıranda Manas ətrafına baxıb silahını əlinə aldı. Onun cəsarəti heç kəsə zərrə qədər əhəmiyyət vermədən, kalmık, çinli, mancuya məhəl qoymadan gözlərindən atəş saçmasında idi. Çinlilər ona həmlə edərkən yanğına düşmüş kimi qaçdılar. Manasın silahına hədəf olanlar can verdilər.

Çinli və kalmık əsgərləri «onu diri tutacağıq!» deyə daş üstündə dayanan Manasa yaxınlaşsalar da toxunmağa cürət etmədilər.

Bu anlarda qaplan Manasın ağlına can dostu Çeç Töbüsündəki Xan Koşoy gəldi: «Xan Koşoy əmim, arxanca gələcəyəm, demişdi. Gəlmək zamanı gəldi. İndi gəlsə nə yaxşı olardı, təki unutmuş olmasın əmim».

Manas öz-özünə düşünüb-daşınırkən qarşı dağın arxasından burulan aşırım toz-dumana büründü. Dönüb o tərəfə baxanda gördü ki, insana bənzəməyən, əlində göy bayraq tutmuş bir ər gəlir – bu, bəyaz saqqallı qoca Koşoydur! «Əcəlim gəlmişsə öləcəyəm, Altaydakı Manasa kömək edəcəyəm, Cakıbı sağ-salamat Ala-Dağa gətirəcəyəm» deyən Koşoy Aymanboz atını Manasa hədiyyə vermək üçün yedəyinə alıb on iki min əsgəriylə onun köməyinə gəlmişdi.



Koşoy silahlı əsgərləri ilə lap vaxtında yetişmişdi. O, çinli əsgərləri görcək dəli bir nərə çəkib döyüşə atıldı. Xan Koşoy Daş üstündə sıxılıb qalan Manasa tərəf getdi-Aymanboz da yedəyində. Üzünü Manasa tutdu:

– Ey, qaplan Manas, yurduna gəlmişdim, kimsəni görmədim. Qırğızlar yoxa çıxıb deyə çox qorxdum. Belə pis yuxu gördüyüm üçün sənə yetişməyə çahşdım. Əsgərlərin izini tutub sənə tərəf gələ bildim. Qırx igidin öldüyünü gördüm. Səni sağ-salamat görəndə iki gözüm dörd oldu. Demək başın sağmış, indi ölsəm də qəm yemərəm. Atın ölüb. Bu Aymanboza min, görəcəksən ki, sənə layiq heyvandır. Tərkində savaş libası var, sənə hədiyyədir.

Gözlərindən atəş saçan Manas göydə axtardığım yerdə tapdı. Boz çəpkəni (Koşoy verən-A.C.) geyinəndə qayalı dağ kimi göründü. Ön tərəfi bəyaz altunla, arxa tərəfi başdan-başa gümüşlə bəzədilən monqol yəhərini Aymanbozun belinə qoydu. Ayağını üzəngiyə basmadan atın belinə atılan Manas yetmiş çinlini təkbaşına məhv etdi.

Manas, Koşoy və Kutubəy düşmənin əhədini kəsdilər. Çinli igidləri və bəylərinin cəsədləri çölü-düzü tutdu.

Ər Manas çinliləri qovub Altay çöllərində doqquz dağın birləşdiyi doqquz yol ayrıcına-quşun belə uçub keçə bilmədiyi dar yerə sıxışdıranda Koşoy xan Manasa dedi:

– Oğlum, Manas, məni dinlə! Atının başını geri döndər!

Manas qəzəbdən alışıb qocanı eşitmədi:

– Burax məni, əmi! Yolumu kəsmə! Gücümü gör.

Çinli, kalmık və mancuları əsir edək, məhv edək. Qisasımızı alaq. Xanlarının yanına qədər qovub nəsillərini kəsək! Əcəli gələn kafirlərə görəcəyini göstərək!

İxtiyar Koşoy atını sürüb Manasın atının cilovundan yapışdı:

– İgidim Manas! Məni eşit! Çinlilər böcəklər qədər çoxdur,

qan içməkdən çəkinməyən, ölüm nədir düşünməyən intiqamçı bir millətdir. Təkbaşına iş görən millət deyil. Pekinlə vuruşmaq üçün sənə əl-ayaq olan qırğızın yoxdur. Boş-boşuna təhlükəyə atılma! Bir il hazırlıq görüb adam yığıb yaxşı bir ordu qurarıq. Bundan sonra döyüşə çıxarıq, oğlum! Özünə gəl!

Manas və Xızır kimi yetişən ixtiyar Koşoyun əsgərləri çay kənarında gecələməli oldular.

Kutubəy adamlarını sayanda neçə igidinin öldüyünü bildi. Qırğızlar Tal-Məzardan, Qara Qırçından daş tapıb üzərinə şeir yazdırdılar, şəhid olan igidləri qızıl-gümüş kəmərləri, silah-sursatları ilə bərabər torpağa tapşırdılar.

Altayda, Orxonda qəbirüstü daşlara həkk olunmuş əliqılınclı alp ərənlərin xatirəsinə bu sözlər yazılmışdı: «Tanrım güc verdiyi üçün Xan babamın ordusu qurd kimi, düşmən qoyun kimi oldu. Tanrı buyurduğu üçün elliyi elsizləşdirdik, xanlığı xansızlaşdırdıq. Düşməni dustaq elədik, dizliyə diz çökdürdük, başlıya baş əydirdik. Bütün Türk xalqı üçün müqəddəs, qurdbaşlı qızıl bayrağı yüksəltdik!»

* * *

Ər Manasdan, qırğız ərənlərindən canını qurtaran çinlilər Pekinə tərəf qaçdılar. Qaçanların qabağında arabaya minən, yetmiş yerindən yaralanmış Neskara, altı yerindən yaralanmış Coloy, Qaraçoy və Döödür deyilən pəhləvanlar vardı. Onlar orduya baxmadan, yol boyu ah-vay içində, altmış gün gedərək dördü də gəlib çaşqın vəziyyətdə Esen xanın hüzuruna yetişdilər.

«Manası öldürüb, nəslini kəsib gəlin» deyə güvənib döyüşə göndərdiyi bahadırlarının bu halını görən Esen xanın saçları biz-biz oldu. Hiddətlə onların üstünə atılıb sinələrindəki bəlgələrini, başlarındakı dəbilqələrini qopartdı və hamısını xan sarayından qovdu.

Hər şeyin çarəsi olduğunu düşünən Esen xan kahinlə üç gün danışdıqdan sonra padşaha bağlı bütün ordubaşıları dəyişdirdi.



## ATA-BABA YURDUNDA



Qış oldu, yaz gəldi. Aradan bir il keçməsinə baxmayaraq Manasın, qırğızların üstünə nə kalmık əsgəri gəldi, nə də çin əsgəri. Bahadır Manas xalqını kalmık və çinlilərdən igidliklə qurtarıb birləşdirdi.

Yer yaşarıb, otlar göyərəndə otuz iki yaşına girən Manas gözünə ilişənlərə şücayətini göstərir, çöldəki qamışa bənzəyən bığları ilə buz kimi soyuq görünürdü. Evində üç gün, üç gecə qılıncına söykənib qaldı, heç yatmadı, kimsəni qəbul etmədi. Kalmıkların elçisi, İranin tacirbaşı və ərəbin karvanbaşı ilə də görüşmədi. Onun sirrini bilən qırx çorosu belə düşündü: «Bahadır boş-boşuna qəzəblənməz, nəsə olubdur. Ya Çindən xəbər almışdır, ya da birliyi olmayan, bir-birləri ilə çəkişən soydaş türklərdən bir şey eşitmişdir. Nə olursa olsun, bahadırı narahat edən bir şey var. Bu, bir fəlakət də ola bilər».

Manas sakitləşmədən kimsə ondan bir şey soruşmağa cəsarət etmədi, hətta müdrik Bakay da nəsə soruşmağa çəkindi.

Dördüncü gün Xan Manas türk qəbilələrinin bşçılarına,

sağlam düşüncəli qeyrətli kişilərə, sərkərdələrə «yeddi gün sonra gəlsinlər» deyə xəbər göndərdi. Xəbəri alan ağıllılar, yurdun irəli çıxanları, «mən qırğızam» deyənlər deyilən gündə Manasın auluna toplandılar.

Manasın bəyaz çadırı bu başdan o başa kimi qırx qanadlı ağ otaq idi. Bəyaz çadırın önündə gümüşdən düzəldilmiş iki aslan vardı. Aslanların böyründə də nizə tutub qılınc qurşanan azman igidlər vardı. Qırx igidin başçısı qırğız auluna gələn qonaqları sayıb yerləşdirdi. Qurultaya Altaydakı altmış qəbilə başçısı, altı yüz aqil qoca gəlmişdi.

Bütün millət yığışandan sonra bahadır Manas belə dedi:

– Xalqım, millətim! Əndicandan xəbər aldım. Ata-babalarımızdan qalan, göbək qanımız daman yerə, Əndican, Ala-Dağ, Yeddisu, Alaya köç edəcəyik. Alookəyə, kalmıklara alçalıb yaşadığım günlər zəhər olsun. Vaxt yetişib. Alookənin boyunduruğundan xalqımı qurtara bilməsəm, yaşamaq mənə haram olsun! Mən Ala-Dağa atlanacağam. Ürəyi istəyən mənə qoşulsun! Qalmaq istəsəniz müqəddəs Altay ata torpağıdır, kimsə xətrinizə dəyə bilməz, özünüz bilirsiniz.

Qıpçaqların ağsaqqalı Taz sözü kəsdi:

– Ey millət! Atanın fikri oğlunda, oğlunun fikri çöldə, buna deyirlər! Məni oğlum buraya dəvə yedəkçisi kimi gətirdi. Altaydan getməyəcəyimi söyləsəm də oğlum Ürbü Manasın dostudur, həm də nişanlıdır. O tərəflərdədir xəyalı. Oğlum məni yedəyinə alıb. Qırğızlar köçməsə də mən köçəcəyəm.

Camaat güləndə Ürbü yerə baxdı.

Tazın sözünə Aydarkanın oğlu Ər Kökçö qüvvət verdi:

– Ey millət! Ürbüyə gülməyin. Yeddisu verimli yerdir. Altaydan əskik deyil. Siz qalsanız da mən gedəcəyəm.

«Kökçö bu yaxınlarda Yeddisudan nişanlanıb»,

«Bəlalı qadın olsa, arxasınca gedən olmaz»,

«Qadın xanı belə arxasınca aparar»,

«Bu kişilər savaşa yox, qadın arxasınca getmirlərmi?»-deyə qocalar və gənclər Ürbü və Kökçö ilə zarafatlaşdılar.



– Millət, zarafatı buraxın, bir qərara gəlmişəm-dedi Ağbalta heybəsinin iki ağzını açaraq: – Ala-Dağa gedəcəyəm deyənlər heybənin sağ ağzına, qalacağam deyənlər sol ağzına daş atsınlar.

Toplanan adamların hamısı heybəni daşlarla doldurdular. Nəticədə Altaydakı qırğızlar Ala-Dağa köçmək qərarına gəldilər. Manas Altayda qalası qırğızlara «sizdən ayrılsaq da yenə görüşəcəyik» deyə türk soydaşlarının başçılarına, ağsaqqallarına, bəylərinə, bahadırlarına, bütün ata-oğullara əlbisə geydirdi. Aulbaşı, yurd ağacı və ağsaqqallarını eyni vaxtda ata mindirdi.

Qırğızların gözlədiyi gün gəldi. Manasın bəyaz çadırında davul çalındı. Altayın qızaran əcayib dağları möhtəşəm bir şəkil aldı. Yurdda insanlar qara qarğa kimi qaynaşdılar.

– Atlanaq, millət! Altayın xisləti köməyimiz olsun! Atalarımızın ruhları razı olsun! Tanrım bizi sağ-salamat ata-baba torpaqlarına, Ala-Dağa çatdırsın, yolumuz açıq olsun!-dedi Koşoy gur səsiylə. Altaydakı qırğızlar dədə-baba adətincə, qayda-qanunla yığışıb köçməyə başladılar. Köç edənlərin sayı altmış min ailədən ibarət olardı.

Böyük obadan yola çıxan köç qafiləsi get-gedə nizamlanıb sıra halına gəldi. Qafilənin başında Xan Manas, ondan sonra bayraq tutan Kutubəy, ondan sonra Xan Koşoyun ətrafındakı ağsaqqallar, savaş paltarı geyinən qırx igid vardı. Ondan sonra ağır yeriyən ata minmiş Çıyırdı xanım və qadınlar dəstəsi vardı. Dəvə yedəkləyən süslənmiş qızlar və xəyallara dalan gəlinlər vardı. Ondan sonra bəyaz çadırın əşyaları yüklənən altı yüz dəvə vardı. Dəvələrin önündə boynu zınqırovlu dəvə vardı.

Cakıb bəy heyvanlarından ayrılmaq istəməyib ay şəklində damğalanmış atlarının arxasınca gəlirdi.

Yolun irəlisini yoxlayan Bakay hamıdan qabaqda gedirdi. Böyük köçü dörd tərəfdən qoruyan Ər Koşoyun əsgərləri idi. «Manası Ala-Dağa, ata yurduna gətirəcəyəm» deyən gözləri çoban ulduzu kimi parıldayan, qulaqları qalxana bənzəyən Xan Koşoy deyildimi? «Quzum Manas! Düşmənin qabağına bir yerdə çıxaq, bir yerdə yaşayaq. Əndican, Altay, Yeddisuda-

kı qırğızları kalmıklardan və çinlilərdən qurtaraq. Ölüncəyə qədər bir bayraq altında duraq! Qaynaşan qırğızlara xan seçək. Dağılmış xalqını bir yerə topla» deyən ağıllı Koşoy deyildimi?

Qırğızların xeyirxah məqsədini öyrənən qazax və türk qəbilələri aullarının kənarına çıxıb onlara çörək, su verdilər, «dincəlin, yorulmusunuz» deyə bişirdikləri əti verdilər.

«Ala-Dağa sağ-salamat çatasınız. Uzaq yolunuz yaxın olsun. Tanrı yolunuzu açsın! Pis niyyətlər yolunuzdan qaçsın!» deyə xeyir-dua verib köçü yola saldılar.

Altaydan yazda yola çıxan qırğız köçü at ayağı dəyməmiş yollarla otların çiçəyini seçib, suyun təmiziin içib, yorulub, dincəlib, neçə gün, neçə gecə yol gedib üz tutduğu təzə yurduna qovuşdu.

İki aylıq yol boyunca Ağbalta dalğın, susqun bir sifət almışdı. Manas bunu hiss etsə də özünü bilməməzliyə vururdu. Bir gün Ağbalta özü Manasa yaxınlaşdı:

– Oğlum, Manas, Ala-Dağın ucu göründü, köçəri quşları görməyə başladım. Ala-Dağa qədər yolumuz açıq, yaxşı gəldi. İndi, oğlum, səndən bir ricam var.

– Söyləyin, əmi,-dedi Manas.

– Mən Tanrının hüzurunda təkcə öz başım üçün yox, noyqut xalqı üçün də hesab verəcəyəm. Xalqımı çinli və kalmıklardan qurtarım, azadlığına qovuşdurum. Səndən istədiyimiz bu idi. Bu günləri də gördüm. Oğlum, mən yaşlandım, qüvvətdən, gücdən düşdüm. Bir neçə dəfə evlənsəm də övladım olmadı. Ala-Dağın havasınıi udub, quşlarını görəndə qəribə hala düşdüm. Yurdum Sarı-Gölü xatırladım, xalqım Noyqutu düşündüm. Xalqsız qalan torpaqlarım var, başı boş dolaşan talesiz xalqım var. Onları tapım. Xalqımı toplayım. Muradıma yetim. İstəyim budur ki, Kutubəyi verəsən. Bu lütfkarlığı etsən, Sarı-Gölə sağ-salamat yetişsəm, onu xan seçdirəcəyəm! Sənə qanad olsun! Manasa layiq oğlum var deyə onu övladlığa götürəcəyəm. Bunu eşidən Cakıb bəyin qəlbi alovlandı:

– Para çörək tapanda, bölüşdük, diləklərimizi bir yerdə dilədik, Baltacığım. Dərdlərimizi bir çəkdik, düşmənlə bir döyüşdük, Baltacığım. Torpaqlarımızı bir qoruduq, ölümə ortaq olduq. Sənin kimi can dostunu tapmaq olarmı, indi ayrılsaq bir də görüşəcəyikmi?

Manas fikrə getdi.

Ağbalta ilə Cakıb bəy bir-birinə sarılaraq ağladılar.

Manas dedi:

– Qurban olum, Ağbalta, atam qədər sevdiyim insan.

Xalq içində müqəddəs oldun. Düşmənlə savaşda baş oldun. Əlimə alsam bayraq idin, atımı bağlasam altun dirəyim. Sən istədiyin olsun. İzn verirəm.

Böyük hövzəyə yaxınlaşanda bahadırlar – Ağbalta, Kutubəy, Koşoy xan, Cakıb ilə Ər Manas buğda çörəyi yeyərək and içdilər:

Yolda olsun izimiz,
Düşmənlə olsun işimiz.
Göydə olsun canımız,
Yerdə olsun qanımız.

Üç xan üç tərəfə – Ər Koşoy At-Başına, Ağbalta Sarı-Gölə, Manas Kakşal və Əndican istiqamətinə bölündülər.

Manas bir neçə ay yol gəlib yorulan qafiləyə «xalq əziyyət çəkir, atlar dincəlsin, igidlər nəfəs dərsinlər, silahlarını hazırlasınlar» deyə Kakşalın dağında səkkiz ay fasilə verdi. Özümüzə gələndə kalmıklarla savaşarıq dedi. Əndicandakı Alookenin xalqına qüdrətini göstərib Otuz-Adıra basqın etdi. Doqquz gün burada qaldı. Manas dəlilərinə üz tutdu:

– İgidlər, qılınclar paslandı! Oxlar korşaldı. Qaplan, əlik, quş vurub, yay çəkib, at üstündə oynayıb döyüşə hazırlayın özünüzü!

Manas Bakayın dəstəsindən altmış nişançını götürüb yolizi öyrənməyə getdi.

Manas ovdan, sevdiyi bir əyləncədən tez qayıtdı. Onun bu hərəkətinə dostları heyrətləndilər. Bahadır əvvəlki kimi təpədə ağ çadır qurdurub, qısraq kəsdirib, qımız içib dəlicəsinə əylən-

mirdi daha. Bakayı çağırıb nəsə pıçıldadı.

Ertəsi gün Bakay auldakı Döögörün ustalarını çağırıb atları nallatdı, igidləri bəzədi, əsgərləri döyüşə hazırladı.

Bahadır Manas Alooke kimi düşmənindən intiqam almaq istəyirdi, tez hücuma keçmək üçün lap səbirsiz olmuşdu.

* * *

Qızıl dolu xəzinəsi olan Alooke Ala-Dağ, Əndican, Yeddisu, Qan-Dağda zalımlığı və vəhşiliyi ilə tanınırdı. Onun adını eşidəndə ağlayan körpə də susurdu. Altı şəhərin xanı Alookenin yer üzündəkiləri görə bilən görücüləri, yeddi qat yer altındakıları duya bilən adamları vardı. Noqoy xanı məğlub edib qırğızları Əndican, Alay, Ala-Dağdan sürgün edəndən sonra bu torpaqların itləri «Alooke» deyə hürür, quşları «Alooke» deyə oxuyurdular. Hər yerdə arvad alan Alookenin altmış oğlu vardı. Alooke yerdə qalanların da qanını sümürüb vergi üçün heyvanlarını əlindən aldı.

Alookeyə Manasın köçüb getdiyini, müharibəyə hazırlaşdığını görücü və casusları çoxdan xəbər vermişdilər. O, əvvəlcədən ordunu döyüş vəziyyətinə gətirib istehkamlar qurdurdu, keşikçilər qoydu, yəhəri atının üstündən alınmadı, onun bahadırları isə geyimlərini çıxartmadılar. Beş yüz minlik ordu qurub hazırlığını başa çatdırdı. «Manas nə istəyir, əcəba!» deyə ona gözdağı vermək üçün Alooke əlli bahadır göndərdi.

Alookenin göndərdiyi Tizelik adlı zəvzək bahadır Manasın auluna gəlib elan etdi:

«Alookenin əmri: Qırğızlar buraya icazəsiz yaxınlaşmasınlar! Əndican, Alay əzəldən bizimdir. Manas Cin xanı Esen xandan qaçıb bizə ilişirsə məhv edəcəyəm, bir qarış torpaq verməyəcəyəm. Yox, əgər başqa tərəfə getmək istəsə Manasa yol verəcəyəm! Döyüşmək istəsə özü bilsin! Canını istəyirsə indidən itaət etsin!

– Alookenin buyruğunu ərz edən elçinin sözünü kəsməyək, əski adətləri pozmayaq, bəd xəbər olsa da xan adamına sayğı



göstərək – deyə qırğızlar Tizelikə qonaq qaydasınca hörmət göstərdilər.

Qırğızlar «Cavabını Manasdan al, onu gözlə» deyə Tizeliki ürkütdülər.

Manas iki günə qədər gəlmədi. Üçüncü gün Cakıb «Manası tapın» deyə altı adamı sağa, sola göndərdi.

Manası tapdılar, amma Manas «aula düşmən gəldi, Alookenin ordusu gəlir» sözlərinə heç məhəl qoymadı, geniş düzənlərdən, uca dağlardan doymayan bahadır ov tutqusuna tutulub qayadan (kahadan) çıxan dağ keçisinin arxasınca düşdü.

Qırğızların auluna gələn bahadır Tizelik: «qırğızlar, dağ köçmənləri, Alookenin sözünü eşitmədiniz, qisasımı alacağam, sizi doğrayacağam» deyə qəzəblənib atını çapdı.

Bu əsnada Əndicandan ala çəpkən geyinən Ayqoca hədiyyələrlə Cakıbın hüzuruna gəldi. «Əndicandakı qırğız və türk kökənli xalqları Alookedən qurtarın. Ordunuza qatılarıq, sizə arxa olarıq. Alooke Manasa hücum etməyə hazırlaşır» – deyə xəbər verdi Aykoca.

– Ov dalınca düşüb xalqını ovlatmaqmı istəyir bu? Ovun başına dəysin – deyə hirslənən Cakıb Manası özü tapmaq məqsədi ilə dağa tərəf üz tutdu.

Cakıb dağa çatanda Manas heç nə baş verməmiş kimi dağlar-dərələr boyu çığır-bağır salaraq igidləri yanında ov ovlayırdı.

Cakıb başı ova qarışan Manası güc-bəla saxlaya bildi. Cakıbın gileyini eşidən Manas atasını çox hirsləndirməmək üçün onun könlünü alıb aula gətirdi.

Manas ordusunu üç günə topladı. Dörd yüz min igid toplandı. Manas ordusunu dörd yerə bölüb dörd sərkərdə təyin etdi. Mavi qumaşdan əlbisə geyinən, qısa quyruqlu tulpar ata minmiş Bakayı irəli buraxıb Alookeyə tərəf atlandı.

Ölümdən başqa hər şey bilən hiyləgər Alooke çinli və kalmıkların hiylələrini bilirdi. O, çevik igidləri seçib çay qırağında Manasın yolunu kəsdirdi.

Ər Manas Alookedən daha yaxşı bir fənd işlətdi. Döyüşə

atılırmış kimi özünü göstərdi, amma çinli və kalmık əsgərlərinə toxunmadı. Manas əsgərlərini özü idarə etdi, ən qüvvətli igidlər əllərində bayraqlar atlarını oynatdılar, düşmənə yaxın gəlmədilər, onları görməzliyə vurdular, səs-sədalarını eşitməyir kimi keçib getdilər. Böcək kimi qaynaşan Çinli və kalmıkların sərkərdələri Manasın döyüşməyən əsgərlərindən ürküb, toxunmayana toxunmadan yol verib onları Alookenin mühafizəçilərinin öhdəsinə buraxdılar.

Manas ordusunu meyvələri tökülmüş bağçaya buraxıb bir neçə igidiylə, bağçanı ata ayaqlatmaqla əylənən Alookenin sarayına yaxınlaşdı. Saray keşikçiləri ona müqavimət göstərmədilər. Manasın önündə yeddi igid, ətrafında qırx igid vardı.

O gün Alooke xan baxçasındakı altun dəstəkli çadırda xana aid səksən cariyənin (hərəmin – A.C.) mahnısını dinləyib, rəqsinə tamaşa edirdi. Şərab içib axan suyun şırıltısına, oxuyan bülbüllərin cəh-cəhinə qulaq asırdı.

Alookenin vəziri və əyanları Manasın, qırğızların xan sarayına gəldiyini xəbər verdilər. Alloxe bunu gözləmirdi.

Alooke insanın görə bilmədiyini görən bir insandı. Manası uzaqdan tanıyıb əzəmətinə heyran oldu. Atdığı hər addımdan od sıçrayan, pələng cüssəli Manas bir yanına qaplan, bir yanına bozqurd alıb gəlirdi. Onun heybətini görən Alookenin sarayındakı qudurmuş itlər də yerindən tərpənmədilər.

Alooke xanın dili tutuldu. O, taxtından düşüb tələşlə qarşısında dayanan Manasa əlini uzatdı. Sayğıyla diz çöküb özü yol göstərdi. Göstərirkən də öz taxtını göstərdi.

Alooke xan bir neçə dəfə eşitdiyi, müqəddəs kitabdan oxuduğu, Altayı alt-üst edən Manasın heybətini gözləriylə gördü. Yer üzündəki insanları qorxudub onları adam yerinə qoymayan heyvan xislətli Alooke bahadırı görəndə əsməcəyə düşdü. Manasın kirpiyi alov, gözü atəş saçırdı, canında min pəhləvanın qüvvəti hiss olunurdu, alnı qaplanınkı kimi idi, biləyi filinki kimi idi, cod saqqallı, dik burunlu, qorxunc görünüşlü, ağıllı



bir adam idi. Qəzəblənsə onun qabağına heç bir adam, heç bir xalq çıxa bilməzdi.

– Xanlığınız özünüzə qalsın! Taxta meyilli deyilik, bahadır – dedi Manas Alookenin taxtına oturmadan, «bizim qırğızlarda, türklərdə xan taxtına ləyaqətlə oturulur, Alooke xan» söylədi.

Alooke çəkinərək:

– Baş üstə, Manas xan, əmr sizinkidir – dedi.

Manas dedi:

– Gücün gücə yetmədiyi yerdə söz ilə ağılın gücü yetər, bahadır. Əndican, Alay, Qan-Dağ, Ala-Dağ ata yurdumuz idi. Məzarlarını kimsə qaza bilməz. Yurduma gəlmişəm, torpaqlarımı geri ver. Öz ağzından cavab alım deyə gəlmişəm.

Tədbirli Alooke «Manasla tutaşsam gücüm yetəsi deyil, hiyləyə əl atmaq gərəkdir, içəcəyinə zəhər qatıb heyvanat bağçasındakı aslanlara yem edim» – deyə pis bir şey düşündü:

«Söylədiklərinizdə haqlısınız, xanım. Qəzəb düşmən, ağıl dostdur. Alookenin qonaqpərvərliyini görəcəksən, bahadır. Dincəl, danışarıq. Məsələni dostyana həll edərik» dedi Alooke. Sonra xidmətçilərinə əmr etdi:

– Bahadır Manasın qulluğunda durun, xan sarayını açın.

Alookenin ehtişamlı çadırı rəngarəng idi, bağçasında bülbüllər və müxtəlif quşlar oxuyurdu, əlvan çiçəklər açmışdı, qızlar rəqs edirdi.

Ovçuluğa həvəsli Manas Alookenin məşhur heyvanxanasını görmək istədi. Alooke buna etiraz etmədi. Xan sarayının önündə, möhtəşəm qalanın içində çoxlu quşların və heyvanların olduğu bir heyvanat bağçası vardı. Alooke əlinin çatdığı yerlərdən pələng, şir, fil, meymun, gərgədan, ayı, qızılqurd, əjdaha, ilan, vəhşi eşşək, köpəkbalığı kimi insanın görmədiyi canlıları gətirib heç bir xanlığa nəsib olmayan bir möcüzə yaratmışdı. Düşmənlərini yırtıcılarıyla qorxudurdu Alooke. O, xəstələnən kölələri, ələ keçirdiyi bahadırları heyvanxanadakı yırtıcılarının ixtiyarına verirdi... İnsan ətinə yerikləyən yırtıcı-

lar heyvanat bağına gələn qəniməti qapmağa hazır idilər.

Bahadır Manas Alookeni də, adamlarını da, arxasındakı səksən igidini də dəmir qapının çölündə qoyub heyvanxanaya silahsız olaraq təkbaşına daxil oldu.

Alookenin göydən dilədiyi hasil oldu. O, «qaplanların Manası parçalayıb yediyini minarədən görəcəyəm» – deyə çox sevindi.

Bahadır Manas bir sürü qaplanın yatdığı qəfəsin qapısını açdı. Dəmiri gəmirib çöldəki insanlara atılan qaplanlar bahadıra toxunmadı, quyruqlarını qısıb qaçmağa başladılar. Manas qaplanların birinin quyruğundan tutub çevirdi, qaplanlar bahadıra başlarını əyib, ayaqlarını uzadıb saygı göstərdilər.

Qaplanlara baxan Aqalak adlı adam cəsarət göstərib bu heyvanları balaca hirsləndirmiş olsa onların dişinə çəkilib parçalanardı. Yırtıcıların Manasa toxunmadığını görən Alookenin dünyası yıxıldı. Qızıl dolu xəzinəsi ağlından çıxdı, səltənəti əlindən gedib gen dünyası dar oldu, canının hayına qaldı.

Heyvanat bağındakı ilanlar, ayılar, qurdlar Manası görən kimi əyilib, qulaqlarını qısıb, gözlərini örtüb, ulayaraq başlarını qəfəslərinə soxdular.

Bir dəstə əsgər ilə Manası tutmaq istəyən Alooke «onunla tutaşmaq mənə əngəl törədər, tutaşsam gücüm yetməz, bu qırğızla bacarmaq mümkün deyil, yaxşısı budur ki, ona toxunmayım. Onu zəhərləyim. Əgər bu da baş tutmasa canımı götürüb Kakşal tərəflərə üz tutum» deyə düşündü. Manas heyvanat bağından çıxarkən Alooke bahadırın qabağını kəsdi:

– İgid, xan sarayına buyurun!

İrəlisini, gerisini düşünməyən saf, mərd Manas bu təklifi qəbul etdi.

Ağıllı Bakay Manasa başqa bir xan çadırı qurdurub səksən igidi keşikçi qoydurdu. Özü heyvan gətizdirib kəsdirdi. Ayrı qazanlarda bişirtdi. Alookenin yemək-içməyini heç kəsin dilinə varmağa qoymadı, çölə tökdürdü. Bunları yeyən itlər, quşlar qırıldı.

Ertəsi gün Alooke Manasın hüzuruna gəldi. Əlini boynuna



qoyub itaət etdi və dedi:

– Bahadır Manas! İgidliyinə igidsənmiş. Sənə itaət edirəm. Alacağım desən, budur başım, içəcəyim desən, budur qanım. Çıxaracağım desən, budur gözüm. Canım qurban olsun. Əndicandan torpaq versən, məsləhət bilsən xalqım ilə qalaram! «Yox», desən köçümü çəkib gedərəm. «Buralardan çıxmayacağam» deyə döyüşməyə halım yoxdur. Tacımdan, taxtımdan ayrıldım. Taxt sənindir, bahadır! Bu balaca canım mənimdir, bahadır!

Bahadır Manas Alookenin etdiyi zülmləri xatırladı. Canını qurtarmaq üçün yalvaran bu Alooke qırğızlara qarşı əlindən gələni əsirgəməmişdi. Altaya sürülən Cakıbın əzablarını, illərcə zorlanan xalqını düşündü və dilləndi:

– Ey, Alooke! Qarşıma çıxsan başın nizəmin ucunda yellənəcəkdir. Xan əllərini ovuşdurub yalvarırkən mən quru canını sənə bağışlayıram. Hay vurub sərvətini dağıtmayacağam, ordunu dağıtmayacağam. Torpaq genişdir. Niyyətini pozmadan yaşa! Mən Alaydan sonra köçüb gələcəyəm. Bir şərtim var. Böyük oğlun Bookeyi ağ otağa, yanıma aparacağam, mənə çoro olsun! Qasabış adlı qardaşın köməkçilərimə qatılsın! Cavabını dərhal ver! Bunları qəbul etməsən səni o dünyaya göndərəcəyəm.

Alookenin sümükləri sızıldadı. Yaş axan gözlərindən qan axmağa başladı, ağlını itirdi. Çarəsiz şərti qəbul etdi.

Manas Əndicandakı kalmık və qırğızların xanı elan edildi. Xan Manas Alookedən zülm görən altı şəhərin əski xan və bəylərini yanına çağırıb onları öz vəzifələrinə bərpa etdi. Alookenin zorakılıqla topladığı qəniməti, sərvəti xalqa payladı.

Ər Manas Alookedən heç nə almadan iki çoronu götürüb yoluna düzəldi.

* * *

Manas Altaydan gələndə Alayın güneyində – sıra dağların ətəyindəki obada məskunlaşan qalça deyilən məşhur xalqı Kezekin oğlu Şooruk xan idarə edirdi. Göz qapaqları iri, göz çanaqları çuxur, qara saqqallı, dik bığlı, əlli səkkiz yaşlı Şoorukun iki

igid oğlu, iki qızı vardı. Akılay adlı qızı on altı yaşında olub insanlar arasından çıxan dünya gözəli idi. Qalçalar at yerinə qızılquyruq dəvəyə minərlərdi. Qızları gözəl olduğu üçün hər xalqla ünsiyyət qurmazdılar. Şəhərlərinə hər yerdən tacirlər gəlib-getdiyi üçün çox zəngin idilər. Dünya malına düşkün Şooruk bir gün Manası ələ keçirəcəyəm deyə inad göstərirdi.

«Qara qırğızlar Altayda altunla varlanıb Esen xandan qaçıb gəldilər. Əcəli gəlmişlər bizi saymayıb torpaq qamarlamaq istəyirlər, cəsarətə bax. Gücdən, qüvvətdən düşdüyü halda bahadırlıq göstərmək istəyən qırğızlara ağaları kimmiş tanıdarıq. Atlanın!» – deyən Şooruk əsgərlərini toplayıb xan Manasa hücuma keçdi.

Yolda-izdə ticarət ilə keçinən qalçalar savaşmağı bilməyən, dəvəyə minərək nizə tutan xalq olaraq iki yüz doxsan min əsgər topladılar. Bundan qürurlanan Şooruk davul çaldırıb dəbdəbəylə qızıl sancaqlı əsgərlərini toplayıb yola çıxmaq istədi.

Ertəsi gün dan üzü Şooruk xanın yanına qızı Akılay nazlana-nazlana gəldi:

– Atacan, bircə dəfə də qızının sözünü dinlə. Gecə yuxumda fırtına qoparan sel gəldi hər yeri qara çamur axıntısı basdı. Altun yarpaqlı çinardın yapışdım, bu zaman sən gəldin. Xalq sellə bərabər axdı. Atacan, bu elə-belə bir şey deyil. Nə olar, Altaydan gələn qırğızlara toxunma. Məni eşit, atacan, məni eşit... savaşma, ata!

Bunu deyən Akılay gözlərindən yaş tökdü...

Akılayın gənc olmasına baxmayaraq nənəsindən bəzi şeyləri öyrəndiyini bilən Şooruk qızının davranışına güldü, xalqı ayağa qaldıran xan sözündən dönmədi. Üzünü Akılaya tutdu:

-Qızlar yorğan-döşək yanında oturub tikmə tikər, atasının işlərinə qarışmaz. O ki, qaldı sənin yuxuna, çinardan yapışmağımız zəfərə işarətdir. Yaxşı olacaq!

Qızını eşitməyən Şooruk xan Alaydakı qırğızlara gecə-gündüz hücum etdi. Qara Tegin tərəfdəki Noyqutların üstünə getdi. Noyqut xanı Ağbalta hər şeydən xəbərsiz, kimsəyə toxunmadan



yatırdı. Zavallı Ağbalta Alaya-xalqının arasına köçüb, noyqutları toplayıb xalq şəklinə saldı, xalqına Kutubəyi xan seçdi. Özü sayılıb-seçilən bir kişi idi. Var-dövləti xalqı idi, atları yetmiş minə çatmışdı. Altmış yaşındakı Ağbaltanın qısır xanımı uşaq doğmamışdı, sonsuzdu. Bir dəfə Salburuna gedərkən çöldə rastlaşdığı Oysul ata heybəsindən nə verdisə uşaq sahibi oldu. Sönmüş ocağı yandı. Xızır dərviş körpəyə Çubak adını verdi.

Şooruk xanın əsgərləri bəyaz obaya gedən noyqutları nəfəs almağa qoymayıb onların yeddi min atını sürüb apardılar. Sonra Manası ələ keçirmək niyyətinə düşdülər. Noyqutlar himayə aradılar, savaş zamanı ərənləri öldü, xalqı əsir düşdü, qızgəlinləri dağlara qaçıb canlarını qurtardılar. Noyqutların xanı Ağbalta başını götürüb sağ qalan igidləriylə bərabər ova çıxmış Manasa tərəf üz qoydu.

Ah, fani dünya, bu gün gördüyün sabah yox, əvvəlki sağlam Ağbalta Alooke qırğızları yağmalayan zaman Altayda da çox çətinliklər görmüşdü. Bu gün Ağboz atının başını çevirib, bəyaz saqqalını tutub, gözlərindən yaş axıda-axıda, dərdli-dərdli qaçıb gəlməkdə idi.

Ova çıxmış Manas onlara rast gəldi.

Ağbalta dilləndi:

-Görəcəyimizi gördük, Manas! Dərdimə dərd qatdın, Manas. Bizi Altaydan ayırıb bu günlərə qoydun. Təpələri otlaq, yeri verimli, geniş Altayda niyə ölmədim?! «Ata-baba yurdumuz» deyə köçüb gələn qırğızların başı, ayağı qum kimi dağıldı. Düşmənlər noyqutu qırıb getdilər. Bizi bu günlərəmi qoyacaqdın! Biz bu günlərimi gözləyirdik!

Ağbaltanın söylədiklərinə Manas söz tapa bilmədi, qəzəbdən gözlərindən od sıçradı, yan-yörəsindəki qırğızlara altı nəfərin vasitəsilə xəbər göndərdi ki, əsgərlər tez gəlsin.

Bahadır Manas Şoorukun əsgərləri ilə aulu içində, qız-gəlinin, çoluq-çocuğun yanında yox, döyüşmək üçün dağlarda qabaqlaşdı.

Şəfəqlər sökülürdü. Ala-Dağ Altayı xatırladırdı. Dan yeri

alov-alov yanırdı. Bəmbəyaz qarla örtülmüş sıra dağlar sanki uyumaqda olan igidlərə bənzəyirdi. Alay davul səsinə oyandı.

Bahadır Manas bəyaz əlbisəsini geyinib, uzağı, yaxını tanımayan öldürücü ox sadağım çiynindən asdı, səkkiz uclu, on iki rəngə çalan, zəhərə batırılmış, külək dəysə vızıldayan sirli mizrağını götürdü. Qaranlıqda sıyıran zaman od kimi qızaran, döyüş zamanı uzanan, ot üstünə qoyduğu zaman yandıran, dəydiyi zaman öldürən qılıncını əlinə aldı. Altunla süslənmiş, düşmən başı kəsməyə öyrəncəli baltasını belinə bağladı. Başı poladdan yoğrulan, sapı dəmirdən düzəldilmiş gürzünü yəhərin qaşına keçirib qara yallı Ağqulasına minərək ər meydanına çıxmağa hazırlaşdı.

Savaş silahlarına sarılan iki ordu baş-başa gəldi. Qalçalar əzəldən döyüşməyi bacaran deyillər. Pərakəndə əsgərlərin önünə bahadırlarını çıxarıb, dəvə üzərində mizraqlarını uzadıb çığır-bağır saldılar.

Dögöşö adlı pəhləvan dörd min bahadırı ilə Manasa hücum etdi.

Qaplan Manasın qəhrəmanlığı, bənzərsiz insan olduğu anlaşıldı. Ər Manas yağış kimi yağan oxlar arasında təkbaşına savaşırdı. Mizrağıyla devirib, baltasıyla gəbərdib dörd min kafirin qanını tökdü, üç minini məhv etdi, qələbəlik əsgəri qarışdırıb çaş-baş qoydu.

Savaş iki gün çəkdi. Savaşın ikinci günü altmış min əsgəri ilə sağ qalan qorxaq Şooruk xan silahlarını qoyub atlanıb qaçdı.

Şooruk xan gözlərindən yaş axıdıb qızı Akılayın ayağına döşənəndə Akılay dedi:

- Xan ata! Ağır vəziyyətə düşmüsən! Düşmənə məğlub olub xalqından tamamilə ayrılmaq durumundasan. Qeyrətə gəl! Başqaları görməsin!

Ağıllı qız Akılay ölməyə yer, yatmağa məzar tapmayan atasına təskinlik verdi.

Şooruk başını qaldırıb qızına dedi:

– Akılay, əzizim. Səni dinləmədiyim üçün başıma bəla gəldi. İndi canımızı necə qurtaraq! Qızım, at üçün eyib satılmaqdır, qız üçün eyib hədiyyə edilməkdir, deyir xalq. İndi mənə qulaq as, səni Manasa hədiyyə etmək istəyirəm. Sözümü eşit, yaxşıhq elə! Atanı, xalqı ölümdən qurtar!



Akılay dilləndi:

– Atanın sözü qız üçün qanundur. Həyatım gərəkdirsə ondan keçərəm, mən razıyam, atacan. Məndən nigaran olma. Çarə altı, ağıl yeddidir, ata. Bir sözünü iki etməyəcəyəm.

Zavallı Şooruk altun tacını qoyub, altmış mühafizinin müşayiəti ilə, qırx bir dəvə və qırx qutu altunla yağmadan qurtulan altı yüz atı sürüb, otuz bir gözəl qızı götürüb, duz-çörəklə Manasın hüzuruna yetişdi, əllərini boynunda çarpazlayıb dizi üstə çökdü:

– Xan Manas, qanadlı olacağam deyərkən qanadım qırıldı. Dəvə sahibi olacağam deyərkən dəvələrimdən ayrıldım. Mal-mülk sahibi olacağam deyərkən evim yandı. Manas, bahadır soyundansanmış, döyüşmək üçün doğulan aslan imişsən. Div ilə boyu bərabərim, ata yolu uludur. Qızım sənə hədiyyə olsun. Başım sənə hədiyyə olsun. Xalqım boynu bükülü qalıb. Bizə rəhm et! Qisas almaq istəsən özün bilərsən. Canım sənə qurbandır, bahadır!..

Kimsəyə baxıb gülməyən Ər Manas əmisi Bakaya baxıb gülümsədi:

– Əmi, bu sözlərə nə deyirsən!

Bakay nə deyəcəyini bilmədən duruxdu və sonra Manasa baxıb dedi:

– Şooruk xan ayağına gəlib sənə təzim edir. Xan fərmanını ver, bahadır Manas!

– İtaət edən xalqa qılıncımızın tiyəsini göstərməyək! Yağmalamaqla sevinməyək! Ərənlər, ağlınız başınıza gəlsin. Onlar bizə acgöz, yırtıcı deməsinlər. Bayrağı enmiş, beli qırılmış xalqa üstünlüyümüzü igidliyimiz və yaxşılığımızla, ağlımızla göstərək, – dedi Manas.

– Afərin, yaşa! Doğru deyirsən! – dedi izdiham.

– Bahadır Manas Şooruka hörmət göstərdi:
– Şooruk xan, ziyafətə hazırlaşın – dedi.
Şooruk xan məclis qurmağa hazırlaşdı, Manas xanın şərəfinə qısraqlar qurban kəsildi. Şəhər divarındakı çırağlar yandırıldı.
Şooruk xanın təlaşı ötəndən sonra könlü açıldı və hədiyyə edilən qızların gələcək taleyini soruşdu Manasdan. Manas dedi:
– Mən xanlığı yağmaladım deyə hədiyyə edilən qızı zorla özümə zövcə etmərəm, özü istəsə qəbul edərəm. Otuz qıza bəxşiş kimi baxmayaq. Qızları hədiyyə kimi alçatmayaq. Onları öz iradələrinə buraxaq. Özləri seçsinlər. İstədikləri oğlana getsinlər.
Çoxluq bu təklifə «yaşa, Manas» deyə qatıldı. Həmin gün qızların hədiyyə kimi gətirildiyi unuduldu və qız seçmə tədbiri oldu.
Iramandın Irçı oğlu ortaya çıxıb qızları öyərək mahnı oxudu.
İramandın Irçı oğlu öyməsə də Şooruk xanın incə qızı gözəllər gözəli idi. Uzun qara saçları dizlərinə qədər uzanmışdı. Söyüd çubuğu kimi incə belli, görənin ürəyini qoparan, xana layiq bir tutuquşu idi.
Sarayda yetişən otuz qız da bir-birindən gözəl idi. Gülər üzlü, şirin sözlü, qayda-qanun bilən, kipriyini qaldırıb gözlərini oynadıb oğlanların ağlını başından alan mülayim, nəşəli qızlar idi.
Iramandın Irçı oğlu belə söylədi:

İstər yaşlı, istər gənc
Nazlı qız, gözünü aç.
Sizi arzu edənlər
Qara qırğız xalqıdır.
Hansını istəsəniz
Tutun həmin oğlandan.

Yaşlı, gənc demədən ağlı olan hər kəs saqqalını, bığını sığallayıb, qalpaqlarını qoyub, özlərinə tumar verdilər, çolaqlar çəliklərini gizlədilər, dilsizləri susdular, korları gözlərini örtdülər, «Əcəba, Qalçanın qızı məni bəyənərmi» deyə umudla bir-birlərinə baxdılar və gözlədilər. Bahadır Manas da, onun qırx igidi də digər igidlər ilə birlikdə sıraya düzülüb ortadakı qızlardan cavab gözlədilər, bu məqsədlə səsləndilər:
«Baxtsız qızlar, gözlərinizi açıb ərlərinizi seçin!»
«Pisinə düşməyin, yaxşısını qapın!»
«Gözəl qıza güclü ərən yaraşır. Sonra peşiman olmayın!»
Qızların böyüyü, boydan boyu, ağıldan ağlı olan, yay qaşlı Ayadil adlı qız sözə başladı:
– Danışmaq bizə düşərsə, öncə Akılay seçməlidir.
Şoorukun incəbel qızı Akılay ay kimi parlayırdı. Xoruz boynu kimi boynu, top kimi məmələri vardı, sərv boylu, bəyaz vücudlu, qara gözlü idi. O, ipək kimi saçlarını yırğalayaraq çıxıb belə dedi:
– Bizə varsa kərim, Manas olsun ərim.
Akılay əsmər bənizli qızların arasından ayrılıb çıxdı. Qızılquş kimi boynunu döndərib yana baxdı, yüyürüb yaş çubuq kimi Manasa tərəf əyildi.
«Yaşa! Akılay ərini tapdı!»
«Xan soyundan olduğu anlaşıldı» – dedi izdiham gurultu qopararaq.
Digər otuz qız da qırğızın otuz igidini qapdı.
Dəf-zurna, qopuz çalındı, səs-küylü toy mərasimi başladı. Toy bir həftə çəkdi. Dəbdəbəli, adətlərə uyğun bir şəkildə keçdi. At yarışı oldu, pəhləvanlar güləşdilər, igidlər (bozqurdlar) bütün məharətlərini göstərdilər. Başı bağlı qırğızlar toyu yeddi gün deyil, otuz gün uzatdılar.

* * *

Bahadır Manas Şooruka qalib gəlib, Akılayı alıb zəfərlə öz auluna döndü. Qırğızların aulu Manasın nişanlısını dəbdəbə və qayda-qanunla qarşıladı. Ərənlərin arvadları da «hədiyyəlik qızlar» kimi yox, ailəyə qatılan halal süd əmmişlər kimi qarşılandı.
Çıyırdı xanım gəlininə kimsənin «hədiyyəlik gəlin» deməsinə

yol vermədi, onu xoş sifətlə qarşıladı. Böyüklərə diz çöküb, kiçiklərə şəfqət göstərən gəlinə ayrıca olaraq bəyaz çadır qurdurdu.

Manas Qıpçaqla qohum olub Qara-Ötökdən yer aldı.

Manas Şooruk xan ilə savaşa gedəndə Alooke gizlicə ulu padşahından izn almışdı. O, aulu ilə möhtəşəm xan sarayını buraxıb Pekinə doğru Tırqotlarla bərabər qaçmışdı. Bunu qırğızlara casuslar olduğu kimi xəbər vermişdilər.

Arabalarını sürüb karvan kimi yavaş irəliləyən Alookenin köç qafiləsinin qarşısına Kalmık qadınından doğulan, on səkkiz yaşına girən, qara güclə dolan, beş il görmədiyi, hərb elmini öyrənən Konqurbay (nəzm variantında Qonurbəy – A.C.) adlı çox sevdiyi kiçik oğlu dostu ilə birlikdə çıxdı.

Konqurbəy atasını görüb ağladı:

– Atacan, bu nə halətdir? Düşməndən qaçana oxşayırsan. Kökünü kim qazdı? Çaşıb qalmışam, atacan. Əvvəlki igidliyin harada?

-Oğlum, onlar asan öldürüləcək qırğızlar deyil, döyüşəni sağ buraxmayan o Manasa qalib gəlmək elə də asan deyil! Onun igidliyini soruşma. Atalarının torpağını geri verdim.

Alooke «Manası öldürəcəyəm, onunla döyüşəcəyəm» deyə hiddətlənən oğlunu zorla sakitləşdirdi:

– Bu Manas o torpaqlarla kifayətlənməyəcəkdir. O, Pekinə də varacaq, qaçanı da qovacaq kimi görünür. Manas doğulmazdan öncə ona igidlik yazılıb. Müqəddəs kitabda Manasın adı vardı. Manası Esen xan ilə danışıb əsgər topladıqdan sonra öldürərik! İndi, oğlum, məni dinlə! Böyüməyin lazımdır. Hələ çox gəncsən. Ona məğlub olarsan. Qüvvətli vaxtında, o Pekinə gəldiyi zaman döyüşərsən...

Bahadır Konurbay atasının təklifini qəbul etdi.

Alookenin oğlu Pekinə getmədən Çin səddinin yaxınlığında, Sarı Çay hövzəsinə köçüb şəhər saldı. Pekin xanı Esen xana hədiyyələr göndərdi.

Qırx xanın xanı Esen xan Ala-Dağ, Kaşqar, Əndicanı, Yeddisuyu idarə edərkən Manasdan qaçıb Çin səddinin civarı, Sarı



Çayın kənarında məskunlaşan Alookeyə altı ay sonra məktub göndərdi. Esen xan Alookenin darıldığını bildiyi üçün ona xoş bir tərzdə məkitub yazdı.

Bir neçə vaxtdan sonra Alooke oğlu Konqurbay ilə Çin xanı Esen xanın Pekindəki qırx qapılı, quş səkə bilməyən xan sarayına ehtişamla vardılar. Qohumlar sayğıyla görüşdülər.

Alooke ilə Konqurbayın gələcəykləri keşikçilərə və xan sarayına məlum idi.

Alookenin altmış igidinin kiçiyi olan Konqurbayın ünü, səs-sorağı hər yana yayılmışdı. On iki yaşında Çin bəylərini döyən bu gənc Pekin xalqını bezdirmişdi. On üç yaşında ağıllanıb beş il təhsil aldı, oxudu, igidliyi digərlərindən fərqli idi, güləşdə bacarıqlı idi, çox tədbirli, döyüş fəndlərini yaxşı bilən bir igid olduğu söylənilirdi.

Xan sarayının, Esen xanın yanında altun dirəkli çadır qurdular. Çin padşahı Esen xan Ər Konqurbayı Yeddi-Bəycinə ehtiramla xan təyin etdi. Bəylik əlbisəsini, altun tacını geydirdi.

Esen xan, Konqurbayı boş-boşuna xan təyin etməmişdi. Alooke Çin xanının sərhədlərində xanlıq etdiyi üçün «vəhşilərlə» – qırğızlarla savaşmış, onların sirrini, adətlərini, savaşdakı duruşlarını bilirdi. Alookenin oğlu Konqurbay da digər xalqların adətlərini, dillərini, döyüş fəndlərini bilən bilgili, igid bir oğlan idi.

Manasın qabağına çıxası igid Konqurbay idi. Əvvəl-axır qırğızların güvənci Manas Pekinə gələcəkdi. Qırğızların yolunu sadəcə Konqurbayın kəsə biləcəyini Esen xan əvvəlcədən düşünmüşdü.

Xan sarayında Konqurbay xanın şərəfinə böyük ziyafət və əyləncə düzənləndi. Esen xan, Alooke xan və Konqurbay xan rahibləri içəri buraxmadan üç gün baş-başa danışmışdılar.

Ağıllı, tədbirli və sehrbaz Konqurbay yola çıxıb Yeddi-Bəycinə gəldikdən sonra Çinin bəzi bölgələrində ehtiyat tədbirləri gördü. Daşlardan nişanə qoydurub üzərinə yazılar yazdırdı. Manasın gələcəyi tərəflərə adam qoyub əlavə tədbirlər də düşündü. Qu quşunun, ördəklərin üzdüyü gölün yanına keşikçi

qoydu. Yüksək dağlıq yerlərə qulcanı (dağ qoçu) xəbərçi qoydu. Düzlərə, təpələrə Esen xanın bağçasında bəslənmiş, insan dilini öyrənmiş qırx qızıl tülkünü gözətçi qoydu. Manasın gələ biləcəyi yola erkək donuzun ətindən doymayan vəhşi, təpəgöz kimi təkgözlü div Makeli qırx rahiblə birlikdə keşikçi qoydu.

Alookenin oğlu Konqurbay qanadlı qara atına mindi, onun qarşısına kimsə çıxmadı, yer üzündəki böyük ölkə Çin ilə Çin-Maçinin yarısını idarə etdi.

Alçaq, amma dayanıqlı divarı olan, qarışıq küçəli Tanqşa deyilən şəhərin tam ortasında bütün Çinin sərkərdəsi Soorundukun qırmızı tuğlarla bəzədilmiş möhtəşəm bir sarayı vardı. Pekinə seyrək gedib-gələn Soorunduk əlli dörd illik ömrünü bu şəhərdə keçirmişdi. Bu sarayda bir neçə xidmətçi rahib, vəzir və dustaq qız yaşayırdı. Soorundukun üç arvadından dörd qızı dünyaya gəlmişdi. Buna Soorunduk sevinməmişdi. «Qızlar çaylaqdan axan su kimidir, oğlan uşağı evin dirəyidir» deyirdi sərkərdə. Özünə dəstək olacaq bir oğlan arzu edirdi Soorunduk. O, yer üzündəki digər ölkələrdən falçılar, həkimlər və görücülər gətirdi. Tibetə qədər adam göndərib çeşitli şəfalı bitkilər toplatdırdı. Dağ başındakı kahaya girib mum əridərək diz çöküb, arzusunu dilə gətirib övlad istədi. Hansından şəfa tapdığını kim bilir, bir il sonra incə budlu ortancıl arvadı Ekzer hamilə olub doqquz aydan sonra doğdu. Uşaq doğularkən Pekində günəş tutuldu, yer yarıldı.

Bahadır Soorundukun göydən diləyib aldığı oğlan uşağı idi. Sevincdən uçan Soorunduk Pekindən qonaq çağırıb böyük bir ziyafət düzənlədi. Qohumları, dostları bahalı hədiyyələrlə gəldilər.

Soorunduk ziyafətə gələn qonaqlardan oğluna ad verməlәrini rica etldi.

Onlar ordu başçısının oğluna verəcəyimiz ad yaraşmaya bilər deyə sükuta daldılar.

Bir dərviş gəlib «oğlunun adını Almambet qoy» dedikdən sonra qeyb oldu.



Almambet kiçik vaxtlarından fərasətli çıxdı. O, il deyil, gün keçdikcə böyüdü. Uşaqlıqdan bəri böyüklərin bilmədiyi şeyləri öyrətməyə, babalarının adətlərini davam etdirməyə, sirli dünyanı tanımağa, səadətlə bədbəxtliyi anlamağa, zəifkən güclüləri nüfuzu altına almağa, pisdə yaxşını, çirkində gözəlliyi görməyə çalışdı.

Soorunduk oğlu səkkiz yaşına gələndə onu irəli çıxanların uşaqları ilə bərabər dörd il müəllim yanına qoydu. Almambet iki il Göyqapı civarında yerləşən Celpinişdəki yetmiş qatlı mağarada yatan əjdahadan yay çəkməyi, döyüş fəndini, hərb elmini öyrəndi. Əjdahadan dərs almağa altı min uşaq gəlmişdi, ildə yalnız altı uşaq təhsilini başa vura bildi. Alimlərdən göy ilə yeri, dəliliklə ağıllılığı, qaranlıq ilə aydınlığı, ruh ilə bədəni, ağıl ilə qabiliyyəti, ölüm ilə həyatı qavrayıb yaşam ilə qorxunc dünyanın dəyərini öyrəndi. Biliyi ilə qürrələnmədi, elmdə dərinləşdikcə çinar ağacı kimi yayıldı, başı aşağı, amma sağlam oldu.

Soorunduk oğluna dedi:

– Oğlum, on altı yaşına girdin. Göy sənə ağıl, güc və həyat verdi. Mən yaşa doldum, sən yolumu davam etdir. Alooke, Esen xan və mən qərara gəlmişik. Gözüm açıqkən nəsihətimi söyləyim. Ordu başçılığını əlinə al!

Almambet atasının bir sözünü iki etmədən bəylik taxtına oturdu. Almambeti təbrik etmək üçün dünyanın dörd bir tərəfindən xanlar, elçilər, bahadırlar hədiyyələrlə gəldilər.

Almambet gənc olmasına baxmayaraq gələn qonaqların söz ilə köpünü alıb onları ustalıqla yola saldı. Onun səs-sorağı uzaqlara yayıldı. Digər xanlıqlardan qaçanlar tərəfkeşlik bilməyən Almambetin himayəsinə sığındılar. Almambetin xalq arasında sevilməsi bəzi xanları sevindirmədi. Çəkinməyənlər ondan Esen xana şikayət etdilər.

Adətə görə digər padşahlar, sərkərdələr də Almambeti dəvət edərək ziyafət düzənləyib, sayğı göstərib şərəfinə məclis qurdular. Almambet Çinin ordu başçısı olaraq müxtəlif yerlərdəki qoşun birləşmələrinin vəziyyətinə nəzarət etdi.

Bir gün Çin padşahı Esen xan Almambeti Pekinə çağırdı.

Xan sarayının qapısına çatanda, Esen xanın igidləri Almambeti atdan düşürüb dəbdəbəylə, qızıl sandal üstündə içəri apardılar. Almambet xan olandan bəri Esen xanın sarayına ilk dəfə idi ki, daxil olurdu.

Xan sarayının tavanı, içi, ətrafı, gözə çarpan hər yeri altunla bəzədilmişdi. Üzündən təbəssümünü əskik etməyən rahib altun qapmı açdı:

– Müdriklər müdriki, uca Göyün oğlu, bütün Çinin sərkərdəsi şərəfli Almambet gəlmək istəyir. Min yaşayın! Deyib qeyb oldu.

Esen xanın yanındakı enli ipək qaftan geyinən bəylər, rahiblər baş əyib, diz çökərək sərkərdəyə sayğı göstərdilər.

Əjdaha şəkilli sarı qaftan geyinən, altun taxtdakı Göyün oğlunun yanına Almambeti çağırdılar. Esen xan dedi:

– Mən göyün oğlu, Çin padşahı əmr edirəm: Gün və Ay işığının yetdiyi bütün bölgələrin qoşun birlikləri sənin tabeliyindədir. Ordunu əjdaha kimi heybətli, aslan kimi güclü olan sənin tək bahadır idarə etdiyi üçün artıq ürəyim sakitdir. Ürəyin qurd ürəyi kimi, gözlərin ilan gözü kimi olsun.

– On min il yaşa, Göyün oğlu! – dedi xanın ətrafındakı bəylər diz çökərək.

Ondan sonra xanın fərmanı oxundu. Almambetə altunla süslənmiş fərman kağızı verildi. Ona əjdaha şəkilli, qızıl düyməli qaftan geydirib gümüşdən işlənmiş qurşaq qurşadılar.

Çinin qırx padşahından biri olan məşhur Əzizxan Soorundukun yaxın qohumlarından idi. Almambet Əzizxanın qərargahında elm oxuyub, hünər öyrəndi. İki xanın arasında ərköyünlük edən Almambeti Çinin irəli gələnləri Əzizxanın oğlu zənn edirdilər.

Almambet Esen xana dedi:

– Göyün oğlu sərkərdə Almambetin şərəfinə insan qurban kəsilərsə müqəddəs kitaba görə Göyün günahına batacağam. Uğursuzluq gələcəkdir. Bu kölələrlə belə rəftar yaxşıdırmı?

Esen xan dilləndi:



– O halda qanun pozulur.

– Göyün oğlu qanundan böyükdür! – dedi Almambet. İnsan yerinə heyvan qurban kəsməyə izn verin – söylədi.

Esen xan Almambetin sözünü bəyənib qurban ediləcək kölələri ona bağışladı. Kölələrin əvəzinə donuz balası kəsdilər. Xan sarayındakı bəylər, əsgərbaşılar şəhərin böyükləri, üləma və rahiblər Almambetin davranışını bəyənmədilər.

Esen xan Almambetə xan sarayında yer ayırıb əsgərlərini sayması və məlumat verməsi üçün altı gün izn verdi.

Esen xanın dilmancları ona bir ağızdan belə dedilər:

– Uca Göyün oğlu, yeni sərkərdəmiz bir az fərqli, yaxşı niyyətli görünmür.

Təcrübəli Esen xan hiss etdirmədən Almambetə gözünün ucuyla diqqətlə baxdı. Almambet çətinliklərə sinə gərə biləcək xarakterli, tutduğunu qoparan, əl atdığı yerdən qan çıxaran, baxdığı insandan canını alan alp idi.

Xan sarayının rahibbaşı Almambetə belə dedi:

– Uca Göyün oğlu on min il yaşasın! Onu yaşatmaq bütün Çinin borcudur. Bu vəzifəni sən yerinə yetirəcəksən.

– Necə? – dedi Almambet.

– Göyün oğlunu gözəl yeməklər və əlaclar ilə təmin edəcəksən – dedi rahib, xəfifcə gülümsəyərək.

– Mən olmasam da böyük Pekində yeməyin hər dürlüsü var, ustadım. Şəfalı bitkilər Tibetən çıxar, – dedi Almambet.

Rahibbaşı Almambetə yaxınlaşaraq belə dedi:

– Yemək və bitkidən başqa əlaclar da var. O əlac mindən biridir, xanı gəncləşdirən gənc adamın ciyəridir.

Almambet Rahibə çaşqın-çaşqın baxdı.

Rahibbaşı sözünü davam etdirdi:

– Bəli, Göyün oğluna gənc oğlan və gənc qızın ciyərini əzib ildə dörd dəfə əlac olaraq veririk. Əksərən ciyərləri Çin sərhəddindəki «vəhşi» kölələrdən, dustaqlardan götürürük.

– Bunu Esen xan bilirmi? – soruşdu Almambet.

Rahib dedi:

– Göyün oğlunun on min il yaşaması lazımdır. Sizin şərəfinizə kəsiləcək altmış adamın ciyərini götürəcəkdik. Onları siz azad etdiniz.

Almambet soruşdu:

– Göyün oğlu insan ciyəri yeyirsə xalqın xanı olmağa haqqı varmı?

– Var – dedi rahib, – çünki Göyün oğludur o, ciyər tapmaq sizin vəzifənizdir.

Almambet dedi:

– Mən Göyün oğluna sayğılıyam! On min il yaşasın! Amma onun insan ciyəri yeməsinin əleyhinəyəm. Mən bunu özünə söyləyəcəyəm.

Altı gün içində Almambeti gözü götürməyən bəylər vəzirləri qızışdırıb Esen xana şikayət etdirdilər.

– Gənc sərkərdə dikbaşın biridir, adətlərimizi pozur. Başqaları kimi Göyün oğluna təzim edib diz çökmür. Niyyəti aydın deyil. Bu, gözündən də oxunur. Ona zəhər verib ortadan götürmək məsləhətdir – dedi bəsirətli adamlar.

Esen xan dedi:

– Uşaq xan soyundandır. Sərkərdə Soorundukun oğludur. Ona nə deyəcəyik. Solobo köklü xalqdır. Sabah, birisi gün qan davasıyla düşmən olmayaq! Qurtarın bu söz-söhbəti.

– Söyləmək bizdən, icraat sizdən. Sonra ziyan çəkməyin - dedi bəsirətli adamlar nazlanıb susaraq.

Almambet bütün Çinin ordubaşçısı olub altmış gündə yorğun, əzgin bir halda Tanqşa şəhərinə, öz sarayına yetişdi.

Bu zaman Soorunduk oğlu Almambetə yaxınlaşdı:

– Qocalanda mız-mızın arzusu bitməz demə. Yeddi-bəycinin xanı Alookenin oğlu Konqur atanın yaylağı olan Qan-Çaylağı ələ keçirmişdir. İkiniz bir yerdə oxumusunuz. Bir-birinizin sirrini bilirsiniz. Özünü bilməyən Qalçadan yaylağı geri al, ya da cəzasını ver.

Almambet qılceyran atına minib Konqurbayın üstünə getdi. Kanqayda tanınan Konqurbay altı min əsgərlə min bəyi idarə edir, pambıq qurşaq qurşayaraq qürurla yeriyirdi.



Almambet dedi:

– Konqurbay, eşit məni. Atamın Qan-Çaylağını özünə qaytar. Böyüklük edəcəyəm demə.

– Soorundukun bici, səfehləmə! O yerlər atam Batıya getməzdən öncə bizim idi, geri aldıq – dedi Konqurbay.

Almambet dedi:

– Geri ver yeri. Yer Soorundukundur. Esen xana şikayət edəcəyik.

Konqurbay qeyzləndi:

– Ey, sən haradan çıxan hakimsən? Bunun ciyərini çıxarıb Esen xana hədiyyə aparaq.

Bunu eşidən Almambetin səbri daşdı, sirli mizrağını tuşlayıb hayqıraraq Konqurbaya hücum etdi. Onun əjdaha kimi heybətindən qorxuya düşən Konqurbay çaşaraq Alqara atını qamçılayıb qaçdı.

Almambet arxasınca düşüb Konqurbayı vurdu. Konqurbayın Alqarası dayanıqlı, çevik bir at idi. Almambet ona çata bilmədi.

Konqurbay qaçıb həqiqətən Esen xanın yanına getdi, diz çökərək belə şikayət edi:

– Ey Göyün oğlu, on min il yaşayın! Soorundukun oğlu Almambet mənə mizraq vurub qanımı axıtdı. Ocağımızdan çıxan düşmənimiz oldu. «Esen xanla ikinizin kökünü kəsəcəyəm! Bağçanızı viran qoyub, taxtınızı devirəcəyəm» deyir. Onun niyyəti yaxşı deyilmiş. Qırğızların yanına qaçmağı fikirləşir.

Beləcə Konqurbay başqalarından öncə Almambetdən şikayət etdi.

Xanın dilmancları və rahibləriylə Konqurbayın söylədiklərinin üst-üstə düşdüyünü görən Esen xan Almambetə qeyzləndi:

– Bu nankorun ucbatından adımız ləkələnməsin, öz atası əsgərləri ilə onu gəbərtsin!

Esen xan bu hökmü imzalayıb, möhürləyib adamları ilə Sooronduka göndərdi.

Xan sarayına Almambet iiki gün gec gəldi. Şikayəti vardı.

Esen xan Almambeti qəbul etmədi. Bu, xanın qəzəbinə gələnlər üçün adi qayda idi. Esen xan qəbul edər ümidiylə Almambet sarayın qapısında yeddi gün gözlədi. Yeddinci gün Almambetə könül vermiş Borulça adlı qız ona gizlicə bir sirr açdı:

– Almambet, mənim səndən başqa yaxın adamım yoxdur. Esen xan fərman verib səni Tanqşada öldürtmək istəyir. Əllərini bağlayıb xəndəyə atacaqlar, ya da xain adı ilə dar ağacına çəkəcəklər. Gedəcəyin yeri, sığınacağın xalqı indidən düşün. Anam türk qızı idi, mən sənin yarın olacağam, yeddi il gözləyəcəyəm. Gəlməsən canıma qıyacağam.

Bu sözləri ağlayaraq söyləyən Burulca Almambetlə vidalaşdı. Almambet Tanqşaya – atasının sarayına döndü. Qəzəblənmiş Almambet Soorunduka belə dedi:

– Atacan, Esen xana güvənəni Tanrı vurur. Esen xan ilə Konqurbaya nə edəcəyimi özüm bilirəm.

Soorunduk indi tanrıya üz çevirmişdi. Oğlunu görəndə ayı kimi bağırıb üstünə atıldı:

Belə pis danışma! Ulu Göyün oğlunun qarşısında məni utandırdın.

Almambet atasının fənalığını görüb bir gün bir gecə yuxu yatmadan fikirləşdi, axırda belə qərara gəldi ki, burada qalmağın bir mənası yoxdur. Çin mənim yerim deyil, qırğızların yanına gedəcəyəm. O, ürəyindən keçənləri yalnız anası Ekzərə söyləmək istədi.

Günlərin birində canı sıxılan, amma içindəki ağrıları kimsəyə söyləmədən iztirab çəkən Almambet «ova çıxsam rahatlanaram» deyə igidləriylə Aral deyilən yerə vardı. Ətəkləri meşəlik olan Aral dağına yetişib ov ovlayıb, əyləncə düzənlədi.

Almambet meşənin kənarı boyunca qaçan cüyürü diri tutmaq üçün ardınca düşür. Cüyür meşəyə girib sonra talaya çıxır. Almambet qarşısmda atlı adamlar görür. Həmin qaçan cüyür atlı qırx adamın yanına gəlib silkinərək adam cildinə girir.

Almambet əjdahadan iki il dərs alsa da, sehrbazlıq öyrənsə də belə kəraməti nə eşitmiş, nə də görmüşdü. Almambetin ağzı



açıq qaldı:

– Siz kimlərsiniz, igidlər? Haradan gələn ruhlarsınız?

– Xoş gəlmisən. Biz qırxlarıq. Türkün, qırğızın həqiqi bahadırlarını qoruyan pirlərik. Tanrının əmri ilə sənə xeyirli birliyi anlatmaq üçün gəldik. Sənin barmacaq yerin Altaydır. Sağ ol!

Bunları söyləyən qırx atlı bir göz qırpımında qeyb oldu.

Almambet geri gönərkən ətraf aləm əvvəlkindən də gözəl göründü. Gündoğamn bu gözəlliyinə əvvəllər fikir vermədiyinə təəssüfləndi. Gündoğanın bu gözəlliyi qarşısında Almambetin qəlbi çırpındı, vücudu əsdi, göz işlədikcə uzanan üfüqlərə baxıb ucadan nəğmə oxumaq istədi. Göylərə dirənən dağlar üzərindən, axan sular üstündən quş kimi uçmaq, bulud kimi yayılmaq istədi.

Almambet gündoğanı maraqla, heyrətlə seyr edərkən görükən dağın kənarında insan qaraltısı hiss etdi.

Almambet ovçuluq edirmiş kimi onlara tərəf hərəkət etdi. O, əvvəl atlı, əlində alıcı quş tutan, silahlı, gen sinəli adama yaxınlaşdı.

Almambet görsə də özünü görməzliyə vuran lal dayanmış adama yaxınlaşıb «kaoma» deyə salam verdi. Adamdan səs çıxmadı. Almambet atlıya təkrar salam verdi. Adam inni, cinni olduğunu söyləmədi. Almambet qəzəblənərək bulud kimi pozulub, aslan kimi atılaraq adamın üstünə cumdu:

– Ey, sən haradan çıxdın, tərbiyəsizin biri! Adət bilməyəni yer udsun! Salam verəndə almamaq harada görünüb?

Atlı cavab verdi:

– Bu gen dünyada acından ölürmüş kimi donuz ovlayıb tərkinə bağlamısan! Sənin yaxşı adətin budurmu? Canlıları öldürən, donuz əti yeyənlərə salam verilməz adətimizdə...

Almambet dedi:

– Neyçün donuz əti yeyilməz? Gördüyünü göstər, bildiyini anlat görək. Yoxsa başına oyun açacağam.

– Almambet, hövsələn olsun, bura gəl-deyən adam bir hündür yerdə atından düşdü və əlini yellədi.

– Bahadır, biz ilk dəfədir ki, görüşürük, məni necə tanıdın

– soruşdu Almambet.
– Bahadır, igidin üzü, gözü özündədir, amma səsi-sorağı, igidliyi uzaqlardadır, xalq arasındadır. Sənin haqqında eşitmişdim. Səni göz önünə gətirməyə çalışdım – dedi Gökçə.
– Sən sadə bir əsgər deyilsən – dedi Almambet. Kökcö dedi:
– Köküm türk, nəslim qazaxdır. Aydarkanın Kökçösü mənəm, bahadır. Ova çıxmışdım. Əzəmətini, çöhrəni görüb, libasına baxıb, söz və hərəkətlərindən Çin igidi Almambetə oxşatdım.
– Doğru bilmisən – dedi Almambet.
Onlar yamyaşıl dağın ətəyində, təpənin üstündə oturub atın tərkindəki quş ətini yeyib, qabdakı qımızdan içib uzun-uzadı söhbət etdilər. Bahadır Almambet Esen xan və Konqurbayla olan ixtilafını Ər Kökçödən gizlətmədi:
– Mən bütün əhalidən deyil, gözüqızmış xanın davranışından, yaltaq bəylərdən, iftiraçı rahiblərdən, məni anlamayan atamdan incidim. Onlar bütlərə tapındıqdan sonra pak insanlar olmalıydı. Görünür bu bütlərin əlindən bir şey gəlmir. Mən onlara tapınmayacağam, qurtardım onlarla. Atam kimi, Esen xan kimi, bəylər kimi olmaq istəmirəm. Türklərin, qırğızların adətləri, dilləri, ruhu dürüst xalq imiş, mənə çox yaxın gəlir. Məni türkə, qırğıza çevirin. Mən bu niyyətə zorla deyil, Tanrını ürəyində hiss edərək xeyirxah diləyimlə gəlirəm. Bunu atama, anama başa salacağam. Həqiqəti söyləyəcəym.
Kökcö dedi:
– De görüm baban Soorunduk səni başa düşəcəkmi? Özünə əngəl törədirsən. Burada qərara gəlib bizimlə getməyin yaxşı olmazdı?
Almambet dilləndi:
– Saxlanmış günahkar kimi qaçmayacağam. Xalqa, ata-anama danışacağam. İzn verilsə mənimlə gələsi insanları can yoldaşı kimi gətirəcəyəm! Birdən dediyim vaxta gələ bilməsəm «bizim dinə girmiş, bizdən biri» deyə məni xatırlayın.
Almambetin sözünə Kökcö inandı:
– Bahadır, Allah-təala yardımçın olsun, uzun yolun açıq



olsun! Tez qayıt!
– Doxsan günə qədər gözlə – dedi Almambet.
İki igid polad qılınclarıyla əllərini çərtib qanlarını qovuşduraraq qucaqlaşıb ayrıldılar.
Almambet yeddi gün sonra Tanqşaya gəldi. Soorundukun sarayı qarışmışdı. Soorunduk Almambeti qoruyan əsgərləri «Almambeti itirdiniz» deyə suçlayıb zindana atmışdı.
Almambet gələr-gəlməz Kökçöylə rastlaşdığını, türklərə könül verdiyini, onlara qoşulacağını anası Ekzərə anlatdı:
– Anacığım, eşit məni. Gülüstanın qurudu. İnsanlar bir-birinə dəydi. Gülüstanlı xalqım zorlandı. Esen xandan qəlbim qırıldı. Qalası olsan tək öz başıma yox, sənin də başına bəla olacağam. Ağ südünü halal et, sağ olsam qayıdıb gələcəyəm. Ölsəm xəbər göndərəcəyəm. Batıya, Türklərin, Qırğızların yanına gedəcəyəm. Sağlıqla qal, anacan!
Ekzər oğlunun sözünü saya salmayıb özünü oda yaxan pərvanə kimi çırpındı:
– Bu sözləri məndən başqa eşidən olmasın! Bunu atana da söyləmə! Qırğızların yanına da getmə. Sözündən dön. Atanla məni öz əlinlə basdırandan sonra get.
Bunu deyən Ekzər göz yaşlarını yağış kimi yağdırdı.
Almambet «anam məni buraxmayacaq deyəsən» düşünərək «atam məni bəlkə igidlik göstərib başa düşdü» deyə Soorundunun yanına getdi.
Atasının yanında böyüklər, vəzir-vəkillər əyləşirdi. Onlar saygı göstərib ayağa qalxıb sonra diz çökdülər.
Soorunduk dilləndi:
– On gündür Çin sərhəddindəki bütün xanlara xəbər göndərib səni tapa bilmədik. Göy qoruyub, salamat qalmısan.
Almambet dedi:
– Ata, mən türklərə, qırğızlara yaxınlaşıb, dost olub gəldim.
Soorunduk qəzəbləndi:
– Bu nə sayıqlayır? Cin vurub bunu? Bu mənim oğlumun sözü deyil. Əzəli düşmənimiz qırğızlardır. Onlarla mizrağın

ucu, qılıncın tiyəsi ilə danışmaq lazımdır.

Almambet davam etdi:

– Məni dinlə, ata! Mən türklərin və qırğızların dinini qəbul etdim, ata. Onlar dürüst sözlü, təmiz qəlbli, ədəbli, əxlaqlı, igidləri namuslu, dindar, elm və ürfan sahibi xalq imiş.

Soorunduk daha da hiddətləndi:

– Ağzını yum! Oğlum tamam dəyişib! Esen xan havayı yerə bunu sərkərdəlikdən azad edib zindana atın deməmişdir. Mən bunu Esen xana çatdıracağam, öz əllərimlə öldürəcəyəm. Cini ni çıxaracağam. Heç kəs qabağımda durmasın!

Soorunduk qılıncını sıyırıb oğlunun üstünə atıldı. Almambet atasının biləyindən tutub sıxdı. Qılınc yerə düşdü.

Almambet həmin qılıncı götürüb üstünə gələnləri gəbərdərək saraydan çıxıb, dirəyə bağlanan atına mindi.

– Tutun! Öldürün! Gəbərdin!-deyə Soorundukun səsi bütün şəhər boyu eşidilməyə başladı.

Almambet sübh çağı yeddi yeri nişan alıb sağa-sola baxmadan yola çıxdı.

Soorunduk oğlunun arxasınca onu təqib etmək üçün əskər göndərdi. Esen xan və Batıdakı xanlara məktub yazıb göyərçinlərlə göndərdi.

Ertəsi gün bir göyərçinin xan sarayına atdığı kiçik bir məktubu (kağızı) Esen xana verdilər. Məktubda belə yazılmışdı: «Bu gecə, səhərə yaxın Soorundukun oğlu Almambet qırğızların yanına qaçdı. Batı istiqamətinə gedir»

Bunu eşidən Esen xan qəzəblənib saçlarını yolaraq vəhşi hayqırtılarla bağırdı:

– Qaçaq Almambeti əlimə diri verin! Ya da başım kəsib gətirin!

– Biz əvvəlcədən söyləmədikmi bu gəncin niyyəti pisdir, başa bəla olacaq, Ulu Göyün oğlu! – dedi rahiblər sevinərək.

Yaxasız zirehli libas geyinən nazik bığlı, enlisifət, iti baxışlı məmur Konqurbay başda olmaqla bahadır Neskaranı və Böyük Yoloyu (Coloyu) bir xeyli əsgəriylə təqibə göndərdi Esen xan.



Konqurbayın əsgərləri Almambetə beş günə çatdılar.

Qarışqa kimi qaynaşan əsgərlər Almambeti uzaqdan nişan aldılar. Qüvvətdən düşən Almambet dəstə-dəstə gələn əsgərlərlə təkbaşına döyüşməkdə idi.

Bahadır aralıda gözləyən Konqurbaya ox kimi yetişib böyrəyini yumruqlayaraq keçdi. Konqurbay atından yıxılırkən yoldaşları ona kömək etdi.

Almambet həqiqi igidliyini belə göstərdi ki, sağa-sola baxmadan qələbəlik əsgərlərin içinə girib qılıncı, mizrağı ilə neçə igidin canına vəlvələ saldı, bəzilərini atdan devirib başlarını üzdü, əsgərləri bulud kimi qovaladı.

Almambet heç yatmadan yeddi gün, yeddi gecə savaşdı. O, qarşısına çıxan Çin xanı Neskara, kalmık xanı Coloy və onların yanındakı pəhləvanlarla təkbaşına döyüşüb çoxunu qılıncdan keçirdi, qələbəlik ordunu alt-üst etdi.

Birdən atı qılceyran tulpar taqətdən düşüb səndələyərək bir quyuya yıxıldı. Almambet bu zaman yəhərdən bir tərəfə süründü, ayağı üzəngidən qaçdı. Bunu görən Alookenin oğlu Konqurbay atını qamçılayaraq alıcı quş kimi hücuma keçdi. Almambet imdadına yetişəcək bir kimsə olmadığı üçün həyatından umudunu kəsmişdi.

Bir göz qırpımında Almambetə Göy yardım etdi. Qızıl haşiyəli mizrağı olan birisi Konqurbaya hücum edib onun atına mizrağını sapladı. Konqurbayın atı taqətdən düşdü, Konqurbay həyatından umudunu kəsib tələşla üzüaşağı qaçdı.

Almambet «mənə kömək edən hansı igiddir» deyə diqqətlə baxanda anası Ekzəri gördü. Zavallı ana dolu qısrağa minib, kişi paltarı geyinmişdi, yığılıb yumaqlanmış qara saçları alnına tökülmüşdü. Yeganə oğluna kömək etmək üçün, «onsuz necə yaşayaram» deyə düşünüb əlinə mizraq alaraq oğlunun arxasınca gəlmişdi. Yerindən tərpənməyən aslan gah anasını dağa bənzədərək sevincdən yerə – göyə sığmırdı, gah da miskin anasına acıyırdı. Almambet anasını gördükdən sonra daha da cəsarətləndi. Soyuqsuyu keçib, atına minərək Konqurbayı təqib etdi. Kon-

qurbayın dörd ayaqla quş kimi uçan qara atına yetişə bilmədi. Qaçanları qovalayan Almambet yaxaladığını sağ buraxmadı.

Almambet qaçanların arasında hərəkətsiz dayanan əsgəri görüncə onu gəbərtmək üçün arxasına mizraq vurdu. Üzəngidəki ayağı qanayan əsgər başını çevirdi. O, Almambetin atası Soorunduk idi. Onu görən Almambetin vücudu sarsıldı.

– «Sənsənmi, ata, salamat qal!» deyə mizrağını çəkib, qılıncını qınına qoydu. Utandımı, qəzəbləndimi bilinməz, atının boynuna qısılıb ocağını su basmış kimi, əlindən quşunu uçurmuş kimi üzüntülər içində geri çəkildi.

Almambet qəzəblənib atını sürüb gedərkən bir cökəkdə anasının mindiyi köhlənin boş olduğunu (sahibsiz mənasında-A.C) gördü. Almambetin ürəyi parçalandı, dağ kimi atı əyildi. O, quş kimi köhləni yediyinə alıb «əsil Ekzər anacığım» deyə ucsuz-bucaqsız səhrada yanıqlı səsi ilə bağırmağa başladı.

Anasından səs çıxmadı, harada olduğu bilinmirdi. Davul çalan qələbəlik çinlilərin Ekzərin cəsədini qatıra yükləyib Pekinə götürməkdə olduqlarını gördü Almambet. Tozu-dumana qataraq onlara yetişib anasının meyidini əllərindən aldı.

Səhrada Almambet sirli mizrağını yerə vurub gözlərindən yaş axıtdı, üzülüb haldan düşdü.

Bu zaman düşmən gəlirdi. Almambet düşündü ki, atımı geri çəkib çinlilərlə savaşsam zavallının atını qurd-quş yeyəcək, gözlərini oyacaqlar. Odur ki, o anasının meyidini köhlən ata yüklədi. Təqib edənləri aldadıb özünü meşəyə vurdu. Anasının cəsədini ürəyi ağrıya-ağrıya torpağa tapşırdı, üstünə böyük bir daşdan nişanə qoydu.

Şəfəqlər söküldü, yer üzü aydınlandı. Almambet getmək istədi, amma günəşi orman, çölü duman örtmüşdü. Almambet dindar bir adam idi. Fürsət tapıb dağdərəsinə dolu yağdırdı, ormanı selə verdi, çölü, düzü qara dumana bürüdü.

Qılceyrana minən Almambet gecə-gündüz yağışdan qaçan əsgərlər arasında dolaşıb atını yanaşı sürərək meşədən çıxıb Altaya gedən yolu tutdu. Düz on bir gün yol getdi.



Kökçö ilə vədələşdiyi gündən altmış gün keçəndə yoldaşları ilə atlanan Kökçö «Almambet verdiyi sözə əməl edəcək, dost üçün alova atılacaq, namus üçün canını verəcək, bahadır sözündən dönməz, vədələşdiyimiz yerə gələcəkdir» deyə göy çayın sahilinə nəzər salmağa başladı. Oğlan gəlirkən yaxındakı dağ yolundan toz-duman qalxdı. Kökçö diqqətlə baxanda qanlı atları çaparaq gələnin Almambet olduğunu gördü.

Payızın sonunda Ər Kökçö Almambeti atası Aydarkamn auluna apardı. Aydarkan mal-sərvət düşkünü idi, o, altı yüz atı arasından kiçik bir qısrağı tapıb kəsdi.

Almambet Kökçönün yurdunda doqquz il bekar yaşadı. O, xalqın ac-yalavac, səfil yaşamasını görüb «mənim də bir xeyrim dəysin» deyə Monqolların, Tırqotların, Kalmıkların atlarını, sığırlarını və dəvələrini gətirərək yoxsullarla paylaşdı. İldə üç-dörd dəfə at gətirib fağır-füqəranın ac qarnını doydurdu, yoxsulu zəngin etdi.

Almambet adilliyi, saflığı, səmimiliyi ilə obada hörmət qazanmağa başladı. Fağır-füqəralar, ərindən boşananlar əvvəlki kimi bəylərə, əfəndilərə deyil, çinli Almambetə şikayətə gəldilər. Almambet hər kəsin şikayətini, dərdini dinləyirdi. Kimsənin sərvətinə, zənginiliyinə, şöhrətinə baxmırdı. Hər kəslə üzbəüz danışır, davanın səbəbini araşdırır, qovğanı yatırıb məsələni ədalətlə həll edirdi.

Qazaxların əvvəllər məsləhət verən aqilləri, hakimləri bu səlahiyyətdən və qənimətdən məhrum oldular. Bir gün altmış nəfər bir yerə yığışıb tədbir tökdülər. Hiylə qurub Almambeti ləkələmək və aradan götürmək istədilər. Qardaş kimi yaxın olan Kökçö ilə Almambetin arasına girdilər. Kökçöyə dedilər:

– Nazlı gözəlin Ağ-Erkeç namussuzluq edib yanına kişi buraxdı. Qadın kişinin düşmənidir. Atasını, əsgərlərini öldürən bu çinlinin sənə canı yanarmı? Almambet səni öldürüb, taxtına əyləşib Ağ-Erkeçi almaq istəyir, onu aradan götür.

Belə bir böhtanı birlikdə Almambetə yaxan bəylər Kökçönü sərxoş edərək Almambetin üstünə göndərdilər.

Qadın düşkünü, sadəlövh və kobud Kökçö fitnəkar bəylərin dedi-qodusuna inanıb Almambeti silahdaşlarının vasitəsilə öldürmək istəyərkən bahadır qılıncını çıxarıb özünü qorudu, bir neçəsini yıxıb ölümdən qurtardı.

Qəzəblənən Almambetə bəyaz sarıqhların ağıllısı, ipək əlbisə geyinən gözəl Ağ-Erkeç ağlayaraq belə məsləhət verdi:

– Özünü qırğızların bahadırı Manasa yetir, sənin qiymətini bilsə-bilsə o bilər, sözümü unutma.

Obadan çıxan Almambet bir qədər getdikdən sonra «Kökçö sərxoş olduğu üçün bunu etdi, özünə gəlib həqiqəti öyrənəndə arxamca adam göndərər yəqin» deyə çox uzaqlaşmadan döyüş atı Qılceyranı çəmənliyə buraxdı, yollara baxıb bir gün yatdı, iki gün yatdı, üç gün yatdı. «Kökçö dəyişmiş, niyyəti pozulmuş» deyə kədərlənib ondan umudunu kəsən bahadır Almambet atının başını səhraya çevirdi.

Həzrət dağında, ətrafı ardıc ağacı ilə tutdurulmuş qırmızı keçədən yapılmış, qıraqları qumaşla bəzədilmiş, içi otuz çeşit boya ilə boyanmış Qarabörkün adətlərə görə qurulan on iki qanadlı bəyaz çadırında uyumaqda olan Ər Manas yuxu görürdü.

Manas oyanıb «gecə gördüyüm yuxu yaxşı deyil. Bunu xalqa bildirim» deyə qırğızlara xəbər göndərdi. Qırx gündən sonra xəbər yetən yerlərdən xalq gəldi. «Ya güşməninə qalib gələ bilməmiş, ya da xanımı oğlan doğmamış, yoxsa durduğu yerdə ziyafət verməsinin səbəbi nədir» deyə Manasın bu hərəkətinə çaşanlar oldu.

Manas at kəsdirib əyləncə düzənləyərək ziyafət verdi. İnsanlar dağıldıqdan sonra ağsaqqalları, uzaqgörənləri, başbilən bəyləri, qırx çorosunu çağırıb onlara qarın yağı yedirib, şərab içirtdikdən sonra yuxusunu danışdı.

– Əziz xalqım, sizə deyəcəklərim var, yozmağınızı istədiyim bir yuxum var. Gecə bir röya gördüm, gördüm ki, Ağqulanı minib, çəpkəni geyinib yol gedirəm. Qarşıma altun dəstəkli, polad tiyəli bir qılınc çıxır. Onu əlimə alıb havada yelləyəndə bir vızıltı səsi eşitdim. İti olub-olmadığım yoxlamaq üçün ev boyda bir daşa vurdum, daş ət kimi ayrılıb ikiyə bölündü, qılınc yerə saplandı. Qılıncı qurşanıb gəlirdim, sağ tərəfimdə ağırlıq hiss etdim. Baxdım ki, həmin qılınc aslana dönüb. Təpəyə çıxdım, aslanın heybətindən bütün heyvanlar başlarını əydilər. Yenə gedərkən aslan bir anda alıcı quşa döndü. Alıcı quş göydə şığıyırkən bütün qanadlılar yerdə qorxudan əsirdi. Quyruğu və başı parıldayan bu bəyaz quşu əlimə qondurub gəlirkən oyandım. Millət, bunun mənası nədir? Yuxumu yozun!

Belə çətin anlarda xalqı vəziyyətdən çıxaran ağıllı və yenilməz Acıbəy oldu:

– Bahadır, işlərin düzələcəkdir, xeyirli yuxu görmüsən. Tanrı sənə istədiyini verəcək. Çində şərəfini qoruyan Almambet sənin yanına gələcək. Eşitdim ki, Soorundukun oğlu Qazaxların yanına gəlib, bir neçə il orada qalıb, amma pəhləvanları ilə yola getməyib Kökçödən aralanmışdır. Polad biləkli, aslanlar aslanı, bahadırlar bahadırı olan Almambet gəlib sənə qoşulacaqdır. Sənə dəstək olacaqdır. Yuxudakı işarət Tanrının sevdiyi adamlara verilir.

– Kimsə səninlə boyunu ölçə bilməz, taleyinə kimsə qona bilməz, Acıbəy ağa! Bəylik paltarı sizindir!-deyən bahadır Manas düşündüklərini yaxşılığa yozan Acıbəyə məmnuniyyətini ifadə edərək altı min ailəyə bəy olduğunun işarəti olan qiymətdə bahalı paltar geydirdi.

– Yuxun çin olsun!-dedi əyləşənlər Tanrıya üz tutaraq.

Xalq məmnun olub ziyafətin kefini çəkəndən sonra hərə öz evinə döndü.

Ondan sonra yaz keçdi, payız keçdi.

Manasın yurdunda altı ildən bəri bəd xəbər verən davul çalınmamışdı. Bu gün davul çalındı.

– Altı ildən bəri Manas dırmanası dağ, savaşası düşmən tapılmadığı üçün deyəsən canı sıxılır. Yığılıb ziyafət düzənləmək üçün Manasdan izin istəyək-deyə xalq ayağa durdu.

– Bahadır Manas, bizim görəcəyimiz iş nə olacaq?-dedi qırx çoronun başçısı Kırqıl gələrək.

O zaman Manas belə dedi:

– Bahadırlar, beş aydan bəri yeraltı yağı, qarın yağı, şərab və qımızla əylənib yatdınız. Qılıncınız paslandı! Qarnınızı piy basdı. Atlanmağın zamanı gəldi. Yaxşı bir ova çıxacağıq. Ləzzət alacağıq.

Bu gün Manasın igidləri döyüş üçün hazır olan seçmə atlarını yox, ziyafətlərdə mindikləri qoşqu atlarını mindilər, bəziləri «qazan aşı gözləyirik» deyə atlanıb düşmən yerinə ov, gecə yerinə sübh arayıb yola çıxdılar.

Manas iki gün ara verərək doyunca əyləndi, çoxlu əlik ovlatdı. Bu azmış kimi gündoğan tərəfə on beş gün yol getdilər.

Bahadır Manas uca dağlara baxıb, yamyaşıl vadilərə, ördək və qazlara, at ayağı dəyməyən otlara, ucaboy çinarlara, heyvanları bol olan Talasa boylanıb buraların yurd salmaq üçün çox gözəl yer olduğunu düşündü. Ceyranı qoyun sürüsü kimi çox olan geniş düzəngahda çadır qurdurub satranc, toğuz korqol, topdaş, aşıq-aşıq oynamaqla altı gün əyləndi.

İgidlərinin hamısı çılğınca əylənirkən Əpr Manas rahat yata bilmədi, ürəyi rahatlıq tapmadı, gah göy çadıra girir, gah dağa çıxırdı, qəlbi döyünür, yer seçməyə gedən igidlərini gözləyirdi.

Dağ ətəyinə çıxan yolda qurd kimi bir qaraltı göründü. Mindiyi at boynu bir qulac olan tulpar idi, özü gen sinəli, enlikürək, yay qurşanan, dağ əzəmətli bir cəngavər idi. Yaxınlaşanda gördü ki, (Manasın görməyi nəzərdə tutulur-A.C.) o, əndamlı, başına xanlarınkı kimi altun işləməli qalpaq qoyan, qalpağı qiymətli daşlarla süslənən, insandan fərqli heybəti olan, tutduğunu buraxmayan, ölümdən çəkinməyən, bahadırlıq adına sahib bir igiddi.

Manas onu görən kimi «yuxuma girən Ər Almambet bax budur» deyə təxmin etdi. Dost həsrətlisi kimi onun yanına qaçmaqdan çəkindi. Fikirləşdi ki, onun igidliyini yoxlayaq, xalqın adətini göstərək və sonra Almambetin gözünə görünmədən dərəyə endi.

Manas göy çəmənlikə əylənən silahdaşlarını yerində qoyub



bulaq başındakı beş bahadırına Almambeti gördüyünü söylədi:

– Belindəki bağ kimi beş bahadır, sözümü dinləyin. Aşağıdan gələn adam Almambetə oxşayır. Ona hücum edin, həqiqi igidliyi o zaman bilinəcək. İgidin ürəkli olub-olmadığını yoxlayaq.

– Ey, onu elə buraxmayaq, qazaxlardan qaçan Çinlinin əl-ayağını bağlayıb gətirməyə beşimizin gücü çatmayacaqmı?-dedi Sırqak.

Manas buna etiraz etdi:

– Boşla görək, özünü divmi sanırsan, Sırqak?

Ağıllı hərəkət etməliyik. Mənim gördüyüm Almambet həqiqətən budursa aslan təbiətli bir igiddir. Ona pis münasibət göstərib utandırmayaq. O, uşaqlıqdan bəri Çinin köklü adətlərinə alışmış, başı bəlalı, barınacaq yeri, sığınacaq xalqı, söykənəcək dağı olmayan, yalqız aslan kimi dolaşan qərib, çaşqın bir bahadırdır. Onunla ələ qonan quş kimi mülayim davranıb can dostu kimi qəbul edək. Ona adətlərimizi, ləyaqətimizi göstərək. Dəyərləndirməyi bacaraq. Əsgərlərimizin birliyini, davranışını, igidliyini, cəsarətini görsün! Görüb də məmnun olsun! Araya almayaq. İntizamsızlıq etməyin, sirr verməyin, əsgərlərimizin birliyini, çevikliyini, bahadırlığını göstərin. Əmrimi yerinə yetirməyənin qanını tökəcəyəm.

Beş bahadır dağın dərəsinə tərəf yola düzəldi. Bu arada beş bahadır tüfəng atıb, davul çalaraq dərədən çıxıb Almambetə hücum etdilər. Almambet bunların hayqırtısına çil yavrusu qədər əhəmiyyət vermədi, həqiqətən qorxmaz, fil biləkli bahadır idi; dönüb arxasına belə baxmadı. Gəldiyi istiqaməti dəyişmədən, ac aslan kimi belində mizrağı, sağa-sola baxmadan basıb keçirdi. Bir az əvvəl çığırıb-bağıran, birlikdə hücum çəkən beş cəngavər Almambetin zəhmindən çəkindilər, dilləri tutuldu, qurda rast gələn köpək kimi susdular. Silahlarını yavaşca endirdilər, sakitcə dayandılar, yalnız salam verib sonra, sıraya düzləndilər.

Bayaq igidliyini göstərən Sırqak indi Almambetə yol göstərməyə başladı.

Almambet dördkünc göy çadıra yaxınlaşarkən qarşısına

bir neçə dil bilən ağıllı Acıbəy çıxıb atının yüyənindən tutaraq danışmağa başladı:

– Böyük olsan da sadə ol, bahadır, sözümə qulaq as. Tanrının əmri ilə qırğızların müqəddəs torpaqlarına, xanın qapısına yetişdin. Qəddarlıq etmə, xalqımızın adətincə davran. Xanımız çay kimi qan axıdan bir cəngavərdir, bu sərt təbiətli bahadır bizi cəzalandırmasın, salamat qalaq. Atdan düşüb hörmətlə xana salam ver...

Çində xanın yanındakı adətləri öyrənmiş, ayrıca türk xanlarının iqamətgahlarında olmuş Almambet atından düşüb, xan çadırına gəlib hörmətlə salam verdi. Manasın əmisi Bakayla əl tutdu.

Qırğızlar adətlərinə görə sarı-qızıl suyuna çəkilmiş kasada qımız gətirdilər. Almambet fincanfı verən igidə «əvvəl əmimə, böyüklərə süz» deyə Bakayı göstərdi.

Bizim adətləri bilirmiş deyə oturanlar çaşdı.

Bakay kasaya dodağını yaxınlaşdırıb böyüklük işarəsini bildirdi. Ondan sonra Almambet fincanı əlinə aldı. Neçə günlər ac qalıb dodaqları quruyan Almambet aclığını bildirməmək üçün azacıq içmişdi, qımız mədəsini yandıranda tərə-suya batdı, sonra başını qaldırdı.

O zaman Manas danışmağa başladı:

– Bahadır, Ala Dağ deyilən yerə gəlmisən. Qırğız deyilən xalqa üz tutmusan. Xoş gəldin, bahadır! Görürük yol gəlib yorulmusan, amma bahadırlıq heybətin var. Hansı eldən, nə zaman gəldiyini söylə, igid!

Ər Almambet kədərlənərək belə dedi:

– Ad-sanımı soruşsan,[1]
Yarı kədər, yarı qəm.
Xalqından ayrı düşən
Qürbət elli qəribəm.

---

[1] Kitabda verilən şeir mətnlərinin poetik tərcüməsi də Adil Cəmilə məxsusdur.



Ölüm vecimə gəlməz,
Bağrım başı dağlanıb.
Çaşqın bir yolçuyam mən,
Yolum, izim bağlanıb.

Daha mülküm, malım yox,
Danışmağa halım yox.
Elimi soruşmayın,
Daha mənim elim yox.

Tək dolaşan biriyəm,
Yerimmi var gedəsi.
Sığınmağa xalqım yox,
Gəlib hicran vədəsi.

Tənha qalan biriyəm,
Xəyallar içindəyəm.
Haçandır yol gəlirəm,
Bu yollar içindəyəm.

Bahadır Manas xalqına belə buyurdu.

– Göylərə yüksələn Ala-Dağı və onun geniş çöllərini, uzun yollarını kim aşmamış ki, xalqım! Dəvət edib gətirmədiyim Çin xanını Tanrı göndərmişdir. Evimə xeyir gəlmişdir! Bəlalı qırx bahadır, bura gəlin! Xana salam verin! Altına minik, əyninə kürk verin, əsirgəməyin. Ağqulamı gətirin!

Manasın ordusundakı igidlər özlərini ora-bura vurdular. Hakim bəylər təlaş içində özlərini itirdilər. Manas sözlərini bitirib-bitirməz igidlər bahadırın atı Ağqulanı yedəyə alaraq doqquz qoşqu atı ilə birlikdə gətirdilər. Atların hamısı yəhərlənmişdi. Ağqulanın altun yəhərinin qaşına sirli mizraq, yanına Ağkəltə qılınc, tərkinə balta bağlanmışdı.

Qırğızlar Almambet xanın şərəfinə sarı oğlağı qurban kəsdilər. Manas xəzinəsini bu igidə açdı. Almambetin başına qızıl sikkələr səpdi. Başı bəla çəkmiş bu insan başı sağ olsun deyə qırx

min qızıl sikkəni igidlərinə talan etdirdi, qarın yağını Almambetin başına çevirib itlərə atdı. Üç canlının ətini də Almambetin başına dolayıb «bu da qanadlıların qisməti» deyə quşlara yem etdi. Almambetin köhnə paltarlarını fağır-füqaraya pay verdi.

Qırx çoronun içində çətin anlarda köməyə gələn, dar ayaqda vəziyyətdən çıxmağı bacarn düz sözlü Sərək adlı bilici vardı. O, Manasa belə dedi:

– Bahadır, qırğızların adətinə görə xan gələndə şərəfinə at kəsilərdi...

Manas dizlərinə vurub qəh-qəhə çəkdi:

– Bəli, Sərək doğru buyurur. At kəsmədən xan qarşılamaq bizim adətimizdə yoxdur. Millət, xan gəldikdən sonra at qurban kəsəcəyik, hazırlaşın!

Manas bahadır Almambetə çəpkən geydirdi. Ağqulası ilə birlikdə iki atı yedyinə alıb, gələrək ona hədiyyə verdi və belə dedi:

– Almambet xan, yurduma gəlmisən, yola düzələcəksən, Ağqula atıma minib bu atları sürüb get. Mizrağım, tüfəngim sənə əmanət. Sənə verəcəyim hədiyyə bunlardır, qəbul et! Qalıram desən-xalqı, gedirəm desən yolu seç.

Almambet səsini çıxarmadı.

Atların arasındakı Ağqulanı görən Almambet «bu atı götürəcəyəm» deyə onu Saralay ilə əvəzlədi.

Mükafat almadan at kəsildi. Bunu hamı gördü, bildi, amma kimsə Manasa bir kəlmə demədi:

Bu əsnada söz ustası Sərək işə yaradı:

– Bahadır, at kəsilərkən onun bir ödənci olmalıydı.

Manas ətrafına baxdı. Onu anlayan qırx çoro dedi:

– Bahadır, at yarışının mükafatı üçün adam əziyyət çəkməlidir, bu barədə qoy Almambet fikirləşsin. Biz çorolar mükafat üçün hazır durmuşuq.

Belə deyən çorolardan yeddisi irəli çıxdı.

Bu zaman ciddi görkəm almış Manas qəhqəhəylə gülməyə başladı. Yarış atları cıdıra çəkildi. Birinci yarışı dırnaqlarının



dəydiyi yeri ocaq kimi oyan, toz qoparıb, dağlar başındakı buludlar kimi süzən Almambetin Sarala atı qazandı. Birinci yarışın mükafatı olan yeddi igid Almambetə verildi, onlar sevinə-sevinə gələrək sahiblərinin xidmətinə girdilər. Bundan sonra bahadır evində olduğu zaman qamçısını alıb, atından düşdüyü zaman yüyənini tutan, oturduğu zaman altına döşək qoyan yeddi igid Almambetin əmrinə müntəzir oldu.

Almambetin qalacağına şübhə etməyən Ər Manas təzə dostuna dəyər verib onunla iki gün çöldə-bayırda dolaşdı.

Təpədə-ulduzlara yaxın bir yerdə, quşların qonşuluğunda yanaşı yatan Almambet ilə Manas – iki igid can sıxıntılarından azad oldular, iki gün iki gecə yatdıqdan sonra ürək sözlərini bir-birinə anladıb can-ciyər oldular.

Manas atalarının adətincə Almambetə belə dedi:

– İndi, bahadır, qırğızlarla qohum oldun. Yatım desən ev-eşiyim, gəzim desən el-oban. Getsən də sənə güvənirik, qalsan da! Amma qalası olsan gözümüz üstdə yerin var.

Almambet dedi:

– Bahadır Manas, mən həyatımda heç bir şey görməmiş uşaq kimiyəm. Çox bəlalar gəldi başıma. Belə bir zamanda qırğızların yanında qala bilərəm, ya yox, çox fikirləşirəm. Xalqın haqqında, bahadırların haqqında danış, təsəvvürüm olsun.

Manas belə dedi:

– Bahadır Almambet! Göydən enən müqəddəsim oldun. Əlimə qonan alıcı quşum oldun! Can-ciyər dostum oldun. İşlərim yoluna qoyuldu. İndi sənə xalqımın kimliyini anladacağam. Əcdadımız türkdür. Tanrıya, Yersuya, Umay Anaya tapınır. Dağlara çıxır, gözəl yerləri məskən edir. Sözünə bütövdür. Qanun-qaydası dilinin altında, sirri ürəyində, ərzağı tərkindədir. Bayrağını göyün üzündən və yanan ocağın rəngindən almışdır. Damğasını ay ilə göydən, canlılardan almışdır. İgidlər yastıqda deyil, savaşda ölürlər-şərəfləri naminə. Döyüşə atılanda yoldaşı tulpar atı ilə savaş silahı, sirli mizrağıdır. Köçəri quşlar sayağı qışını Batıda, yazını Doğuda dolaşan, qaplan kimi qüvvətli xalqdır.

Almambet sıra dağlara maraqla baxaraq belə dedi:

– Özümüzdən başqa xalqları «vəhşilər», «dağ haydutları», «vadi haydutları» adlandırıb insan yerinə qoymazdıq. İnsanın pisi var, amma xalqın pisi yoxdur.

Manas belə dedi:

– Bahadır, Xan iqamətgahında atam Cakıb, vəziri Bakay və bütün qırğızlar var, oraya gedəkmi?!

Manasın igidlərindən üçü «Almambet oğlun gəldi» deyə Cakıb bəyə, xanımına müjdə vermək üçün atlandılar.

Cakıb bəy Səmərqəndin yaxınlığında Bel-saz deyilən yaylaqda qısraqlarını sağdırıb, bud ətindən yeyib, qımızdan çəkilən şərabı içib yatırdı. Üç igid bir-biriylə yarışaraq müjdəni çatdırdılar:

– Bəy ata, oğlunun bu dünyada yoldaşı, o biri dünyada qardaşı, savaşda aslanı olacaq bir nəfər gəlib.

– Bəy ana, oğlunun döyüşdə mizrağı, savaşda qılıncı, yağmada yürük atı olan biri gəlib.

– Bəy ata, qaplan kimi heybətli, polad qılınc kimi kəskin, düşməni sağ buraxmayan Almambet oğlun gəlir. Muştuluğunu söylə, bəyim.

Cakıb bəyin tərs damarı tutdu. Muştuluq verəcək mərdliyini göstərməyib igidləri xanımının yanına göndərdi.

Çıyırdı xanım müjdəni alınca, iqamətgahdan çıxıb xeyir-dua verərək Tanrıya üz tutdu:

– Ah, Tanrım, bundan on altı il öncə röyamda Manasın yanında Almambetin olduğunu görmüşdüm. O vaxtdan bəri nə zaman gələcəyini gözlüyürdüm, yuxum çin oldu. Müjdə gətirən igidlər, dəvələrdən doqquzunu üçünüz də paylaşın!

Çıyırdı quş qanadlı boz yorğa atına minib «oğlumu qarşılayım» deyə on iki qadını da yanına alıb yola düzəldi. Cakıb bəy altmış ağsaqqalı yanına alıb yola düzəldi.

Cakıb bəy Manas ilə Almambetə hamıdan tez yetişdi.

– Ah, qurban olum Almambet! Sağ-salamat gəldinmi? Səni bizə Tanrı göndərdi-dedi Cakıb kövrələrək.



Almambet atasını xatırladı, yoxsa nədənsə Cakıb bəyin bu sözlərindən kövrəlib onun üz-gözündən öpdü.

Bu zaman, arxa tərəfdən saçları ağarmış Çıyırdı xanımın səsi gəldi. Xanım boz atının cilovunu buraxıb altmış ixtiyarın arasından keçərək gəldi:

«Tanrım mənə verdi. Bircəciyim axır ki, gəldi». Çıyırdı dəvə kimi bozlayıb Almambetə sarılmışdı. Xanımın döşündən yenicə doğmuş gəlin sayağı süd fışqırdı.

«Əziz anam» – dedi Almambet Çıyırdının döşlərini əmərək.

Şöhrətli xanım Çıyırdı iki məməsini çıxarıb sağ yanına Manası, sol yanına Almambeti alaraq əkizləri əmizdirir kimi əmizdirdi.

Otuz yaşlı oğlunun iştahla döş əmdiyini görüb məməsini sıxıb, südünü fışqırdan və bundan zövq alan gül üzlü Çıyırdını görənlərin hamısı çox sevindi.

Cakıb Almambetin gəlişi münasibətilə qırx bir heyvanı qəriblərə və fağır-füqəraya verdi. Bahadır Manas Almambetin şərəfinə səkkiz qəbilə xalqını çağırıb ziyafət verdi.

Çıyırdı xanımın bəyaz evində meyvə qoyulan böyük süfrəni dövrələyib oturanlar arasındakı Almambet belə dedi:

– Bahadır Manas, xalqını gördüm, Tanrı baxtını vermiş. Ağqula atını mərdlik göstərib mənə verdiyin üçün məmnunam. Atamın evindəykən söyləyirəm, Ağqulanı sənə verdim, mənə Sarala yetər.

Almambetin ağıllılığını görən qırğızlar çox sevindilər.

Qələbəlik xalqın ortasında Manas, yanında Almambet və qəbilə başçıları əyləşmişdilər.

İki igid söyüd çubuğundan tutub dayanmışdılar. Cakıb polad bıçaqla çubuğu tən ortasından kəsdi:

– Almambet ilə Manas, Tanrı hüzurunda həyatda və ölümdə bərabər olmaq üçün dost oldunuz. Bir anadan süd əmən əkiz qardaş oldunuz. Andı pozub bir-birinizə xain çıxsanız başınız bu çubuq kimi kəsilsin. Tanrının lənətinə gələsiniz, Umay ana bəlanızı versin!

Sükuta qərq olmuş xalq bunu təsdiq etdi:

– Bəd niyyətlini yer udsun!

– Üstü açıq məzar udsun!

Andiçmə sona yetib xalq dağıldıqdan sonra hərə öz evinə gedərkən Almambet ona verilmiş ağ otağa tək getdi. Bunu görən Manas Almambetə qız tapmağı düşündü. İki gün yatmayan Manas axırda Almambetə qız tapmaqdan öncə özünün evlənməyini düşündü.

Manas atası Cakıba sirrini söylədi:

– Ata, yaşım otuzu keçdi. Qayıb xanın qızı Qarabörklə izdivacım, Şoorukun qızı Akılayı hədiyyə kimi qəbul edib çarəsiz evlənməyim sənə bəllidir. İkisi də doğmadı, mənə övlad vermədi. Əski adətlərə görə bəyəndiyim bir qızla nişanlanmadım, sevərək murada yetmədim.

Cakıb dedi:

– Söylədiklərində haqlısan, oğlum. Oğul evləndirmək atanın borcudur. Necə qadın istəyirsən? Kimin qızını bəyənirsən? Könlündəkini söylə.

Manas:

Hər şeyi söz eləyən,
Hamıya göz eləyən,
Yan-yörəsi yığnaqlı
Bəyin qızı olmasın.
Tutduğunu gizlədən,
Özünü əzizlədən,
Pirin qızı olmasın.
Cangüdənlər yanında
Can bəsləyib yetişən,
Onla-bunla didişən,
Xan qızından olmasın.
Qaymaq yeyib evində
Yatmaqdan xəstə olan,
Hələ dədəm ölməmiş
Gözü mirasda olan,



Əzəmətli ər gəzən,
Varlı qızı olmasın.
Daban-çatlaq, üz – qalın,
Dilindəki söz -yalın
Kölə qızı olmasın.
Ata, özün bilərsən,
Qadınları tanıyan
Dünya görmüş bir ərsən...
Şirin dlli, xoş sözlü,
Mələksima, ay üzlü,
Boy-buxunu yerində,
Dərrakəsi dərində,
Uzun saçlı, güləyən,
Ərə hörmət eləyən,
Tanrısını tanıyan,
Xalqına hörmət qoyan,
Düşüncəli qız olsun,
Bəxtimə ulduz olsun.

Manas qəlbindəki sirri bu yolla Cakıba anlatdı. Sonra bunu da əlavə etdi:

– Ata, dostum Almambetə də qız axtar. Bir vaxtda evlənib bərabər toy edək.

Cakıb gülərək:

– Almambetin necə qız istədiyini bilmirəm-dedi.

Almambet yerə baxdı.

Manas dedi:

– Ata, mənə layiq bildiyin qızdan üstün olsun ki, əskik olmasın!

Bunu eşidən Cakıb bəy yanına yoldaş alıb, iki ata pul-para yükləyib Manas ilə Almambetə qız tapmaq üçün atlanıb yola düzəldi.

* * *

Cakıb bəy «iki oğlumu evləndirib atalıq borcumdan çıxmalıyam» deyə Carsuy və Fərqanədən başlayıb Səmərqənd, Daş-

kənd, Buxaraya qədər dolaşıb qız axtardı. Getmədiyi yerlər, görmədiyi qızlar qalmadı. Amma ürəyincə bir qız tapa bilmədi. Axırda Tacik yurduna keçərək otuz şəhərin xanı Atemirin (Qara xanın – A.C.) Sanirabiyqo adlı qızını bəyənib geri döndü.

Cakıb böyük Qara-Dağın hər yerinə səpələnmiş xalqının içinə gəldi, hamıya xəbər elədi. Manas Böyük Təpəyə ova çıxmışdı, ona da xəbər verdilər. Xalq toplandıqdan sonra Cakıb dərhal başından keçənləri anlatmağa başladı:

– Xan bağçasındakı fəvvarə dövrəsində gəzib-əylənən qızları, çiçəklər arasından gizlicə seyr edib, oğlum Manasın söylədiyi kimi – zərif, qaynar gözlü, uzun kiprikli, incə belli gözəl bir qızı bəyəndim. O, Atemir padşahın qızı imiş. Sanirabiyqo qız sənə layiqdi, sənə ağıl verəcək, könlünü ovudacaq. Onu alsan yolun açılacaq, didərginlər yurduna qayıdacaq. İsrar və inad edərək atası ilə danışıb razı saldım, qızını istədim və razılığını aldım. Sırğa taxdım. Başlıq pulu və nişan duası üçün otuz gümüş naxışlı mal, altı gümüş naxışlı qızıl verdim. Başqa bir qızı da Almambetə layiq gördüm. Amma məni düşündürən bir şey də var. Atemir xan əlimizdən gəlməyəcək, tapa bilməyəcəyimiz qədər çox heyvan istəyib, şərtini qoydu.

– Nə şərt? – soruşdu Manas.

Cakıb cavab verdi:

– Mən heyvanın sayından qorxmuram, amma o, heyvanlarda tapılmayan rəngli heyvanlar istəyir. Altmış dəvənin yarısı dişi, başları qara, digərləri ağ olsun, yarısı erkək, baldırı ağ, digərləri qara olsun deyir. Beş yüz atın yarısının üzü qara, burnunda bənəyi, alnında ağ xalı olsun, ön tərəfi bəyaz, quyruğu qara olsun, əlli dənəsi ala, əlli dənəsi açıq qızılı, əlli dənəsi qulun, iyirmi beşi qırmızı, qızılı olsun deyir. Əlli dənə ağ inək, boğazı qara, əlli dənə qızıl öküz, boğazı sarı olsun deyir. Qoyunların mini qara, mini ağ olsun deyir. Qırx min qızıl sikkə pul, iki kölə olsun deyir Atemir xan. Onun söylədikləri budur. Çində bu şərtlər varmı, yəqin qızı verməməyin çıxış yoludur bu...

Bu sözləri deyən Cakıb içini çəkdi.



Manas gülümsəyərək dilləndi:

– Atacan, bu gün gördüyün sabah yoxdur, qəzəblənmə. Onları sağlıq olsun, taparam. Mən də Böyük Təpədə yatarkən bir yuxu gördüm. Qıraqları kəsik olan Ay tutub yatmışdım. Almambet də belə bir yuxu görüb. Bakay əmiyə yozdurduq. O dedi – əlinə gələn Ay aldığın yardır, qıraqlarının kəsik olması uşaq doğmayacağına işarədir. Sonra dolğunlaşması da arvadının gec doğacağını bildirir.

– Tanrım verəcəkdir demək-dedi Cakıb bəy: Ağ otağın bacasına baxaraq Tanrıya dua edib «İndi oğlum Manas, evlənəcəksən, başlıq pulu hazırla» söylədi.

– Bütün qırğızlar içində qohum-əqraba, dost-tanışlar yəqin ki, mənə yardımçı olar-dedi Manas oturanlara baxaraq. Ağbalta saqqalını sığallayaraq dilləndi:

– Ey millət! Manas evlənirsə əlimizdən gələni niyə əsirgəyək! Başı qara olan ağ dəvədən yüz dənəsini mən verəcəyəm.

– Nə qədər desən hazıram. Ağbaşlı qara dəvədən yüz dənəsini mən tapacağam – dedi Berdikə.

Kökötöy at verəcəyini, Alımbəy inək verəcəyini, Oşpur qoyun verəcəyini bildirdi.

Ağ otaqda oturanlar – on iki tayfa qırğızdan altı yüz on dörd adam vardı, heç biri boş qalmadan Manas ilə Almambetə göstərəcəyi yardımı bildirdi, axırda Atemirin söylədiyindən üç dəfə çox heyvan tapıldı.

Toybaşı seçilən vəzir Bakay mavi qalpağını başına qoyub, göy qalxanını əlinə aldı, toy qayğıları ilə tələşlanıb altı gün yatmadı, yeddinci gün Altaydan köç edərkən heyvanbaşı olub Ala-Dağa yol başlayan qısrağını yaxşı məqsəd üçün önünə alıb arxasınca heyvanları sürdü.

Qırğızlar çalğı çalıb mahnı oxuyaraq dəbdəbə ilə Atemir xanın şəhərinə Kanıkeyi almaq üçün ( Sanirabiyqo nəzərdə tutulur – A.C.) yola düzəldilər.

Bəy olacaq Manas on iki min seçkin bahadırı yanına aldı, toy evinə doğru (yaxud qız evinə doğru – A.C.) yola düzələn

qələbəlik qafilənin başından ayağını görmək mümkün deyildi. Ağsaqqallardan Kırqıl, Acıbəy, Çıyırdı xanımın dövrəsindəki yaşlı qadın qohumlar, seçilən bahadırlar, ata-oğulun dostları, qopuzçu, zurnaçılardan ibarət qırx adam gedirdi. Dəvəçi Dörbön önündə üç yüz dəvə sürürdü, ilxıçı Salamat üç min at sürürdü, heyvandar Deldeş doqquz yüz inəyi, çoban Konğurat otuz min qoyunu idarə edirdi. Allah göstərməsin göyə yüksələn toz-dumandan yol bilinmirdi, göydə ulduzlar görünmürdü. Yolda sıra-sıra gedən heyvanlar bir-birlərinə qarışdı, dağ meşələrindəki yırtıcılar, qurd, ayı, pələng, qaplanlar da sürüyə qarışdı. Qız evinə doğru yola çıxanlar on üç gün gedib on iki qapılı Teyib-Badan şəhərinə yetişdilər.

Atemir xanın igidləri «şəhərə düşmən gəldi» deyə xəbər verdilər. Şəhər camaatı qorxub, əsgərlər təlaşlanırkən Manasın çoroları gəldi.

Atemir xan şəhəri bürüyən xalqı, heyvanları görəndə çaşmadı. Toy adamlarını adətə görə, saygı ilə qarşılamadı, gələn heyvanları almadı, altmış min şəhərli mat qaldı.

Atemir xan ağlını başına topladı, müğənnilərin mahnısını dinlədi, elçiliyə gəlmiş qırğızları iqamətgahına dəvət edib ağırlayaraq adətə görə hörmət və ehtiram göstərməyə başladı.

Gəldiyi ilk gün çadırdakı Ər Manasın yanına Atemirin adamları çəkinib gəlmədi. İkinci gün də Manasla kimsə maraqlanmadı.

Gecə Bahadır qəzəblənməyə başladı. Ağqulasını yanına çəkib Acıbəyi çağırdı. Arzuladığı qızı görməyə getmək istəyirdi. Atemirin öyülən qızının ağlını öyrənməyə, gözəlliyini görməyə tələsirdi.

Bahadır Manas yetmiş qəbilənin dilini bilən Acıbəylə bərabər böyük qalaya bir fənd ilə daxil oldu. Xanın gözəl gölünü dolaşıb altun saraydakı mələkə qızın otağına yaxınlaşdı.

Acıbəy qapıda dayanan yeddi cariyəni (qaravaşı – A.C.) pul ilə ələ ahb Manası Sanirabiyqonun otağına ötürdü.

Manas xan olandan bəri qadınların belə zərifini görməmişdi. Dünyanın işinə bax, gözəl Sanirabiyqo tam həddi-buluğ çağında idi. Otuz altun çıraq yanan ev gündüz kimi işıqlı idi.



Altun pərdələrin arxasında altun taxt üstündə sakit yatan Sanirabiyqoya Ər Manas diqqətlə baxdı. Manasın qəlbi təkə dərisindən yapılan böyük tuluğa doldurulmuş qımızın çalxalanması kimi titrəyib vücudunu əsdirdi.

Sanirabiyqo Manasdan hürküb pərdəsini çəkdi. Çırağı götürüb yad adamın sifətinə baxdı və gördü ki, onun gözləri alov-alov yamr. Qarşısında dağ kimi əzəmətli, heybətli bir kişi durub.

– Kişi baxışından hürkmə, gözəl! – dedi Ər Manas.

– Qapımın ağzında qara at kimi duran, pərdəmə əlini uzadan kimdir-deyə qız əsəbləşdi.

– Qız axtaran bahadır mənəm. Qızı görməyə gəldik, gözəlim-dedi Manas.

– Çöldə qızmı yox idi? Alacağın qızı tanımırsan? Yaxalanmadan rədd ol!

– Atanıza heyvan, altun, gümüş verib sizi almağa gələn Manas mənəm. Xan sarayınm dəmir qapılarını açıb, keşikçi qızları qorxudub bura gələn Manas mənəm. Sanirabiyqo adını eşidib, otağına girib pərdənə əl vuran Manas mənəm.

– Qız alacağam deyə kimsəni təhqir edib qorxutma! Qız qorxudan igid deyil, qız alacaqsan qayda-qanunla, ləyaqətlə al. Hökmdarlığın, var-dövlətin, mal-mülkünlə çox öyünmə, bahadır-dedi qız.

– Mənə də Manas deyərlər. Heç kəsdən qorxum yoxdur. Var-dövlət əlimdədir, istədiyimi alıram, dediyimi edirəm, o yan-bu yan edərsən görəcəyini göstərərəm. Mənim olacaqsan, vəssalam.

– Manas dedikləri sənmisən? Mən də Sanirabiyqoyam. Adın Manas olduğu üçünmü xalq sənə əyilməlidir? Yer üzündəki qızlar ayağınamı döşənməlidir. Manaslar çoxdur. Çobanımın adı Manas, nökərimin adı Manasdır. Atamın evinə lənət yağdırmadan, canında can varkən, çıx get burdan! Əgər getməsən əcəlin gələcəkdir-deyən xan qızı xəncərini əlinə alıb qəfildən

Manasın üzərinə şığıdı.

Bahadır Manas qızın əlindən xəncəri almaq istəyərkən biləyi cızıldı. Qəzəblənən Manas Sanirabiyqonu tərkisilah edib sakitləşdirdi. Sanirabiyqo «başıma gələnə bax» deyə sakitcə göz yaşları axıtdı.

Manas başqa bir şey söyləmədən xan sarayından çıxıb əsgərlərinin yanına yetişdi.

Qan içmiş kimi qəzəblənən Manas ordusundakı davulları qəfildən çaldırdı. Qalanın iki tərəfinə savaşa çağıran davul səsi tez yayıldı. Davulun dalbadal çalınmasını eşidən elçiliyə gəlmiş qırğızlar yemək-içməklərini yarımçıq qoyub evlərdən, küçələrdən, daxmalardan çıxıb şəhər qırağındakı Manas ordusuna dalğa-dalğa yığıldılar.

Qələbəlik ordu atlandı. Yaylara ox yerləşdirildi. Mizraqlar savaşa hazırlandı-şəhərə göz dağı verildi.

Cakıb bəy ilə Kökötöy döyüşçü dəstələrinin qabağını kəsdilər:

– Elçiliyə yaxşı niyyətlə gəlib qızı almaq əvəzinə evinə hücum çəkmək hansı xalqın adətində var? Dayanın! Atlarınızın başını çevirin!

Cakıb bəy Manası saxlaya bilməyib çorolarına bağırdı.

Qoca Kökötöy Manasa öyüd verdi:

– Oğlum, Manas, bu qoca vaxtımda alacağın qızı görüm deyə gəlib mizrağın ucunu, qılıncın tiyəsini necə qana boyayıb gedim? Qəzəbinə hakim ol! Ağlını başına topla!

Bu arada başına qazan boyda sarıq sarıyan Atemir xan altmış atı bəxşiş vermək üçün qapıdan çıxdı:

– Hörmətli Kökötöy xan, əziz Bakay xan, elçilik məsələsinə qayıdaq.

Bu sözləri deyən Atemir xan təzim edərək Kökötöy xan ilə Cakıb bəyin qabağına çıxdı:

– Günah bizdədirsə, bağışlayın. Kürəkənim Manas bağışlasın. Sizə altmış at hədiyyə, başım hədiyyə. Qızı sizə verəcəyəm.

– Atemir xanın sözü yerində söylənən söz oldu. Qız verən



tərəfin sözü doğru olar. Bahadır Manasın toyuna gedək, millətdedi Kökötöy bəyaz saqqalını tumarlayaraq.

İzdiham yenidən uğuldayaraq deyə-gülə xan sarayına tərəf üz qoydular. Qalada sönmüş çıraqlar təkrar göydəki ulduzlar kimi yanmağa başladı.

İndi Atemir xan kürəkəni Manasa iltifat göstərirdi. Kürəkən üçün bəyaz ev tikəcəyik-deyə bağçasında bir yer seçib altmış ustaya bir gecədə boz ev qurdurdu, divarlarını xalı ilə örtdürdü.

Odaya quş tükündən atlas döşək qoyulub Manas tək buraxıldı. Atemirin başı qarışdığından Manası unutmuşdu. İki gün, iki gecə yemək yeməyən, kimsəni görməyən, bahadır Manasın ağlı başından çıxmışdı, tək qaldığı bu anlarda heç özündə deyildi. Yanında nə əyləncə düzənləyib, onu nəşələndirən qırx igidi, nə də könlünü açan rəqqasə qızlar vardı. Şəhər kaman, qopuz, mahnı səsləri içində xoş ovqatını yaşadığı bir zamanda tək qalan Manas qəzəblənməyib neyləsin!

Manas döyüşməyə düşmən, söykənməyə dağ axtararkən eşikdə qırx çorosunun başı Kırqıl görükdü. Manas onu çağırıb içindəkiləri izhar etdi. Kırqıh yola gətirə bilməyən Ər Manas onu qaldırıb yerə vurdu. Bu əsnada görünən Serek çoroya da bağırdı:

– Ey axmaqlar, harada qalmısınız! Hansı cəhənnəmdəsiniz? Niyə görünmürsünüz?

Bakay gələndən sonra Manas sakitləşdi.

Heç kəsə danışmaq fürsəti verəməyən, dil boğaza qoymayan Serek Bakayı görəndən sonra sözünü astaca dedi:

– Ay Manas, niyə kükrəyirsən, biz sənin almağa gəldiyin qadının deyilik ha! Qız gəlməsə acığını bizdənmi çıxacaqsan? Gözünü açsana!

Serekin sözü Ər Manası tutdu. O, Bakayın idarə etdiyi düyün adamları ilə danışmadı.

– Ağqulanı çək bura! – deyə çorosuna əmr edən Manas igidlərinin atlanmasına da göstəriş verdi.

Manası yolundan döndərmək istəyən Bakay dilləndi:

– Manas, sən bura kürəkən kimi gəldin, qan tökməyə tələsmə.

Qara duman kimi qaralan Manas Bakayın sözünü eşitmədi. Qırx çorosu və əsgərləri ilə şəhərə meydan oxudu.

Qırx çoro yuxuda ikən Kıybasa basqın etdi, qarşısına çıxan itləri oxla susdurdu, çörəkçilərin təndirini məhv etdi, gözə dəyən kişilərini qılıncdan keçirdi.

Atemir xan saraydakı qadınlardan Manasın yanına getmədiyini, kürəkəni olacaq insanın yalqız qaldığını öyrəndi.

– Lənətə gələsiniz, onun qəzəblənəməyə haqqı var – dedi Atemir xan boynunu qısaraq, – indi mən hansı üzlə Manasın qarşısına çıxacağam.

Atemirin üzüldüyünü görən, qırmızı geyinmiş, ay üzlü, on yeddi yaşlı Sanirabiyqo həmcinslərindən fərqli bir qız idi: – Qurumuş budaqlara baxsa dərhal göyərərdi, qurumuş kəpənəklərə baxsa dərhal dirilərdi, quru yerə su səpsə çiçək bitirərdi, ipək kimi saçlarını darasa ulduzlar bəyaz qar kimi yağardı, kədərlənsə göy tutular, dağı, daşı qara bulud örtərdi.

Gül üzlü Sanirabiyqo qız olsa da atasına ağıl verdi:

– Çətinə düşsən də başını qaldır, atacan, mənə izn ver bütün taciklərin xatirinə özümü bağışlayım. Manasın yolunu kəsim, ona sözümün doğrusunu söyləyim. Mən də bu yolla döyüşü dayandırmağa çalışım, alacaqsa əbədi yarı olum.

Atemir xan dərdli könlünü ovduran qızına diqqətlə baxıb çətin anlarda ona çıxış yolu göstərməyindən razı qalıb «oğlan olsaydı taxtımı verəcəkdim, indi xan arvadı olmağa layiq oldu» deyə düşündü.

Sanirabiyqo qırx qızı yanına alaraq, ay üzü ilə göz qamaşdıraraq yola düzəldi. Qızların önündə Sanirabiyqonun kiçik qardaşı Akılbayıs altı bəyi yanına alaraq əlində ağ bayraq qırğız ordusunun qarşısına çıxdı, ağ bayrağı və düzülmüş qızları görən, ordunun önündə gedən qulağı dəlik, gözü iti Bakay «Dayanın» işarəsi verdikdən sonra əsgərlər atlarının başını yığdı. Bu zaman ordunun önünə Manas çıxdı. Sanirabiyqo altun libasında naz sataraq Manasın önünə gəldi. Ləzzətlə gülüb dil-



dil ötməyə başladı:

– Bahadır, *qızların nazına bu qədər darılma!* Yarınızın nazına dözməyib Tacik xalqım suçlamağınız nədir?! Davanı başladan mənəm, amma dözməyən siz oldunuz. Sadəcə qılıncın xanı olmayın, ağılın da xanı olun. Yarınızı cəzalandırın, amma xalqa toxunmayın. Bu yağma ilə nə qazanacaqsınız? Xasiyyətinizi öyrənmək istərkən xəncərim əlinizi cızdı. Qəbahət məndən keçdi. Gənc başım sizə hədiyyədir, bahadır. Elçiliyi ağayana başa vurun, səbrinizi basın, bahadır!

Sanirabiyqonun ağıllı sözlərindən sonra hiddətli Manasın buz kimi ürəyi əriyib sakitləşdi, qıza bir şey söyləyə bilməyib, yerində qaldı.

– Günah bizdədir, siz deyən olsun, bahadır Manas, xan qızı Sanirabiyqonu qara qırğız xanının nigahına verdik – dedi Atemirin qardaşı Əbilqasım.

Yağmaya gələn əsgərlərin önündə Əbilqasım bəy belə söylədi:

– Millət, yol verin elçilər, toy adamları gəlir. Qara qırğızın xanı bahadır Manas Atemir xanın qızı Sanirabiyqonun ziyarətinə gəldi. Adətə görə Sanirabiyqonu üç gün sonra göndərəcəyik! Düyünə dəvət edirik! Dəbdəbəyə dəvət edirik.

Atemir xan indi tacik xalqının adətləri ilə qızını ərə vermək istədi. Xəzinəsini açdırdı. İzdiham sıraya düzülüb ortadan qız və kürəkənə yol verdi. Qızın və kürəkənin önünə qırğızların gətirdiyi üç yüz dəvəyə yüklənən qızıl sədəqə olaraq paylandı. Bu bəs etmirmiş kimi Atemir xəzinədəki yüz min qızılı da Allah rızası üçün payladı.

Atemir xan Manas üçün çay qırağında bir boz ev tikdirdi, evin pəncərəsini qızıldan düzəltdirdi, yerə xalça döşətdirdi, quş tükündən yastıq, atlaz, ipək, al qumaş, altı yüz ədəd zərxaralı yorğan gətizdirib taxta qoydu. Nigah xütbəsi oxudu. Qız ilə oğlanı bir evdə qoşa buraxdı...

Bəyaz çadırın yan-yörəsində sıra ilə bir ev tikildi. Saraydakı qırx qız atlanaraq gəlib atlarını dirəyə bağladıqdan sonra

hər kəs öz evinə yerləşdirildi.

– Bahadır Manas alacağı qızı, yatacağı evi tapdı. Əcəba, biz – onun qırx çorosu çöldəmi yatacağıq! – deyən söz ustası Serek əyləncəyə başladı.

Atemir Sanirabiyqonun qırx xidmətçisini Manasın qırx çorosuna vermək istədi.

– Sözdə usta, qız qəlbini almağı bacaran hər kəs qapı dalında qalmaz. Qızları öz iradələrinin ixtiyarına buraxacağam. Qızın xoşuna gələn igid ev sahibi olacaq, bizim kürəkənimiz olacaq-dedi Atemir xan.

Belə bir mənzərəni kim görmüşdü-qırx çoronun davranışına baxın. İgidlər bığlarını eşib, yaraşan libaslardan geyinib, kəmərlərini qurşayıb «hansı qız hansımızı seçər» deyə gözlədilər.

Manas söz söylədi, söylərkən də belə söylədi:

– Ey igidlər, sözə gəlin. Qızlar sizi seçsin deyə cıdıra çıxacağıq, yarışacağıq, atımız hansı evə dönsə, qarşımıza hansı qız çıxsa onu da alacağıq. Gözəl bir əyləncə düzəldək!

Manasın söylədiyini qızlar da qəbul etdilər, xalq da doğru hesab etdi.

Manasın dəstəsindəki qırx üç bahadır at seçməkdə çətinlik çəkdi, axırda yenə öz atlarını seçib, nişan verilmiş məsafəyə çatandan sonra igidlər atlarını üzü geri sürdülər.

Bu əyləncəyə baxın: qırx igid qırx atını qamçılayaraq, bir-birlərinə baxmadan, atlarına heç acımadan tozu dumana qataraq gəlirdilər.

Almambetin Sarala atı qarşısına ilk çıxan Aruukənin qapısına döndü. Bahadır Almambet «görəsən necə qıza rast gəlmişəm» deyə boz evə girdi, gördü ki, eybəcər, zənci kimi qara qız oturub. Təəssüfləndi: «Ay Allah, bəxtimə bax, söz bir olar, nə etməli, adəti pozmayaq» deyə düşünərək əndişəylə evdə oturmalı oldu. Baxdı ki, Aruukə dua bilən sehrkar bir qızdı. Sən demə bu qız Almambeti sınamaq üçün əfsun oxuyaraq görünüşünü dəyişdirmişdi.

İkinci olaraq bahadır Bakay gözəl qız Naargülün astanasına atının cilovunu bağladı.

İgid Sırqak göy atını çaparaq gəlib gözəl Siyagülün evinə çatdı. Ondan sonra Acıbəy Qarala atını qəbilədə bənzəri olmayan gözəl Uluqat qızın evinə çevirdi. Doqquzuncu olaraq gələn Çubak Seyilqan qızın evinə yetişdi; at çapmaqdan halı qalmamışdı-qan-tər içində idi. İyirmi üçüncü olaraq gələn Serek Narqızıl atını Talanbibinin evinə çevirdi.

Qırx dördüncü olaraq Ağqula atıyla sallana-sallana aslan Manas gəldi.

Manas bəyaz saraya yaxınlaşarkən qarşısına bəyaz əndamlı, gözəl geyimli dünya gözəli Sanirabiyqo çıxdı. Qız dedi:

– Bahadır, atınız yaxşı qaçağan imiş...

Bunu söyləyən Sanirabiyqo vaxtı itirmədən Manasın atının cilovunu tutdu və dedi:

– Baxdım ki, bəyim, rastına mən çıxmışam, atından düş, bahadır!

Manas nazlanarq gedən Sanirabiyqonun arxasınca ağ otağa girdi...

Ertəsi gün toy ziyafəti başladı. Süfrələr min cürə dadlı yemək və şərablarla doldu.

Toydan məmnun olmayan yalnız Almambet idi. «Bu qara qız haradan çıxdı qarşıma. Başqalarına gözəl qızlar düşdü» deyib qıza soyuq münasibət göstərib arxasını çevirdi.

Aruukənin sirrini yalnız Sanirabiyqo bilirdi. «İyrənc» qara qızı yanına çağırıb qulağına pıçıldadı:

– Aruukə, Almambet xanı peşman etmə, xaqanın yaxın adamıdı. Elə-belə adam deyil. Könlün Manasdadırsa ona get. O bahadır Manasdan əskik deyil, istəyirsən Almambet məni alsın!

Aruukə belə dedi:

– Bacıcan, başqa qızlar kimi qismətimə, baxtıma niyə qırğız çıxmadı? Alnıma yazılmış kimi o sərsəm, dəlixay çinli haradan çıxdı?

Sanirabiyqo hirsləndi:

– Belə danışma. Almambet sənin görkəmini görüb cahil

hesab edir. Gözünü aç, ovcunda altun var. «Sərsəri çinli» deyə qəlbini üzmə! Almambet həqiqətən qüdrətli bir igiddi. Aruukə dilləndi:

– Bacıcan, Aruukə neçə igid arasından seçə-seçə axırda «çindən gələn bir sərsəriyə getmiş» deyə xalqım məni məzəmmət etməzmi? Namusum xatirinə ona getməyəcəyəm!

Sanirabiyqo qaş-qabağı tutqun, ruhu sönük Almambetin yanına getdi:

– Almambet ağabəy, yanına gələn qara qızın duruşunu anlatmaq istəyirəm. O, belə bir qız deyil, gözəl bir qızdır. Altı ildir mənim yanımdadır. Qız anadangəlmə zərif və gözəldir, məndən ağıllı, hamımızdan gözə gəlimlidir. Qara gözlü, altun bənizli, qara qaşlı, ay üzlüdür. Düzü budur ki, onun sizdən xoşu gəlmir. Bizi çətinliyə salıb. Onu şirin sözlərlə ozünə alışdır, qəlbini al, yavaş-yavaş düzələr. «Qara qızdan yaman xoşum gəlir» deyə ona istəyini bildir. Belə etməsən onu itirəcəksən.

Ər Almambet bu sözlərin təsiri ilə Aruukənin yanına getdi. İçəri keçəndə Almambet gözlərinə inanmadı. Qara qız əvvəlkindən də qara bir rəng alıb qazan qurumu kimi olmuşdur, görünüşü adamı qorxudurdu.

Almambet bu əcayib qızın yanında dayana bilməyib yenə də Manasm yanına qayıtdı.

– Bahadır Manas, o qara qız işıqdan yaranmışsa da, göydən düşmüşsə də onu almayacağam. Özümü bəlaya salmaq istəmirəm. Atım onu qazandı deyə alsam bədbəxt olacağam. Pəri olsa, mələk olsa belə almayacağam.

Bunları deyən Almambet əllərini silkələyərək atına mindi.

Sanirabiyqo günboyu Aruukə ilə söhbət etməsinə baxmayaraq onu yola gətirə bilmədi.

Bunu öyrənən Ər Manas bərk qəzəbləndi.

– Ehey, Atemir xan bizi nə sayır! Əfsunçu qadınları «qızım» deyə toplayıb, qaldırıb ərə verməsi nədir?! Qızları igidlərimi sevmirsə buradan gedəcəyik. Başqa yerdə bahadırları sevən qızlar tapılar. Qadmlara möhtac deyilik. Qızları havalı



olan yerin xalqını qırıb tökərik.

Belə söyləyən Manas Sanirabiyqonu acılayaraq deyinməyə başladı və davul çaldırmağa hazırlaşdı.

Manas ilə Almambetin qəzəbləndiyini eşidən Ağbalta və yanındakı qocalar su kənarındakı bəyaz çadıra gəldilər. Manası araya alaraq onu səbirli olmağa çağırdılar.

Atemir xan Sanirabiyqo qızın xidmətçiləri ilə söhbət etdi. Aruukə çox ağıllı, söz eşidən bir qız idi. Odur ki, belə qərara gəldi:

– Xan başını adlayıb keçən başm hara çatacaq? Xalqa pislik dəysə, özüm günahkaram. Allahın əmr etdiyi nigahdan qaçıb qurtarmaq mümkünmü? Yaxşısı budur Almambetə getməyə razılıq verim.

Aruukə öz evinə girib əfsun oxuyub əvvəlki gözəl qız halına düşmüşdü. İndi Aruukənin gözəlliyinə yalnız Almambet deyil, onu görən hər kəs vurulmuşdu,

Almambet ilə bədbəxt Aruukə yanaşı durduqları zaman toy məclisi tüğyan elədi. Usta müğənnilər Aruukənin gözəlliyini vəsf edən nəğmələr oxudular.

Taciklərin rəqsi oynanıldı, mahnısı oxundu. Manasın dəstəsindəki qırx üç çoroya nigah kəsildi.

Böyük elçi Çıyırdı xanım Atemir xan ilə xatununa yaxınlaşdı:

– Tanrının nəsib etdiyi padşah, xan qohumlarım! Qızınıza yaraşdırıb ad verən ata, ana sizsiniz. İndi Sanirabiyqo bizim gəlinimiz oldu. İcazə verin oğlumun bu toy məclisində gözəl gəlinimizə öz dilimizdə bir adı da verək və hər iki adı bərabər çağıraq. Manasın xatunu olmaq şərəfinə ona «ana xan» dərəcəsini göstərib Kanıkey adını veririk.

Bütün millət Çıyırdının sözünü qəbul etdi.

İncə belli, ağıllı, geniş alınlı, gözəl gözlü, inci dişli, şirin sözlü Kanıkey indi qırğız qocalarına baş əyib itaət göstərdi.

Qocalar təzə gəlinə xeyir-dua verdilər.

Kanıkeyin ağlı və fərasəti taciklər və qırğızlar arasında hiss

olunmağa başladı. O, hər şeyi öncədən hazırlamışdı, topladığı cehiz təkcə özünə yox, xidmətçisi olan qırx qıza da yetərli idi. Hər xidmətçi qızın evini bəzəyib onlara yenə otuzdan artıq ipək yorğan-döşək pay verdi.

Manas ilə Kanıkeyin toyu qırx gün çəkdi. Xalq əyləndi, könlü açıldı, evli olanlar evinə döndü. Ayrıca olaraq Çıyırdı xanımın dəstəsindəki doqquz yüz qadın (toy adamları) qırx üç qadını aralarına alıb apardılar. Beləcə rəngə rəng qatıldı, hər şey gözəl keçdi.

Almambetin sıxılarq Manasın yanına gəlməyindən, onunla birgə savaşmağından, birgə ov ovlamağından, birlikdə toy etməyindən nədənsə incik olan qırğızların qohumu Aydarkan oğlu Kökçönün xəbəri yox idi. Manas bu dərdi öz içində çəkirdi. Fikirləşirdi: «Günah Kökçödədir, ordusuna toxunmadım, torpağını almadım, igidlərini öldürmədim, niyə darılsın ki?! Başına bir iş gəlsə yəqin ki, gələr».

Manas bu üzüntülər içində qəm dəryasına qərq olduğu günlərin birində Kökçödən xəbər gəldi. Xəbərçi dedi:

– Manas, bu məktubu Ər Kökçö yazıb, bu da öz möhürüdür.

Bahadır Kökçö öz məktubunda yazmışdı: «Altaydakı kalmıklar torpaqlarını əlindən almaq üçün qazaxları qovurlar. Manas, köməyə gəl!»

Bahadır Manas Kökçönün kömək istəməyindən məmnun oldu. «Qohumluq dostluqdan da dəyərli bir şeydir» dedi. Manas, əslində göbəyi kəsildiyi, uşaqlıq günlərini keçirdiyi Altayı gözləyirdi, təkrar getmək istəyirdi. Odur ki, əmr etdi:

– İgidlər, Altaydakı Kökçöyə kömək edək! Atlanın! Bir həftə hazırlıq görüb hərəkət edəcəyik.

Atı nəfəsini dərəndən sonra Manas xəbərçini sübh çağı yola saldı və dedi:

– Sən get, biz yolu tanıyırıq. Gedib Ər Kökçöyə de ki, Manas gəlir, düşmənin qabağından qaçmasın.

İki aydan sonra Bahadır Manas ordusuyla Ər Kökçönün Altaydakı auluna davul çaldıraraq daxil oldu. Görüb-götürmüş, təcrübəli Ər Kökçö Bahadır Manasın önündə bozqurd yarışı və əyləncə düzənləyib onu buğda unundan bişirilmiş çörək və türküylə qarşıladı. Kalmıklar Manasa xəbər getdiyini öyrənincə, ürkərək qovğanı buraxıb qazaxlarla çoxdan barışmışdılar.



Almambetlə Kökçö, iki igid bir-birlərinin həsrətində idilər, gözlərindən yaş axıdıb qucaqlaşıb görüşdülər. Savaşmağa düşmən tapa bilmədiklərindən bahadırlar gül-çiçəkli Altayda əylənmək, ova çıxmaq məqsədilə Torbaqoy dağına üz tutdular. Yeddi gün qartal ovladılar, ov itləriylə əlik qovaladılar, cıdıra çıxdılar.

Bir dəfə Çin xaqanı tərəfdən çıxan karvanı gördülər, onda gələn bəyaz bayraq tutan yaşlı bir karvanbaşı idi.

Bahadır Manas karvana yaxınlaşıb hal-əhval tutdu. Salam verincə kalmıkca cavab aldı. Soruşdu:

– Karvan kimindir?

– Üsönün, – dedi bəyaz saqqallı qoca.

– Üsön kimdir, əmi, – soruşdu Manas. Sonra diqqətlə onları süzüb maraqlandı: kalmıkca danışsanız da, kalmık kimi geyinsəniz də qırğızlara çox oxşayırsınız, sizin kökünüz nədir?

Qoca ağ qalpaqlı insanları görüncə hıçqıra-hıçqıra ağlamağa başladı:

– Kalmıklar və çinlilər bizi qırğızlar məğlub olanda kölə kimi götürmüşdülər. İndi isə Altayda Cakıb qardaşımın oğlu Manasın xan olub qırğız xalqını xilas etdiyini eşidib yurdumuza dönürük.

Manas səsini çıxarmadan qulaq asdı. Bakay dayana bilmədi, hönkürtü ilə özünü Üsönün üstünə atdı. Bakay ağlayıb qurtarana kimi, ağlını toplayana qədər Üsön dədə camaata yalvardı:

– Qurbanınız olum, siz kimsiniz, hardansınız?

Qırxbaşı Kırqıl söhbətə qarışdı:

– Tanrının bizə rəhmi gəlib qardaşları bir-birinə qovuşdurdu.

İndi də Üsön dədə ağlamağa bşladı, nə danışdığı aydın idi, nə yalvarışı, göz yaşları da ki, dayanmaq bilmirdi.

Qəhrəman Manas Kalmıklardan yorğun gələn qohumlarını

Qaynar-Su kənarına dəvət etdi, qısraq kəsib qonaqlıq verdi. Yetmiş dörd yaşlı Ysönün başına gələnləri dinlədi.

Noqoy xanın oğlu Üsön iyirmi dörd yaşında ikən kalmıklara əsir düşmüşdü. Xanımı doğuş üstündə vəfat etmişdi, kiçik övladına Kökçögöz adını vermişdi. Sonradan bir kalmık qızı ilə evlənmiş və ondan altı uşağı olmuşdu. Közkamanın uşaqlarının böyüyü və ağıllısı Kökçögöz idi. Üsön öz adını kalmıkçaya uyğunlaşdırıb Közkaman qoymuşdu. Közkaman Manasın sorağını eşidib, oğulları ilə məsləhətləşib köç etmişdi.

Manas «qohumlarımı tapdım» deyə atası Cakıb xana müjdə verdi. Bahadır Manas Ala-Dağa döndükdən sonra Kalmıkdan gələn qohumlarının hər birinə boz ev tikdirdi, minməyə at bağışladı, qiymətli kürk geydirdi, otuz-qırx baş inək, qoyun bağışladı. Manasın ağıllı xanımı Kanıkey təklikdə Manasa onlardan şübhələndiyini söylədi:

– Bahadırım, qadın olduğum üçün kişi işinə qarışmağıma qəzəblənmə. Təzə gəlmiş Közkaman qohumların səndən uzaqlarda böyüyüb, indi gəlib bizə qohum çıxıb. Beləlləri saman altından su yeridən olurlar, bir sözlə, sənə yaxşılıqları dəyməyəcək, ehtiyatlı ol. Məni eşit, bunları başından dağıt.

Manas hirsləndi:

– Təzə gəlmiş qohumlarımı məndən ayırmaqmı isitəyirsən? Onsuz da qohumlarım çox azdı. Qadınlığın tutub qısqanırsanmı? Məni qohumlarım yox, nifrət bəsləyən düşmənim də yeniyə bilməz. Qardaşı qardaşa düşmən etmə, belə şeylər danışma. Bundan sonra kişilərin işinə qarışma.

Kanıkey susdu və handan-hana dilləndi:

– Qadınlıq etmişəmsə günah məndədir, bahadır. Təki axırda peşiman olmayasan.

Manas qohumu Üsönün oğullarının gəlişi münasibətilə xalqı çağırdı, toy (ziyafət-A.C.) düzənlədi. Qüruruna toxunan qohumlarının qiyafələrini, köhnə əşyalarını yandırmağı əmr etdi. Kalmık dinindəki adətləri rədd edib yerinə qara qırğız adətlərini keçirdi.



Manasın qəhrəmanlığı auldan aula, Altaydan Ala-Dağa, xanlardan padşahlara, dünyanın o biri ucuna qədər yayıldı. İnsanlar da, quşlar da, canlılar da onun qəhrəmanlığından danışırdı.

Lakin Manasın şan-şöhrətinə kalmıkdan gələn qohum-əqrabası – Közkamanın oğulları qısqanmağa başladı. Kanıkeyin dediyi doğru çıxdı. Kalmıkdan gələn qohumları bir yerə toplaşanda Manasdan narazılar dedi:

– Qohum bilib üstünə gəldik, amma o neylədi, bizim oradan gətirdiyimiz şeyləri yandırdı, boş-boşuna dustaq elədi, bizə nə verdi ki?

Axırda Manası öldürmək haqqmda gizli qərar qəbul etdilər. «Öldürsək istəyimizə çatarıq» deyə bir-birlərinə təsəlli verdilər və bu sirri gizli saxlayacaqlarına and içdilər.

Bir-birlərini anlamayan, biri o birinin sözünü eşitməyən, pis düşünən oğullarının bu hərəkətini hiss edən Üsön onlara öyüd-nəsihət verdi:

– Oğlullarım, görürəm bir fəlakətə hazırlıq görürsünüz. Sizi ata-baba yurduna sağ-salamat gətirdim, öz borcumu yerinə yetirdim. Bundan sonra yolunuzu azmayın. Qısqanıb ona bir zərər vurmayın. Sözümü eşidin. Sizi adam edən Manasdır, onun yerinə məni öldürün. Manas sizə yaxşılıqdan başqa bir şey eləmədi. Siz də hoqqa çıxarmadan onun bayrağı altında xidmət edin.

Üsönün bədxah oğulları atasını dinləmədi, əksinə, onun üzünə qayıtdılar:

– Sənin Manasmı öldürənmi var?! Ağılsız, cahil bir insan sənin oğullarından dəyərlimi? Get de... Gələr-gəlməz Manasa yaltaqlanmağa başladın? Get onun dabanını yala. Manasdan bizim heç nəyimiz əksik deyil. O, yaramaz, ağılsız, qara gücünə güvənən bir həyasızdır. Güc isə ağıl ilə ortadan götürülə bilər.

Qoca Üsön oğullarının bəd niyyətini başa düşdükdən sonra: «Mən ölüm ayağındayam, atanın sözünü eşitməyən günah edər. Tanrının yazısını necə də olsa gördüm» deyə oğullarına bəddua edərək evinə qayıtdı.

Oğulların ən ağıllısı Kökçögöz qardaşları arasında bir məs-

ləhətə gəldi:

– Qoca ağlayarsa qoy ağlasın, bunu Manasa söyləməzsə yaxşı olar. Qartımış qocanı gərək elə buradaca məhv edəydik. Biz də qırğız oğluyuq. Qırğız hamımız üçün eynidir. Ölsək bir məzardə yatarıq, qalıb yurda hakim olsaq mal və dünya bizim olacaq. Kalınıklar və çinlilərlə də dil taparıq. Hə, indi o, natarazı öldürməyə çalışaq. Mən gedim vəziyyəti öyrənim.

Bunları deyən Kökçögöz Manasa tərəf atlandı.

Kökçögöz bəd niyyətlə Manasın yanına çatdı. Sözü bu oldu:

– Qardaşım, biz güneyə öyrəşə bilmədik, mümkünsə bizə sərin bir yer ver.

Bahadır Manas ətrafını yığıb, vəzir-vəkilləri ilə danışaraq Kalmıkdan gələn qohumlarına daha uca, yeri sərin olan Kaşqar ilə Əndicana yaxın Sayan-Çaylaq, Üç-Su deyilən ərazini ayırıb verdi. Közkamanlar At-başı tərəfə köç etməyə başladılar.

Bahadır Manas yenə də vəzir-vəkillərini, ağıllı əyanlarını toplayıb neçə vaxtdan bəri onu düşündürənləri söylədi:

– Ey Millət. Geniş qırğız torpaqlarının tam ortası Talasdır. Geniş Talası Almambeti qarşılayarkən görüb bəyənmişdim. Tanrının bəxş etdiyi gözəl yer imiş. Xan düşərgəsini Talasa köçürək. Kim köçmək istəməsə burda qalsın əkin-biçinlə məşğul olsun.

Toplananlar Manasın söylədiklərini doğru hesab etdilər.

Bir həftədən sonra Manas Talasa köçdü. Ilqın ağacı yetişən Kenq-Kol sıra dağların əhatəsində yerləşən, təpələrində dağ keçiləri, əliklər otlayan, çəmənlikləri gül-çiçəklə örtülü, baldırğanları bilək yoğunluğunda olan bərəkətli bir yer idi. Dərə boyu sıralanan söyüd ağaclarının budaqları çinar budaqlarına, quşları Altay quşlarına oxşayırdı.

Talasa dönmüş qırğızlar «indi əbədi ocağımız bura olacaq» deyə Tanrıya yalvarıb gün – güzəran istədilər, dağa çıxıb dua etdilər, qısraq qurban kəsdilər, bəyaz çadır qurub nəfəslikdən bəyaz oğlaq başını aşağı salladılar, beləcə, adətlərini gərəyincə yerinə yetirdilər.

Xızırın himayəsindəki Böyük Manas bahadır bir il ərzində



öz qalasını tikdirdi, rahat, dərdsiz-qəmsiz yaşadı. Darıxdığı zaman quş vurdu, ov ovladı, düşərgəsində oyun-əyləncə qurdu.

Quraqlıq qurdu Kökçögöz bəd niyyətini həyata keçirmək üçün qardaşlarına dedi:

– Manasa savaşla qalib gələ bilmərik. Gəlin ona zəhər verib, hiylə ilə öldürək.

O, Kaşğara və Kalma gizlicə adam göndərib heyvan və sərvət verib əvəzində zəhər alıb gətirtdi.

– Manası qonaq çağırıb içkisinə zəhər tökərək öldürək. Ondan sonra xan iqamətgahında kim nə iş görəcək, hansı qadını alacaq, nə qədər sərvət alacaq, hamısını ölçüb-biçin ki sonra bir-birinizlə didişməyəsiniz-dedi Kökçögöz.

Közkamanın xain oğulları Manasın Ağqulasını, xan xəzinəsini, qadınlarını, sərvətini paylaşmaq üçün bir-birlərinin yaxalarından yapışıb yumruq davasına çıxdılar.

Kökçögöz davanı zorla yatızdırıb dedi:

– Ay avaralar, öncə Manası öldürək, sonra mal-dövlət davası döyək.

Ertəsi gün Kökçögöz Manası qırx çorosu ilə birlikdə qonaq çağırdı.

İlıq yaz günlərinin birində Manasın iqamətgahına qohumu Kökçögözün göndərdiyi adam gəldi:

– Bahadır, Kökçögöz ağamız məni göndərdi ki, Manas qardaşıma xəbər ver qohumlarının qapısını, yaylasını görməyə gəlsin.

Təmiz ürəkli, saf niyyətli Manas qohumlarını görmək üçün səfərə hazırlaşdı. Bahadır Manas qırx çorosuyla birlikdə sakitcə yola çıxıb Çeç-Döbö obasında təzəcə tikilmiş çadıra gəldi, qohumlarıyla görüşüb-öpüşüb hal-əhval tutdu.

Üsön oğullarının bəd niyyətini başa düşüb Manasın zəhərlənməsindən təlaş keçirərək zəhərə qarşı otlardan düzəltdiyi dərmanı gizlicə kımıza qatıb bahadırın önünə gətirtdi. Uzun yol gəlmiş və susamış müsafirlərə ot qatdığı qımızını içirtdi.

Ertəsi gün Közkaman Manası çorolarıyla evinə çağırıb qonaqlıq verdi.

Çoroların içindən Sırqak, Serek dan üzü əlik ovlamağa getmişdi. Qalan çorolar bahadır Manasla birlikdə Közkamanın müsafiri oldular.

Közkaman qonaqları qarşılamaq üçün heç nəyini əsirgəmədən hər cürə hazırlıq görmüşdü. On iki qulac süfrə dürlü-dürlü yeməklərlə dolduruldu. Kalmık və çin yeməkləri bola-boldu, kımız, boza, şərab aşıb-daşırdı. Qırx çora silahını çıxarıb keyf ilə əylənirdi.

Çorolardan Baymat ilə Bozuul atlarını otarmağa apararkən qarşılarına Mendibey çıxıb «yeməkləri yeməyin, zəhər qatıblar»deyib uzaqlaşdı. Səhərdən bəri bunun doğru olub olmadığını bilə bilmədilər, nə də Manasa söyləməyə cəsarət eləmədilər, özlərini kımız, boza içirmiş kimi apardılar.

Bahadır Manas və qırx çoro içdikcə susayıb bozanı, şərabı qımızı bir-birinə qarışdırdılar, içləri yanıb, gözləri qaraldı. Ağılları başlarından çıxdı, huşları itdi. Dilləri tutuldu, ürəkləri getdi.

Baymat ilə Bozuul arada evdən çıxaraq səndələyə-səndələyə aulun bir tərəfindəki atlarının yaınna çatar-çatmaz yerə sərildilər. Həqiqətdə isə bu iki çoronun halı yaxşı idi. Közkamanın igidlərini duyuq salmamaq üçün belə edirdilər.

Əclaf Közkaman qardaşlarını Baymat ilə Bozuulun sərildikləri yerə çağırıb dedi:

– Gəlin, qardaşlarım, bu işi tamamlayaq. Hamısı zəhərləndi. Bu gecə hamısı öləcək. Manas da öləcək. Qalanlarını qoyun kimi boğazlayıb gəbərdərik.

Bozuul axşama yaxın bəyaz evə gizlicə baxıb qırx igidin halsız vəziyyətdə uzamb qaldığını gördü. Təkcə bahadır Manas halsız-halsız o yana-bu yana baxır, hərəkətlərinə nəzarət edə bilmirdi. Gözü qaraldığı, beyni fırlandığı üçün qalxıb otura bilmirdi.

Kökçögöz əlinə qılınc alıb Manasın üstünə atılmaq istəsə də buna cəsarəti çatmırdı. Üsönün yarısərxoş oğullarının bəziləri bu arada Manasın var-dövlətini bölüşdürmək davası ilə iki yerə parçalanmışdılar. Yumruq davasına çıxan qardaşlar süpürləşə-süpürləşə evdən çölə çıxdılar.



Kənardan bu mənzərəyə baxan Bozuul dərhal evə girib: «Ayıl, bahadır Manas! Aç gözünü, bura baxıb durmaq üçündürmü, bura ölmək yeridirmi?» deyə Manasın qulağına bağırıb çaydandakı suyu üzünə əndərdi, əlindən tutub ayağa qaldırdı.

Sərxoş yatan Manas Bozuulun sözlərini eşitdikdən sonra özünə gəlib ətrafına baxdı. Halsız düşən çorolarını görüb, qüvvətini toplayıb yerindən tərpəndi. Bozuul bahadırın qoltuğuna girib kimsəyə heç nə hiss etdirmədən atların yanına apardı. Baymatın hazırladığı ata Manası mindirdi. Ağqula sevimli sahibini görcək kişnədi.

Yerində oynayan atı görüncə Kökçögöz bağırdı:

– Ey köpəklər! Hamınızı cin vurub?! Manas atlanıb getmirmi? Vallah ölmüsünüz. Manas hamınızı öldürəcək! Təqib edin!

Kökçögöz Manasın ağ evdə qalan yay ilə oxunu götürüb onun üstünə ox yağdırdı, oxlar Manasın arxa tərəfindən boşa keçdi.

Manas at belində əvvəlki kimi otura bilmədiyindən çayın sahilinə çatanda ləngiməli oldu. Kökçögöz arxasından özünü yetirdi.

Manas Kökçögözdən qaçdığına arlanıb Tanrıya yalvardı. O, atını çaparaq daşlı-qayalı bir yola girərkən Kökçögöz bahadıra ox atdı.

Manas atı ilə birlikdə yumalanaraq böyük bir ardıc ağacının üstünə düşdü.

Kökçögöz ardıc ağacına yaxınlaşıb Manasa baxmadan «başımızın bəlasını öldürdüm» deyə atının başını çevirdi.

Kökçögöz gəlib gördü ki, aulu alt-üst olub. Manasın qırx çorosunu yermi udmuşdu, yoxsa özlərinə gəlib qaçmışdılarmı-heç bir izləri yox idi. Kimsə onları görməmişdi. Kiçik qardaşları qırx çoro ilə yox, sərvət dava-dalaşında idilər.

Kökçögöz bağırdı:

– Ey, sərsəmlər, dayanın! Manası öldürdüm. İndi bizlərdən birinə itaət etməliyik. Xanlığı mənə verin. Manasın taxtına oturub, arvadını alıb, atına minib, xəzinəsini götürək. Hər birinizə

istədiyinizi verəcəyəm. Mənə diqqətlə qulaq asın! Xan qayda-qanunlarını, adətlərimizi pozmayaq. Sabah atlanıb Manasın evinə yollanın, Kanıkeyə hər şeyi anladın, cavabını alın. Mənə gələcəksə yeddi ay qara geyinib yas tutmadan indi gəlsin. Gəlməyəcəyini desə sümüklərini sındırıb yaxşıca yoluna qoyarıq.

Kökçögöz Manasın düşərgəsinə Mendibay ilə Mazekeni göndərdi...

Ova çıxmış Sırqak ilə Serek bir əliyi qovsalar da vura bilmirdilər. Hər dəfə atılan ox hədəfə dəymirdi. Axşama qədər çox əziyyət çəkdilər. Bu əlik yox, sanki bir bəla idi. Ya da onlara göndərilən bir işarət olduğunu düşünüb yorğun halda Kökçögözün auluna döndülər.

Aul dəlmə-deşik qarışqa yuvası kimi altüst olmuşdu. İlxıçı oğlan aulda baş verənləri onlara anlatdı:

– Kökçögöz Manası qırx çorosu ilə birlikdə öldürdü, aulunu xan iqamətgahına köçürür.

– Manasın cəsədi harada, bilirsənmi? – soruşdu gözü yaşlı Sırqak.

Oğlan dedi:

– Kökçögöz Manas bahadırı Qara-Dağın içində öldürüb deyirlər. Cəsədi qayada qalıb.

Sırqak ilə Serek aula təkbaşına girməyə cəsarət etməyib Manasın vəziyyətini öyrənmək, öldü-qaldısını bilmək üçün atlarını ilxıçı oğlan dediyi istiqamətə sürdülər.

Torpağı oya-oya yeriyən Ağqulanın dərin izləri dərhal bəlli olurdu. İki çora onun izinə düşüb dağ keçidindəki dar yola yetişdilər. Ağqulanın izi buradan o yana keçməmişdi, daşda qan damlası vardı. Qayanın üstündən əyilib baxdılar ki, Manas rəngi avazımış şəkildə böyük bir ardıc ağacının üstündə uyuyur, yanında Ağqula başını aşağı sallayıb durur.

İki igid atlarını buraxıb dağdan aşağı hellənən daş kimi tələşla Manasa yaxmlaşdılar.

Bahadır Manas çoxlu qan itirmişdi. Ox onun kürəyindən keçib ağ ciyərinin üst tərəfinə saplanmışdı. Bahadırı diri saxlayan bu göy ardıc ağacı olmuşdu.

İki çoro Manasa su verdi, yarasına məlhəm qoyub ayıltdı.

– Mənə nə olub? – deyə gözlərini açan Manas Sırqaka baxdı.

Sırqak dilləndi:

– Bahadır, bildiyimə görə Kökçögöz kımıza, bozaya zəhər qatmış, sən özünə gələndə qaçmağa başlamısan, Kökçögöz arxanca düşüb öz oxunla səni yaralayıb.

Söz söyləməkdə kimsədən geri qalmayan Serek dilləndi:

– Ey, bahadır, nəfs insanı bu yollara salır. Siz şərabı yox, şərab sizi içmişdir. Dırnaq boyda bir ox dəysə göyərçin kimi yatmalıydın. Başını qaldır, bahadır.

Bahadır Manas dərindən bir ah çəkdi:

– Ax, gidi dünya... At belində, savaşda döyüşüb oxla ölmək hara, pis qohumların nəfsi ucundan verdikləri zəhərdən ölmək hara! Bu zəhərdən ölsəydim xalq nə deyərdi mənə?! Düşmənlər sevinməzlərdimi?

Manas qorxunc səhrada iki gün başını yerə qoyub yatdı. Ağlına min cürə fikirlər gəldi, yarası isə yaxşılaşmadı. İki çorosunun baxımı ilə inləyib yatdı.

Manas gözüaçıq vəziyyətdə uyuyurdu. Birdən yarpaqlar xışıldadı. Çırpınan və ulayan bir heyvan səsi eşidildi. Manasın səkkiz yaşında rastlaşdığı və o zamandan bəri can yoldaşı olduğu qırxlar sanki heyvanları sürərək gəlməkdə idilər. Aslanlar, şir, pələnglər, ayılar ağrı içində yatan Manasın yanına gəlib hər biri bahadıra bir məlhəm verdi. İçməsini gözlədi.

Manas onların verdikləri dava-dərmanı içəndən sonra gözlərini açdı. Tam yaxşılaşdı və ağrısı da kəsildi. Yerindən qalxaraq əvvəlki adama döndü.

Manas iki çorosuna dedi:

– Bahadırlar, məni qırxlarım yaxşılaşdırdı. İndi qırx çorodan xəbər tutaq, sonra xalqın yanına qayıdaq.

Onlar atlarına minib hər yerə baxdılar. Rast gəldiklərindən qırx çoro haqqında soruşdular.

Kökçögöz Manasın iqamətgahında Kanıkeydən cavab al-

mağa gedən igidlərini gözlədi. İgidlər pərişan bir halda döndülər. Qılçasından xəncər yarası almış Mindibəy fəryadla başlarına gələni Kökçögözə danışdı.

– Bahadır, Kanıkeyə yetişib Manasın öldüyünü xəbər verdik. Sonra sizin sözlərinizi çatdırdıq: «Xanlıq mülkünü yad adamlara verməyəcəyəm. Qardaşımın yerinə özüm xan olacağam, dul qalan qadınını özüm alacağam, yas bitənə qədər gözləyən deyiləm».

Bunu çatdırandan sonra Kanıkeydən cavab gözlədik. Cəsur qadın Kanıkey «Pis yuxu görmüşdüm. Demək bunu görmüşəm. Kökçögözə getməyəcəyəm, ondan görəcəyimi Tanrıdan görüm. O vaxta kimi Manasın ruhu xatirinə sənin kimi bir əclafı gəbərtsəm yaxşıdır» deyib xəncəri mənim qılçama sapladı.

Kökçögöz Manasın iqamətgahına hücum edib xan sarayını yağmalamaq, xalqı ac-yalavac vəziyyətə salmaq, sonra Kanıkeylə evlənib taxta oturmaq istədi.

Kökçögöz aulunu Talasa köçürəndən sonra Manasın düşərgəsinə əsgərləriylə birgə gəldi.

Düşərgədəki camaat nə tərpəndi, nə də həyəcan keçirdi. Xalq Manasın ölümünə inanmadı.

– Bahadır Manası hansı düşmən gəlib gizlicə öldürə bilər?! Necə ola bilər ki, qırx çorodan biri də sağ qalmasın! Sağ qalan varsa bizi tapar, bizə xəbər verər-deyə xalq çaş-baş qalmışdı.

Buna qəzəblənən Kökçögöz xan sarayının mal-dövlətini yağmalayıb Manasın mülkünə əl uzatdı. Üsönün sözünə məhəl qoymadı, ağsaqqal atasına qəzəblənib onu acıladı.

Kökçögöz Ceti-Tördəki Kanıkeyə xəbər göndərib «mənimlə evlənsin, cavabını gözləyirəm, yoxsa sarayını yandıracağam» dedi.

Çarəsiz qalan Kanıkey yuxusunda Manasın bir boz qoçu qızıl daşla öldürdüyünü görüb «yetmiş gün sonra Kökçögöz alıram desə qəbul edəcəyəm» deyə vaxtı uzatdı. Fikirləşdi ki, o vaxta qədər Manasın sorağını alar, bahadır yer üzündə sağdırsa ona xəbər çatdırar. Bu ümidlə Kökçögözün adamını yola saldı.



Kanıkeyin irəli sürdüyü şərti Kökçögöz qəbul etmədi, çünki güclüydü, qüvvətliydi.

Kökçögöz əsgərləriylə Manasın sarayını yağmaladı, Çıyırdını saraydan qovub buzov bəslətdi, söz eşitməyən Kanıkeyə gündüzlər qoyun otartdı, gecələr aula qoydu. Manasın digər iki qadınına-Qarabörk və Akılaya hücum çəkdi.

Xalq aciz qaldı.

Manasın qırx çoronu tapmaq üçün gəzmədiyi yer, çıxmadığı dağ qalmadı. Axırda arayıb-darayıb onları meşə qırağındakı iki çinarın altında tapdı. Qırx çoro yarıyuxulu vəziyyətdə halsız uzanmışdı. Bahadır Manas onlara su içirdib, dava-dərman verib ayıltdı. Əslində Közkamanın oğulları bir-birləriylə didişəndə qırxlar imdada yetişib qırx dua ilə onları atlarıyla bərabər bir günlük məsafəyə atmışdılar. Ağılları başlarına gələndə bahadır Manası görüb bir-birlərinə sarılıb ağlaşdılar.

Qırx çoronun atları Ağqulanın kişnərtisini eşidincə onun iyini alıb hər tərəfdən çıxıb gəlməyə başladılar.

Bahadır Manas qırx çorosunu tapdığına sevinib sevincdən daşları parçalayıb «özümüzü xalqa çatdıraq» deyə atının başını buraxdı. Dayanıb-durmadan Talasa girdi.

Talasa yetişən kimi Kökçögözün onun xəzinəsini, malını, mülkünü, qadınlarını qardaşları arasında böldüyünü öyrəndi.

Bahadır Manas çorolarıyla bərabər Kanıkeyin olduğu bəyaz çadırı tapdı.

Kanıkey göz yaşı tökərək bahadıra çəkdiyi əziyyətlərdən danışdı. O, elə ağladı ki, buna insan tab gətirə bilməzdi.

«Altun başın qut olsun, bahadır!»

«Başına fəlakət gəlməsin! Tanrı qorusun, bahadır». Bu sözləri deyən xalq sevinclə Manasın sağ-salamat qayıdışına dua edib bəyaz çadıra yan aldı.

Bahadır Manas Kanıkeyin və xalqın dərdini dinlədi. Sonra Kökçögözün ev-eşiyini yox elədi.

«Manas qırx çorosuyla aula gəlib, evinə qayıdıb» xəbərini eşidən Közkamanın oğulları bir-birlərini bıçaqlayaraq məhv

olub getdilər.

Bunların halını görən və eşidən xalq «Tanrı bələlərini heç kəsə göstərməsin» deyib nəticə çıxartdı:

– Adil Allah özü bunların cəzasını verdi.

– Niyyəti bəd olanın sonu belə də bitməliydi.

– Qohum boş sözdür, pis qohumdan yaxşı qonşu yaxşıdır.

Bahadır Manas yaxın adamlarını, qohum-əqrabasını çağırıb Közkamanın oğullarının dəfni ilə bağlı onlara belə söylədi:

– Qohumlarımın davranışı mənim gözümü açdı. Bu hadisə mənə həyatım boyu unutmayacağım bir dərs verdi. Yaxşı adam niyyətini pozmaz, dünyada ağılsız köpəklər birləşə bilməz. Biz bunlara qılınc qaldırıb əlimizi qana bulaşdırmadıq. Mərd yaşayar, köpək ölər! Bunları torpağa tapşırmaq bizim borcumuzdur, qardaşlar!

Bütün millət bir yerə cəm olub deyilənlərin həqiqət olduğunu təsdiqlədi. Uzaq bir yerdə dərin bir xəndək qazıldı. Közkamanın oğullarının cəsədləri, silahları, atları, alətləri, geyimləri oraya gətirildi. Üzərlərinə Talasın meşəsindən quru ağaclar gətirilib qoyuldu və yandırıldı. Alov söndükdən sonra külün üstünü torpaqla örtüb sonra daşla hördülər.

Manas qırx çorosuna öyüd-nəsihət verdikdən sonra Tanrıya dua edib ağboz qısrağı qurban kəsdi. Kanıkey adətlərə görə Manasın köhnə pal-paltarını yoxsul və kimsəsiz adamlara payladı, Tanrıya yalvardı:

– Bundan sonra pislik görməyək! Xalqın başından fəlakət bununla getsin!

Dərviş və baxşılar əllərindəki davulu çalaraq aulun ətrafındakı cırıq-cındır paltarlardan, kirli və köhnə keçədən özlərinə əcayib bir qiyafə düzəldib ardıc ağacını yandırdılar, çoluq-çocuğu ocağın üstündən tullandırdılar, bəyaz çadırı ardıc ağacının tüstüsünə tutdular...



## KÖKÖTÖY XANIN YASI



Möhtəşəm Daşkənddə türk qəbilələrinin başçısı (ağsaqqalı-A.C.), Canadilin oğlu Kökötöy təkcə qırğızlar arasında deyil, tacik ooqan, ərəblər arasında da, ümumən bütün dünyada məşhur, ağıllı və sevilən bir adam idi. Ac qırğıza arxadayaq, düşməninin gözünə batan ox idi. Tutduğunu canlı buraxmayan bu insan həm də çox zəngin idi. Dəvələrə yük vurub, at qoşdurub dünyanı dolaşardı. Böyük sərvət sahibi idi. Kökötöyün sərvəti ilk baharın yaşıllığı kimi aşıb-daşmışdı. Göy üzü ulduzlarla necə zəngin idisə yer üzündə də Kökötöy elə zəngin idi. Onun yüz min Alayda, yüz min Qara-qulacda sarıbaşlı qoyunu, iki yüz min dəvəsi vardı. Ambarında pul-parası dağ kimi olmuşdu. Kökötöyün xəzinəsində qızıl dolu qırx dəmir sandığı olub, onların da yüz dilli doqquz açarı vardı. Bu sandıqlarda iki divar ola biləcək qədər gümüş, zümrüd, mərcan, qızıl, ləl-cəvahirat saxlanılırdı.

Kökötöy səksən dörd yaşına gələnə qədər bir neçə dəfə evləndi. Bu sarıdan bir dərdi yox idi. Evləndiyi qadınlardan on bir qızı və Bokmurun adında yeganə oğlu olmuşdu. Yeganə oğluna nəzər dəyməsin deyə kimsələrin diqqətini çəkməyən miyanə bir ad vermişdi. Başqalarının köhnə paltarlarını gətirib ona geyindirdi, kəndxuda olduğu halda oğlunu belə saxlayıb nəzərdən yayındırmaqla böyütdü. İndi on beş yaşına girib oğlanlıq çağına qədəm qoymuş Bokmurun çevik, mətin və ağıllı bir adam olmuşdu. Ooqan zənginlərindən birinin qızıyla nişanlanmaq məqsədilə getdiyi üç ay müddətində ondan heç bir xəbər yox idi.

O günlərdə dərd-qəm içində üzülən qoca Kökötöy ciddi xəstələndi. Əcəlinin gəldiyini hiss edən ağıllı Kökötöy fani dünyadan gedərkən qırğızların ağsaqqalı, öz yaşıdı, hal əhli, Bayın oğlu Baymrzəni və çex sevdiyi beş qadınını da yanına çağırıb vəsiyyətini elədi:

– Bəymirzə, sözümü diqqətlə dinlə, vəsiyyətimi eşitməyən oğluma və xalqıma sözümü çatdır. Görəcək günüm, içəcək suyum bitdi. Hamınızdan razıyam. Mən öləndən sonra oğlum ziyan çəkməsin. Malı-mülkü saçıb-sovurmasın, qız toyunda, qoca-qarı yasında olduğu kimi üç inək kəsib adi qaydada məni dəfn etsin. Dünyaya «Kökötöy öldü» deyə car çəkməsin, düşmənə torpaqlarımızı çığnatmasın, xalqı təlaşlandırmasın. Qardaşım Manas ilə danışsın. Əmanət sözüm budur...

Kökötöy vəsiyyətini bitirdi. Ağzından göy rəngli duman çıxdı və gözünün nuru sönərək bu dünyadan köç etdi.

Kökötöy bəyin çadırında Iramandın Irçı oğlu xalq adətinə görə qopuzunu əlinə alıb Kökötöy bəyin ölümünə ilk olaraq ağı söylədi:

– Ah, bu yalan dünya, kimlərə vəfa etdi?! Nələr etmədi bu yalan, başı sağlam, kökü viran dünya? Altun başlı xan da keçdi, aslan ürəkli ər də keçdi, getdi. Uca Tanrı, göydəki quşlara acıyıb söz ustası Kökötöyümü apardın? Yalan dünya, yalan dünya! Bağrı dərin qara yer olan dünya, sən kimlərə acıdın? Quş dili bilən, xalqının başında duran Kökötöyü niyə apardın!



Ah, bu fani dünya, Tanrının hökmünə heç bir çarə kar etməz, o hökm hər bəndəyə mütləq bir dəfə gəlir...

Kökötöy xanın gerisində sağlığında birər-birər topladığı Çeti-Su dolusu mal-heyvan, bircəcik oğlu və yeddi ev dolusu qızıl-gümüşü qaldı.

Kökötöyün oğlu Bokmurun Tülkü bəyin qızı Kanışayı alıb gətirəndə atası ölmüşdü. Atasının vəsiyyətini eşidə bilmədiyinə üzülən Bokmurun ağlayaraq suya salınan çubuq kimi büküldü, acı-acı göz yaşları töküb hıçqırdı.

Talesiz təzə gəlin bəyaz rübəndini başına salmadan ay üzünü yaşla islatdı, qanı qaraldı. Bunu hiss edən qadınlar «gəlinin ayağından, çobanın dayağından» deyə söz çıxartdılar.

Bəymirzə Bokmurunu yamna çağırıb dostunun can üstündə söylədiyi vəsiyyətini ona çatdırdı:

– Rəhmətlik can dostum «oğlum Manasın yanına getsin» dedi.

Bəymirzə dostunun əmanət sözünü eşitdirəndən sonra rahatlıq tapdı.

Bokmurun atasının Maanikər deyilən tulpar atına minib kimsəyə demədən axşamüstü Talasdakı Manasa tərəf yola çıxdı.

Manas Altaydan köçüb Ala-Dağa azacıq mal-heyvanı və dağınıq xalqı ilə gəldiyi zaman ilk olaraq qarşısına çıxıb ona boz at, çoxlu mal-heyvan hədiyyə edən, yetərincə yer verən, düşmənin bir yerdə qovulmasına kömək edən Kökötöy idi. Manas Kökötöydən çox yaxşılıq görmüşdü, həyatını ona borclu idi.

Kökötöyün Maanikər adlı atı Qəmbər Atadan qalmışdı. Maanikərin görünüşü digər heyvanlardan fərqli idi, cins idi, dözümlüydü, aşırımları qırx gün su içmədən aşa bilirdi, sivri qulaqları vardı, qaçdıqca küləyin sürətini arxada qoyurdu, qarşısına heç bir maneə çıxa bilməzdi, çox çevik idi.

Başına bəzəkli cilov keçirilmişdi, yer üzündəki heyvanlar arasında beləsi tapılmazdı. Maanikər Bokmurunu ox sürətilə Talasa çatdırdı. Bokmurun Manasla görüşüb dedi:

– Bahadır, atam öldü, atamı görənlər ölməsin, deyərlər.

Atam vəsiyyətində «məni layiqincə dəfn edin, ehsanımı yaxşı verin» deyib. Sizinlə görüşməyimi, məsləhət almağımı istəyib. Atamı dəfn etməyə hazırlaşırıq. Xalqın qiymətini bilməmişəm, xəsislik etmişəm. Bir sözlə, məsləhət almaq üçün sizin yanınıza gəlmişəm.

Bunları söyləyən Bokmurun Manasın qarşısında ağlamağa başladı, Manas hiddətləndi:

– Bu lənətə gəlmiş Daşkənddə, Səmərqənddə məsləhət verəsi böyüklər qalmayıbmı? Adətləri bilən qocalar, aqillər bir cavana məsləhət verə biməyirlərmi?! Səni qırğızların azman, qüvvətli bir igidi sanırdım, əslində bekara şeysənmiş. Kökötöy kimi atan ölübsə «Kökötöy atam öldü, Manasa xəbər verim gəlsin torpağa tapşırsın» deyə igidlərini göndərsəydin, düşmənə sirr verməsəydin olmazdı?! Xızır kimi rəhmətlik Kökötöy atandan yaxşı insan yox idi. Getmək borcumdur.

Bokmurun lal-dinməz dayanıb Manasa qulaq asırdı, Manas davam etdi:

– Olan olub, keçən keçib. İndi geri dön, xan atanın bayrağını qaldır. Onun müqəddəs nəşini yudurdub dəbdəbə ilə dəfn et. «Xan atam öldü» deyə millətə xəbər ver. Heç kimlə hesablaşmadan hökmünü söyləyib mənə xəbər göndər. «Manas gəlsə qisasımı alacağam» deyə qürrələn. Mən buna darılmaram. Nə istəyirsən de. Kökötöyün oğlunun bunları qırğızlara deməsi vacibdir. Kökötöyü qanun-qayda ilə dəfn edin ki, sonradan söz-söhbət çıxmasın. Başqalarına da nümunə olsun, arxanda yaxşı söz qalsın. Atandan bunları əsirgəmə, yası qırx gün saxla. Mal-dövlət tapılar.

Bokmurun bütün gecəni yol gəlib evinə çatdı. Onun Manasın yanına getməyindən heç kəsin xəbəri olmadı.

Bokmurun qaladan aralı bir yerdə bir ağ otaq tikdi. Atasının cənazəsini ətirli otlar, ardıc ağacları ilə örtdü. Kökötöyün qızıl sancağını otuz beş qulac uzunluğundakı dirəyə bağlayıb bacadan yuxarı çıxartdı. Xalqın gələcəyi tərəfdə çarpaz bir ev tikdirib yol çəkdirdi. Uzuq-uzaq yerlərdən gəlib ağlamağa baş-



layan kişilərin başına qara bağlatdırdı. Onları sıraya düzdü.

Bokmurun atasının məzarına torpaq atsınlar deyə növbəylə qırğızlara, pərakəndə yaşayan qazaxlara, auldaş noyqutlara və xüsusi olaraq bahadır Manasa, Ər Kökçöyə, eləcə də bütün türklərə xəbər verdi.

Başına bəyaz örtük örtmüş, çevik atlarının quyruqlarını bağlayıb altun libaslar geyinmiş əsabələrinə Bokmurun əmr etdi:

– Manas xana bildirin! Kökötöy atamın məzrına torpaq atsın. Gəlib xidmət etsin. Gəlməzsə qisasımı alacağam.

Toplanan xalqın çoxu Bokmurunun dediklərini bəyəndi:

– Atası öləndən sonra ağlı başına gəldi, sözü yerindədi. Manasa göz dağı verməsi igidlikdir...

Otuz altı gün sonra bahadır Manas səksən min adamıyla birlikdə qızıl sancaqlı çadıra at üstündə ağlaya-ağlaya gəldi. Otuz min yoldaşı ilə Kökçö də gəldi.

Bokmurun ağlamaqda olan on altı min oğlanın arasında ağı deyib üzüntüsünü ifadə edirdi.

Rahatlıq içində yaşayan, xalq arasında sayılan və sevilən qoca Kökötöyə xalqın hamısı baş əyərək göz yaşı tökdü.

Bəy oğlu Bokmurun yas məclisinə gələn xalq içindəki kimsəsizlərə, fəqir-füqaralara mal-heyvanlarından sədəqə payladı, xəzinəsindən qızıl-gümüş verdi, hamıya dürlü yeməklər yedirtdi.

Kökötöy bəyə saygı göstərmək üçün gələn xalqın çoxluğu ondan bilinirdi ki, qəbirə atılan torpaq dağ boyda yüksəlmişdi.

Biləyinə quş qondurub kəmər qurşayan ağsaqqalın rəsminin cızıldığı qaya üzərinə belə yazıldı:

«Əynində paltarı, yeməyə çörəyi olmayan xalqı topladım, birləşdirdim, xalq etdim, dərdsiz yaşadım. Neçə illər ədalətli qayda-qanunlarımızı, adət-ənənələrimizi müqəddəs bildim. Azı toplamaq az işdir, incəni qoparmaq asan. El yığnağı qalın olursa, qüvvətli olur. İncə yoğun olursa, qoparmaq çətin olur. Bahadırın min, başın bir olsun. Bunu eşit, xatırla, xalqım!»

Kökötöy bəyin ehsanı qırğızların irəli çıxanlarına verildi, digər xalqlar getdikdən sonra Bokmurun yaxın adamlarını top-

layıb Tanrı adına ehsan vermək üçün məclis qurdu və dedi:

– Üç ildən sonra atam üçün dünyanın eşidib-biləcəyi bir ehsan verəcəyəm. Atamın ehsanına atının ayağı dəydiyi yerlərdəki xalqların hamısını çağıracağam. Hazırlıq görün, bəy qardaşlar!

Qırğızlar Kökötöy bəyin ehsanına birgə hazırlıq görməyə başladılar.

* * *

Üç il tamam olan kimi, hazırlıq başa çatanda Bokmurun xan qalasında Kökötöy bəyin qızıl sancağı keçirilmiş uzun dirəyi ucaltdı, hər yerdə bəyaz çadır qurdurdu.

Bokmurun qohumlarının, Kataqandan Koşoyu, Qazaxlardan Kökçönü, Ooqanlardan Akunu, ağıl sahibi biləndərləri yanına çağırdı. Bokmurun xalqın böyüyü olan xan Koşoya baxaraq belə dedi:

– Ağalarım, qardaşlarım. Qız almağa gedib atamın vəsiyyətini öz ağzından eşitmədiyim üçün içim yanır. İndi atamın Bəymirzə əmimə söylədiyi vəsiyyətini yerinə yetirməliyik. Mərhum atamın heyvanlarını, mal-sərvətini əsirgəməyək. Üç il ərzində hər cürə sərvət topladım. Dünyaya səs salacaq ehsan verək. Qırğızların adətini dünyaya göstərək, at kəsək, pəhləvan güləşi, igid yarışı, kəl vuruşuna meydan verək, dəvə çözümü, gümüş atma oyunları düzənləyək. Buna nə deyirsiniz?

Toplantını idarə edən Koşoy saqqalını sığallayaraq güldü:

– Bunları etmiş olsan borcunu yetrinə yetirmiş olarsan, atanın da ruhu şad olar. Bu qədər hazırlıq görmüsənsə dediyini elə.

Bokmurun üzünü Koşoya tutdu:

– Koşoy əmi, məsləhət verin. Ehsanı necə verək? Atı necə kəsək? Necə edək ki, dəbdəbəli olsun? Dəvət edəcəyim qonaqlar Daşkəndə sığmaz. Koşoy əmi, buna nə deyirsiniz? Ehsan veriləcək yeri siz seçin. Ehsan məclisinə siz rəhbərlik edin.

– Kökötöylə mən bir quşun iki qanadı kimiydik. Bir qanadım qırıldı. İgidimin nəşini torpağa tapşırdım, indi onun böyük yas məclisinə də rəhbərlik edəcəyəm-dedi Koşoy təklifi qəbul edərək.



Toplantı iştirakçıları çək-çevirdən sonra əyləncə düzənləyib cıdıra çıxmağa əlverişli yer olaraq Koşoyun seçdiyi geniş Qarqıranı bəyəndilər.

Yazbaşı heyvanlar ətə-qana dolanda, son bahar günləri gələndə Bokmurun müxtəlif yerlərə qabaqcadan xəbər göndərib qazax və qırğızlardan üç yüz min boz ev (burada çadır mənası daşıyır-A.C.) toplatdı, yüz əlli min xalqı səfərbər edib yer üzünü toza-dumana bürüyüb Qarqırana köç etdi.

Köçün başında dayanan el ağsaqqalı, yurd böyüyü Ər Koşoy heyvanlar zəifləməsin deyə hər on gündən bir ara verib, nəfəs dərməyi məsləhət bildi. Altun naxışlı göy bayrağı başı üstünə qaldıran qələbəlik köçün ayağı, başı bilinmirdi, önü və arxası üçgünlük məsafəyə qədər uzanmışdı. Köçün başında qırmızı rəngli paltar geyinən, yorğa ata minən gəlinlər, qızlar, üstünə qırmızı kilim örtülən hürgüclü dəvələri ipəkdən düzəldilmiş iplə çəkən xanımlar, dəlicəsinə at sürən igidlər Qarqırana qafilə halında gedirdilər. Üç il ərzində qara geyinib, qara örpək örtüb Ağ otaqda yas tutan Kökötöyün sevdiyi Ayımkan, Gülxanış, Gülayım, Gülcar, Aykanış adlı övrətləri ağı deyib ağlayırdılar. Altmış qadın da bunlara qoşulub bayatı çəkirdi.

Bərəkətli Qarqıran dağları yamyaşıl, havası təmiz, təpələri düz, suyu saf, odunu bol, dərə-bərəsi olmayan, cıdıra çıxmağa münasib, ehsan verməyə uyğun əlverişli bir yer idi.

Qoca Koşoy altun naxışlı sancağı (bayrağı – A.C,) göyə qaldırıb Kərqabılan adlı atına minib, altun saplı baltasını belinə bağlayıb bir ay at üçtündən düşmədən ehsan tədarükü gördü.

Bərəkətli Qarqırada otuz gündə üç yüz min ev tikildi. Məşhur xanların qalacağı boz evlərin tikildiyi yer dizə qədər qazıldı, keçələr üst-üstə keçirildi, gümüşlə süslənmiş tündük xüsusi zövq ilə quraşdırıldı, bu başdan o başa qədər ev tikildi, evin divarlarını bərkidən çatılar bəyaz cuna ilə örtüldü. Keçələrin calaq yerləri isə qırmızı cuna ilə sarındı. Bəyaz çadırın içində ipək yorğanlar üst-üstə qalandı, aslan, ayı dərisi keçə döşəmə üzəri-

nə sərildi, gələnlərə əzəmətli görünsün deyə qapının ağzında daşdan aslan heykəli qoyuldu, qapının iki tərəfinə qoyulan aslan heykəlləri baxanların xoşuna gələrdi.

Təkcə veriləcək yeməyin ətini, odununu hazırlamağa doxsan min igid cəlb olundu.

Bokmurun yaxın adamları ilə danışıb «atamın mal-dövlətini, toplamış olduqlarını öz ehsanma xərcləyək» deyə bir əsr unudulmayacaq bu məclisə dəvət üçün dörd tərəfə adam göndərdi.

Xəbər eşitməkdə xalq arasında Çaş Aydardan yaxşısı yoxdu. Qısa boylu Çaş Aydar altmış dil bilən, pis-yaxşı söz söyləyənə soyuqqanlı, ağıllı cavab verə bilən vətənsevər igid idi. Çaş Aydar dualı cüppə geyinib Maanikərə minib getdiyi yerdə bu xəbəri eşitdi: – «Yasda at yarışı, ər yarışı, güləş, hər növ yarış, oyun olacaq, gəlin bacarığınızı göstərin, gəlməyənlər Bokmurunun qəzəbinə düçar olacaq». Bu sözləri eşidən Çaş Aydar yola çıxdı.

Maanikər atların arasından çıxan bəyaz yalmanlı, çöl-çəmən üstündə, buludlu göyün altında uçan quş ilə yarışan, qorxu-ürkü bilməyən, gurultu eşidəndə dayanan, ayın qaranlığında bir izin üstünə təkrar iz salmayan, daşlıqda süzən maral kimiydi, üç aya gedib çıxdı.

İki aydan sonra Kökötöyün yasında qonaqlar gəlməyə başladı. Hər millətin xanına və igidlərinə ayrı-ayrı çadırlar qurulmuşdu.

Yasa ilk olaraq gələnərdən Manasın atası Cakıb vardı, arxasınca Surkiyik deyilən atına minib, on üç gün yol yorub dörd min əsgərlə yetişən igid Bağış gəldi. Yasa gələn-gedən çox olur, atan varkən el tanı, atın varkən yer tanı – deyə oğlu Toltoyu da özü ilə gətirmişdi. Arxasınca Kökötöyün ehsanını hazırlayan, yasa sayğı və salamla gələcəyəm deyə auluna dönən Ər Koşoy bəyaz atına minərək gəldi... Ondan sonra Kokan xanı Cücörü on iki min əsgəriylə, ondan sonra da yenə on iki min əsgəriylə birlikdə Axun xanı gəldi. Əndicandan qır saqqallı Tınıç bəy, Səmərqənddən Sancıbəy on min əsgərlə gəldi. Kokan xanı Kozu bəy, Marqulandan Malabəy, Altı Şəhərdən Alabəy, Buxara xanı Temirxan olmaq üzərə dörd xan iyirmi min əsgərlə gəldi.

Ertəsi gün səhər tezdən davul səsiylə bərabər Çatqal deyilən yerdən sıyrılmış sirli mizrağını əlinə alıb Telqazıl adlı atına minən, güləndə heç kəsə basılmayan, qarşısma heç kəs çıxa bilməyən, doxsan igidin gücünə bərabər qüvvəti olan Muzburçaq gəldi. Noyqutdan Qaraca atına minib doxsan min əsgəriylə birlikdə Lop nəhrinin sahilindən bu yana neçə-neçə dağı, təpəni, eli, obanı aşaraq gəldi. Hələ oğlan vaxtından neçə dil bilən, sözünə möhkəm Eybit xanın oğlu Ər Ürbü altı min əsgəriylə gəldi. Sarı-Arşanda yurd salan, atları cins, dəmirdən zireh geyən, qadınlarına qız deyib öyən qazaxların başçısı Kökçö tulpar atma minərək göy bayrağını dalğalandırıb qırx min əsgəriylə birlikdə gəldi.

Gün ərzində geniş Qarqıran atlarla doldu, millət qarışqa kimi qaynayırdı. Dünyanın dörd tərəfindən gələn sayı bəlli olmayan qonaqlar, adı, sanı və haradan gəldiyi bəlli olmayan ozanlar və qəhrəmanlar sel kimi axın-axın gəlirdilər.

Bokmurun gələn qonaqları qarşılayıb, onların şərəfinə qoyun, inək, at kəsir, külək kimi bir yerdə bənd almırdı. Ay işığı ilə aydınlanan gecələrdə hər növ oyun oynanıldı, çalğı çalındı, mahnı oxundu, dürlü-dürlü əyləncələr düzənləndi.

Üç gündən sonra Ər Töşdük «Kökötöy ata mənə çox yaxşılıq etmişdi, arxasına salıb dünyanı göstərmişdi, yasına getməsəm olmaz» deyə Çal-Quyruq atına minib dörd min qüvvətli əsgərini götürərək gəldi. Arxasından tutduğunu sağ buraxmayan heybətli, güclü Eştek oğlu Camqırçı yeddi min əsgərlə gəldi.

Qonaqlar on iki gün qaldılar. Gələn qonaqların ən azı Aykocanın üç adamı idisə ən çoxu yetmiş minə çatmışdı. Altmış yerə bir-birindən fərqli bayraqlar sancıldı.

On ikinci gün yeddi bayraq daşıyan kalmık və mancu böyük bir gurultuyla gəldi. Bunu kimin ordusu olduğunu soruşanda bəlli oldu ki, Çonq Coloyun (Böyük Coloyun) ordusudur.

Coloyun vəziyyəti belə idi: Ərgənlik çağına gələndə onu

qaldıracaq at tapılmadığı üçün yeddi il piyada gəzən qanlı bir div idi. Qaynaşan xalq kalmık ordusunu görüncə qorxub can təlaşına düşdü. «Bir qovğa düşsə biz nə edəcəyik» deyə Bokmurunu sıxışdırdı.

Kökötöyün oğlu Bokmurun Coloy xana gəlib salam verdi:

– Bahadır, gəldiyiniz üçün məmnunuq. Bizim adətimiz belədir.

Bunu deyən Bokmurun Kökötöyün xəzinəsindən altı qızıl səbikəni hədiyyə verdi. Kəsmək üçün altmış min qoç, min qısraq, hər altı kişiyə bir qab içki verdi. Pis niyyətli Coloy Bokmurunun bu hərəkətindən məmnun qalıb savaşmaq fikrindən daşındı.

Göz açıb yumunca göyü, yeri qaranlıq basdı. Görünüşü insandan fərqli, pambıqdan kəməri olan, Kakançin xanı Konqurbəy Alqara adlı tulpar atını oynadaraq düdük səsi eşidiləndə gəldi. Konqurbayın görünüşü belə idi: Biləkləri polad kimi sərt, sağ çiyni qabarıq, ox keçməz geyinən, başma mərcanla işlənmiş papaq qoyan, mərcan daşlarının üstünə papağan (quş adı-A.C.) quyruğundan rəngarəng tük taxan, sirli yay-oxu olan, yerişindən toz, ayaq səsindən can çıxaran xan idi. Kakançin xanı Konqurbay bənzərsiz dəlisov atını oynadan, qaranlıqda heç çaşmadan hədəfi düzgün vuran sərrast bir nişançı, tədbirli, yaman bir bahadır idi.

Konqurbay qüvvətli əsgərləri, hər biri min adama başçılıq edən xəncərli pəhləvanları, yayçı, kəmənd atan igidləri yanına almışdı.

Koşoy, Töşdükün dəstəsindəki igidlər Konqurbayın əzəmətinə, heybətli görkəminə baxıb «bu lənətə gəlmiş axırda bir bəhanə tapıb qırğızlara böyük fəlakət gətirməsə yaxşıdır» deyə qayğılandılar. Düşməni at üstündə görən bütün xalq çaşaraq «rahat yaşayırdıq, indi yağmalanacağıq, Kökötöyün yasında qələbəlik çinlilərin əlində ölmək üçün qalmışıq. Aş yemədən daş yeyəcəyik. Ehsan əvəzinə ox yeyəcəyik. Bu sürü-sürü çinlilər ilə kalmıklar bizi yeyəcəklər. Bizi xilas edəsi o məşhur aslan Manas yoxdur» deyə təlaşlandılar, üzüldülər, canlarından



umudlarını kəsdilər.

Xan Konqurbayın qarşısına Kökötöyün oğlu Bokmurun sayğıyla salam verərək gəldi, altmış dəvə hədiyyə etdi, kəsməsi üçün səkkiz min qoç, beş min qısraq verdi. Bu nemətlərdən könlü açılan Konqurbay ordusunu qərargahdan çıxarıb bir qədər aralıda xüsusi olaraq tikilən ağ otaqda yerləşdi.

Aman Tanrım, çox keçmədən yeddi sancaq da gəldi. Gələnlər çığırıb-bağırırdılar. Mizraqların ucları parıldayır, insan başları sallanırdı. Xalq həyəcanla bir-birindən «bu kimin ordusudur?» deyə soruşurdu. Bəlli oldu ki, bu, Mancu xanı Neskaranın ordusudur.

Diqqət yetirəndə öyrəndilər ki, niyyəti pozuq Neskara Pekindən yola çıxıb dağ kimi nəhəng vücudu ilə vəhşi donuz sayağı atılıb gəlib. İnsanları çaşdıran bu pezəvəng təcrübəli, bilikli, qılınc davasında usta bir cəngavər idi. Kimsəni yaxınına qoymayan, qırğızları adam hesab etməyən, Altaydakı Manasdan aldığı qulaqburmasını unutmayan, «fürsət yetişəndə qırğızlardan qisasımı alacağam» deyə gözləyən Neskara yasa gəldi.

Zavallı oğlan Bokmurun qələbəlik çinlinin sərkərdəsi Neskaranın qarşısına çıxıb Kökötöyün çox sayda qoç və atlarını kəsmək üçün ona verdi.

Neskara buna razı olmadı, Bokmurunu çağırdı. Bokmurun sayğıyla onu dinlədi.

Neskara dedi:

– Ey, qırğız, göstərəcəyin hörmət elə budurmu? Aşını qurudacağam. Aulunu yağmalayacağam. Cinini canından qovacağam, qırğız. Nə halın varki, bu qədər xalqı toplamısan? Məndən qorxub gəlinəyən Manas səni xilas edə biləcəkmi? Dediyimi edəcəksən, qırğız, etməsən söylə söyləyəcəyini, gedib aslanına xəbər ver.

Neskara bu sözlərlə Bokmuruna hədə-qorxu gəldi. Sonra qaval çaldırıb danışmaq üçün Konqurbay ilə Coloyun yanına gəldi:

– Konqurbay, Coloy, igidlərim, axmaq qırğızların vəziyyə-

tini öyrənib saylarını biləк. Kökötöyün Maaniker adlı bir atı var. Xan Konqurbay, sənə layiq bir atdır. Vaxtı itirmədən, Manas gələnə kimi bunların qazanlarını devirib, evlərini yandırıb, aş verilən yerin altını üstünə çevirək. Xalqını kölə kimi heyvanları ilə bərabər sürüb yola çıxaq...

Konqurbay ilə Coloy bu fikri bəyəndi. Xanları belə dediyinə görə çinli, mancur və kalmıkların ac adamları Kökötöyün yası üçün bişirilən xörək qazanlarının altını üstünə çevirdilər.

Bahadır Koşoy çinli, kalmık və mancuların söylədiklərini eşidib qarışıqlıq göstərən qırğızları nizamladı, düşmən coluq-cocuğa hücum çəkib hamısını öldürməsin deyə onlara öyüd-nəsihət verdi.

Gözləməkdən canı sıxılan xanlar məclisi aparan Koşoyun üstünə gəldilər:

– Ey qırğızlar, Kökötöyün cəsədini qırx gün saxladınız, onun ehsanına da bizi qırx gün gözlədəcəksiniz? Qonaqlara heyvan gözü ilə baxacaqsınız? Yemək öz evimizdə də tapılardı. Niyə ehsan vermirsiniz?

– Uca soylu xanlar! Qırğızın qonaqpərvərliyini görüb, gözəl yerlərində istirahət edin! Adətlərimizə hörmət göstərin! Camaat hamısı gəlib yığılsın-dedi Koşoy, Manas gəlmədiyini bildirmədən.

Kökötöyün oğlu uğursuz Bokmurunu atasının adına layiq yas məclisi keçirmədiyinə görə danlayan Manasın özü gəlib çıxmamışdı.

Bəd niyyətli Neskara nəsihət dinləmək həvəsində deyildi, deyinə-deyinə Çonq-Kürönq atını mindi. Xoşuna gəlməyənlərin üstünə cumub yas məclisini pozdu, ziyafətin, ehsanın bərəkətini qaçırdı.

Neskara çox təcrübəli və tədbirli idi. Yasa gələn Koşoyun adamlarını bircə-bircə nəzərdən keçirdi, onların arasında Neskaranın Konqurbay və Coloy kimi bahadırlarına üstün gələ biləcək igidlər yox idi. Bahadır Manasın olmadığını öyrənəndə isə Neskara bir az da qudurub Bokmuruna qəzəbləndi:



– Ey qırğız, Kökötöyün Maanikerini hədiyyə ver. Bizə layiq heyvandır o. Qismətі açılmadığına görə qüdrətini göstərə bilməyibdir. Atın qismətini biz aça bilərik. At kasıb-kusuba göz dağı vermək üçün bəylərin minəcəyi atdır. Qızıl-gümüşlə birlikdə Maanikeri ver, qırğız, düzünə qalsa sizdən hayıf çıxmalıyam, günahınız var. Dediyimi elə. Maanikeri verməsən xalqını soyub soğana çevirərəm, heç birini salamat buraxmayıb öldürərəm, yurd-yuvana od vurub külünü göyə sovuraram.

Zavallı Bokmurun ya cavab verə bilmədiyindən, ya da güvənci Manası yanında görmədiyindən ağlına min cür qorxulu fikirlər gəldi, biləyindən qüvvət, ürəyindən qan yoxa çıxdı.

Bokmurun Koşoyun yanına gedib dərdini ona söylədi:

– Kalmıklar silahlı və qələbəlik gəldilər, əmi, bir yol göstər! Böyüklərin sözünü eşitmədən ehsan vermək istəyib başımı bəlaya saldım. İndi fəlakətə qalmışam. İgid xalqımın hamısını yağmalatmasam yaxşıdır. Qara kalmıkların və mancurların dediyini eşitməliyik, Maanikeri istəyirlər, verək getsin, əmi!

Tədbirli, ağıllı Koşoy belə dedi:

– Ehsan verən adam suçlu, xalqı toplayan adam günahkardır, oğlum. Kalmıkların və çinlilərin xalqımıza sitəm çəkdirdiklərini bilirdim. Allahın altında Manasa bir xəbər yollaya biləydin. Bahadırın inadıyla oynadın... Qulaq as mənə. Manasa-geniş Talasa xəbər göndər. Manas həqiqi qəhrəmandırsa altı günün içində gəlsin, xalqını xilas etsin de. Bahadır Koşoy əmini kalmıklar dustaq etdi de! Əgər Manas gəlməzsə qara kalmıklar, mancular və çinlilər hücum çəkib bütün heyvanlarımızı sürüb hamımızı öldürəcəklər de!

Ər Koşoy kiçik bir məktub yazıb axşamüstü Çaş Aydarı Maanikerə mindirərək kimsəyə sezdirmədən Manasa xəbər verməyə göndərdi.

Çaş Aydar gecə-gündüz bilmədən, dayanıb-durmadan, dincəlmədən yol gedib Talasa çatdı, Xan Manasın bəyaz çadırına girdi.

Bəyaz çadırın keşikçiləri onu saxlamadan xan Manasın ya-

nına girməyə izn verdilər.

Xan Manas altun taxtına əyləşmişdi, sağ yanında Bakay başda olmaqla iyirmi bilgic, vəzir-vəkil, sol yanında Almambet başda olmaqla iyirmi ordu sərkərdəsi oturmuşdu.

– Bahadır Manas, Koşoy əminin məktubu var, Kökötöyün yasına gələn kalmıklar, mancurlar və çinlilər qarışıqlıq saldı. Neskara «Maanikeri mənə gətirin» deyə qovğa qopartdı. Koşoy xan zindana salındı, «Bahadır Manas gəlsin, gəlib idarə etsin» deyə Bokmurun məni yolladı...

Bunları söyləyən Çaş Aydar qamçısını sinəsinə sancmış vəziyyətdə cavab gözlədi.

Eşitdiyi sözlərdən qaşları çatılan qəzəblənmiş Xan Manasın gözlərindən alov çıxdı, üzü dümağ oldu, dişlərini qıcayıb Çaş Aydarı qaraquş dovşanı qamarlayan kimi qamarladı:

– Elinin koru, bicbala Bokmurun qızıllarına güvənib qürrələnir. Xalqının başım yeyir. Ey, xan Kökötöy öləndə xəbər vermədi, böyük yasma da çağırmadı, indi «bizi xilas etsin» xəbərini gətirən bu küçüyə baxın! Ehsanın kalmıklarla çinlilərə qismət olsun. Ətinizi köpəklər yesin! Sizə bu da azdır! Söylədiklərini şeytan eşitsin! Xalqın günahı, bütün fəlakətləri bu oğlanla getsin! Tanrıya qurban verəlim-deyən Manas qılıncını qınından çəkdi.

Manasın qəzəbləndiyini öyrənən Kanıkey tez tələsik çadıra gəldi. Gözəllər gözəli zavallı Kanıkey bəyaz örpəyini sallayıb üstündə gəzdirdiyi qırx açarı əlində oynadaraq Xan Manasın yanına gəldi, qılıncını tutub, hürkmüş bildirçin gözlərinə bənzəyən parlaq gözlərindən yaş axıdaraq şirin-şirin danışaraq yalvarmağa başladı:

– Bahadır, dayan! Bu oğlanın nə günahı var? Kimsəsizin birinə toxunmaq yaxşı deyil, bu oğlan kalmıkdan gələn düşmən deyil, ona toxunan da aslan deyil, qəzəblə iş tutulmaz, düzgün hərəkət etmirsən, qılıncını saxla. Xəbərçini öldürən sağ qalmaz, qadın olsam da rica edirəm, bu kimsəsiz oğlanın quşunki qədər həyatını mənə bağışla.

Göy dəbilqəli, öndə yüyürdüyü zaman uğur gətirən, arxada



yüyürdüyü zaman minlərcə əsgərə əvəz olan, altı ay qabaqcadan baş verəcək fəlakətdən xəbər verən açıq gözlü övliya Bakay belə dedi:

– İgidim Manas, məni dinlə, həqiqi xansansa bir oğlanın canına qıyma! Öldürəcəyin düşmənin bu deyil. Xalqından bir soraq alana kimi səbr et! Bokmuruna qəzəblənib hayıfını bu cavandan çıxma.

Əmisi Bakay araya girərkən zavallı qadın Kanıkey Manasın önündəki Çaş Aydarı yavaşca oradan uzaqlaşdırdı.

Xan Manas qılıncını qınına qəzəblə soxub davul dəyənəyi ilə altun oyuqlu davula vurmağa başladı.

Davulun qulaq batıran gur səslə çalınması düşmənin gəldiyindən, ya da düşmənə qarşı atlanmaq vaxtının gəldiyindən xəbər verirdi. Xan düşərgəsində gurultudan qulaq tutulurdu.

– Atlanın! Savaş silahınızı hazırlayın!-sözlərinin sahibi, qırx çoronun başçısı ixtiyar Kırqılın əmri hamıya çatdırıldı.

Qələbəlik xalq hərəkətə gəldi. Əsgərlər atlarını yəhərləyib silahlarını qurşandılar. Onbaşı, yüzbaşı və minbaşılar döyüşə hazırlaşdılar.

Manasın düşərgəsində bu səs-küy uzun sürmədi. Qırx çoro atına minib sıraya düzülərək Bahadırın əmrini gözləyirdi.

Kanıkey düşərgədə kəpənək kimi dolaşıb sanki bir şeyi sezmiş kimi tələşlamrdı. Odur ki, Manasın qarşısında əyilərək dedi:

– Bahadır, işinə qarışıram, amma söyləməsəm rahat ola bilmərəm. Sözümü eşit, bahadır...

– Kanıkeyim, qulağım səndə. Bu yasa getməyimi çox da dilinə gətirib, ürəyinə salma, – dedi Manas.

– Bahadır, dünyanın dörd bir tərəfindəki qüvvətli ərənlər, bütün igidlər bir yerə yığışacaq. İnad göstərib vuruşmasanız, böyüklük göstərib tutaşmasanız yaxşı olar. Bu fəlakəti hiss edirəm. Ocağın külünü külək sovurub yeri yandırmasın dedi Kanıkey.

Manas qəzəbləndi:

– Sözünü kəsə desənə, ağzını yumsana.

– Bahadır Manas, izn versən qırx çoroya hazırladığım li-

basları gətirim-dedi şirin dilli, hazırcavab Kanıkey.

Kanıkey bəyaz çadırına qırx çoronu övrətləri ilə birlikdə çağırdı. Özü hazırlatdığı ox işləməz qırx zireh libası xəzinədən götürüb sıraya düzülmüş çoroya geyindirdi.

Tədbirli Kanıkeyin mərifəti bundan bəlli idi: İgidlər gurultu ilə onu alqışlayarkən Kamkey qırx çoronun atlarını-Ağqula başda olmaqla sırayla bağlayıb qabağına arpa tökdü, yarışa hazırladı. «Kökötöyün yas məclisi olacaq, xalq yığışacaq, igidlər meydana atılanda atlar tənbəllik etməsinlər» dedi.

Əyninə zirehli paltar geyinib başına dəmir dəbilqə qoyan, adamı vahiməyə salan qırx igidinin inci kimi düzülüb durduğunu görən Manas sevgili qadını Kanıkeyin əsilzadəliyindən məmnun oldu. Adətən heç gülməyən, gülmək bilməyən Manas ağzını açaraq «bu yengəniz nə diribaş imiş» deyə qəhqəhə çəkdi.

Kanıkey xəbərçi Aydara da təzə paltar geyindirib «ağan Manas iki günə yola çıxacaq» deyə onu yola saldı.

Kanıkey bahadır Manasın savaş libasını geyindirib belə söylədi:

– Bahadır, sözümü qəbul etsən, xalq məsləhət bilsə böyük qaynatamın ruhuna ehtiram üçün süfrə hazırlayıb biz də ehsan verək.

Bahadır Manas Kanıkeyin bu təklifini bəyəndi.

Çox keçmədən «xan Kökötöyün yas məclisini çinil və mancurlar alt-üst edib əziz Koşoya işgəncə vermişlər» xəbəri Manasın düşərgəsinə yetişdi.

Manas bu xəbəri eşidən kimi Ağqulanı yəhərlədi. Ağqulanın müdhiş görkəmi vardı; dırnaqları dəyən yerdə çuxur açılırdı, ağrıyan yerinə məhəl qoymayan, döyüşdə yaralansa çaşmayan, bahadır Manasa yaraşan tulpar bir at idi.

Bahadır Manas atına minib qırx çorosunu arxasına salıb, Kanıkeyi də yanına alıb Qarqıran tərəfə təcili yola çıxdı.

Göy dəmirdən zireh geyinmiş, üzəngi oynadan igidlər Xan Manası ortalarına alıb, ordunun önündə iyirmi oxçu, arxasında usta mizraqçılar, sağ və solunda qılınc və balta oynadan bahadırlar olan vəziyyətdə irəliləyirdilər. Aslan sifətli bahadırın əzəməti qələbəlik içərisində birgünlükdən seçilirdi; dağ cüssəli Bozqurdla hansı əcəli gələn üz-üzə gələ bilərdi? Xan Manas hamıdan fərqlənirdi. Polad kimi biləkləri vardı. Mizrağı parıldayırdı, qaşları çatıq, güclü, qüvvətli, toxunduğunu toz edən qırx başlı qaplan idi, həmləsinə tuş gələn adam canından umudunu kəsərdi. Ər Manas mindiyi Ağqulasının yəhər-yüyəninə bəzək-düzək vurmuş, bir atı da yedəyinə almışdı.

Bahadırın arxasınca at minməkdə çevik, heybətli, əlləri bayraqlı, əylənməyə əyləncə, güləşməyə igid tapmadığı üçün canı sıxılıb kükrəyən qırx çoro gəlirdi. Bəyaz zirehli, ölümdən çəkinməyən, döyüş fəndlərini yaxşı bilən, davul və zurna çalan göy bayraqlı bozqurdlar sanki yeri-göyü titrədərək gəlirdilər.

Manas otuz gün keçdikdən sonra yas məclisinə gəldi. Kökötöyün oğlu Bokmurun ozanlarına Ər Manası öydürdü, önündə oğlaq kəsdirib başına qızıl-altun səpdirdi. Alçotoru atını yedəyinə alıb hədiyyə vermək üçün bahadırı qarşıladı.

Bokmurun bahadırla görüşmək üçün yüyürərkən elə bil ayaqlarından yerə mıxlandı. Ər Manası görüncə nə deyəcəyini bilməyib çaşqın vəziyyətdə yerində donub qaldı. Camaata söyləyəcəyini Ər Koşoya söyləyərək Manasın gözünə görünməməyə çalışdı.

Qırğızlar arasında Törə qız deyilən gözəl bir xanım vardı. Gəncliyində həyatını bağladığı əri at yarışında öldükdən sonra heç kimə getməmişdi. Buna görə də xalq onu hələ qız adı ilə çağırırdı. Törə qız gözəl əl qabiliyyətinə malik şair təbiətli bir insan idi. Kanıkey təzə gəlin gələndə Ər Manasın qırx qanadlı bəyaz çadırını o bəzəmişdi. Zövqü və əl işləri ilə seçilən qırx qızı yanına alıb bahadırın bəyaz çadırını iki ilə işləmişdi. Bokmurun da Törə qızı çağırıb atasının şərəfinə tikdiyi qırx qanadlı boz evi də ona düzəltdirmişdi. Bu ev ilk dəfə tikilirdi.

Bahadır Manas Qarqıranın geniş düzəngahında, çay qırağında qurulan, çətən-çubuğu əlvan rənglərlə boyanan, sırıq-naxışları ipəklə işlənmiş, rəngbərəng qotazlı bəyaz çadıra girdi.

«Bahadırla görüşək» deyə Koşoyun ətrafında olan xalq, qazaxların başçısı Kökçö, Əlmanın oğlu Töşdük, Ettekin oğlu Camqırçı, Cedigerin oğlu Baxış, Cetkir Bəyin oğlu Ağış, Qara Caak, Ər Ürbü, Qaraşaxın oğlu Cigörü olmaqla səkkiz xan Manasın hüzuruna gəldi.

– Koşoy əmi, yaxşısanmı? Kökötöy dədənin ehsan məclisinə başlamısınız, yurdun xalqla dolsun, yaylağın heyvanlarla. Tanrım hər kəsə Kökötöyün ömrünü versin, vəzifələrini nəsib etsin.

Bunları söyləyən Manas qara bığlarını sığallayıbKoşoyla görüşüb öpüşdü.

Manasın yolunu gözlədikdən səbri daralan Xan Koşoy dedi:

– Niyə belə gecikdin, Manas? Qırğızlar can hayında. Belimiz büküldü, başımız bəla çəkdi. Heyvanlarımızı kalmıklar və çinlilər öldürüb, yağmalayıb yox etdilər. Kökötöyün ocağına sahib çıxacaq igid tapılmadı. Qəhr olası bu yasdan nə xeyir tapdıq?!

Bahadır Manas qamçısını çəkməsinin boğazına dürtərək belə dedi:

– Koşoy əmi! Ehsan verəcəyik deyə ağzmızı Allah yolunda açan siz deyilsinizmi? Öz qazanına özü sahib çıxa bilmirsə, bu qırğızların zəifliyindəndir. Ehsan verəndə malınızı əsirgəməyin, mal-mülk tapılar. Qonaqların acgözlüyünə fikir verməyin. Kökötöyün varyətindən gedir bu ehsan, ruhu şad olsun! Çalışın ki, kalmıklar və çinlilər bir bəhanə tapıb dava-dalaş salmasınlar. Diqqətli olun, gözünüzü dörd açın! Xalqa əziyyət versələr qılıncın tiyəsi, mizrağın ucu ilə danışacağıq. Yolunu azanı yola gətirəcəyik, ordusunu, əsgərini saman kimi sovuracağıq.

«Coloyun Maanikeri istədiyini söyləsəm Manas hirslənib başqa bir iş çıxarar» fikrini beynində dolandıran Koşoy dərdinin hamısını danışmadan ayağa qalxıb yas məclisinə tərəf üz tutdu.

Aslan Manası yaxından görmək məqsədilə yasa gələn başqa yurdlarm adamları bahadırın qaldığı ağ otağa yaxınlaşdılar. Mühafizlər, keşikçilər qamçı vurub, qılınc qaldırsalar da xalq dəniz kimi dalğalanıb bu əngəlləri keçərək Manasa yaxınlaşdılar. Xalqın istəyini görən kalmıklar, çinlilər və mancurların



igidləri Manasdan çəkinib nə edəcəklərini bilmirdilər.

Çinlilərin Çağıray adlı bir çoxbilmişi vardı. Qırğızların Manasını bir görüm deyə bahadırın ağ otağına xəlvətcə baxmışdı. Bahadır Manası doğrudan görüncə ürəyi partlayıb qorxusundan dayandığı yerdəcə canını tapşırmışdı.

Bahadır Manas yasa gəlincə ümidlərini itirmiş qırğızlar yenidən toplaşmağa başladılar. İgid Bakay da qırx min əsgəri ilə gəlincə bütün xalq daha da cəsarətləndi.

İki qazan ətlə doymayan Neskara ocaq başında fırlanıb «yeməyə bir şey varmı» deyə camaata qarışaraq Manası görmüşdü.

Xan Konqurbay ilə Dev Coloyun yanına tələsik gələn çox təcrübəli bahadır Neskara tələşlanaraq belə dedi:

– Konqurbay xan həzrətləri, bahadır Coloy xan həzrətləri, mənim gördüyümü gördünüzmü? Mənim duyduğumu duydunuzmu? Mən Manası yaxından görüb özümü itirdim. Bu qırğızın görünüşü fəlakətdir, bütün Pekinlilər bir yerə yığışsaq da onunla bacara bilmərik. Maaniker atı soruşmayaq, boş yerə başımıza bəla açmayaq, havayı ölüb-getməyək. Kakançinə sağ-salamat qayıdaq. Bahadırlar, məni eşidin.

İki xan Neskaraya söyüş yağdırıb onu ortaya aldılar.

– Elinin koru Neskara, səni Mancurun aslanı sanırdıq, qorxağın birisənmiş. Yurduna qaçırsan, sən qaç. Manas göydənmi düşüb? Bizdən qoçaqdırmı?-dedi xan Konqurbay.

– Qırğızlar dediyimi eləməsələr, Maanikeri verməsələr, ehsanlarını haram edəcəyəm. Atlarının hamısını sürüb aparacağam-dedi Coloy xan kükrəyərək.

Bu üç bahadır: Konqurbay, Coloy, Neskara qırğızlara divan tutmaq üçün ölçüb-biçib razılığa gəldilər.

Kalmıkların, mancurların və çinlilərin xanları Bokmurunu sıxışdırdılar. Bokmurunun biləyindən güc, ürəyindən qan getdi.

– Ey, qırğız, mənim bir dediyim iki olmamışdır. Manasa yaltaqlamb at bağışlayırsan, dəbdəbəylə qarşılayırsan, bizə isə hədiyyə verəcək atın yox. Adətin bu idimi sənin? Maanikeri hədiyyə verəcəksən? Yasında Maanikerə minəcəyəm, əgər atı vermə-

sən dərindən qayış düzəldəcəyəm! Ehsanma fəlakət qatıb haram edəcəyəm-deyən Konqurbay bəd niyyətini açıqca ifadə elədi.

Bokmurun rəngi qaçmış bir halda Kakançinin hərbə-zorbasını məclisi aparan Koşoya çatdırdı.

Qocalıb ixtiyar dəvə kimi yorğun düşən Ər Koşoy gah elə, gah belə düşünüb axırda pəhləvanlarını, döyüşçülərini toplayaraq Manasın yanına getdi:

– Bahadır, Neskara ilə Konqurbayın niyyəti yaxşı deyil. «Maanikeri ver» deyə Bokmurunu sıxışdırırlar. Maanikeri almasaq rahat olan deyilik deyirlər. Verməsəniz xalqınızı yağmalayıb başınıza zopa endirəcəyik deyirlər. Güvəndiyiniz Manası gəbərdib əvəzində qənimət alacağıq deyə kükrəyib dururlar. Çinlilər qan tökməyi, qovğanı sevən bir millətdir, qarışqa kimi qələbəlik izdiham ehsanı camaata haram etməsin. Bir at üçün qovğaya, çəkişməyə girməyək, atı verək. Atı verib sakitlik yaradaq. Yas məclisi qovğasız ötüşsün.

Bunu eşidən Manas qəzəbləndi:

– Yazıqlar olsun sənə, əmi, ağlın harda qaldı! Səni çox ağıllı samrdım, düşüncən bura qədər idimi? Bu həqarəti niyə söylədin? Yoxsa qocalıb ağlını itirmisən? «Mən Koşoyam» demədən çəkil gözlərimdən. Canı üçün namusunu satan xan Koşoy sənmisən? Ağlı çaşmış vicdansız sənmisən? Bunu səndən başqa biri söyləsəydi, qanını tökərdim. Çin xanı Konqurbay sirrini öyrənib bu gün Maanikeri alırsa, sabah qudurub Ağqulanı almazmı? O biri gün Alquyruğu almazmı? Bu tulpar atlardan aralı düşsək tələ qurub hamımızı yox etməzmi? Bu miskin sözlərimi qulağı olmayan yer eşitsin, səs-səmirsiz məzar duysun. Maanikeri verirəm deyincə «Manas öldü» desəydin. Nə qədər ki, sağam, yaşayıram çinlilərə verəsi malım yox, Maanikeri verəsi halım yox, mərə kafirin öz atını altından alacağam! Savaşmaq istəsələr köklərini kəsəcəyəm.

Kükrəyən Manas yerində oynayan Ağqulasım minərək altun davulu çaldı. Səbirsizliklə bu anı gözləyən qırx bahadır çinlilərə hücum etdi. Yatmış çinlilər dərhal atlarına minib dağlara qaçdılar. Qaçanların dalınca düşən bahadırlar qoyuna daraşan qurd kimi saysız-hesabsız kalmık və çinlini məhv etdilər. Bahadır Manas Ağqulanı sürüb kalmıkların və çinlilərin qələbəlik qoşununu yardı.



Bahadır Manasın qabağını Coloy ilə Konqurbay kəsdi. Manas onlara bağırdı:

– Elinin koru! Ağlınızı başınıza yığın! Hörmətlə yasa dəvət etdik! Dəyərinizi bilin. Alacaq olan kalmık və çinli deyil, verəcək olan mən deyiləm. Ölmədiyinizə şükr edin! Demək istəmirdim, amma deməyə məcbur edirsiniz. Altayda ikən kalmıkların xanı Coloy, mancurların xanı Neskara, çinlilərin xanı Konqurbay, sizin dərsinizi vermişdim. Onu unutmusunuz. Yasa gəlmisənsə, farağat otur, döyüşmək istəyirsənsə sözünü de, qudurmuş cinini qovaq!

Manas Ağqulanı oynadıb hücuma keçmək istəyərkən qələbəlik arasından Bayın oğlu Baymirzə üz-gözü qan içində, pal-paltarı yırtılmış vəziyyətdə imdad istəyib ağlaya-ağlaya gəldi:

– Bahadır, Neskara deyilən div ocaqları söndürüb, hər şeyi alt-üst edib mənə işgəncə verdi. Üstümə cumub məni dəyənəklə döydü. Az qala öldürmüşdü. İstəyirsən dərdini get Manasa xəbər ver dedi:

Bu sözləri eşidən Manasın tükləri ürpəşdi. Aslan kimi qorxunc bir şəklə düşdü. Bahadır sifəti alaraq sapının içində ox yerləşirilmiş qara qamçısını Neskaranın başına vurdu.

Gözü pırtlaq, üzü girdə, çənəsi qalın Neskaranın qalpağı başından uçdu, üzü qana boyandı. Bunu görən qələbəlik çinlilər laçının hücum çəkdiyi qarğa kimi dğılıb qaçdılar.

Qəzəblənmiş Ər Manas qaçan kalmık, mancur və çinlilərin axırına çıxmağa başladı. Bahadır Manasın döyüşə atıldığını görən qırx çoro da təbii ki, baxıb dura bilməzdi. Onlar da «Manas!» deyə döyüşə birlikdə atıldılar. Ətrafı bürüyən toz-duman ərşə dirəndi.

Təpədə dayanmış hiyləgər Konqurbay qırılan adamlarını görüncə rəngi qaçdı, çox dayanmadı. Öncə atından düşərək qılqara adlı atını Manasa hədiyyə etdi.

Ər Konqurbay xan adətiylə əyilib diz çökərək Manasa təzim etdi:

– Bahadır, sözün düzünü deyək. Adət-ənənəyə hörmət qoyaq. Otuz beş gün yatıb canı sıxılan igidlər bu ziyafətdə qovğa saldılar. Günah bizdədir, bağışlayın. Atım sənə hədiyyə, başım sənə hədiyyə.

Manasın qəzəbini bilən Koşoy ilə Bakay araya girdilər. Bakay Manasm atının yüyənindən yapışaraq dedi:

– Bahadır Manas, xan diz çökərsə xan adətincə bağışlanar. İgid bağışlamağı da bacarar. Döyüşü saxla. Kökötöyün ehsanına başlayaq. Canı sıxılan xalq əziyyət çəkir.

Manas atının yüyənini geri çəkəndə davul səsi kəsildi. Dağların qara buluduna bənzəyən bahadırın kefi yerinə gəldi. Millətin atlarını qamarlamaq arzusunda olan acgöz kalmıklar və çinlilər öz atlarını da hədiyyə vermək məcburiyyətində qalıb rəzil oldular.

* * *

Məşhur bahadırların barışmağından sonra üç gün keçdi. Qarqıranda Kökötöyün göy bayrağı dalğalandı. Yenidən zurna çalındı. Coşan qız-gəlinin gülüşü, cavan oğlanların mahnısı eşidilməyə başladı. Xalq nəşələnərək bir neçə dildə mahnı oxuyan ifaçıların sözlərinə qulaq asdı.

Təlaş keçirmiş Bokmurun indi Maanikeri minərək irəli, geri sürüb yenidən cuşa gəldi. Atasının qırx oda dolusu xəzinəsinin ağzını açdı.

Iramandın Irçı oğlu məclisdə iştirak edən məşhur şairlərdən idi, bülbül kimi cəh-cəh vurdu. Bu cavan ozanlığını göstərdi.

Qarqıranın yamyaşıl düzəngahını ot kimi basan qələbəlik xalq qımıldanmadan onu dinləyirdi.

Yasa gələn qələbəlik xalq ikiyə bölündü: Kalmık, mancur, turqut, şibə, soloon, çinli, tərsa bir tərəfə, qırğız, qazax, özbək, tacik, cedigər, qıpcaq, kataqan, türk oğulları bir tərəfə ayrıldı. Altmış sıra əsgər oxun çata biləcəyi məsafəyə qədər çəkildikdən sonra oyun başladı.



Başı qalpaqlı Iramandın Irçıoğlu yanına şəyirdi Çaş Aydarı alıb qələbəlik xalqa at yarışı olacağını eşitdirdi. Əzəldən bəri at sevən qırğızlar ziyafətin mənasını cıdıra çıxmaqda-at yarışmda görürdülər. At yarışında birinci olana səksən min at, min dəvə, ayrıca yüz min qoyun mükafat təyin edilmişdi. Altmış bir ata mükafat vardı. Davul çalındı, atlar yarış xəttinə-küknar ağacının yanına sürüldü. Atları sayan adam gördü ki, yarış atlarının sayı iki minə çatıb.

Atların çox olduğunu öyrənən bahadır Manas Almambeti yanına çağırdı:

– Ərənim, igidim! Atlarm çoxluğu işi poza bilər. Yolu açmasan Ağqulanın bəxti açılmaz. At bir az ətlidir, əti ərisin. Hünərini göstər.

Almambet çadıra girib Çində öyrəndiyi hünərini göstərdi. Tərsinə baxıb, tərsinə oturub, kalmıkca bir dua oxuyub suya balaca bir daş qoydu.

Göz açıb-yumunca Qarqıranın açıq havası tutuldu, göy guruldadı, dolu tökdü, burum-burum qar yağdı, soyuq vurdu, insanlar donub, atlar titrəməyə başladı. Atlarını qoyub qaçan adamlar özlərini evlərinə atdılar. Gecə soyuqdan yarış atlarının çoxu ölmüşdü.

Hava büsbütün açıldı. Gün çıxdı. Vadilər qurudu, çöl quşları oxumağa başladı, yağışda yuyunmuş otlar mənzərə yaratdı.

Bokmurun dünənki kimi bu gün də hər at başına min heyvan mükafat verəcəyini bildirdi.

Atların sayını aparan adam daş qoyub hesablamaqla yarışa girəsi atların dünəndən bu günə min ədəd azaldığını gördü. At yarışınm hakimi, Arçatoruya minmiş Manas atları rəsmi keçidə hazırladı.

Çox keçmədən Çaş Aydar atları rəsmi keçidə gətirdi. Uzmanlar (bu işin biliciləri, mütəxəssislər-A.C.) gözləriylə yarış atlarını sezdilər. Atdan başı çıxan adamların heç birindən səs çıxmadı. Kimisi pıçı-pıçıya keçdi, kimisi heyrətlənib rəsmi keçiddəki atların haradan gəldiyini, növlərini, cinslərini, qələbəni

hansı atm qazanacağım təxmin etməyə çalışdı.

Bir-birindən gözəl yarış atları hər yandan-gündoğanla günbatanın arasından seçilərək gətirilmişdi. Sıraya düzüləndə quş kimi çevik görünürdülər.

Öncə Oronqqunun Qulabəsi rəsmi keçidə başladı. Ardınca rəsmi keçidə Manasm qasırğadan törəyən Ağqulası girdi.

Kalmıkların xanı Coloy Açbuudanı ilə gəldi.. Kalmıkların xanı Konqurbay düşündü: «Sadəlövh Manasın Ağqulasını at yarışına çıxarması çox yaxşı oldu. Atı olmayan igid avara qalar. Başqa bir ata minib çıxsa qanım tökəcəyəm».

Bunları fikirləşən Konqurbay tədbirli tərpənərək Alqaranı yarışa çıxartmadı.

Mancurlarm xanı Neskara da özünü saxlaya bilmədi, yarışı udacağam deyə coşdu. Onun arxasmda Ər-Töşdükün Çal-quyruğu, onun arxasında Muradilin Qılceyranı, Müzburçakın Telküröngü, Ər Koşoyun Çonq Sarı Atı, Ürbünün Qoş Qaratı, Kökçönün Köğalası, Ər Baxışın Surukeyigi başda olmaqla min at yarışın qeydiyyatmdan keçdi.

Ər Manas «atları sürün» deyə göstəriş verdi. Çaş Aydar Maanikerə minib yanına iki yüz pəhləvanı alaraq atları altı günlük bir yola sürdü. Manasın əmri ilə atların gələcəyi yolda onların yoldan sapmaması üçün bəyaz bayraqlı, kəskin mizraqlı altı min adam növbə çəkdi.

Sürülən atların toz-dumanı çəkiləndən sonra Bokmurun güləşə başlamağı buyurdu. Mükafat üçün min dəvə, min qısraq, bir cocuqlu Cariyə (qaravaş – A.C.) qoyuldu.

Bu xəbəri eşidən Coloy, xan olmasına baxmayaraq «mən güləşməyə çıxacağam» deyə vəhşi donuz kimi fısıldayıb ortaya çıxdı. Çinlilər gündoğana baxaraq dua etdilər.

Sarı dəridən şalvar geyən, qırxını aşmış Coloy deyilən bahadırın böyüklüyü Opol dağının yarısı boyda idi, baldırı öküzün beli boyda idi, qarşısına çıxanı yeməyə hazır idi, iki gözü beş yaşlı uşaq boyda idi, dəvəni yumruğu ilə yıxan, dünyalarca məşhur, bənzəri olmayan biriydi. Göz qapaqları gölün çuxuru



kimi dərindi. Qudurmuş it kimi oturan Coloy Altaydan Alaya, Səmərqəndə qədər olan sahədəki (ərazidəki) türk oğullarma, qırğızlara yaxşı bəlli idi, bu vəhşi onların qorxulu yuxusu idi.

Iramandın Irçı oğlu çənə çalıb qırğızların igidlərinin, bahadırlarınm adlarını söyləyərək öyüb göylərə qaldırsa da Coloyun qarşısına çıxmağa kimsə cəsarət eləmədi, xalq susdu, çəkindi və elə bil beli qırıldı.

Bahadır Manas yanındakı biləndərlərə dedi:

– Uzmanlarım, Coloya divan pəhləvanlığı barədə bildiklərimizi anladın.

Uzmanlar adətə görə əvvəl böyükləri, sonra kiçikləri bu barədə bilgiləndirdilər. Axırda belə qənaətə gəldilər ki, bu Coloya dünyada bərabər tutulacaq adam yoxdur.

Manas buna qəzəbləndi. Xalqı arasmda danışıb belə dedi:

– Ey millət, bu kükrəyən kalmıkın boynunu qıracaq namuslu bir igidin varmı?

Bu sualı verən Manas qazaxların, arqanların, noyqutların, özbəklərin, qıpçaqların, türk oğullarının üzünə baxdı. Bu boyda izdiham içindən bir pəhlivan irəli çıxmadı.

Manas özünün güvəndiyi, dəmiri çubuq kimi qıran pəhləvanlarının adlarını çəkib məclisi idarə edən Koşoyu onlarla danışmağa yolladı. Koşoy əmi boz yorğa atına minib Ər Çegişə, Abdırahmana, Ər Töşdigə, Kökqoyana, Akbaya, Muzburçaka yaxınlaşdı, yerdəki daşları torpaq kimi parçalayan on yeddi igidə «güləşə çıxmırsınızmı, Coloyu yıxmaq istəmirsinizmi?» deyə sual etdi. Hər biri susaraq bu pəhləvanla güləşməkdən qorxdu. Bəyzadələrin kefi pozuldu.

Ər Koşoy Manasın yanına qəzəbli bir şəkildə gəldi.

«Ey, Manas, bu hərifə qarşı Qara Qırğızdan bir kişi çıxmadı», – dedi Ər Koşoy içini çəkərək; «qoca dəvə kimi yaşa dolsam da bu kafirlə mən çıxım, ya da aslan kimi igid olan sən çıx». Bunu eşidən Ər Manas duruxub qaldı. Tərəddüd içində dedi:

– Koşoy əmi, bu kafirdən qaçsam məni Tanrı lənətləməzmi? At üstündə olarkən öldürmək üçün yaranmış ox kimi, miz-

raq kimiydim, amma atsız yaxşı deyiləm, əmi. Güləşə çıxmağı əlbəttə ki, istərdim. Əgər kimsə çıxmasa namus üçün soyunub güləşə də çıxacağam.

Manasın sözlərini dinləyən Koşoy əmi kədərlənib dərindən bir ah çəkdi:

– Niyə igidlərə sözüm keçmədi. Neyçün yurdumda pəhləvan doğulmadı? Ey qara gün, yoxsa diz çökmək məqamı gəldi? Neyçün Tanrı məni qocaldıb aparmadı? Niyə xalqımı kölə etmədi?

Koşoyun sözlərini diqqətlə dinləyən Manas düşünüb-daşınıb, cəsarətlənərək əmisinə belə dedi:

– Əmi, bu müdhiş Coloya yaxın durası bir adam yox imiş. Güləşə çıxmadan mükafat verməkdənsə, başqalarına yalvarmaqdansa, qoca olsan da bu işi sən görə bilərsən. Coloyla güləş, əmi, bizə şərəf gətir, əmi. Güləşmək istəmirsənsə, bəri başdan ver mükafatını aparsın, əmi!

Koşoy dilləndi!

– Eyvah, dünyanın işinə bax, Kökötöyün yasında, qələbəlik qırğızın yanında bu mənə deyiləsi sözlər deyildi, səndən eşidəcəyim söz deyildi, Manasım, sənin bir sözünü iki eləməmişəm, belə gücdən düşdüyüm bir vaxtda məni sıxışdırdm. Bu lənətə gəlmiş mənə indiki kimi səksən beş yaşımda deyil, tam qüvvətimdə olduğum zamanda rast gələydi kaş, Coloy kimi neçəsinin hesabını vermişəm, qüvvətli olsaydım bu axmağı çoxdan yerə sərərdim. Bahadırım, qəlbini qırmadan, xalqımı utandırmadan yaşlı olsam da çəkinmədən güləşəcəyəm, ölməyən kim var ki? Canım Manasım, deyiləsi sözüm var: qadınım fərasətsizin biridir, zəif keçi dərisindən mənə bir şalvar tikib geyindirib. O, Coloyun əlində sökülsə camaatın qabağında biabır olaram. İgidlərini çağırıb mənə uyğun gələcək dəri şalvar tap.

Bahadır Manas yuxarı çıxıb güləşməyə hazırlaşan pəhləvanların hansında dəri şalvar olduğunu soruşdu. Bahadırlarm heç birinin şalvarı xan Koşaya uyğun gəlmədi.

İgidlər utandığından səs-səmirsiz dayanarkən Bahadır Manas Kanıkeyin döyüş üçün hazırladığı şalvarı xatırlayıb, yəhərin üstündəki döşəyin altından paçası naxışlı şalvarı gətirdi.

Qorxunc görkəmli div Koşoy sağ budunu şalvara soxdu, amma baldırı sığışmadı. Bu məqamda Manas gəldi. Şalvarı dar tikən Kanıkeyə əsəbləşdi.

Geyindiyi budunu geri çəkmədi div Koşoy. Şalvarı çəkənlərin biri Arqın xanımın oğlu Acıbay idi, o, Kanıkeyin bacarığını bilirdi. Odur ki, dedi:

– Koşoy əmi, bu şalvarı Kanıkey üç yüz təkə kəsdirib, dərilərini güngörməz yerdə, sandıqda saxlayıb, ustalara doqquz gün dişləri ilə cila verdirib, bükdürüb poladla birlikdə qaynadıb, düz yeddi ilə hazırlamışdır. Bu şalvar nə ox keçirir, nə odda yanır. Şalvarın sirrini mən bilirəm. Manas üçün bir yerini saxlamışdır.

Acıbay Manasın əlindəki şalvarı aldıqdan sonra iki igid çəkməyə başladılar. Şalvarm yan tərəfindən bitişdirilən altı qarış büzməni sökdülər.

İndi şalvar div Koşoyun əyninə gəlmiş və çox yaraşmışdı. Şalvarın əyninə yaxşı gəldiyini görən Koşoy Kanıkeyi çağırtdırıb bütün xalqın önündə ona dua etdi:

– Tanrım, dilimdə bir müqəddəslik var. İndiyə kimi söylədiklərimin hamısı hasilinə yetib, diləyimi qəbul et, bu gözəllər-gözəli gəlinimin girdiyi ev bərəkətli olsun! Qüdrətinlə yaranmış bu övliya kimi qız övlad dərdi ilə sənə yalvarıb iztirab çəkib, onun səsini eşit, dərdinə çarə qıl. Bu gəlinim uşaq doğsun. Oğlu olsun. Oğul düşmənlərini dəmir kimi büksün. Dostum Manasa çəksin, atası kimi aslan olsun. Dağ keçidlərində yanan ocaq olsun. Hər işi yaxşı getsin.

Bütün xalq uğuldayıb Koşoyla bərabər dua oxudu.

Katağan xanı Koşoy sanki özü üçün tikilmiş şalvarı geyib ayaqqabılarını, qalpağını çıxartdı. Qocalıqdan əziyyət çəkən Ər Koşoy çəmənliyə üzüqoylu uzanaraq belinə on altı igidi çıxarıb kürəyini ovdurdu. Gözləri açılıb rahatlanan ixtiyarın beli buğa beli kimi oldu. Saqqalını sığallayıb bəyaz aslan kimi güləş meydanına atıldı.

Qırğızlar pəhləvan Koşoya ruh verdilər:

– Yaşa, Koşoy! Var ol, Koşoy!

– Tanrı yardımçın olsun, Koşoy!

Ev boyda görünən, qan qoxuyan Ər Coloy kükrəyib «bu qoca qırğızın başını üzəcəyəm» deyərək dağ parçası kimi irəli atıldı. İki div bir-birini qarşılayıb güləşməyə başladılar.

Bir neçə dəfə güləşə çıxmış ixtiyar Koşoy əmi belə dedi:

– Ey köpək Coloy, ər güləşinin qaydası var. Sıranı gözlə.

Yekəpər Colory qocaman Koşoyun biləklərindən yapışdı. Güləş üçün doğulmuş çevik Koşoy dərhal biləklərini onun əllərindən çıxartdı. Amma biləyinin dərisi qocalıqdan yana kalmık divi Coloyun əlinə yapışıb qaldı. Ər Koşoy bir anda qeyrətə gəldi, qızaran biləyinə baxmadan Coloyun qabırğasının ətindən ayaq boyda bir yeri tutub çəkdi.

Tanrı göstərməsin, dünyanın iki divi qana boyandı. Bir-birlərinə qoç kimi şığıdılar. Tutduqlarını qopartdılar, ağızlarından alov püskürdülər, gözlərindən atəş saçdılar, paçalarından yapışıb bir-birilərinə dirəndilər, sinə-sinəyə tutaşdılar. Amma bir-birilərini yıxa bilmədilər. İki pəhləvanın güləşindən Qarqıranın çöllüyü ocaq yeri kimi qazıldı, tozu ərşə çatdı, yer alt-üst oldu, buna bütün xalq heyran qaldı. İki div altı gün güləşmələrinə baxmayaraq bir-birilərini yıxa bilmədilər, bir-birilərinin öhdəsindən gələ bilmədilər.

Yeddinci gün əyilənə yaxın kürəyini Coloya çevirib rahatlanan ər Koşoy yuxuya getdi. Kafir Coloy «İndi bu bədxah qırğız öləcək, qiyamət üzünü görəcək» deyə ər Koşoyu alaçıq boyda bir daşa vurmaq üçün qaldırdı.

Qaplan Manas bu əsnadı qara saplı qamçısını əlinə alıb Koşoyun üstünə çaldı. Yuxuya getmiş Koşoy diksinib gözlərini fal daşı kimi açdı və Coloyun əlindən sıçrayaraq yerə endi.

Güləşə öyrəncəli div Koşoy sağ budu ilə Coloya badalaq vurub yerə yıxdı. Ər Koşoy Kalmıkın başından adlayıb keçdi. Qırğızlar sevinclərindən onları xilas edən Koşoyun adını çığır-bağırla vurğuladılar. Ər Koşoya xalqdan öncə ox kimi yetişən qırx çoro onu əllərinin üstündə qaldırdılar.



Daşa tapınan kalmıklar yenildikləri üçün utandılar. «Bu qırğızların yasa dəvət edib bizi incitmələrinin mənası nədir? Pəhləvanın başını ayaqlayıb keçmək hansı adətdə var, bunun mənası nədir?» deyə düşündülər.

Hər halda çinlilər, mancurlar, kalmıklar tanrının lənətinə gəldilər. Davul çalındı, əsgərlər savaşa hazırlaşdı. Bu zaman qaplan Manas aslan kimi kükrəyərək sarı altundan tikilmiş əlbisəsini geyindi. Sarı sifətli atını dəhmərləyərək belə dedi:

– Ey qara kalmıklar, çin millətinin xanları, ağlınızı başınıza yığmadınızmı? «Yenilən pəhləvanın başmdan adladın» deyə söyüb sulamayın! Bu pəhləvanın öz işidi. Adam yerinə qoyub yasa dəvət etdik sizi. Bədxah çinlilər, cavabınızı verin. Savaşla əylənmək istəyirsinizsə biz hazır!

Manası Bakay sakitləşdirdi. Manasm hiddətini görən çinli, kalmık, mancur xanları atlarmdan enib bir yerə toplaşdılar.

Kalmık, çinli və mancurlar sakitcə Kökötöyün yas mərasiminə davam etdilər. Ara sakitləşən kimi ər Koşoy başına altun tacını qoydu, Coloyu məğlub edib qazandığı mükafatı qərib və zavallılara payladı.

Pəhləvanların güləşi davam etdi. İki tərəfin pəhləvanları bir ildir ki, hazırlaşırdılar. Çinlilərin dağ əzəmətli Tukubay adlı pəhləvanı Ər Ağış adlı pəhləvanla güləşdi. İki gün güləşəndən sonra çinli məğlub oldu. Ər Ağış mükafatı almayıb xalqa payladı. Özü isə qız-gəlinlərin düzənlədiyi əyləncəyə tələsdi.

Cıdır atları hələ gəlməmişdi. Atlar gələnə kimi camaat darıxmasın deyə Iramandın Irçıoğlu növbəti mizraq yarışını elan etdi. İgidləri ortaya çağırdı. Bokmurun mizraq yarışı üçün yüz savaş atı, ayrıca doqquz yüz at mükafat qoydu.

Mizraq yarışına iki tərəfdən yarışacaq kimsə çıxmadı. Çinlilər güləşdə yenildikdən sonra qırğızların pəhləvanlarına üstün gələ biləcək bahadırlarını axtarmağa başladılar.

Xalqın intizarını duyan çin xanı Konqurbay yerində dayana bilməyib çin qaydası ilə zirehli paltar geyinib göy mizrağını əlinə aldı, qılıncını belinə bağladı. Al-qara atına minib meydana çıxdı.

Pekindən gələn bu pəhləvan bu il iyirmi beş yaşında idi, geniş sinəli, boz sifət idi. Qaşları köpək qaşı, burnu dağ burnu, bığları balta sapı kimi idi. O sönük gözlərini Manasa dikdi.

Konqurbayın təhər-tövrünü görən Bahadır Koşoy Bahadır Manasa:

– Bahadır, bu lənətə gəlmişlə kim çıxacaq. Ər Manas cavab vermədən Konqurbayı süzdü.

Bahadır Manas alnı yastı, iri burunlu, çift kiprikli, çatıq qaşlı, qalın dodaqlı, çuxur gözlü, aslan boyunlu, yoğun biləkli, gen sinəli, qaplan kimi qorxunc bir igid idi. Gözlərindən alov saçaraq Konqurbaya ürpədici baxışlarla baxdı.

Ər Manas dodaqlarını çeynəyib bu vaxta qədər yarışa qatılmadığına qeyzləndi:

– Mənim ürəyimə bax, mükafat almamaq nə demək, qalib gəlməmək nə demək, baxa-baxa qalmaq nə demək. Bu mizraq yarışına da çıxmasam tfu! Koşoy əmi, əllərini açıb dua et, bu kükrəyən həriflə qarşı-qarşıya gələcəyəm, mənə at hazırla.

Bu sözləri deyən Manas döyüş silahlarını qurşamağa başladı. Həmin vaxt Manasın qadını-gözəllər gözəli Kamkey altun bər-bəzəklərini cingildədə-cingildədə, yavaş addımlarla, bəyaz məmələrini yellədə-yellədə məğrur qaplanı üçün altı ilini sərf edib düzəltdiyi Akolpoku gətirdi:

– Bəyim, bu sizə yaraşır, Akolpoku mizraq yarışında geyin...

Qaplan Manas ürəkdən güldü. Kanıkeydən çox razı qaldı. Onun alnından öpdü və yaxası altından ox işləməyən, mizraq ucu dələ bilməyən, içi poladdan tökülmüş Akolpoku geyindi. Kanıkey Akolpoku doqquz yerindən düymələdi, çölünə göydən enmiş boz bıçaq qını taxdı. «Bahadır, Umay Ana köməyin olsun! Tanrım sənə güc versin!» deyə dua elədi.

Təcrübəli Koşoy atları bir-bir yoxlayıb Manasın yarışda minə biləcəyi at olaraq qazax Alımsarıkın qara alınlı atını bəyəndi və ona Ağqulanın yəhərini qoydu.

Aslan Manası başına bəyaz örtük bağlamış Bakay ilə Ər Töşdük müşayiət edərək meydana çıxartdılar.



Tanrının kömək etdiyi Manasa iki tərəfindən qara başlı qaplan ilə göy tüklü aslan yardım etdilər. Qara, göy yalmanlı ata minən bahadırın önündən baxanda min igidin əzəməti, arxasından baxanda əjdahanın heybəti vardı.

İki bahadır meydana girərkən bir-birini görüb atlarını qamçıladılar.

İki igid mizraqlarını sıyırıb bir-birlərini nişan alaraq vurdular. Mizrağlar bir-birinə dəyincə atlar qıçları üstündə oturdular. Bahadırlar qırılan mizraqlarını tullayıb bir-birlərinə cumdular, indi gürzlə döyüşməyə başladılar. Sonra qılınca keçdilər, baltaya əl atdılar. İki bahadırın döyüşündən od-alov çıxırdı. Axırda əllərindəki silahların hamısı qırıldı. Nəhayət, at üzərində əlbəyaxa döyüşməyə başladılar.

Yarış hakimləri iki igidi ayırıb atlarını yedəyə alaraq bir-birlərindən uzaqlaşdırdılar, sonra təkrar əllərinə mizraq verərək döyüşə buraxdılar.

Ər Konqurbay altındakı Alqara atını dəhmərləyərək hiddətlə bağırıb yenidən hücuma keçdi.

Ölüm nədir bilməyən Aslan Manas hirslənib tazı sifətli atını çapdı. Dağ kimi yeri devirib arxasında toz-duman buraxaraq düşmənin mizrağını hədəf aldı.

Konqurbayın vurduğu mizraqla Ər Manasın qılçı yerindən oynadı, ayağı üzəngidən çıxdı, çətin vəziyyətdən birtəhər özünü qurtara bildi. Mizraq vurmaqda çevik olan Ər Manas yanından keçərək Konqurbayın boynunun arxasına mizraqla vurdu.

Konqurbay atından çevrildi. Torpağa sərildi. Bahadır Manas Konqurbayın Alqara atını yedəyinə aldı. Bahadır Manas qazandığı mükafatı qəriblərə və zavallılara payladı.

* * *

Gecənin bir aləmi Ər Koşoy yastığına təzəcə baş qoyurdu ki, yanına on üç xan gəldi.

«Xoş gəldiniz, xanlar!» deyə Ər Koşoy onları otaqdakı yumşaq döşəklərin üstündə oturtdu, könüllərini aldı, sözlərini dinlədi. Xanlar paltarlarını soyunmadılar, quş tükündən düzəl-

dilmiş yastığa dirsəklənmədildər, qanıqara olduqları bəlliydi.

Buudayıkın oğlu Muzburçaq sözə başladı:

– Koşoy əmi! Sizə ərz olunası şikayətimiz var. Qırğız, qazax, qıbçaq, noyqut, türk oğullarına, soydaş ata xanlara hakim olan, bayraq tutan adamsınız. Haqq sözünüzü, adilliynizi, tükü düz ortadan bölə bilən yarqıc olduğunuzu bilirik. Ona görə də Manasdan inciyən xanlar kimi sizə üz tutduq. Özünə desək sözümüzü eşitməz, bizi gəbərdər.

– Əlbəttə, söyləyin, nədir dinləyək-dedi Koşoy xanlara üzünü tutub.

– Manas xanlığa keçən kimi dəyişdi, qonşu xanların sözünü eşitmədi, – dedi Muzburçaq.

– Bahadır Kökötöyün yasında öz bildiyini etməkdədir. Bizə məhəl qoymur, – dedi Ər Töşdük.

– Hər xanlıqda mizraq yarışına, güləşə çıxası bahadırlar var. Xan olduğunu unudub özü meydana çıxır. Onu başa salan bir adam da yoxdur. Xanlıq adəti, ləyaqəti itib gedir, – dedi Əndincanlı Sancıbəy.

– Nə zaman ayrıldıq ki, qardaş xanların başçısı olduğu halda Manas bir ögey övlad münasibəti bəsləyir. Bizi küsdürür. Kökötöyün yasında bahadır Ürbünü hirsləndirdi. Günahı olmadan Manas onu qamçıladı. Əgər Manas bu lovğalığı, hirsi, hikkəni buraxmazsa biz ondan ayrılıb başqa xanlara birləşəcəyik – dedi Ər Kökçö.

– Manası önümüzdə pul cəzası ilə cəzalandırın. Biz təkid etsək Manas buna məcbur olacaq – dedi Muzburçaq.

Bu xanların bədxahlığını hiss edən, onların təmənnalı danışdığını duyan Koşoy düşünüb – daşınıb belə dedi:

– Hər sözü söyləməyin yeri var, əziz xanlarım. Kökötöyün yasında kalmık, çinli və mancurlar dava salmağa bəhanə gəzirkən sizin birliyimizi pozmağa haqqınız yoxdur. Düşməni görmürsünüzmü? Laylamız bir, suyumuz bir, dilimiz bir, qanımız bir, qardaş xalqıq. Qədimdən bəri dərdimiz-odumuz bir olub, ehtiyaclarımızı bir ödəmişik, səhvlərimizi bir-birimizə bağışlamışıq. Hiyləgər və güclü düşmənə qucaq açmayaq, sirr verməyək. Manas haqlıdır deyə tərəfkeşlik etmirəm. Onun da qüsurları var. Belə böyük bir sınaqda, namus güləşində bir igidə, bahadıra itaət etməyimiz vacibdir. Mərasim bitsin, əzəli düşmənlərimiz olan kalmık, çinli, mancur və tırqotlar gözəlcə getsinlər. Özümüz baş-başa qaldıqda qardaş xalqlar olaraq toplaşarıq. Yas məclisi bitəndə Manası önünüzə gətirəcəyəm. Onda dərdimizi, sözümüzü, şikayətimizi söyləyərik.

Muzburçaq dedi:

– Elə bir anda Manas sözümüzü eşitməz. Bizə hücum çəkər. Onu belə bir izdihamlı yerdə ağıllandırmaq lazımdır.

On üç xana qəzəblənən Koşoy dedi:

– Sizi ağıllı xanlar zənn edirdim. Məndən də betər ağlınız yox imiş. Məsləhət almağa gəlmişdiniz, məsləhətimi verdim. Eşitmək istərmirsiniz özünüz bilərsiniz. Sözümə qulaq asırsınızsa, sakit durun, asmırsınızsa gedin. Manasın başının üstünü alın. Dərisini soyun. Onsuz da Manasın hiddətli vaxtıdır. Siz də bir yandan acıqlandırsanız hamınızı öldürəcəkdir.

On üç xan Koşoyun sözünü dinlədi, amma ürəklərində kinküdurət geri döndülər. Ər Koşoy bunu hiss etdi, onların təhərtövrünü görüb «qardaş qovğası bitəcəkmi?» deyə içini çəkdi, bunu Manasa bildirməyə razı olmadı.

Bu əsnada Iramandın Irçıoğlu at yarışını elan etdi. Həmin gün axşama kimi yarış oldu.

Kökötöyün oğlu Bokmurun qırğızların bütün məharətini göstərdi: kəl döyüşü (qoçların kəllə-kəlləyə vuruşması), dəvə çözmə kimi oyunları düzənlədi, pul səpələdi.

Cıdır atlarının gələcəyi vaxta yaxın xalq yollara baxmaq üçün bir-birləriylə yarışaraq atlarına minib hərəkət etdilər.

Manas çinlilər ilə kalmıklardan ehtiyatlanaraq qırx çorosu ilə atların gələcəyi yolu kəsdi. Konqurbay da igidləriylə yola çıxmışdı.

Manas Topurçaq atı uzaqdan tanıdı. Ağqula isə iki atın sonunda idi, yetişmək üzrə idi.

Bu yerdə Konqurbay atını qamçılayaraq igidləriylə Ağqulanın qabağını kəsdi. Bunu görən Manas hayqırıb ucuna qurşun taxılan qamçısıyla Ağqulanın qabağını kəsən Konqurbayın kürəyinə vurdu. Konqurbay müvazinətini itirib atının yalmanından yapışdı.

– At yarışmı pozmaq istəyənə bu da azdır-dedi içində Konqurbaya kin bəsləyən Almambet.

Bunu görən Coloy ona mane oldu. Div Coloy üstünə gəlməkdə olan qırx çorodan qorxub yarış atlarına qoşularaq kalmıkların yanına qayıtdı.

Aman Tanrım, atları bu yarışda birinci dərəcəli mükafatı alan qırğızlar bayraqlarını göylərdə dalğalandırıb qışqırdılar, dağları titrədən səslə bağırdılar, qalpaqlarını havaya atıb bir-birlərini təbrik etdilər, at sahiblərindən hədiyyələr istədilər. «Şərəfimizi göstərdik» deyə gənci, qocası-hamısı sevincindən qanad açdılar.

Sakitləşən Koşoy və Manas altmış atın qazandığı mükafatı paylaşdırıb düşərgəyə gec qayıtdılar.

Manas düşərgəsinə döndükdə Qarqıranın bərəkəti qaçmış, Kökötöyün bayrağı endirilmişdi. Qadınlar çığır-bağır salır, uşaqlar ağlayır, heyvanlar ürkmüş vəziyyətdə mələşirdilər.

Bahadır Manas çox sarsıldı. Yay kimi sıxılıb, ox kimi dartındı.

– Ey sevimli əmi! Qohum, qonşu, dost olaq dedik, adam bilib yasa çağırdıq, bu kakançinin əməlinə bax!-dedi Manas Ər Koşoya yaxınlaşaraq.

– Axırda düşmənçiliyini elədi-dedi Koşoy içini çəkərək, – bu köpəklərin cəzasını verib görəcəklərini göstərməliyik.

Manasın önündə qırx çorosu öz əsgərləri ilə düzləndi.

İzdihamın qabağında qəzəblənmiş Manas çox sərt bir şəkildə bəyan etdi:

– Dünən qırğızların evində oturub kef eləyən, qızıl-altunlarını, heyvanlarını, dəvələrini hədiyyə alan bu gün isə heyvanlarını sürüb, qadınlarını incidib, uşaqlarım çılpaq qoyub getdilər.



Belə düşmən bizə haqq edir. Axırda it Konqurbay, it Coly, it Neskara istədiyini elədi. Yarım günə ordu hazır olsun. Düşməni öz yurduna qədər qovacağıq. Çatsam kişilərini məhv edəcəyəm, şəhərlərini yerlə-yeksan edəcəyəm.

Əli bayraqlı təqibçilər qaçıb aradan çıxan kalmık və çinlilərin arxasınca düşdülər. Bahadır Manasın ordusu gecəli-gündüzlü yeddi gün yol gəlib, «İndi qırğızlardan qurtulduq, aulunu yağmalayıb, mükafatına əl atdıq» deyə rahatlanıb qənimətlərini bölüşdürən düşmənin başı üstünü aldı.

Həyatda hər şeyin bir əvəzi vardır. Bahadır Manas düşməni hər tərəfdən qara bulud kimi mühasirəyə aldı. Yatmış kalmık və çinlilərin çoxu qırğızların mizraqlarınm ucuyla, iti qılınclarının tiyəsi ilə, fırlanan oxuyla cəzalarını alıb həlak oldular. Atlarına minərək qaçanlar əcəldən qurtuldular. Konqurbay bu səfərki qarşılşmada Bokmurundan mizraq yeyincə, bir təhər canını qurtara bildi.

Çinli və kalmıkların ölümdən qurtulan əsgərləri yenidən bir yerə yığışıb cəsarətlənsələr də qırğızların qasırğa kimi gələn ordusunun qarşısında duruş gətirə bilmədilər.

Qırx çoronun öz əsgərləri ilə Coloyun auluna fəlakət yağdıracağından qorxan Manas davul çaldırdı:

– Ərənlər! Kalmık və çin xalqına toxunmayın! Heyvanlarına, qadm və uşaqlarına, sakinlərinə dəyməyin. Malını-mülkünü yağmalamayın. Onlarm günahı yoxdur. Bircəsi gəlib mənə şikayət etsə günahkarın başını bədənindən ayıracağam.

Onların əvəzinə qan içən qatilləri öldürün, öləsi onlardır.

Bahadır Manas Aç-albars qılıncıyla Coloyun başını kəsmək istəyərkən ər Koşoy özünü yetirib onun əlini tutdu:

– Bu haramzadanın qanına xan qılıncını bulaşdırma! Mənə hədiyyən olsun, bahadır, – dedi.

Ər Koşoyun qəlbini qırmayan bahadır Manas Aç-albars qılıncıyla yerə döşənmiş Coloyun xanlıq damğası taxılan polad əlbisəsini parçaladıqdan sonra qılıncını qınına qoydu.



Katağan xanı Koşoyun iqamətgahı. Bu məşhur yer xan yolu kimi tanınırdı. Xan Koşoyun qurdurduğu uca qalalı bu şəhər Kaşqar, Səmərqənd, İstanbul, Misir, Altışəhər və Qaraşəhər arasında dolaşan tacirlərin, yolçuların və karvanlarvn qovuşaq yeriydi.

İlk baharda heyvanlar təzə ot ilə doyarkən, Koşoy otlaqda yatarkən altı xan xəbər vermədən «qardaş oğlunun böyüyü Ər Töşdükün ziyarətinə gedəcəyik» deyə gəldi.

On üç xan Kökötöyün yasında Manasa qarşı çıxanda Koşoy onları sözlə başa salmışdı. Yeddi xan Koşoyun sözünü dinləyərək toxunmamağa söz vermişdi. Xan Koşoy altı xanın bu öyüd-nəsihətini qəbul etmədiyini hiss etsə də böyüklüyünü göstərib onları çadıra dəvət etmiş, qısraq kəsib, kımız şərabıyla qarşılamışdı.

Yurda qayıdanda həmin altı xan bir yerə yığışıb Kökötöyün yasında Manas haqqında ortaya qoyduqları şikayəti təkrar dilə gətirincə Ər Koşoy hiddətini boğa bilmədi:

– Ey ağıllı xanlarım, söz eşidin, əzizlərim. Mənim kimi ağ saqqallı qocanı üzməyin, incitməyin. Kökötöyün yasında sancmışdınız. Dedikləriniz elə bilirdim orada qaldı. Məni dinləmək istəmirsinizsə, elə igidsinizsə, Manası öldürün görək! Gücünüzü, qüvvətinizi bilirsinizsə, sakit olun, Manasa toxunmayın! Əgər o bilsə cəzanızı verər!



Altı xan sübh çağı Ər Töşdükün ziyafətinə getmək üçün yola çıxdı. Yer altından çıxması münasibətilə böyük bir ziyafət verən, özünü Manasdan əskik bilməyən qıbçaq xanı Ər Töşdük Kəpəz Dağdakı Sarı-Göl vadisinə yiyələnmişdi.

Eyni atanın oğulları olan altı xan, yəqin qazaxlardan Ər Kökçö, Tazın oğlu Ürbü, Buudayıkın oğlu Muzburçaq, Əndicanlı Sancıbəy, Eştekin oğlu Camqırçı ziyafət verən Ər Töşdükün bəyaz çadırına gəldilər.

Bahadıra kin bəsləyən altı xan tuluqdan bal, kımız içib yeddi gün yataraq necə bir qovğa salıb Manasdan öc alacaqlarını düşündülər. Xanlar gəvəzə Ürbünün söylədiyini ağlabatan hesab edib ona inandılar. Ürbü dedi:

– O məşhur Manası güləşib yıxmağa gücümüz yoxdur. Bunun əvəzinə sadəlövh Manasa deməliyik: qırğız qırğız olandan bəri Kakançindən nə vaxta qədər qorxub qaçacaq? Böyük bir savaş zamanı gəlib. Bahadırsansa, irəli çıx, qorxaqsansa qorx.

Bu sözləri birlikdə söyləyib onu qızışdıraq. Vəzir-vəkilini eşitməyən Manas döyüşə başlasa başını salamat qurtara bilməyəcək, əsgərləri dağılacaq, mal təzi kimi çox olan çinlilər ona məğlub olmayacaq. Kalmıklar da bu işin içində olacaq. Bax, onda böyükcəlik edən Manasla haqq-hesab çəkərik...

Eştekin oğlu Camqırçı dedi:

– Bir xeyli əsgərlə Manasın auluna qəfildən girək, onu qorxudaq, qonaq qarşılamaqla bezdirək, yeməklərindən doyunca yeyək, birlikdə hücum edib göz dağı verək. Ağalıq eləyən o məşhur ərənlə döyüşsə döyüşək, dursa duraq. Bizim kim olduğumuzu bilsin, özümüzü bir göstərək. Beləcə qisasımızı alaq.

Altı xan ağ boz qısrağı qurban kəsib, biləklərindən qan çıxarıb əllərini qana batıraraq «qaçanın qanı tökülsün» deyə bir ağızdan bağırdılar. «Vədindən sapanı göy lənətləsin» dedilər.

Altı xan sözdə usta bir igidi seçib məktub yazdırdılar. Möhürlərini basıb məktubu əlinə verərək qulağına pıçıldadılar:

– Manasın iqamətgahına girin. Manas tək olsa salam verin. Evinə qamçı çalaraq girin. Bağıra-bağıra danışın. Bir şey söyləsə acıqlandırın! Arxanızda biz varıq, qorxmayın!

Qudurmuş altı xanın altı elçisi atlarını sürüb, yeddi gün yol gəlib Manasın Talasdakı düşərgəsinə yetişdi.

Xan sarayı qapısı altundan düzəldilmiş uca bir qala idi.

Altun taxtda oturan xan Manasın sağ yanında otuz iki xan, sol yanında qırx bahadır vardı. Bahadır Manasın iqamətgahı Albars qılınclı altı min əsgər tərəfindən qorunurdu. Ayrıca qapı keşikçiləri vardı. Bu qalaya quş da səkə bilməzdi. Əsgərlərin heybətini, soyuq üzünü görən adam ağlını itirərdi.

Altı xanın elçiləri bahadır Manası sərkərdə kimi savaşda görmüşdülər. Qalaya gələndə bahadırdan çəkindilər. «Manas başımıza oyun açar» deyə qorxdular.

Qapı keşikçilərinin başçısı Sooronçu bunların elçi olduğunu öyrəndikdən sonra Xan Manasa əyilərək söylədi:

– Uca xanımız, altun qalaya uzaqdan altı elçi gəlib. «Xana deyiləsi sözümüz, veriləsi məktubumuz var» deyirlər. Haradan gəldiklərini söyləmədilər. Mindikləri ata baxanda Kaşqardan gələnə oxşayırdılar.

Bahadır Manas bığlarını eşərək güldü:

– Ey Sooronçu, onların məqsədini karvançılar çoxdan öyrəniblər. Özlərini qüvvətli sanan altı xan öz aralarında danışıb xan iqamətgahına basqın etmək niyyətindədirlər. O xanların elçiləri düşmənçilik üçün gələn elçilərdir. Qoy gəlsinlər. Bu onların axırıncı elçiliyi olacaq! Burada gördüklərini ömür boyu unutmayacaqlar.

Xan sarayının davulu çalındı. Manasın on iki min əsgəri iki sıra düzlənərək ortadan yol qoydu.

Qapı açıldı, ordubaşı elçiləri həmin yol ilə saraya apardı! Cəsur görünən elçilər fağırlaşdılar.

Altı ərən altı elçini arxasına salıb xanın əyləşdiyi otağa gətirdi, baş əyib təzim etdi və elçilərə də anlatdı ki, «xan hüzuruna varırkən baş əyib salam vermək lazımdır».

Əsib-çaşan altı elçinin nəfəsi kəsildi, dili topuq çaldı, ağızlarındakı sözlər uçub getdi.

Sırayla oturmuş bahadırları görüncə ağlını itirən elçilər dizlərinə qədər əyilib ədəb-ərkanla salam verdi.

Oturanlardan təkcə Bakay onların salamını aldı. Şirin dilli, ağıllı, bir neçə dil bilən Acıbay danışdı:

– Ey igidlər, çəkinməyin, sıxılmayın! Siz kimsiniz? Haradan gəlirsiniz?

Elçilər danışmadan əllərini ciblərinə soxub xanlarının verdiyi kağızı çıxararaq arslan Manasa yönəltdilər. Bir müddət kağızı alan tapılmadı. Elçilər əyilmiş vəziyyətdə sakitcə durdular. Bir az keçmiş altun kəmərli bahadır Sırqak yerindən qalxıb məktubu alaraq bahadır Manasa ötürdü.

Qüdrətli xan Manas məktubu oxuduqdan sonra bığaltı gülümsədi:

– Koşoy əmi, mənim dediyim kimi oldu. Ağlıma gələnlər doğru çıxdı. Axırda qohumlarımın sirri açıldı. Bu da onların etibarı, məktubu toxunaqlı yazıblar. Göydə gəzdiyimi yerdə tapdım.

Manas davul çaldırdı. Üzünü ağsaqqallara tutub dilləndi:

– Əziz Koşoy, istəkli Bakay əmilərim. Kökötöyün yasından bir il keçdi. Xalqıma ziyafət vermək istəyirəm, nə deyirsiniz?

Ər Koşoy ilə müdrik Bakay bir-birlərinə baxdılar. Arvadı oğlanmı doğdu, yoxsa kalmıklardan atmı alındı, ya da atası öldümü ki, ziyafət versin?

Bahadır Manasın bunu nə üçün etdiyi sirr idi.

Manas əmr etdi:

– Bütün xalq gəlsin. Məqsədim xalqa yetişsin!

Bahadır Manas məktub yazdırıb təcili ziyafətə gəlsinlər deyə eyni kökdən olan qohumlarının üstünə altmış igidini göndərdi.

Manas xəzinəsini açdırıb, qızıl və gümüşlərini paylayıb altı gün ərzində böyük bir ziyafət verdi. Yeddinci gün bahadır Ma-

nas altı xanın elçilərinə mərhəmət göstərdi, hər birinə altun yaxalı kaftan geydirib, at verdi.

İndi gələn elçilər şey-şüylərini qatıra yükləyib on üç gün yol gedərək Kərmə-Tağ vadisinə Ər Töşdükün ziyafətinin bitimində vardılar. Elçilər sırayla oturan böyüklərə başlarına gələnləri, Manasın qəhrəmanlığını, bəyaz iqamətgahını, qırx çoronun durumunu artırıb-əskiltmədən anlatdılar və Manasm məktubunu verdilər.

Bahadır Manas məktubunda belə yazmışdı:

– Mən-Manas xan əmr edirəm bütün xalq qırx gün ərzində sarayıma gəlsin! Döyüşmək istəyən hazırlığını görsün, bu işə yaramayan yatıb qalsın.

Bu bir hiylədir deyib heç kəs getməyə qərar verə bilmədi. Getməyək də deyə bilmədilər. Çarəsiz qaldılar. Çətin vəziyyətdə qalan xanların sifəti saraldı. Kədərlənib fikrə daldılar.

Sırayla əyləşən bahadırlarm içində Elemanın oğlu Ər Töşdük ilk olaraq sözə başladı:

– Elinin koru altı xan, dilinizmi tutuldu, sizi Tanrı lənətləsin, rahat yatan Manasa toxunub yuxudan oyatdımz. Manas indi bizi rahat buraxmayacaq, əjdahanın quyruğunu ayaqlamısınız. İndi Manası duyuq saldıq. Daha iş işdən keçib, verdiyiniz sözü tutun. Tökülməyən qan, ölməyən can yoxdur, ölümdən qaçan insan olmaz. Gəlin, deyir. İndi bizim işimiz qələbəlik xalqla, on minlərcə əsgərlə bu lənətə gəlmişin üstünə getməyimizdir. Uduzsaq da, udsaq da təvəkküllə iş görək, ya da birlikdə ölək. Bir-birimizdən geri qalmayaq. Başqa görəcəyimiz bir iş yoxdur.

Altı xan qırx gün içində qələbəlik bir ordu qurub bahadır Manasın Xan Sarayına tərəf üz qoydu.

* * *

Bahadır Manasın xan sarayı... Göydə ayın yoxa çıxıb, ulduzların göründüyü gecə yarısından sonrakı bir vaxt idi.

Xan sarayının qülləsindəki keşikçilər ağ saraydan Manasın cübbəsini geyinib altun davulunu götürüb aslan kimi irəli atılaraq Ağqula atına minib təkbaşına çıxdığını gördülər.



Ox çatan bir məsafədəki Boz təpəyə çıxan şux qamətli xan əlindəki davula mışıl-mışıl yatan dünyanı sarsıdacaq şəkildə zərblə vurdu.

Altun davuldan gumbur-gumbur səs çıxdı.

Yuxulu bəylər döşəklərindən atıldılar, beşikdəki cocuqlar ağladılar, bağlı atlar dartınıb bahq kimi sıçradılar. Altun saray sarsıldı. «Lənət olsun, yenə dava başladı» deyə bütün millət qarışdı.

Təpədə səkən Ağqulanın yalmanı və quyruğu küləkdə bayraq kimi yellənirdi. Bahadırın ətəyi də yellənirdi. Heybəti getdikcə artır, əjdahaya çevrilirdi, sifəti tutqun hava kimi soyuq görünürdü, belə olanda hansı insan evində rahat yata bilərdi. Bakay başda olmaqla qırx çoro cəsur Manasın qarşısında dərhal toplandı.

Başlarını qaldırıb «Bahadır nə olub» deyə soruşmağa cəsarət etmədən gözlədilər.

Xan Manas ordusunu götürüb Doğuya tərəf hərəkət etdi. Çox çəkmədi ki, qarşısında böyük bir ordu göründü. Bu, altı xanın ordusu idi. Bahadır Manas altı xanın atlanıb yola çıxdığını çoxdan öyrənmişdi.

Qarşılarmda bahadır Manası görüncə ürəkləri ağzına gələn altı xan atından düşdü, Manasa yaltaqlanmağa başladı:

– Bahadır, xeyirli sabahda çıxan günəşlə səni qarşıladıq. Günəş kimi mərhəmətinə sığınaraq dağlara qədər yüksələn bayrağını tutub gedirik. Niyyətimiz bir imiş!

– «Qardaşlar, gəlin! Biz sizi gözləyirik. Koşoy əmimin də iştirakı ilə bir toplantı düzənləyib xalqı birləşdirək, böyüyü dinləyək, yurdumuzun taleyini həll edək» demisiniz...

– Bahadır Manas, sənin sözünü dəstəkləyirik...

Altı xan başlarını əyib sükut içində durdu.

Manasın qırx çorosu altı xanın qələbəlik ordusunu evlərə paylaşdırdı. Heyvanların yaxşılarını kəsib qarın yağı ilə bişirdilər. Əsgərləri pilov və şərabla doydurdular.

Ertəsi gün bahadır Manas altun taxta əyləşib qırx çorosunu, xanları və biləndər əshabələrini toplayıb qurultay keçirdi.

Axırda dedi:

– Xanlarım, indi aulda xumarlanıb yatmaq vaxtı deyil. Siz rifah içində yaşarkən Kakançin bizə dəfələrlə hücum edib xalqı yağmalayıb gedib. Yeddi nəsildən bəri düşməndən qoruna-qoruna gəldik, zülmünü çəkdik. İndi bizim ordumuz böyüdü, silahlarımız çoxaldı. Ürəyimdə bir arzum var: atalarımızın qisasını almaq üçün Pekini yağmalayaq. Buna nə deyirsiniz? Dediyim vaxta altı xan hazırlaşıb gəlmişdir. Yolu itirmədən, əsgəri dağıtmadan Pekinə yürüşə çıxaq. Nə deyirsiniz?

Bahadır Manasın qəzəbli sifətini görən xanların heç biri «getməyəcəyik» kəlməsini işlədə bilməyib hamısı bir ağızdan dedi:

– Xan Manas, sənin bir sözün iki ola bilməz. Get desən gedərik, dur desən dururıq. Sənin kimi bahadır varkən düşməndən niyə qorxmalıyıq? Sənə Tanrı ömür versin!

Altı xan Manası ovlamaq üçün çoxlu əsgərlə gəlib aullarına dönə bilməyib orduya qatılmaq məcburiyyətində qalmaqlarına daxildə yansalar da bahadırın «yürüşə çıxacağıq» sözlərini eşidincə canlandılar.

Eştekin oğlu Camqırçı başda olmaqla altı xan qorxudan fikirlərini dəyişib belə dedi:

– Bahadır Manasa kömək edib Kakançini yerlə yeksan etməyə gəldik.

– Elə isə möhürünüzü bu kağıza basın, – deyən Manas əlindəki kağıza xanların möhürünü basdırdı.

Sonra davam etdi:

– Ey, millət! On iki xanın əsgərləri, buradasınız? Pekinə yürüş üçün mizraq işlətməkdə usta, balta işlətməkdə çevik, dönməz igidləriniz var. Qocayam, xəstəyəm, halsızam, atım zəifdir deyənlər burada qalsın. Cəza verilməyəcəkdir. İndidən qənimət deyə atla, pal-paltarla maraqlanmayın! Getmək istəməyən indidən desin. Yolda şeytana uyub sözündən dönənin başı bəla çəkəcəkdir. Beləsinin başını kəsəcəyəm.

– Bahadır, yoldan sapmış olsaq Tanrı bizə qənim olsun! Göy qübbəsi başımıza uçsun! – dedilər xanlar.



Bahadır Manas Pekinə gedəcək qələbəlik ordunu Talasa topladı. Saraydan bir az aralı yerdə gözətçi qoydu. Soydaş türk oğullarına, məşhur xanlara altı çaparla məktublar göndərdi.

Ordu səksən günə hazır oldu.

Məşq edən əsgərlər at oynadıb düşmən ilə savaşmağı, mizraqdan, ox və qılıncdan istifadə etməyi, baltayla vurmağı, xəncərli əllə yumruqlaşmağı, savaş silahını hazırlamağı öyrəndilər.

Almambetin bilmədiyi şey yoxdu. Ərənlərin başına nə gələr, nə gəlməz deyə gurultuyla axan Talas çayından piyada da, atlı da keçirdi. Almambet sudan qorxanın belinə ip bağlayıb çaya saldı. Talasın suyunu sahilə yönəldib göl düzəldərək igidlərə üzməyi öyrətdi.

Pir Davudun ilhamı ilə səksən yaşlı Döögör usta gecə-gündüz çalışıb qardaşlarına silah düzəltdi.

Bahadır Manas Altaydan gələndən sonra yerini dəyişdirərək bəslədiyi atlarını əsirgəmədən əsgərlərinə payladı. Hər bölük başına kəsmək üçün bir qısraq, hər igid başına bir yedək at verdi.

Əsgərlər savaşa çıxacaqları günün gecəsində müqəddəs dağa çıxdılar. Atalarının daşa qazılan rəsmlərini, yazılarını ziyarət etdilər. Qulun qısrağı qurban kəsdilər. Qopuz çalıb, söz ustasının şirin sözlərini, ozanların söylədiyi rəvayətləri dinləyib qədir gecəsini qarşıladılar, nəşəylə dan atdırdılar.

Sübhün gözü təzə açılırkən davul çalındı. Bu, ordu başçılarının toplanması üçün bir əmrin işarəti idi.

Bahadır Manas, ordunun önündə gedərkən uğur gətirən, düşmənə hücum çəkəndə bir orduya bərabər olan Bakayı əmr verərək yürüşə xan təyin etdi.

Vaxt yetişib, qələbəlik ordunun Böyük Pekinə yürüşü yaxınlaşanda sevimli Kanıkey yengə heç yatmadan, yorğunluğunu sezdirmədən əmisi Koşoy ilə qırx çoronu çağırdı. Önünə bal və kımızdan düzəldilmiş şərabı qoydu.

Səfərə çıxacağı günün gecəsi sevimli qadın Kanıkey bəyaz rübəndinə bürünüb kimsəyə görünmədən Xan Manasın otağına girmişdi. Gözü nəmli, həyəcanlı Kanıkeyi görən Bahadır

Manas məyus olmuşdu.

Kanıkey ona demişdi:

– Uca xanım, artıq danışıb işinə qarışdığım üçün üzr istəyirəm. Böyük yürüşə hazırlaşırkən mən biçarə öz sözümü deməliyəm. Bu yürüşə çıxma desəm də məni dinləmədin. Pekin dünyanın o başında, beş aylıq bir məsafədədir. Əhalisi çox, ərazisi böyük bir yerdir. Çinlilərə qüvvətli xalq deyirlər, oraya gedən dönməz; gedişi var, dönüşü yox, deyirlər. Əsgərlərin dağınıq və qarışıqdır. Buna baxmayaraq gedirsən. Yetimlər və dul qadınlar sarayında qaldı. Namussuz, bəd niyyətli qohumların burada qaldı. Mənim kimi inləyib, ağlayan hamilə qadının qaldı. Uca, soylu ərənim, göydə uçan quşu görsəm yəqin səndən bir xəbər gətirir deyə təsəlli tapacağam, atan danı görsəm sevgilimin gücü deyə qüvvət tapacağam.

Bahadır Manas bir az acıqlı dillənmişdi:

– Hər səfərdə sən belə həyəcanlanırsan. Qadınlığını buraxmırsan. Düşüncələrini, niyyətini düzəlt. Sənin düşündüyün yenilməz Çin Maçin deyil o. Kişi namusu üçün, atalarımızın intiqamı üçün atıldığım bu böyük yürüşdən saxlama məni, yaxşı yol dilə!

Xanın sözünü dinləyərkən ağlamağını kəsib gözlərini yaşla dolduran Kanıkey gecə Manasın yamndan uzaqlaşmışdı.

Bu gün gözü yaşlı Kanıkey yengə Xan Koşoyun ayağına döşənib diz çökərək ona yaxası altından ox işləməz, mizraq batmaz iki qatlı zireh koftanı geydirdi.

Katağan xanı Koşoy xeyir-duasını oxudu:

– Umay Ana yardımçın osun, övladım! Uşağını salamat doğasan, övladım! Oğlunu Xızır qorusun! Güləşdiyini yerə sərsin! Xızıra yarasın! Qara bənəkli qaplan yanında getsin! Alp qaraquş önündə və arxanda uçsun!

Xan xatunu Kanıkey kədərli bir vəziyyətdə «bahadırım böyük yürüşə hazırlaşır, savaş zamanı ox batmasın» deyə on iki ilə başa gətirdiyi Akolnoku ona geydirdi, altunla bəzənmiş kəməri belinə bağladı. Kanıkeyin tikdiyi Akolnok boylu-poslu, enlikürək Manasa yaraşıb bahadırlıq heybəti vermişdi.



Bu bacarıqlı Kanıkey xatunun elədiklərini görüb daş ürəyi yuxalan bahadır Manas açıq-aşkar hiss etdirməsə də qəlbində onu üzməyəcəyinə söz verib Umay Anaya əmanət etdi.

Kanıkey xəzinəni açdırıb, yaşıl rəngli heybəni gətizdirib ortaya qoydurdu. Heybəni açıb qırx çoroya qırx qalpak, qırx şalvar, qırx zirehli köynək geydirdi.

Gözəl Kanıkeyin çalışqanlığını bilin ki, o qırx çoroya yazda geyməyə bir cürə, qışda geyməyə bir cürə paltar hazırlamışdı. Ox işləməz zirehli əlbisələri qırx çoroya verdi. Xatun əlavə olaraq hər çoroya tülkü dərisindən hazırlanmış corab və ayaq sarğısı verdi. İgidlərə iki il bəs edəcək çaxmaq, bıçaq, kəmər verdi. Qovğada düşmənin ürəyinə saplasınlar deyə polad tiyəli xəncər verdi. İgidlər yorulanda, yeməkləri qurtaranda suyla çalxalayıb içsinlər deyə çoroların ərzağına qurut əlavə etdi.

Tovuz kimi səkən xatun aslan kimi çoroların hər birinə çoxdan bəri savaş üçün öyrədilmiş qırx at hazırlamışdı. Atların sağrısına qaplan dərisindən örtük örtüb bellərinə bəzəkli yəhər qoymuşdu. Onun üstünə su samuru dərisindən düzəldilmiş döşək qoyub, tərklərinə də göy davul yerləşdirmişdi. Yaxası altunla işlənmiş, düyməsinə gövhər taxılmış heybəni də yəhərin qayışına bağlamışdı.

Kırqılın başçılıq etdiyi qırx bahadır Kanıkeydən çox razı qaldı. «Qadın olmasaymış Xan Manasa bənzəyəcəkmiş» deyə ona təzim etdilər.

– Manas xan! Düşməninin üstünə get! Düşmənin ayağının altında əzilsin, əsgərin əskik olmasın! Bütün bəlalar səndən uzaqda olsun! Ataların daşlara qazılan ruhları dirilsin, sizə kömək etsin!

Bunları deyən gözü yaşlı xalq Tanrıya yalvarıb dua etdi.

Hər aul sarı başlı bəyaz qoyun qurbanı kəsdi. Ordu hərəkətə başladı. Davul çalındı.

Ayğır ata minən boy-buxunlu, şux qamətli, qolsuz kurk geyinən Koşoyun idarə etdiyi ordu qapıdan çıxdı.

Əlinə qırmızı dəsmal alan Kanıkey bahadırların yanındakı

Almambetə-Qardaş, bir bəri gəl, – dedi, qu quşu kimi səslənərək.

Bahadır Almambet atının başını xatuna tərəf çevirdi.

Zavallı Kanıkey gözləri yaşla dolu vəziyyətdə hıçqıraraq Almambetə belə dedi:

– Qardaş, uzun səfərə çıxırsınız. Neçə günə çatacaqsınız, neçə günə gələcəksiniz-ayı, ili, bilinməz. Bu müddətdə gələcək deyə yol gözləyəcəyəm. Bəyim Manası sənə tapşırıram, bahadır. Uca soylu, at güclü Manasın qüvvəti səninlədir, qardaş. Onu saxlamaq daha gecdir, yağı düşmənə üz tutdu. Biz bir də görüşə biləcəyikmi, bu Tanrının işidir. Bahadırın cocuğunu bətnimdə gəzdirirəm. Yengənin çətin günləri gəldi. Qara böcək kimi düşmən gəlirsə, başına dağ yıxılırsa, dostunu qoru, qardaş. Dostunu düşmənə tutub vermə, qardaş.

Almambet dilləndi:

– Bacı, yol qısa, söz qısa. Söz söyləyənə yol uzaqdır. Tanrım bizə kömək olsa, yolumuz uğurdan keçsə, Böyük Pekini tarümar edib bir ilə, uzağı on doqquz aya düşərgəmizə dönərik, inşallah.

Qırx çoronun başçısı Kırqıl davul çaldı. Almambet atını oynadaraq getdi.

Mizraqların ucu parıldayır, bir-birinə dəyirdi, əsgərlərin başı sallanır, bayraqlar bir-birinə ilişir, zirehlər işıq saçır, qılınclar yanır, döyüş atları kükrəyir, toz dumana qarışır, yer titrəyirdi. Ayaqlarını üzəngiyə keçirən ərənlər tərpənib hərəkət etdilər.

Ordunun başında Xan Bakay gedirdi, onun arxasında xanların idarə etdiyi əsgərlər gedirdi. Otuz bayraq götürən, üç yüz düdükçüsü, üç min zurnaçısı olan böyük ordu xan yoluna çıxdı.

Şirin sözlü və ağıllı Kanıkey incə belli qırx gəlinlə aulun civarındakı bir təpədə qu quşu kimi dürüb bayraq götürüb, tulpar atlarına minmiş igidlərin qaraltısı gözdən itənə qədər səssizcə baxdı...

* * *

Böyük ordunun başında qırx çorosu yanında əlli iki yaşlı əsilzadə Ər Manas nərə çəkərək gedirdi. Altındakı Ağqulası uzmanların uzmanı tərəfindən seçilmiş göz nuru bir heyvan idi.



Ceyran boynu kimi boynunu əyən, güllə kimi sürətlə gedən əsil döyüş atı idi. Yer üzündə onun bənzəri yoxdur, ağzına kçirilən gəmi (cilovun, yüyənin at ağzına keçirilən dəmir hissəsi-A.C.) dişləri arasında çatlayırdı. Dümdüz beli əyilir, təkə kimi irəliləyirdi. Qabaq dişləri polad kimi möhkəm idi, yanına kimsəni yaxın qoymurdu, baxışı, hərəkətləri o biri atlardan seçilirdi. Sürətinə külək çatmazdı, qaçışına ox yetişməzdi, bağırsan səsin də yetişməzdi, o belə bir heyvan idi.

Ordu üç gün, üç gecə yol gedib böyük çayın sahilinə çatanda, əsgərlər mizraqalrını yerə sancıb, bayraqlarını yerə sərib, atlarnı otlağa buraxıb keçə ev tikdilər, igidlər əsgər başına verilən bir qısrağı kəsdilər, şənlik edib yatdılar.

Ordunun sonunda gələn Almambet igidlərin belə rahat yatdığını görüb özündən çıxdı; çoroları və sərkərdələri ilə satranc (xalq oyunu, çilik-ağac kimi bir şey-A.C.) oynayan Manasa kobudluqla belə dedi:

– Bahadır Manas, varmısan? Şikayətimi dinlə. Gedəcəyin Pekin çox uzaqdır. Yığdığın olsa-olsa üç yüz min əsgərdir. Bu qədər əsgərlə qara böcək kimi (qarışqa kimi-A.C.) saysız-hesabsız əsgəri olan Çin yurdunu yağmalayacağam deyə yellənib gedirsən. Əsgərlərinin vəziyyətinə bir bax! Ovuclarını açıb «açıl, süfrəm, açıl» deyə otururlar. Adamlarının hamısı elə bil döyüşə yox, toya gedir. Çinliləri yuxulu tapmazlar, yatan tutmazlar. İgidləri belə boş buraxsan, əsgərlərin səni eşidərmi, işlərin qaydasında gedərmi? Çinə yürüşə çıxan igidin görəcəyi iş bumu? Yolu bilən igidin yox. Bələdçin, kəşfiyyatçın yox. Bu yürüşə qoşula bilmərəm, bahadır! Gedirsənsə özün get, çinliləri yağmala. Sənə qoşulub nə etməliyəm, mənə icazə ver, geri qayıdım. Sözü uzadıb ürəyimi sıxma, bahadır!

Almambetin doğru sözünü dinləyən Manas da, qırx bahadır da, ağsaqqallar da səslərini çıxarmadılar. Bir az sonra Manas fikrini söylədi:

– Almambet hirslənməkdə haqlıdır. Bakay əmim qocalıb, nədir, əsgərləri boş buraxdı. Ağsaqqal Bakayın yanına gedin.

Xanlığını Almambetə versin.

Bahadır Manas bunu deyib Acıbəy ilə Sereki göstərdi.

Acıbəy ilə Serek təpədəki çadırda olan Ər Bakayın yanına qorxu, təlaş içində getdilər, o qəhqəhə çəkib dedi:

– Başı olan xalqın oğlu, yürüş yolunu yaxşı bilən Almambeti qısqanmıram. Mən Almambeti aslan Manasdan, oğlumdan çox sevirəm. Vəzifəmi verirəm, əsgərlərin başına keçsin.

Ər Bakay mirzəyə məktub yazdırıb bəylik möhürünü basdırdı, xanın qara atının üzərinə sədəqə olaraq xalis qızıl qoyub, çoroları sevindirib üç atla yola saldı.

Davul çalınıb, əsgərlər toplaşdılar. Yürüş ordusunun önündə Manas əmr verdi. Iramandın Irçı oğlu səfər atına minərək əlinə qopuz alıb Almambetin yürüş ordusuna xan olduğunu eşitdirdi.

Almambetin xan təyin olunması orduda gurultu qopartdı. Qırğızların içindəki noyqutların çoxu onu bəyənmədi:

– Ər Bakay kimi bir insanı taxtdan endirib veyil dolaşan; kalmıklardan, çinlilərdən və qazaxlardan sığınacaq ala bilməyən bu adamı xan təyin etmək nə deməkdir?

Bəzi niyyəti pozuq xanlar belə dedilər:

– Görəcəyimiz günlər varmış. Manasa bildirmədən ortalığı mühasirəyə alaq. Xan Manası qıl iplə boğazlayaq. Ağzına gələni danışıb, ağlına gələni etdiyinin nə olduğunu qansın!

Bəziləri isə heyrət etdi:

– Sərsəm kalmık xalqı bəlaya salacaq. Bakayı özümüz seçmişdik, bu lənətə gəlmiş haradan çıxdı, indi əziyyətimiz hədərmi gedəcək...

Xalqın dediyi yalan olmaz, söyləyirlər. Xanlıq taxtına sahib olan Almambet Çinin Pekin ordusunu görmüş bir igid idi. O, sağ yanına doxsan xidmətçi, sol yanına altmış keşikçi alaraq ordunu nəzərdən keçirdi. Əsgərlərin sayını yenidən dəqiqləşdirdi, onları seçib ayırdı. On adama onbaşı, yüz adama yüzbaşı, min adama minbaşı təyin etdi. On min nəfərə bir bahadır, yüz



minə bir bəy təyin etdi. Yüz minlərcə orduya otuz bəy, otuz bəyə görə də bayraq verildi.

Almambet adamların sayını biləndən sonra ilk olaraq xanlıq əmrini verdi:

– Ey millət, hamınız eşidin! Hökmüm iki olmaz. Bundan sonra istədiyiniz kimi at kəsib, yeyib-içib yatmaq yoxdur. Əvvəlki kimi, evdəki kimi söhbət etmək vaxtı deyil! Üç ay paltarlarımızı soyunmadan Doğuya doğru yürüş edəcəyik. Pekinin sərhəddində dayanacağıq. O zamana qədər əsgər nizamını pozan canından umudunu kəssin. Yüz adamdan biri yoxa çıxırsa, ya da yolda əsgər boş-boşuna durursa, əcəli gəldi deməkdir.

Bu sözləri deyən Almambet hər tərəfə altmış cəllad təyin etdi.

Qələbəlik orduda həyəcan baş qaldırdı, hamı karıxdı. Belə deyənlər oldu:

– Bu çinli bizi vecinə almadan odlu günəşin altında qızardacaq, su içirtmədən, yemək yedizdirmədən at üstündə öldürəcək yəqin.

– At kəsilməzsə, insan yemək yeməzsə, yatmazsa cəsədimizimi aparacaq Pekinə? Bəyliyi kalmıka verib qəfil öləcəyik.

Zavallı xalq məyus olsa da ertəsi günkü səfərə hazırlaşdı.

* * *

Qaranlıq çəkilib dan yeri ağarırkən Almambetin davulu dağ dərəsində ot kimi yatan ordunu ürküdüb oyatdı.

On iki xanın böyük ordusu səf-səf düzülüb durdu. Almambet izn verdikdən sonra qələbəlik ordu qatar halında hərəkət etdi. Göydə toz zərrəsi uçmur, yerdə boş yer görünmürdü.

Qılınc qurşayıb, mizraq götürmüş, əli bayraqlı, Sarala adlı atına minmiş, qıyıq gözlü, bəyaz üzlü bahadır Almambet bələdçilik etdi. Onun arxasınca bahadır Manas çox yol gəlsə də yorulmadan, zəiflik göstərmədən sanki indi ata minmiş kimi, qasırğa təki kükrəyən Ağqula atının qaçışından zövq alaraq gəlirdi. Dəvə kimi iri cins qaçış atı Ağqula dırnaqlarını yerə ba-

tırıb heybətli bir şəkildə oynayaraq gəlirdi. Ordunun arxasını qaplan Bakay sürüb gəlirdi.

Sel kimi axan əsgər gecə də uyumadan, çimir almadan, zürna çalaraq, gündüz də fasilə vermədən, at kəsmədən, dincəlmədən çöldə on gün yol yeridi. Dayanmağa izn vermədi Almambet. Böyük ordu ucsuz-bucaqsız çöldə at belində uyuyaraq, gözlərinə qum, ağızlarına qum dolaraq, qüvvətdən düşmüş vəziyyətdə on gün yol getdi. Atlar yoruldu, igidlərin gözləri qamaşdı. Almambet fasilə vermədi, qırx günə çölü arxada buraxıb geniş Altayın dağlarına yetişmişdilər. Münasib bir yer olan Kobuldu hövzəsinə çatanda ordunun arxasındakı durnaya bənzəyən xan Bakay ordunun önündəki Almambetə yaxınlaşıb rica etdi:

– Almambet, belə etmə, orduya tənəffüs ver, igidlər zəifləyib! Dincəlməsək qırılıb qurtaracağıq.

Aslan Almambet davul çalaraq «fasilə» deyə əmr edəndə bütün əsgərlər birdən-birə özlərini atlarından yerə atdılar. Bax, indi bütün xalq yol əzabının məzar əzabı olduğunu anlamışdı. Bəzilərinin atdan düşməyə də qüvvəti qalmamışdı. Bəziləri isə atından düşüb hərəkətsiz yerə sərilmişdi. Baltasına söykənib yatanlar çoxdu. Dözümlü, qüvvətli olanlar yemək bişirir, qısraq kəsib, yeyib, yatdılar. Canı sıxılan igidlər əylənməyə başladılar.

Bahadır Almambet qaçan atları bir yerə yığmağa çalışırdı. Bunu da söyləməyi unutmadı:

– Ey, xanlar, atlar su içərlərsə qançır olarlar, atları bir yerə bağlayın!

Axşama yaxın sərhədlərə keşikçi, xanlara qoruqçu, yollara kəşfiyyatçı qoyuldu.

Ertəsi gün xan Almambet «əsgərlərin sayını öyrənəcəyəm, xəbər verin; əgər bir nəfər belə əskik olsa başını bədənindən ayıracağam» deyə Iramandın Irçıoğlunu xəbərçiliyə göndərdi.

Orduda bir təlaş başladı, onbaşı, yüzbaşı, minbaşı, çoro başılar irəli-geri hərəkət edərək əsgərlərini toplamaqda çətinlik çəkdilər.

Qırx çoronun biri olan Tazbaymat onbaşı idi. Almambet



hesab istədi, o, özüylə bərabər on nəfər idi, amma birini tapa bilməmişdi. Tazmaybatın bir adamı yoxa çıxdıqdan sonra yüzbaşı onu minbaşının yanına, minbaşı tümənbaşına, tümənbaşı xanın yanına apardı.

Tazbaymat hesabında yanılmışdı:

– Əlimdə doqquzu vardı. Mənimlə on eləyirdi. Balasına baxan qancıq kimi gündə üç dəfə sayırdım bunları. İtirmişəmsə qəhr olum! Tanrı lənətləsin, – dedi Tazbaymat fağır görkəm alaraq.

– Üç yüz min əsgərin hamısı sağ ikən bir nəfərin yoxa çıxması bağışlanılmazdır. Hökmüm iki olmaz. Ölümə məhkum edəcəyəm Tazbaymatı, tutun, cəlladlar! – dedi Almambet qəzəblənərək.

Altı cəllad dərhal başını kəsmək üçün Tazbaymatı apardı.

– Ey, Tazbaymatın onluğunda bəlkə Manas da var, kağıza bir baxsana, – dedi Ər Sərək.

Kağızı tutan Qədirseyid yazıya baxdı ki, Sərək haqlıdır. Bahadır Manas onuncu ər olaraq Tazbaymatın dəstəsində imiş.

Ölümdən qurtulan Tazbaymat Bahadır Manasa yaxınlaşdı:

– Ah, bahadırım Manas, sənə görə az qala bu çinli başımı üzəcəyidi.

Manas gülümsəyərək dedi:

– Qurumuş Tazbaymat, burada əmirim sənsən, unudulan mənəm. İşini yaxşı tuta bilmirsən. Birdən Sərəkə deməsəydim başın kəsilməzdimi?

– Alp Manası unudan Tazbaymat igiddirmi, yaxud Tazbaymata darılmayan Manas aslandırmı? – dedi Sərək var-gəl edərək.

* * *

Dərin dərədə bülbülün nəğməsinə uyuyan Xan Manas çayın sahilinə varıb əl-üzünü yudu. Yorulan igidlərin rahatlığını pozmasın deyə davul çalmadan keşikçilərinin köməyi ilə Bakay, Koşoy və Almambet bahadırları, qırx çoronu, on iki xanın əmirlərini çağırıb söhbət etdi.

Bakay qısaca dedi:

– Əsgərlər bir az dincəlsinlər. İndi Kakançinə – Pekinə tərəf yola çıxacağıq. Yolu hansı igid yaxşı bilir?

«Pekinə kəşfiyyat üçün mən gedəcəyəm» deyə cəsarət edən kimsə çıxmadı. Əsgərlər sakitcə dururdular.

– Bu işi mənə tapşırın! Oralar mənim gördüyüm yer, döyüşdüyüm xalqdır, – dedi Almambet gülümsəyərək.

– Neçə günlük məsafədir oralar? – soruşdu Manas Almambetdən.

«Gedişi, gəlişi iki ay, bahadır» dedi Almambet. İki aya gələrəm. İki aya gəlməsəm, deməli orada əcəlim gəlib-ölmüşəm.

Manas Sunqur quşu kimi bir vəziyyət alıb, Almambetin sözündən çox məmnun oldu.

Manas dedi:

– Bahadır Almambet, kəşfiyyata çıxarkən yorulmayan, on iki gün dayanmadan, durmadan yol ölçən Qartkürənə minib get. Əyninə ox işləməz əlbisə geyib get. Ərzağını bol elə. Yanında diribaş yoldaş götür.

Almambet qəhqəhə çəkdi:

– Vay-vay, bahadır! Yola xəncərim yetər, Sarala atıma minərəm. Heyvan olsa da sirdaşıq. Bahadır, yanıma yoldaş üçün Sırqakı verin.

Xan Manas buna razılıq verdi.

Ər Almambet minbaşı Oşpuru ordudan tapdı. Ona öz əmrini verdi:

– Oşpur, ordu Ala-Dağdakı kimi əyləşib yatmasın. Çinli və kalmıklarla savaşmaq üçün məşq etsinlər. Sən Kakançində dolaşıb döyüş fəndlərini öyrənmişdin. Mən gələnə kimi əsgərlərə bildiklərini öyrət!

İki igid-Almambet və Sırqak Çin torpaqlarına kəşfiyyata çıxmaq üçün atlarını açıb, silahlarını hazırlayıb hərəkətə gəldilər.

Bütün millət Tanrıya yalvarıb xeyir-dua verdi:

– Qarşına düşmən çıxsa ayağın altında əzilsin! Atının izi otlarda qalmasın! Düşmənin sənə yaxınlaşa bilməsin! Sağ gedin, qənimət olaraq sağ gəlin!



İki qurd atlarını çapıb yola düzəldi.

Quş olub uçan, döyüş zamanı düşmən qabağında karıxmayan, susuz obaya susamayan, gurultudan hürkməyən, orduya qatılanda qırx gün ac qala bilən Saralaya minən, göy dəmirdən zirehli paltar geyinən, sirli mizrağını əlinə alan, ox işləməz qalxan qurşanan, qaranlıqda belə çöl tülküsünün izini tutub gedən aslan Almambet Pekinə tərəf üz qoydu. Almambetin yanında təkbətək döyüşə çıxanda ölümdən qorxmayan alov gözlü Sırqak vardı. Heç nədən çəkinməyən, iti mizraqlı, əli qalxanlı bir igiddi.

Qüvvətli iki aslan uçan quşlarla yarışıb düşmənə hiss etdirmədən, bulud kimi səssizcə ucsuz-bucaqsız çöldən keçir, atlarını Pekin tərəfə sürürdü.

Tuyundunun Sarı-qayasının sərhəddinə yetişəndə Almambet yoldaşı Sırqakı dayandırdı:

– Bahadır Sırqak, bir az dur, – dedi.

Almambet dizi üstdə oturub durbini gözlərinə yaxınlaşdıraraq qarşı tərəfə baxdı. «Vay-vay» dedi Almambet, durbindən gözünü çəkmədən, «Sırqak, çinlilər bizdən xəbər tutublar. Nadürüst çinlilərin işarə vermək üçün qoyduqları dağ yalındakı dağ qoçu çoxdan qaçıb getmiş, ördəyə xəbər çatmışdır...indi bir az fasilə verək». İgidlər atlarının gəmisini çıxarıb otlağa buraxdılar. Özləri isə yola götürdükləri qovut və qurutdan yeməyə başladılar. Bir-birlərini yaxşı başa düşən iki bahadır gənclik xatirələrini bölüşdülər.

* * *

Qələbəlik ordu rahat bir yerdə yerləşdi. Xəstələrə baxıldı. Burada əsgərlər hər gün sayıldı. Yorulan atlar dincəlsin, yorulan igidlər özünə gəlsin deyə kəşfiyyatdan xəbər gələnə kimi gözlənilib yatıldı. Oşpur özünə rahatlıq tapa bilmədi. O, əsgərlərə bildiklərini öyrətmək həvəsində idi.

Manasın qırx bahadırı iki yerə ayrılıb, dörd qısrağı mükafat qoyub aşıq-aşıq oynayırdı. Düşərgədə Kırqılın çığır-bağırı eşidilirdi. Doğrusu onun susduğu gün olmamışdı. Harada olur-

sa-olsun dil boğaza qoymayan Kırqılın normal olmadığını görən bahadır Almambet Manasa belə demişdi:

– İxtiyar Kırqıl ölməyincə, qiyaməti görməyincə qırğızın işləri yaxşı getməz.

Bu gün də Kırqıl yox yerdən qovğa saldı. Bir anda düşərgənin sərhəddindəki Çubak ilə ixtiyar Kırqıl bir-birlərinə dəyib ağızlarına gələni danışdılar.

İxtiyar Kırqıl igid Çubaka qarşı tərbiyəsizlik etdi:

– Ey, Çubak, çox da yekələnmə! Şərab içib sərxoş olduğun zaman «dünyanı alt-üst edəcəyəm, mən Manasın sağ qoluyam» deyirdin. Manasın yanına gəlmiş o çaşqın çinli qədər də deyilsən. Qatardan geridə qalmısan. Ağıldan və sözdən yoxsulsan. O qədər güclü aslan olsaydın bizə üz tutub pənah gətirən Almambet Çinə kəşfiyyata gedərdimi? Çubak burada qalardımı? Belə yaşamaqdansa ölsən yaxşıdır!

Bunu eşidən Çubak baxıb durardımı heç. Onun gözlərindən atəş, ağzından alov çıxdı, qəzəbindən çatladı. Döyüşdə insan gücü yetməyən Ər Çubakın qızışdığını görən igidlər «ağlını başına yığ» deyə onun əllərini tutdular.

Ağbaltanın oğlu Çubak altun çərçivəli ağ baltasını biləyinə taxdı, silahlarını qurşanıb Köktəkə adlı atına mindi, ilan kimi fısıldayıb Kırqıla bağırdı:

– Elinin koru qoca! Sənin bu Almambetinin arxasınca düşüb çatmasam, qanını içib doymasam, Çubak adım silinsin. Onun cəsarətini görəcəyəm! Pekinə girəcəyəm. Yaxalayanadək qovalayacağam. Almambetin başını buraya tərkimdə gətirəcəyəm.

Ər Çubak davulunu çalaraq hərəkət etdi.

Çubakın bahadırlığı Manasdan əskik deyildi; boylu-buxunlu, gen sinəli, enlikürək bir igid idi. O, çevik Köktəkə atına minərək qarşısını kəsənlərə baxmadan getdi.

Elə bu zaman Xan Bakay Çubakın təkbaşına getdiyini gördü. Onun istiqamətini öyrəndikdən sonra təpədəki altun çadırda xəbərsiz yatan Manasın yanına getdi və dedi:

– Sən Çubakın hərəkətini gördünmü? Mənə qulaq as, Ma-



nas, ayrılanı qurd yeyər. Ayrıla-ayrıla bu günə qaldı qırğız, bu, başqa xalqın xoşuna gəlir. Çubak səndən başqa heç kimi zərrəcə saymır. Tez ol Çubakı saxla.

Bakayın sözünü dinləyən bahadır Manas nə deyəcəyin bilmədi:

– Dayan bir, əmican, ordu pozulmağamı başlamış? Buna imkan verməməliyik. Çubak ilə Almambet bir-birindən əskik olmayan igidlərdir. İki aslan heç nədən çölün düzündə kimsənin olmadığı yerdə döyüşsələr bir-birlərini öldürərlər. Qanadlarımızdan ayrılmayaq. Ağqulanı yedəyə alıb hiddətli çubakın qabağına çıxıb, hədiyyə edib, hirsini soyudaq. Əsgərim bu vəziyyətdə olandan sonra əmanət canımdan umudumu kəsim gərək...

Manas qəzəblənəndə ordu deyil, göydəki buludlar belə qaralırdı. Bahadırın görünüşü belə idi: qaynar gözlü, incə dodaqlı, yastı yanaqlı, uzun çənəli idi. İgidliyi apaydın görünürdü.

Manas da Aymanboz atına minərək Çubakın arxasınca getdi.

* * *

Tal-Məzarın altında yuxuya getmiş Almambet üzünə nəysə toxundurmuş kimi oyandı. Oxunu hazırlayan Almambet at üstündə qışqırdı:

– Ey, Sırqak, dur! Mənim gördüyümü gördünmü? Mənim duyduğumu duydunmu?

Sırqak atına minib Almambetlə yanaşı durdu:

– Ey, bahadır nə oldu? Yoxsa qələbəlik düşmən ordusumu gördün?

Almambet dedi:

– Ey mərd Sırqak aslanım, sirdaş olan yoldaşım! Bilmirsən deyim, məni himayə edənlər söylədi: Ağbaltanın oğlu Ər Çubak deyilən igid uçan quş kimi gəlir, basdığı daşı parça-parça edir, atının dırnaqları torpaqda şırım açır. At belindəki Çubakın əcayib görkəmi var: rəngi qaçıb, kimsəni vecinə almadan, düşmənini yeyəcək kimi hirsli gəlir...

...Almambet Çubakı hirsli görüb sakitcə salam verdi və dedi:

– Ey, igidim Çubak, bu nə haldır? Qılıncını sıyırmısan. Düşmənin kimdir? Qələbəlik çinlimi gəlir?

Özündən çıxmış Ər Çubak heç kimi eşitmədən yel kimi gəlib Almambetə yaxınlaşdı:

– Ey, mənə gəliş gəlmə, Almambet, neçə il əvvəl sən el-obandan ayrılıb dolaşa-dolaşa Talasa gələndə, yulğunlu hövzədə Arqm, Noqoy içində qan axıdıb, qılınc tutub içdiyimiz and hanı? O vaxtlar «ata bir minək», «düşmənə bir hücum edək», «kəşfiyyata bir çıxaq», «ölsək də bərabər ölək» demədikmi? O vədindən necə qaçırsan? Məni qoyub, niyə tək çıxdın? Dayan! Dediklərimi eşit, kölə! On iki igid əsgəri qoyub kəşfiyyata özünmü çıxırsan? İtin biri it. İndi mənim əlimdə öləcəksən, çinli!

– Ey, Çubak dostum! Səbr edən dərviş muradına yetər deyirlər. Səbirli ol, bahadır, kəşfiyyata mən gedəcəkdim. Qırx xanlı çindən xəbəri mən gətirəcəkdim. Arzu edirsənsə üzünə yol açıqdır-kəşfiyyata özün get. Qırğızlardan heç kim kəşfiyyata çıxmadığı üçün mən çıxaram dedim, pismi etdim? Kin bəsləyib «çinli» deyə ürəyimi sıxma, qanımı qaynatma.

Bunları deyən Almambet söyüb-sulamadan, qızışmadan ip kimi qıvrılsa da sol əli ilə sağ əlini tutub durdu.

Ər çubak yenidən atını qamçılayıb qəzəblə üzünü Almambetə tutdu:

– Çinli kölə! Yalandan «kəşfiyyata çıxacağam» deyə başlı xalq olan Türkü buraxıb gedirsən. Dincliyini pozub, can sıxıntını alaqmı?

İndi Ər Almambet də qəzəblənmiş, ağzından atəş püskürərək tükləri biz-biz olan vəziyyətdə bir qaşıq qanından qorxmadan lənətə gəlmiş Çubaka söyərək hücum etdi və dedi:

– Ey, qəzəbli murdar! Mənim Pekinə kəşfiyyata getməyim kimin üçündür? At belində inadla bu yolu getməyim kimin üçündür? Cahil köpək Çubak, bil ki, bunların hamısı sənin üçündür. Durmaq istəmədim, saxladın, danışmaq istəmədim, danışdırdın, ulayan köpək çubak! Bil ki, mən Pekinin əsilzadələrindən biriydim. Saf altundan düzəlmiş taxtım vardı Pekində!



Murdarın biri murdar, mən haçandan Noyqut köləsi olmuşam? Qüvvətli aslansansa, məndən qoçaq igidsənsə niyə bozqırından azıb gəlmisən? Mən taxtımı buraxıb, xalqımdan bezib, pislikdən təmizlənib, çoro oldum Manasa! Yerləşdim Talasa.

Məni xan seçin, dedim kiminizə?
İstədim girdim dininizə.
Xalqınla bir olmadın,
Başqa imiş muradın...
Macəra sevən Çubak,
Gəlsənə cinini qovaq.
Məni əmir qoyun, dedim kiminizə?
Əmirinlə bir olmadın,
Unutdun dinini,
Döyəkmi cinini?

Bunları söyləyən Almambet qaz boyunlu Sarala atına qamçı vuraraq polad tiyəli göy qılmcmı qınından sıyırıb Çubaka hücum etdi. «Başını alma kimi qoparacağam, yol üstündə öldürüb itlərə yem edəcəyəm» dedi.

Ər Çubak da qorxu bilmədən qalxanını sifətinə tutub, polad qılıncını əlinə alaraq dördnala atını çapdı.

Təpəyə çıxan iki igid qarşı-qarşıya gələndə dostluq xatirinə bir – birlərinə qıyıb qılınc vurmadılar, baxıb durdular.

– Çubak ağa, Almambet ağa! Qəzəb düşmən, ağıl dostdur, deyərlər. Acığınızı məndən çıxın! – dedi Sırqak.

Bu sözlərə məhəl qoymayan igidlər atlarını oynadaraq təzədən bir-birlərinə hücum etdilər.

Bu əsnada göy düzənlikdə bahadır Manasın qaraltısı doğan günəş kimi göründü, Manas aymanboza qamçı çalaraq yel kimi yetirdi özünü.

– İgidlər! Dayanın! Atın qılıncınızı! – dedi Manas uzaqdan bağıraraq.

Manasın qışqırtısını eşidən iki igid dayandı.

Bahadır Manas dəvə boyda atıyla yetişib iki igidə belə dedi:

– Üstümdə Sunqur (quş adı-A.C.), yanımda qaplan, altım-

da uğurlu yol, savaşda qələbəlik əsgərə bərabər əkiz dostlarım-Almambet və Çubak! Sıyırdığınız qılınclar daşı kəssin, fələkətlər onunla bərabər getsin, yerə tullayın! Qılıncınızı atın!

Bunları deyən xan Manas onların arasına girib qmçısını qaldırdı. Döyüşən iki igid harayçıya baxmadan «burax məni, onu doğrayım» deyə yenidən bir-birinə cumanda qaplan Manas dilə gəldi:

– Ey ağılsız, axmaq dostlarım, məqsəddən yayınıb yarı yolda qovğa çıxarıb beləcə Talasa geri dönməkmi istəyirsiniz? Bunu necə edərsən, Almambet? Necə belə düşünürsən, Çubak? İgid Almoş (Almambet-A.C.) varkən dünyanı alt-üst edəcəyəm, on səkkiz min aləmə səs salacağam deyə düşünürdüm. Çubak yanımda olanda ox işləməz bəyaz əlbisəsini dəyişdirib geyəcəyəm deyə düşünürdüm. Sizin hamınızı bu gün gördüm! Kim olduğunuzu anladım. Bu Pekinə özüm təkbaşına gedəcəyəm, təkbaşına varıb öləcəyəm! Ey ağılsızlar, igidlik göstərən axmaqlar, bu çölün düzündə vuruşub biriniz ölün, biriniz qalın...

Hirslənən bahadır Manas əlindəki cilovu buraxdı. Qarşısmda görünən vadiyə baxaraq küskün vəziyyətdə oturdu.

İki bahadır əvvəlki kimi sərtlik göstərmədən yumşalıb, qılınclarını qınına taxıb, bir-birlərindən uzaqlaşaraq Manasın qarşısmda lal-dinməz dayandılar.

Əvvəlcə Ər Çubak Almambetin qabağına gəlib diz çökdü, iki əlini köksünə qoyub belə dedi:

– Bahadırım, Almambet, sənin arxanca sənə çinli dedim. Şığıyıb gəldim, hiss etdim ki, düz eləmədim. Kəşfiyyata gedirsənsə, yolun açıq olsun! Al, başım hədiyyən olsun! Bahadırım Almambet, günah məndədirsə, bağışla!

Bu yalan dünyaya bax, böyük bahadır Almambet əriyib yumşalan Çubakın rəftarından məmnun qaldı.

– Xan oğlu ər Çubak! Danışanda sirdaşım, dəyərli dostum, qardaşım, dərdləşəndə dərd ortağım! Kakançinə, Pekinə birgə gedərik dediyin doğrudur. «Kəşfiyyata sənə demədən çıxmağım düz deyildir. Günah məndədir, sən də məni bağışla, bahadır!»



Bunları söyləyən Almambet atından düşüb saralasını yedəyinə alaraq qamçısını boynuna qoyub Çubaka diz çökdü.

Döyüşdən çəkinməyən, ölümdən qaçmayan axmaq doğulmuş iki bədbaxt gəbərdimi nədir-deyə bahadır Manas gözünü çevirib baxdı ki, həmin igidlər bir-birinə sarılıb, sinələrini bir-birinə toxundurub əl verib barışmışdır. İki bahadır atlarını yedəyə alıb, ağır-ağır gəlib Manasın önündə boyunlarını bükdülər.

Aslan boynunu döndərdi. Bahadır Manası görüb sevinərək güldü iki igid.

«Möhtərəm xan, günahımızı bağışla! Atlarımız sənə hədiyyə olsun, bahadır!» dedi iki igid yanaşı duraraq.

– Ey Almambet, Çubak əkizlərim! Əkiz igidlərim! Düşmən hücuma keçirsə dünyanı yıxan qəhrəmanlarım! Pekinə yaxınlaşıb kəşfiyyat aparırkən gəlib qovğa salan düşüncəsiz Çubak, elədiklərindən utan! Gəlib aranıza girmək istəyəndə umu-küsü eylədiyin üçün utan, Almoş!

Bunları söyləyən Manas gülümsəyərək hər iki bahadırla barışdı.

Ucsuz-bucaqsız çöldə atlarını yedəyə alan dörd bahadır sözləşdi:

– Uçanda bir-birimizə qanad olaq, düşmənə ox olaq, öləndə birlikdə ölək. Andımızı pozanı Göy lənətləsin!

Aymanboza minən bahadır Manas polad qılıncın tiyəsini yalayıb bir-birlərinə şərəf sözü verən üç igidlə Cet-qaytına qədər açıqca görünən Tal-Coku istiqamətinə hərəkət etdi.

Dörd bahadır yan-yörəsinə boylandı. Alaqaranlıqda qədim Pekin çayı, gölü, dağı ilə, səhrası, ormanı ilə, şəhəri, qalası ilə gözə dəydi.

Aslan Almambet qarşısındakı mənzərəni görüb Pekin haqqında danışmağa başladı. Sonra üzünü Çubaka tutdu:

– Qarlı səhra, Böyük Pekin kaş ki, mənim yerim olaydı deyə arzu olunmazdımı, Çubak? Qaynaşıb yatan qələbəlik çinli mənim xalqım olaydı deyə düşünməzdimi, Çubak?

Almambetin ah çəkdiyini, yaşaran gözlərini görən Manas

«Almoş göbəyinin qanı tökülən torpağının həsrətini çəkib, yurd həsrəti məhv edər insanı» dedi dostuna acıyaraq.

– Elim eldən əskik deyil, elsiz qalan insan insan deyil...

Bu sözləri hıçqıra-hıçqıra söyləyən dərdli Almambet daha danışmadı.

Bahadırlar yola düzəldilər. El içinə girmədən, inni-cinni gözünə görükmədən, dağ yolu ilə irəlilədilər.

Almambet bir sirri açdı:

– Bahadır Manas, sağ tərəfdə köykap (kuhi-kaf) vardır. Onun geniş təpəsində sazanqşan deyilən xalq yaşayır. Cet-Bəycinin başı onlardır. Döyüşkən xalqdır. Bu xalqın qocası ilə cavanı fərqlənmir. Başları qazan kimidir, hər biri yetmiş qulac küknar ağacı ilə meydana çıxır. Bunların əmiri Makel adlı divdir. Onu heç kim məğlub edə bilməyib. Buna görə də qorxuludur. Xəbərsiz ona hücum etsək o kafiri öz əllərimlə gəbərdəcəyəm.

Bahadırlar təpədəki tənha çinar ağacının altına gələrək, atlarını bir yerə bağlayaraq yatdılar.

Almambet Manas ilə Sırqakı qoyub Çubakı götürərək Pekin tərəfə kəşfiyyata getdi. İki bahadır dağ aşırımları ilə irəlilədi.

Boyu dağ kimi olan Almambet birdən diksindi:

– Ey Çubağım, can dostum! Mənim gördüyümü gördünmü, duyduğumu duydunmu? Dediyim Makel adlı div gəlir.

Çubak diqqətlə baxdı, amma sonsuz çöldə insan qaraltısıfilan görmədi.

– Ey bahadır Almambet, div-zad görmədim, – dedi Çubak.

– Yola yaxşı baxsana, – dedi Almambet.

– Yolda bir təpə var, başqa şey yox, – dedi çubak.

– O təpə deyil, Makel adlı divdir, – dedi Almambet.

Ər Çubakın heyrətdən ağzı açıq qaldı.

Almambet dedi:

– Kakançinin Esen xanma devriyədəki dağ qoçu çoxdan bizim xəbərimizi çatdırmışdır. Hiyləgər Een xan Kakançinin əsgərlərini qoruyub «qırğızları yox edəcəksən» deyə mühafiz Makel adlı divi buraya göndərmişdir. İndi Makel adlı divi



yaxşıca görəcəksən, Çubak.

– Vay-vay, yer üzündə belə bir insan da varmış deməк...

Bunu deyən Çubak divi gördükdən sonra canından umudunu kəsib baxa-baxa qaldı. Makel divin sifəti apaydın göründü. Ağzı uçuq məzar kimiydi, tək olan gözü parıldayırdı, qaşı və kirpiyi yeri örtən meşə kimiydi. Makelin bığı ilə saqqalı arasında qarğa, ala qarğa, alıcı quşlar yuva qurmuşdu, civildəyib uçuşurdular.

Əlində alaçıq boyda toppuz tutan Makel adlı div cibindən eşməsini çıxarıb tütün qutusundan beş ovuc tütün götürüb çaxmaq daşıyla yandırdı. Üfürdüyü tüstü başı üzərində dairəvi bir xətt çəkərək ətrafını bulud kimi qapadı, yol-iz görünmədi. Papirosunun zəhərindən aralıdan seyr edən Almambet ilə Çubak asqırdılar. Başları gicəlləndi.

Almambet dedi:

– Qaplan Çubakım, hansı zamanda hansı qaranlıq çökəcək başımıza bilmirik. Makel adlı divə görünmədən geri dönək. Gedib Manasa danışaq. Onun qabağına dördümüz çıxaq.

Bunu eşidən Çubak etiraz etdi:

– Yox-yox, Almoş, nə deyirsən, xalqın qəzəbinə gələrik. İki igid bir igiddən qorxub gəldi deməzlərmi? Hər kəsin bir əcəli var, qeyrətə gəl Almake. Təvəkkül Allaha deyib savaşaq. Məlunu öldürək»

Bunu deyən Çubak döyüşə hazırlaşdı. Almambet Ər Çubakın bu hərəkətindən məmnun olub dediklərindən utandı.

– Sözünə qurban, Çubakım! Mən fürsət tapıb gözünə ox atım, sən mizraq vur! – deyən Almambet yayını hazırlayıb təpədən aşağı baxdı.

Almambet Makel divin tək gözünü nişan alaraq atdı. Ox gözünə saplanmışdı. Makelin göz bəbəyi yerə töküldü. Makel bağıraraq gözünü tutub dizləri üstünə çökdü. O vaxta qədər Ər Çubak dağ boyda divə çatırıb açıq ağzına mizraq sapladı.

Makel adlı div yumalanan zaman sanki yer üzü zəlzələdən titrədi.

Az sonra yerə sərilmiş divin başına Almambet baltayla zərbələr endirdi.

Makelin qalxmasına fürsət verməyən Çubak da divin başına baltayla vurdu.

İki igid hər yandan üst-üstə ox ataraq Makel adlı divin başını kəsib kərkədana yükləməkdə yaman əziyyət çəkdi.

Ətrafda dolaşan Sırqak iki igidin kərkədana bir şey yükləyərək gəldiyini görüb Bahadır Manasa müjdə verdi:

– İstəkli xan! İşlər qaydasmda! İki aslan sağ-salamat gəlir. Qənimətləri də var. Ceyran ovlayıb kərkədana yükləyiblər.

İki igidin yoluna öncə Sırqak çıxdı:

– Səfəriniz uğurludur, yəqin? Bu, ovdurmu? Hədiyyə istəyirəm, bahadır.

Belə deyən Sırqak maraq göstərib kərkədana tərəf getdi.

Çubak dedi:

– İstəyin qəbul olsun! Bir ceyran ovladıq. Başını yükləyib gəldik. Düşürt yerə. Əlin bərəkət gətirsin.

Ər Sırqak yavaşca kərkədana doğru əlini uzadanda birdən qışqırıb geri qaçdı:

– Bu nədir, ağam? Donuzun başımı, yoxsa yelmavuz divin başımı? Kakançinin hamısı belə olursa görəcəkli günlərimiz var. İşimiz ağırdır.

Çubak dedi:

– Ey, bahadır Sırqak, ürəyin *yerindən oynadı* deyəsən, gəl səni özünə qaytaraq.

Sırqak özünə gələndən sonra üzünü Manasa tutdu:

– İstəkli xan, o başı gördünmü? Bu yaramazların tutduğu işə bir bax!

Almambet qəh-qəh çəkdi:

– Mənim sizə söylədiyim Makel adlı div bax budur!

Belə deyən Almambet divin başını yerə tulladı.

Makel adlı divin başı diyirlənərək Manasın ayağı altında gəlib durdu.



* * *

Dörd ərən Kakançin yurdunu dolaşıb içərilərə doğru hərəkət edirdi. Qərargaha gedən yolda qələbəlik əsgər göründü. Bu əsgərləri görsə də vecinə almayıb gedirdi Almambet. Onun yanında bahadır Manas səssizcə gedirdi. Ər Sırqak da təmkinli idi. Ancaq Ər Çubak həyəcanla:

– Ey, Almambet, neyləyirsən? Kökümüzü kəsdirməyəmi tələsirsən? Qələbəlik əsgər bizi görsə, üstümüzə gəlsə nə edəcəyik? Bu bir fəlakət deyilmi?-dedi.

Almambet sakit səslə dedi:

– Ölsək bir çuxurda, yaşasaq bir təpədəyik, bahadır. *Arxamca gəlin!*

Bahadır Manas sirri bilirmiş kimi gülümsədi. Bahadır Çubak başqalarından geri qalmasm deyə irəlilədi.

Bahadırlar göy mizraq tutan əsgərlər, yaylarım hazırlayan nişançılar arasından keçib gedirdi. Onların arasından keçib bir böyük körpüyə gəlib çıxdılar. Almambet körpünün altına adlayıb tək yola çıxdı. Onu bahadır Manas, Ər Sırqak təqib etdi. Çubak körpüdən keçmək istəyirdi.

Almambet Çubakı görən kimi qışqırdı:

– Geri çəkil! Öləcəksən!

Çubakın Göytəkəsinin dırnağı körpüyə dəyər-dəyməz böyük bir gurultu qopdu.

Qorxan Çubak bir dərin quyuda gizləndi. Gurultu keçəndən sonra Çubak bahadırın yanına gəldi. Onun rəngi qaçmışdı.

– Ey, bahadır Çubak, can şirin şeydir, eləmi?-soruşdu Sırqak.

Almambet xoş əhvalla, gülümsəyərək belə dedi:

– Ey bahadırlar, mən sizə söyləmişdim ki, Pekin dayanıqlı bir yer, çinlilər qələbəlik bir xalqdır. Bu çinlilər baş açılası xalq deyil, xalqının və ölkəsinin sirrini bilən adamlar bura gələ bilər. Bu çinlilərin bir hiyləsidir. Körpüyə ayaq basan keçə bilməz. Əsgərlər isə bu körpünü ustalıqla düzəltmişlər. Çiynimə şahlıq quşu qonub xan olduğum zaman, qırğız olmaq niyyətinə düşmədiyim vaxtlarda qırğızlara, atlı döyüşçü xalqlara qarşı tik-

dirmişdim bu körpünü.

Manas dilləndi:

– Ey, igid yataqda yataraq ölməz. Dəyərsiz cana belə bir ölüm vardır. Namus üçün doğulmuşuq, namus üçün də öləcəyik.

Almambet igidləri saxlayıb dedi:

– Bahadır, düşmən bizdən xəbər tutub hazırlaşmışdır. Sırqakla ikimiz çinlilərin vəziyyətini öyrənək.

Almambet bahadır Manasla Çubakı bir keçə evə yola salıb kəşfiyyata çıxdı.

Ər Almambet yanına qurd Sırqakı alaraq at sürüb alçaq dağın döşünə gəldi. Belə dedi:

– Ey, Sırqak, Qan-Çaylağın təpəsini gördünmü? Orada keşikçi kimi qoyulan tülkü var. O bizim əlimizdən salamat qurtarsa, devryiədəki qırx rahibə xəbər verəcəkdir. Ondan gözünü ayırma. Tülkü yerindədirsə onu yuvasında məhv eiməliyik. Səni çağıracağam...

Almambet Sarala atını sürüb getdi.

Ər Almambet «bic tülkü iyimi alıb getməsin» deyə onun yatdığı yerin qaranlıq olması üçün dağın başındakı buludu gözündən qoymadı.

Bir anın içərisində hiyləgər tülkü burnunu yuxarı tutub qaçaraq önündən keçdi. Almambet tülkünün köksünü nişan alaraq ox atdı. Ox nişan alınan yerə dəymədən onun ayağını sıyırıb keçdi. Bic tülkü canı tələşlı qaçdı.

Almambet dağın o başından Çırqakı harayladı. Ər Sırqak dağ çəmənliyində kökçöbic atına minib mizrağı əlində tülküyə yetişdi və onu yaraladı. Almambet tülküyə fürsət vermədən gəlib qılıncıyla onu altı parça etdi.

Rahat nəfəs alan Almambet daşların arasında gizlədib üstünə işarə qoyduğu yerdən bir bağlama götürdü. O bağlamadan çin xanının geydiyi iki libas çıxartdı. Papağı daş-qaşlı libası özü geyindi. Sırqaka şalvar, köynək, qalpaq geyindirdi, atlarına çin örtüyü örtdülər. Almambet yola gözətçi qoyulan bic dağ kəlini də gəbərtdi.



Dağın ortasındakı masmavi gölə yaxınlaşdı. Almambetin qanı qaraldı və üzünü Sırqaka tutub söylədi:

– Sırqak, atının başını çevir, bahadır, bu gölə gözətçi qoyulan ördək çoxdan uçub gedib. Demək çinlilərə çoxdan xəbər çatıb.

İki igid qaynaşan qələbəlik çinlinin içinə girdi. Almambet əyilib çinlilər kimi diz çökərək çin dilində danışırdı. Sırqak çinli qiyafəsinə girmişdi.

Almambetin çinsayağı libasını, tacını, zümrüd daşlı bəlgəsini görən əsgərbaşılar ona təzim edib durdular. Almambet rastlaşdığı şəhərin ordusunu başqa bir istiqamətə göndərdi.

Tunqşa şəhəri Almambetin göbək qanının axdığı, uşaqlığının keçdiyi yer idi. Ayna kimi vadiyə yaxınlaşanda atalarınm tikdiyi şəhəri, doğulduğu yeri görüb ağlına köhnə xatirəlr gələn Almambetin qanı qaralıb gözündən yaş töküldü, öz əliylə əkdiyi çinara sarılaraq kövrəlib ağladı.

– Qəhr olsun! Doğulduğum yer buradır, Sırqak. Böyüdüyüm yer buradır, Sırqak. Bu görünən qaraltı atalarımın taxtıdır. Bu isə qızıldan divarı olan atamın iqamətgahıdır. Mənim qaçıb çıxdığım yer buradır, Sırqak. Qəlbimi təmizləyib, dinimi buraxıb, atamdan keçib, quş kimi uçub təkbaşına qırğızlara pənah gətirdim, Sırqak! Baxdım ki, harada olursa-olsun xalqımdan vaz keçən, yurdunu qoyub gedən, övladsız yaşayan igidin başı bəlalar çəkərmiş, Sırqak. İnsan harada yaşasa da doğulduğu müqəddəs yerin həsrətini çəkir, bu həsrət insana dərd verir, Sırqak. Dünyanın işinə bax, yenidən öz xalqımla savaşmaq üzərəyəm. Mənim də alacağım qisas var. Baxıram, köhnə malikanəmdən əsər-əlamət yox, Sırqak. Ev-eşiyim viran olmuş, çiçəkli bağçam xarabazara çevrilmiş, çinarım kəsilmiş, xalqım darmadağın olmuş, divarlarım tamam yıxılmış, yurdum parçalanıb-bölünmüş, Sırqak. Bax, bu dostunun dərdini dinlə, Sırqak.

Almambetdən bu sözləri eşidən Sırqakın da gözləri doldu. Hər ikisi yola düzəldi. Boz təpəyə çatanda Ər Almambet mizrağını yerə saplayaraq Sırqaka belə dedi:

– Çindən təkbaşına gecə çıxanda çoxlu əsgərin və Konqur-

bayın məni təqib etdiyi vaxt ağzımdakı qızıl haşiyəli qəlyan buralara düşmüşdü. Arxama baxmadan qaçmışdım. Atından düşüb bir baxsana.

Atından düşən Sırqak belə fikirləşdi: «Gündüz deyil, gecə vaxtı, üstəlik Almambetin qaçdığı vaxtdan illər keçib, dediklərinə inanmaq olmur».

Ər Sırqak mizrağının ucunu yerə batıra-batıra otların arasından Almambetin altun haşiyəli qəlyanını tapdı. Əlinə alıb göstərəndə Almambet heyran qaldı.

– O qəlyan məndən sənə hədiyyə olsun, Sırqak!-dedi Almambet kefi kök halda.

Bahadır Almambet Ər Sırqakı böyük çinarın altına uzandırıb «gecəni burada gözlə, mən Esen xanın sarayındakı Burulcaya dəyib qayıdacağam» deyə yola çıxdı.

Dan üzü Almambet geri döndü, amma Esen xanın keşikçiləri gördü deyə çaşaraq döndü.

– Bahadır Sırqak, Burulcanı görüb rahatlandım, yolda bir şey olmasın deyə geyimimi dəyişdim. «Gözləyəcəyəm» deyə ağlaya-ağlaya gözəlim-dedi bahadır Almambet baltasını möhkəm tutaraq.

Çin xanı Esen xan «Qırğızlar Pekinə yaxınlaşır» deyə Konqurbay başda olmaqla qırx xanı hərəkətə gətirdi. Almambet onu təqib edən döyüşçülər barədə Sırqaka danışdı və belə qərara gəldi:

– Canımızı qaçırıb, «düşmən gəlir» deyə Manasın yanında daldalanmayaq. Kakançinin atlarını ələ keçirib düşmənin qabağına buraxaq. Düşmən özünü yetirəndə vur-qaç savaşına keçək.

Almambet Kaspanın (yer adı-A.C.) yamacındakı atların arasında dolaşıb, davul vurub, çığırıb-bağıraraq atları ürkütdü, ilxıçıları aradan götürərək atları yola sürdü.

Kükrəyən altı yüz ata yol azmayan, qaranlıq gecədə izi izdən seçən Acıbayın atı Kartkürönq bələdçilik etdi.

Təqibçilərin önü iki günə gəlib yetişdi. İki igid birinci gün təqibçilərə şahin kimi şığıyıb onları məhv etdi. Çin əsgərləri getdikcə çoxaldı, on minlərcə əsgər ortalığı duman kimi qapadı. İki igid



gah hücum edib, gah da vur-qaç döyüşünə keçdi. Bahadır Manas ilə Ər Çubakın yanına bir az sonra çatarıq deyə dörd göz oldu.

Çox olmaq da bir bəladır. Kakançinin əsgərləri iki igidi yeddi tərəfdən dövrəyə aldılar. Almambetlə Sırqak atları yorulub qüvvətləri tükənincəyə qədər döyüşdülər. Çinin çox qüvvətli döyüşçülərinin qarşısına təkbaşlarına çıxdılar, mizraqları parça-parça oldu. Axırda iki dost haldan düşüb, ayaqları üzüngidən aralanmış vəziyyətdə bir-birlərinə vəsiyyət edirkən qarşı təpədən bahadır Manasın əzəmətli qaraltısı göründü.

Bu əsnada qələbəlik əsgər bahadır Manası dərhal tanıdı. Əzəmətli aslan təpədən baxarkən gördü ki, dağın cənub ətəyində Acıbayın Kartküröngü atların sürüsünü insan kimi qabağına qatıb aparır. Dağ ətəyindəki Kakançin əsgərləri iki igidi mühasirəyə alıb. Bunu görən bahadır Manas ağzından alov püskürərək qaplan kimi atılıb altmış igidə tən gələcək qüvvətlə «Almambet ilə Sırqakı qurtaracağam» deyə dalğalanmaqda olan düşmən qoşununa tərəf mizrağla döyüşə atıldı. Xan Baltanın oğlu Çubak göy atına minib göy qumaşdan tikilmiş libasını geyib təvəkküllə bahadır Manasa yoldaşlıq edib döyüşə atıldı. Bahadırları görən Ər Almambet ilə Ər Sırqak daha da cəsarətlənərək «Manas» deyə qışqırıb ölümü düşünmədən savaşa girdilər.

Manasın mindiyi Aymanboz meydana çıxdıqdan sonra yorulub qaldı. Bu zaman Acıbayın Kartküröngü «mənə minərsənmi» deyə gəlib Manasın qarşısında dayandı.

Manas: – Acıbay yaşayırkən Kartküröngü necə minə bilərəm, məndən aralan, atlara bələdçilik et, deyərək onun yanına qamçısını vurdu. Kartküröng heyvan olsa da, danışmağa dili olmasa da gözlərindən yaş axıdıb sıxıldığını göstərərək yalmanını və quyruğunu qaldırıb, dırnağı ilə yer eşib sərt bir şəkildə silkindi. Kişnəyib o biri atlara tərəf getdi.

Aymanboz atı yorulsa da bahadır Manas qaynaşan çinlilərin insan olduqlarını vecinə almadan təkrar döyüşə atıldı. Aslan Manas uzağı, yaxını ayırmadan ucu polad, havada uçanda alov saçan öldürücü oxunu düşmənə yağdırdı.

Əsgərlər bir-bir yerə sərilməyə başladı. Dörd ərənin birləşməsi ilə güc və qüvvət birləşdi, qələbəlik əsgər qayalı dağa vurulan dalğa kimi tar-mar edildi.

Yer üzünü qan, göyü toz-duman bürüdü.Əsgərlərin başı yerdə yuvarlanırdı. Ayağı qırılan atların, parçalanmış insanların ah-naləsi dünyanı tutmuşdu. Düzdə, dərədə, su qırağında cəsədlər daş kimi yatılı qalmışdı.

Həyəcanlanan çin ordusuna yardımçı qoşun gəldi. İndi qarışqa kimi qaynaşan çinlilər dörd igidə tərəf hücuma keçdilər.

Çin əsgərləri yorulan dörd bahadırı güc-bəla bir-birindən ayırdı. Həmin savaşı aralıdan seyr edən Konqurbay baxıb Manasın Aymanbozunun yerimədiyini görəndə «Manası diri tutub bir az məzələnək» deyə bağırdı.

– Ey, Manas, çox yekələnirsən. İgidliyin var, ağlın yox. Suya qonmuş tuluq kimi içi boşsan. İgidsənsə gücünü göstər görək-deyə Konqurbay Alqara atını ona tərəf sürdü.

Bunu eşidən bahadır Manas «hərə bir cana borcludur» deyə Aymanbozun cilovunu dartıb polad uclu mizrağını uzadaraq döyüşə atıldı.

Bahadır Manas Konqurbaya yetişib mizrağım saplamaq istəyəndə Aymanboz hərəkət etmədi, çevik atlı düşmən böyük çayın ensiz yerindən qaçmağa macal tapdı. Aymanboz tərpənmədi. Bunu görən çin əsgərləri Manası yaxalamaq üçün onun üstünə ox yağdırıb dövrəyə aldılar.

Bahadır Manas çətinliyə düşmüşdü. Monqol yəhərinə oturmuş bahadır üzü dağa qaçdı. Dönüb arxasınca qarğa-quzğun kimi gələn əsgərlərə baxdı. Çinlilər Manası mühasirəyə alsalar da yaxınlaşmağa cəsarət etmədilər.

Manası xilas etmək üçün üç igid fasiləsiz iyirmi dörd gün savaşdı, canlarına belə acımadılar. Ər Sırqak altmış yerdən, Ər Almambet qırx yerdən yaralandı.

Nəhayət, Ər Almambet Sırqakla öz ordusuna xəbər göndərdi:

– Qurban olum, Sırqak, çinlilər Ər Manasa fəlakət gətirdi



de. Aymanboz yeriyə bilmir de! Qırx çoroya söylə. İgidlər tez gəlsinlər de.

Ər Sırqak gah sağdan, gah soldan vuruşa-vuruşa bir təhər izdihamın arasından çıxıb arxada qalan qırğızlara xəbər verməyə getdi.

Dan üzü, ətraf aydınlanarkən dar bir yol ilə Ağqulanı yedəyinə alıb gələn, çin əlbisəsi geymiş, yetmiş qəbilənin dilini bilən Acıbay əsgərləri başa salıb Bahadır Manasın saxlandığı dağa yetişdi.

Bahadır Manas Acıbaym igidliyini görüb qışqırdı:

– Canım Acıbay, sönmüş ocağı yandırdın, ölən canı diriltdin, yoldaşlığını göstərdin. Ey böyük Talas, sənin kimi yer varmı, Acıbay, sənin kimi ər varmı? Bu yaxşılığının əvəzini ölməsəm çıxacağam.

Bahadır Manas Ağqulanın yalmanından yapışıb boynunu qoxladı, «qanadım, səndən ayrılandan bəri həsrətini çəkirəm» deyə onu yəhərləyib döyüşə atıldı.

Bu zaman arxada qalan on iki xanlı qırğız ordusunun gəlişindən xəbər verən davul səsi eşidildi.

Ər Bakay göy bayrağı tutaraq çorolara çevrildi:

– İgidlərim, başımız qeylü-qaldadır. Ata-babalarımızın ruhu aramızdadır, biz onlarla bir yerdəyik. Qızıl sandıqda saxlasan da insan bir gün ölür. İgidin canı yəhərin yanındadır. Bayrağın altına toplaşaraq yeriyin. Tanrı qorusun, irəli, ərənlər!

İxtiyar Bakay bayrağı qaldırıb irəli yeridi.

Böyük yürüş beləcə başladı.

İki ordunun igidləri gecə-gündüz bilmədən, canlarını əsirgəmədən savaşdılar. Yer yarıldı, göyü duman bürüdü. İnsan qanı çay kimi axdı, qorxunc bir qətliam göründü.

Konqurbayın əsgərləri artıq müqavimət göstərə bilməyib, qırğızların hücumuna davam gətirə bilməyib, Pekinə doğru qaçdılar. Konqurbay dağılan igidlərini nizamlaya bilmədiyi üçün sıxıldı.

Qırğızlar qaçan düşməni qabaqladılar. Göy üzü toz-duma-

na bələndi, insanlar nə edəcəklərini bilmədilər, ətraf qana boyandı, neçə tülpar at öldü. Cəsədlər dağ kimi yığıldı.

Birdən çinlilərin igidi Konqurbay kin bəslədiyi bahadır Manasın qabağını kəsməyə cəhd göstərdi. Lakin heybətli bahadırın qarşısında mizraqdan istifadə edə bilmədən, hayqırıb hücum çəkmədən çaşıb, duruxub yerində qaldı.

Hərifi belə görən Manas baxıb dura bilərdimi? Ağqulanı qamçılayıb mizrağını milləyərək onu qovaladı.

Konqurbayın Alqarası yan tərəflərində qanadı olan qeyri-adi bir heyvandı. Quş kimi uçub uzaqlaşırdı. Manasın Ağqulası da ondan geri qalan deyildi. Sinəsini qaldırıb şığıyarkən yalmanı və quyruğu havada yellənir, Konqurbayı qarabaqara izləyib gedirdi. Bir-birləri ilə çəkişən igidlər dağ aşırımlarını, yal-yamacları aşdılar. Manasın Ağqulası ox kimi süzüb ağzındakı gəmini taqqıldadaraq, köksü qan-tərə batmış halda, başını yerə tərəf əyərək gedirdi. At yaman qızışmışdı.

Alookənin oğlu Konqurbay nərə çəkib mizraq vurmadan, canından umudunu kəsib, heç bir şeyə baxmadan «Esen xanın qapısına çatım» deyə dörd göz olmuş vəziyyətdə qaçırdı.

Böyük qumsallığa gələndə bahadır Manas Ağqulası ilə yetişib Konqurbayın ciyərini hədəf alaraq mizraq vurdu. O da çevik igid idi, mizraqdan yayınıb iti mizrağıyla bahadırın mizrağını kəsdi. Bahadır Manas Ər Konqurbayı qovalaya-qovalaya Çet-Bəycinin qapsına qədər apardı. Düşmənin hiyləsini bilən Almambet onu görüncə Saralaya qamçı vuraraq qəhrəman Manasın arxasınca gəlirdi.

– Aslanım, atının başını geri çevir! Qapıdan girmə! Qazılmış xəndək var! Geri çəkil, bahadır!

Belə deyən Almambet göz qırpımında özünü yetirib Ağqulanın cilovundan yapışdı və geri çəkdi.

– Ey, Almambet, burax məni! Yolumu kəsmə! Öldürüm o qan içəni! – dedi Manas, irəli atılmağa inad göstərərək.

Ər Almambet qızmış bahadırı sakitləşdirdi:

– Bahadır, hər səfərdə sözümü eşitməyib məni üzürsən!



Konqurbay özünü yalandan qaçırmış kimi göstərir. Qapının o tərfində, qalanın içində tətikdə duran pəhləvanların qazdığı xəndək var.

Çin əsgərlərinin atlıları qaçdılar, qalanları ələ keçirilib qanları axan dərin quyuya gömüldülər.

Almambet onbaşı, yüzbaşı, əllibaşı və minbaşını çağırıb əsgərləri dəftər qeyd etdirdi. Əsgərlərin hesabını aparanlar gördü ki, sağ qalanların yanında yaralanan bir çox insan vardır. Bir çox igidin aqibəti məlum deyil, ölənlər bunlardan daha çoxdur. Bu gün gördüyün sabah yox, dünyanın işi belədir. Bahadırların hamısını yoxlayıb baxdı ki, Elemanın oğlu Ər Töşdük, tanınmış bahadır Çubak yoxdur. Ölüm-itimdə bu iki aslanı kimsə görməmişdir.

Bivəfa dünya! Ağbaltanın oğlu Çubak qanadım idi. Önümdə yeriyərkən uğur gətirərdi, döyüşdə bir orduya bərabər idi! Mənə dayaq olan iki aslanımdan ayrılsam nə edərəm?! – deyən Manas göz yaşı tökdü.

Yorulmuş igidlər atlarının yəhər-yüyənini çıxarıb onları bir yerə bağlayandan sonra paltarlarını soyunmadan, monqol yəhərinə dirsəklənərək quş yuxusu ilə səhəri açdılar.

Şəfəq sökülərkən Çin ordusunun qaçdığı tərəfdən böyük bir ordu göründü. Yaxınlaşdığı zaman gördülər ki, cəsur Çubak Mancurların xanı Neskara başda olmaqla qırx bəyi bağlayıb gətirir.

Sevinc yaşı tökən bahadır Manas:-ah, canım Çubak!-deyə hay salıb onun qarşısına çıxdı.

– Manas xan! Bu Mancur xanının başını sənə hədiyyə gətirdim.

Bu sözləri deyən Çubak ələ keçirdiyi igidləri mizraqla nişan alaraq bahadır Manasın ayaqlarına döşətdi.

Bahadır Manas Mancur xanının başını kəsmək üçün qılmcını qınından sıyırdı.

Mancur xanı Neskara sözdə usta idi, xan Manasın önündə belə danışdı:

– Uca xan Manas! Baş kəsmək var, dil kəsmək yoxdur. Xanın sözünü xan dinlər. Bahadır, məni öldürməyin sənə heç bir faydası yoxdur. Öldürməsən əmirim sənsən, canımı əsirgəmədən dediyini eləyərəm, qulluğunda duraram, göydəki ayı sənə gətirərəm! Kölə desən kölən ollam! Məni öldürmə, xan Manas! Esen xanın gözəli Burulcanı sənə hədiyyə gətirim. Aycançunqun qızı gözəl Birmiskalı hədiyyə edim sənə.

Bu sözləri Neskara Manasa şeytan kimi yalvararaq söylədi.

Qılıncını qınına qoymayıb qan içməyə hazırlaşan Manası Ər Almambet saxladı:

– Bahadır, bağışla! Mancur xanı da, bahadırı da, bilicisi də Neskaradır. Bunu öldürməyin bir xeyiri yoxdur. Mənə qulaq as. Neskara ilə digər qırx bəyini orduda saxlayaq. Bir bəyi ilə Acıbayı xalqmın yanına göndərək. Neskaranın sözündə səmimi olub-olmadığını yoxlayaq. Pekini versə səni xan seçək. Əgər bunu etməsə, Neskaranı bəyləri ilə birgə öldürək. Pekinlə təkrar savaşaq.

Qırğızların on iki xanı, bəyləri, sərkərdələri, nüfuzlu adamları bir yerə toplaşıb məşvərət elədilər. Bu zaman yoxa çıxmış Elemanın oğlu Ər Töşdük çinlilərin min əsgərini, səkkiz yüz qırx atını qənimət alaraq gətirib gəlirdi. Qırğızlar doqquz oğulun ən kiçiyi Ər Töşdüyü yer altından yer üstünə bu gün çıxmış kimi qarşıladılar.

Elçiliyə kimsənin çıxmadığını görən bəd niyyətli altı xanın biri olan Eştəklərin Camqırçısı belə dedi:

– Kakançinə qopanları bir-biriylə birləşdirən, dağılanları bir araya gətirən ixtiyar Bakay varsın!

Xan Manas ox sancılmış kimi yerindən atıldı:

– Ey, Camqırçı, nə deyirsən? Bakay əmim getsə onu zindana salmazlarmı, ondan Neskaranı istəməzlərmi? Xanlıq əzab çəkməzmi? Bu dediklərini itlər eşitsin!

Altı xan qara bulud kölgəsinə çevrildi.

Gün işığı bahadır Manasın üstünə düşdü.



* * *

Qaranlıqdan işıq tapan, qəfildən söz tapan Arqın xanın oğlu Acıbay ox işləməz əlbisəsini geyinib, kürən atına minib tiyəsi daş kəsən qılıncını qurşanaraq Esen xana elçi sifətilə üz tutdu.

Həmişə xalqının dərdi ilə ağlayıb, sevinci ilə gülən Eybit xanın oğlu Ürbü onunla birlikdə getdi.

Acıbay ilə Ürbü elçiliyə getdilər.

Yetmiş qəbilənin dilini bilən Acıbay yer üzünün dörd bir tərəfini dolaşsa da Pekin kimi şəhəri görməmişdi. Esen xan Pekini xalqına zorla qurdurmuşdu – yarısını kərpicdən, yarısını daşdan. Gecələr şamı yanan qüllələri çox idi. Dar qapının dörd tərəfində dayanmış keşikçilər qırğızların elçilərini xanın xidmətçilərinə ötürdülər. Xidmətçilər elçiləri altun qapıdan rahiblərin ixtiyarına verdi.

Rahiblər təzim edib elçiləri Esen xanın hüzuruna apardılar.

Şirin dilli, hazırcavab Acıbay cin dilində, çəkinib eləmədən, açıqca, sərt bir şəkildə danışdı:

– Ulu Tanrının himayə etdiyi qırğızların, adı müqəddəs bahadır Manasın elçiləriyik. Xan Manas Kakançin xanı Esen xandan bunu istəməkdədir: Xoşluqla Pekinin xanlığını versin. Xanlığı verməsə, şərti qəbul etməsə şəhərə girəcəyik, onda xalqı zərər çəkəcək, döyüşmək istəsə Çet-Bəycinin yaxınlığındakı çölə gəlsin. Görəcəyini orada görsün!

Konqurbay hiddətlə «elçiləri doğrayıb dərilərini soyacağam» deyə irəli çıxmışdı. Onu Esen xan saxladı:

-Elçi durna quşu kimidir. Ölkələr arasında sərbəstcə dolaşar. Ona yol açıqdır. Elçi xanın sözünə qarışmaz. Bu silahsız elçiləri qadınlar belə öldürə bilər. Bu şəkildə öldürsən qisasını almış olmazsan. Düşməni ağıl və tədbirlə yenmək igid işidir.

Esen xan bu hikmətli sözləri söyləyərkən Ər Konqurbay qəzəblə bağırdı:

– İgid samrdım səni, Esen xan, qırğızların kölgəsini görüb əsirsən. Qırğızlara itaət edə bilmərəm, taxtımı hədiyyə verə bilmərəm, köhnə Pekinə gedirəm, Qaraxanın yanına.

Küsən Ər Konqurbay Çet-Bəycini buraxıb göyün altındakı qırx xanın böyüyü Qaraxana tərəf qaçdı.

Esen xan vəzir-vəkilləri, sərkərdələri, xanları, rahibləriylə toplantı keçirdi.

Esen xan saray qızı Burulca, Aycanqcunqun qızı Birmiskal başda olmaqla xan sarayından ay üzlü, incə belli, balaca ağızlı, çadı gözlü, xoruz boyunlu, düymə saçlı, saçbağı taxan nazlı min gözəli seçib, qırmızı ipək əlbisə götürüb, ata mindirib, dəvələrə altun yükləyib Cet-Bəycini mühasirəyə almış qırğızların xanı Manasa hədiyyə göndərdi.

Esen xan Bəycinin civarındakı düzəngahın təpəsində tikilmiş altun dəstəkli göy çadırdakı xan Manasın yanına gələrək atından endi və təzim edib belə dedi:

– Dünyada məşhur, etibarlı Manas xan! Dünyanı titrədən ulu bahadır! Sənin atlı qəhrəman igidlərinə əsgərlərim itaət etmişdir. Bahadırların qarşısında diz çökürəm. Bayrağım yıxıldı. Min gözəl qız sənə hədiyyə olsun. Altımdakı altun taxt sənə hədiyyə olsun. Pekinə xan seçək səni. Neskara kimi igidini öldürmə. Dediyini eləyək, qulluğunda duraq, bir-birimizi başa düşək, bahadır.

Qırğızların başbilənləri yarım gün oturub məsləhətləşdilər.

Manas xanın altun bəzəkli davulu vuruldu. Iramandın Irçı oğlu xalq arasında dolaşıb xəbər yaydı:

– Ulu Manasın qələbəsini eşidin, millət! Kakançin xanı ona itaət etmişdir;Cet-Bəycinin əsas xanı Manas oldu, millət! Min gözəl qızı hədiyyə aldı. Kakançini yendik deyə qürrələnməyin, millət. Sərxoş olub özünüzü itirməyin, millət.

Dalğalanan ordu «Yaşa, Manas! Var ol, Manas!» deyə ona dua etdi.

Cet-Bəycinə qırğız əsgərləri səf çəkərək ortadan yol açıb bahadır Manası qırx il suda qalsa rəngi solmayan, qırx il seldə axsa bozarmayan bəyaz xalıya oturdub Esen xan başda olmaqla yuxarı qaldırıb xalqın içində yeddi dəfə dolandırdılar.

Çin xalqı xan Manasa əyilib təzim elədi. Göyün oğlu deyilən Esen xan padşahlıq möhürünü altunla işlənmiş kağızın üç yerinə basıb taxt-tacından əl çəkdi, xan sarayında heç bir hərəkət etməyəcəyinə əminlik yaratdı.



Hər ölkədən, xalqdan gələn elçilər təzim edib, «Göy ilə yerin dəstəyi, Ay ilə Günəşin işığı, ulu Tanrının müqəddəsi padşahımız Manasa qulluq edəcəyik» deyə ona qiymətli hədiyyələri ilə saygı göstərdilər.

Bahadır Manas Kakançin padşahının ədəb-ərkamnı qoruyaraq bayrağını qaldırdı, gün keçdikcə yerinə isnişib ziyafət qaydalarına da alışmağa başladı.

Bahadır Manasın Cet-Bəycinə xan olmasının altmışıncı günü toy şənliyi düzənləndi. Ər Almambet gözəli Burulcanı, Ər Çubak Aycanqcunqun qızı Birmiskalı aldı.

Xan Manas Cet-Bəycində ilk olaraq altun kağıza möhürünü basıb fərman çıxartdı: «Kakançinin itaətkar xalqına qamçı qaldıranın, qadın və coluq-cocuğuna toxunanın, malını, mülkünü yağmalayanın, haqsız qazanc əldə edənin cəzası ölümdür».

Fərman böyük ordunun önündə oxundu.

Fərmana məhəl qoymadan altun və mal-mülk qamarlayanlar vardı. Almambet hamının önündə onların başlarını kəsdirdi. Ondan sonra əsgərlər qorxdu, bu hallar azaldı.

Manasın bütün xalqa xan olmasını bahadırın bədxah qohumları və yaxınları bəyənmədilər. Belə fikirlər dolandı:

«Bu ehtişamlı Sarayları, altun taxtı görməyən, belə şirin sözləri, rəqs və mahnıları eitməyən sadəlövh Manas Kakançini səhv salacaq».

«Qadın düşkünü bu iblis yataqda öləcək».

«Namusunu geri almaq üçün Ulu Çin onun işini bitirəcək. Tələyə düşübsə qurtaran deyil».

Belə çirkin sözlər Cet-Bəycinin civarındakı qırğız əsgərləri arasında dolaşmağa başladı.

Xan Manas bahadır Almambetə məsləhət verdi:

– Ərənim Almoş, zəfərimiz ortaqdır. İgidlik sənindir. Taxta

birlikdə oturmalıyıq. Cet-Bəycinə sən də xan ol.

Almambet dedi:

– Xeyr, bahadır! Mən xan olmaq istəsəydim gəncliyimdə Cet-Bəycində qalardım. Pekin taxtına sən otur. Dostunun hörmətini gör. Mən Talasdan çıxarkən qırğız ordusuna yürüş üçün xan olmuşdum. Ordu mənim üzərimdə. Başqa xalqları və bütün bölgədəki ordunu birləşdirək. Çorolar paltarlarını çıxarmadan gecəli-gündüzlü tətikdə dursunlar.

Bahadır, Ər Almambetin sözünə etiraz etmədi. Manasın xan sarayını ağılh Acıbay, Böyük ordusunu Almambet idarə etdi, gecə-gündüz uzaqlardan gəldi səsi. Xan sarayının aşbazı əlli il Kakançin xanına yemək hazırlayan, türkcə yaxşı danışan Şuykuçu oldu.

Ər Koşoy, Ər Bakay və qırğızların böyükləri söhbətləşib «Manas Pekinə xan oldu, altun taxta oturdu» deyə Ala-Dağ və Talasdakı qırğızlara xəbər vermək üçün böyük qalpak geyən Ər Şuutunu göndərdilər.

Manası burada buraxıb indi sözü həmin Konqurbaydan başlayaq.

Qəddar Konqurbay Göyün oğlu böyük xan Qaraxanın yanına gəldi və dedi:

– Göyün oğlu, mərhəmətli xan! Çin xalqının başı dərddə. Tarixinə silinməz ləkə düşdü.

Qırğızlar Cet-Bəycini itaət altına alıb xalqını ələ keçirdilər. Böyük bir ordu ver, möhtərəm xan, təzədən vuruşacağam.

Çin xanı Qaraxan tələsmədən rahibini çağırıb müqəddəs kitabı gətirtdi və müvafiq yeri oxutdu: «Qırğızların bahadırı Cet-Bəycini altı ay idarə edəcəkdir. Ondan sonra ruhu o biri dünyaya uçacaqdır».

Rahib bu sözləri oxudu. Qaraxan dedi:

– Bahadır Konqurbay, düşmən əlinin altındadır. Onu sən öldürəcəksən. Dəmirçi çağırıb sapı altundan olan, üzünə zəhər yaxılmış balta düzəltdir. Əjdahanın zəhərinə altı-yeddi dəfə batır. Dəyən kimi qırğızı məhv edəcək.



– Yaxşı, uca xan! – dedi Konqurbay təzim edərək.

Balta beş aya hazırlandı.

Ər Konqurbay alov saçan, iti tiyəli baltasına gecə-gündüz baxıb Manası kəsəcəyi günü düşünərək təsəlli tapırdı.

* * *

Bahadır Manasın həmişə yanında yayçı olan, köç vaxtı bələdçilik edən, yeddi yerin dağım-dərəsini yaxşı tanıyan Şuutu gündüz at sürüb, gecə at üstündə uyuyub, uçan quşlarla yarışıb, yeddi gün, yeddi gecə yol gəlib Talasdakı el anası Kanıkeyin iqamətgahına yetişdi. Bahadır Manasın yoxluğunu hiss etdirmədən kişi kimi qopanları bir-birinə birləşdirib, dağılanı bir araya gətirmişdi Kanıkey.

Şuutu at üstündə hay-harayla xəbər verdi:

– Xan anamız Kanıkey! Xan Manasın xəbərini dinlə! Hədiyyəni bol elə! Qırğızın istədiyi gerçəkləşdi! Xan Manas Kakançin və kalmıkları məğlub etdi. Bayrağını Böyük Pekinə sancdı. Manas Pekin taxtına altun tac qoyub xan olaraq əyləşdi. Eşidin, millət! Eşidin!

Gözəllər gözəli, qadınlar qadını Kanıkey xatun əvvəlki kimi şux idi, o Şuutuya qızıl səbikə verib, ona sarı başlı qoyun kəsdirdi. Yaxşı xəbərə sevinən xalqı üçün də Tanrıya dua etdi. Sonra Ər Şuutunu ayrıca çağırıb əsgərlərin vəziyyətini, çində gördüklərini, bahadır Manasın əhvalını soruşdu və nigarançılıqla dedi:

– Ər Şuutu, Manas Pekinə xan oldu deyincə, başına bəla açdı desənə. Altun taxta əyləşdi deyincə əcəli gəldi desənə. Neçə dəfə desəm də mənə qulaq asmadı. Pekin beş günlük yoldur dedi. Pekinin xalqı acizdir söylədi. Kakançinə xan olsa boğazından asılar, bahadırlarının hamısı çinlilərə əsir düşər, Şuutum. Eşitdiyimə görə Pekinə gedən geri dönməz, orada tutulan sağ qalmaz. Diqqətlə dinlə məni, Şuutum, uca soylu bəyim övladını nə zaman görəcək? Arxasında oğul övladı qaldı, bədxah qohumları pisliyindən çəkinməyəcəkdir. Bəyim Pekində ölsə gözümün yaşı qurumayacaq.

Bunları söyləyən Kanıkey hıçqıraraq ağladı. O gecə Kanıkey əcayib bir yuxu gördü. Talasdan alov çıxıb hər yeri bürüdü. Qədim gölün suyunu qurutdu, dərədəki və düzlərdəki çinar ağaclarını yandırdı.

Yuxudan diksinib ayılan Kanıkeyin dünyası qaraldı, pis yuxu gördüyü üçün saçından qoparıb yırtıq keçə ilə birlikdə ağac çanaqda yandırdı, «gecə gördüyüm pis yuxu keçə kimi yandın, evdə külün də qalmadı, çıx» deyə tüpürüb çöldəki küllüyə tərsinə tulladı.

Xan xatunu Kanıkey Ər Şuutunu bəyaz çadıra çağırdı. Beşikdəki körpəsinə baxıb, xəbərçiyə belə dedi:

– Ər Şuutum, məni dinləyib yola çıx! Əvvəlcə bahadır Manasa oğlunun xəbərini yetir, oğlun səni gözləyir de. Kanıkey ağlayır de.

Kanıkey qara gözlərindən yaş axıdıb kiçik bir məktub verdi.

Şuutu bahadır Manasın yürüşə minəcəyi savaş atlarından biri olan Tayburunu yedəyinə alaraq təkrar Böyük Pekinə atlandı.

Ər Şuutunun qayıtdığını görən Aqınay qızı Aruukə ona yaxınlaşdı:

– Əmi, sizə zəhmət verirəm, Almambet aslana iki kəlmə əmanət sözümü çatdıra bilərsinizmi?

– Yavrum, qulağım səndə, bir kəlməsini əskik çatdırsam Tanrının lənətinə gəlim-dedi Şuutu.

– Əmi, doğacağım günə az qalıb, bahadırıma hədiyyə olaraq altun naxışlı dəsmalımı götür-dedi Aruukə.

Şuutu tulpar atını oynadıb altı gün yol getdikdən sonra Pekinə yetişdi.

Həmin günlərdə Alookənin oğlu Konqurbay otların arasında ilan kimi qıvrılıb, meşələri aslan kimi yoxlayıb, zəhərə batırılmış baltasını əlinə alaraq qırğızların igidi Manası öldürəcəyəm deyə dərə-bərəni dolaşıb, utandığından Cet-Bəycinə girmədən yolları pusurdu.

Axşam olub qaranlıq düşərkən, Cet-Bəycinə yetişərkən, qapıdan içəri keçərkən Ər Şuutu Konqurbayla rastlaşdı.



Düşmən oğlu Konqurbay Ala-Dağa xəbər göndərib Ər Şuutunun getdiyini öyrənmişdi. Talasdan xəbər gələcək deyə yolu kəsib gözləyirdi. Ər Şuutunu görər-görməz Alqara atını şahə qaldırıb dağdan çıxan aslan kimi şığıdı.

Konqurbayı görən Şuutunun ürəyi yerindən oynadı. O, Tayburulu dəhmərləyərək arxasına baxmadan qaçdı. Güc-bəla oradan çıxan Şuutu çayın bataqlığına ilişdi. Konqurbay yaxınlaşmağa başlayarkən qanı qaralan Şuutu atını mahmızlayaraq çaya buraxdı, yetkin at karıxmadan çayın o biri sahilinə çıxdı. At çayı keəçrkən xurcunun ağzı açılıb Kanıkeyin yazdığı məktub suya düşdü. Şuutu buna məhəl qoymadan Cet-Bəycinə tərəf qaçdı.

Çox keçmədən, göz açıb-yumunca altun perçəmli (indiki mənada paqonlu-A.C.) Almambet Saralaya minib «Talasdan çıxan xəbərçinin gələn vaxtıdır» deyə yollara göz qoyurdu.

Şuutunu təqib edən Konurbayı görüncə yerində dayana bilməyib «Manas» deyə bağıraraq hücum etdi.

Almambeti görən Konqşurbay «bu zalım oğlu məni salamat buraxmaz» deyə vuruşmağa cəsarət etməyib atının başını başqa səmtə döndərdi.

Alookənin hərifi Ər Almambetin əlindən qaçmaqla qurtuldu.

Hərif qaçıb gedəndən sonra bahadır Almambet Talasdan gələn xəbərçini yanladı:

– Yaraşıqlı Ər Şuutum, var ol! Civil-civil quşları olan, bülbül ötən, yulğunlu, geniş Talas yerindəmi? İgidlər yetişdirən xalqın salamatmı? Arxamda oğlum yoxdur, amma Aqınay qızı Aruukə zövcəm sağ-salamatmı?

Bunları deyən Almambet Ər Şuutuya sarıldı.

Şuutu dedi:

– Kanıkeyin idarə etdiyi xalq salamatdır, bahadır! Altun saray yerində, bahadır. Sevgilin Aruukə çoxlu-çoxlu salam göndərdi. Aruukə bu yaxında doğacaqdır, bahadır. «Almambet arxamda oğlum yoxdur deyə çox üzülürdü, Pekindən gecikmədən oğlumu görməyə gəlsin» deyir.

Bu xəbəri eşidən, cocuq həsrətilə qovrulan Ər Almambet sevincindən göz yaşı tökərək ağlamağa başladı.

Qapının da, sarayın da gözətçiləri Ər Almambet ilə Ər Şuutuya sayğıyla baş əyib yol verdilər.

Bahadır Manas səbirsizliklə Talasdan xəbər gözləyirdi. Ər Şuutunu özü qarşıladı.

– Ər Şuutum, yaxşı xəbərləmi gəlmisən? – dedi Manas.

Şuutu sevinclə dedi:

– Bahadır Manas, Xan Manas! Müjdə! Oğlun olub. Adını Semetey qoyublar.

– Ayağı sayalı olsun, Tanrım oğlumu qorusun!

Ər Şuutum, Talasa qayıdanda sənə hədiyyə olaraq doğar heyvan verəcəyəm. Əyninə paltar, altına at verəcəyəm. Mənə qüvvət verdin, canıma can qatdın!

Şuutu davam etdi:

– Bahadır, xan anamız altı yorğa at verdi, balaca bir məktub verdi. Əmanət məktubu suya saldım. «Bahadırın Pekində yatmadan tezliklə geri dönsün-Talasa qayıtsın» deyir. «Yeganə oğlunu nə zaman görəcək» deyir.

Bahadır Manas Kanıkeyin bu sözlərinə o qədər də əhəmiyyət vermədi və dedi:

– Sağlıq olsun, yurdumuza dönərik, Ər Şuutum.

Manas qırğızlardan olan iki ordunun xanlarını, igidlərini bir yerə topladı. Belə bir əmr verdi:

– Xalqım, böyük bir yürüşə çıxdım. Yer üzünün o biri başından gəlib Pekinə itaət etdirdik. Namusumuzu birgə qoruduq. Əziz xalqım, hansı birinizlə pis rəftar etmişəmsə məni bağışlayın. Günahkar qalmayım. Ata-anasına baxmaq istəyənlər, xəstələr geri dönə bilər. Cəzalandırmayacağam, tutmayacağam.

Qəhrəman Bakay, Kataqandan Xan Koşoy, Elemanın oğlu Ər Töşdük başda olmaqla bir çox igid Ala-Dağa döndü. Pekinə yetişmiş ordu indi bir köç qafiləsinə bənzəyirdi. Göbək qanımız tökülən yer, hardasan, deyə yola düzəldilər. Altı xanın hamıdan əvvəl dönən bəzi adamları bahadır Manas haqqında dedi-



qodu yaymağa başladılar:

«Görəcyi günlər var. Manasımızın qabaran tuluğunun indi yeli çıxdı. Çinlilər onu ipək iplə boğacaqdır».

«Çinlilərin altun taxtına qurban getdi. Altun taxta xalqını satdı».

«Talasa diri qayıtmaz. Manasdan əvvəl xanlığı alacağıq. Muradımıza yetəcəyik».

Belə deyən altı xan sevincək Ala-Dağa tərəf hərəkət etdi.

* * *

Ər Konqurbay başına ox dəlməz dəbilqə geyib, biləyinə altmış gün əjdaha zəhərində qalmış altun yay və balta keçirib, gecə yatmadan, gündüz rahatlanmadan Manasm xan sarayını gözlədi. Yeddi gün, yeddi gecə gözləsə də daşdan dayanıqlı qapıdan içəri girə bilmədi.

Konqurbay xan sarayının gizli sirlərini öyrəndikdən sonra yanındakı çoxlu dil bilən rahiblərə dilənçi paltarı geyindirib, əlinə dəyənək verib, çiyninə bəyaz heybə qoyaraq qırğızca vird elətdirib qapıdan içəri soxdu.

Dilənçi Manas xanın aşbazı Şuykuçuya gizlicə yaxınlaşıb çörəyin içində gizlədiyi məktubu alaraq çıxdı.

Konqurbay çörəyi yarıb məktubu oxudu ki, Şuykuçu Xan Manası öldürməyin yolunu yazıb. Məktubda belə yazılmışdı: «Pekini idarə edən Manası savaşaraq, güləşərək yenə bilmərik. Bunun bir yolu var: hər cümə günü bir dəfə dan söküləndə, yer aydınlananda, çay sahilində əl-üzünü yuyub, çılpaq ayaqla silahsız, qorxusuz-hürküsüz yerə və suya ibadət edib sakitcə oturur. Kürəyində ovuc boyda bəyaz xal var. Əcəlinin gələ biləcəyi yer oradır. Ondan başqa çarə yoxdur».

Ər Konqurbay zəhərə batırılmış baltasını qurşanıb sirli mizrağını əlinə alıb gün sayaraq qara başlı, qaplan kimi marığa yatdı, qanadlı quşların belə uçub keçə bilmədiyi qapıya gəldi.

Gecə yarı olanda gözətçilər yatanda Alqara atıyla yavaşca keçib getdi.

Qırx çoronun içində o gün gözətçilik növbəsi Acıbaya düşmüşdü. O, heç ağlına gətirmədən, bayırdan düşmən gələ biləcəyini düşünmədən mizrağını yerə sancıb at üstündə yuxuya getmişdi.

Dan söküləndə bahadır Manas üzü küləyə ayaqyalın çıxdı. Göy çayın sahilində önünə bəyaz örtük salıb oturaqlı vəziyyətdə sübh şəfəqlərinin qırmızı rəngə boyadığı uca dağa baxıb Tanrıya ibadət edərək günəşdən həyat gücü alaraq sakitcə durdu. Bu adəti uşaqlıq illrində Oşpurdan öyrənmişdi.

Kalmık xanı Konqurbay sakitcə oturan Manasın kürəyinə iki əliylə balta endirdi. Bahadır Manas yerə sərildi.

Yıxılmış dağın çıxara biləcəyi səsə bənzər bir səs eşidən Acıbay qorxub yuxudan ayıldı. Bahadır Manasa gəlib baxdı ki, yerə sərilib. Ətrafına baxdı ki, qara oyuqdan bir qaraltı qaçmağa çalışır. Acıbay ata minərək qaçan qaraltıya mizraq vurdu.

Konqurbay qanadlı qara atı ilə qaladan qaçarkən huşunu itirib bir xəndəyə düşmüşdü.

Gözləyib duran Şuykuçu kimsəyə bildirmədən onu xəndəkdə bəslədi, üç öyün yeməyini verdi. Dava-dərmanla sönmüş odunu yandırdı, ölən canını diriltdi.

Şuykuçu Konqurbay yaxşılaşandan sonra onu müsəlman qiyafəsinə salıb əlinə dəyənək verdi. O, camaatdan sədəqə istəyərək dilənçi sifətində oradan çıxdı.

Ər Konqurbay Kakançin xalqına «Manası öldürdüm» deyə xəbər verdi.

* * *

Xan Manasm yarasını görən Almambet çaşdı:

– Lənətə gələsən, belə dünya, dostum Manas varkən neçə igidi yola gətirəcəyəm deyirdim. Çin deyil, dünyanı ələ keçirəcəyəm deyirdim. Böyük bir ordu üstümüzə gəlsə yanımda Manas varkən yer ilə göyün arasını toza, dumana bələyəcəyəm, deyirdim.

Almambet iki gözünü qırpmadan yaş tökdü. Çinin min çeşit dava-dərmanını gətirib ona verdi. Qan itkisindən saralan bahadırın içdiyinə qovudu qaynadıb qatdı, qısrağın qarın yağını yarasına sürtərək ağrısını aldı. Onu əvvəlki halına qaytarıb ata mindirdi. Bahadır Manas yaxşılaşandan sonra yeganə oğlunu görsün deyə xeyli ərzaq hazırlayıb minlərlə əsgərlə birlikdə kimsəyə bildirmədən onu böyük Talasa yola saldı.

Atlarını sürüb yola çıxdılar. Günlər keçdi. Aslan Manas «əvvəllər xalqa Pekinə itaət etdirdim deyə xəbər göndərmişdim, indi «başı balta yeyib, çinlilərdən qorxub qızıl-gümüşünü yağmalayıb qaçıb gəlib» deməzlərmi mənə? Əcəlim gəlibsə öləcəyəm. Nə olursa olsun orduyla birlikdə olacağam» deyə düşündü.

Qəhrəman, ordusunu saxlayıb qərərgahda qalan əsgərlərdən xəbər gözlədi.

Saxlanılan qələbəlik əsgər ətrafına daşdan istehkam qurub, keçə ev tikib qaldı.

* * *

Pekindən Çin ordusu hərəkətə keçib Xan sarayını dörd tərəfdən mühasirəyə aldı.

Xan sarayında davul çalındı, qırmızı bayraqlı qırğızlar böyük düşmən ordusunu qumlu çöldə qarşıladı.

Bu səfər də qanlı savaş oldu. Təkə-tək döyüşlər olmadı, inəyin üstündəki tüklər qədər çox olan iki ordu bir-birinə girdi. Dağlar bir-birinə dəyirmiş kimi gumbur-gumbur səs çıxdı.

Bu gurultudan yer, insan qanı çay kimi axırdı. Günəşin üzü görünmürdü. Qırğızla çinli bir-birindən fərqlənmirdi. Mizraqlar parçalanmış, atların beli qırılmışdı. İgidlər yerdə qarışqa kimi düzülü yatırdı, cəsədlər dağ kimi qalanmışdı.

Bu gün gördüyün sabah yox, bu dünya necə vəfasız imiş.

Qəhrəman Manasm «su iç» desən zəhər içən, heç bir şeydən çəkinməyən, oxdan, ölümdən qaçmayan, düşmən qabağından çəkinməyən qırx çorosu getdikcə çoxalıb sel kimi gələn düşmənlə üz-üzə qaldı. Başlarına gələn bu fəlakətə baxmayaraq cəsur döyüşçülər gecə-gündüz bilmədən döyüşdülər.

Bir içim suyu tapılmayan çöldə doqquz gün savaş oldu. Yaralanmayan igid, ayaq üstdə dura bilən at qalmadı.

Qırx xanlı çinlilər bitib-tükənmirdi, öldürüldükcə çoxalır-

dı, güclənirdi. Çinlilərin inək tükü qədər çox sayına əvvəlcə əhəmiyyət verəməyən qırğızların igidləri öz aralarında belə danışdılar: bitib-tükənməyən, inadcıl çinlilər yıxıb-dağıdan sel kimiylərmiş.

Qırğız əsgərləri çaşqın vəziyyətdə «necə olacaq» deyə düşünürlərdi. Öndəkilər ölmüş, arxadakılar Manasa tərəf qaçmağa başlamışdı. Elə bu məqamda qaplan kimi igid olan Almambet buludla yer üzünü örtdü, yazı qışa çevirdi. Yuxa geyinən çinlilər soyuqdan əsərək qırğız ordusuna hücum etmədi.

Qırğız ilə Çin ordusunun savaşdığı yer uçan quşların qanadının yandığı İt-Ölbös deyilən çöl idi.

Dizdən olan bir dağı, yəhərin oyuğu qədər bir çalası, içməli bir qurtum suyu, yolub yeməli bir cəngə otu olmayan qırx günlük yol idi.

İt-Ölbös çölündə yenidən qan iyi gəldi. Uçan quşlar həlak oldu, bəmbəyaz daşlar qızardı.

Qırğız igidləri «vur-qaç» fəndi ilə geri çəkildilər.

Vur-qaç savaşı zamanı üç qəhrəman Çubak, Sırqak və Almambet meydana girib aslan kimi kükrəyərək, sağa-sola baxmadan öləcəklərini düşünmədən, canlarını əsirgəmədən, yaralarına məhəl qoymadan çinlilərə boyun əymədən günlrlə vuruşdular.

Almambetin əsgərləri bahadır Manasın yanına yetişdi. Bahadır Manas qaçmaqdan arlanıb yerində dayanıb qalmışdı, arxasından özünü çatdıran üç bahadırı görcək çox sevindi.

Yarasını vecinə almadan, ölümü heç düşünmədən, belini möhkəm bağladı. Qeyrətə gəlib düşmənin qarşısına çıxan xan Manası görən qırğızlar utanıb qarşılaşdıqları düşməni öldürmək üçün təkrar savaşa girdilər.

– Bahadırlar, başınızı qaldırın! Namusunuzu qoruyun! – dedi Manas hayqıraraq.

Çinlilərin dalğalanan yürüşündən toz dumana qarışdı, göy üzü görünməz oldu. Ətrafı gurultu bürüdü, at kişnərtisi, qılıncların, qalxanların bir-birinə dəyməsi, insanların iniltisi dünyanı başına götürdü.



«Manas! Manas!» deyə eşidilən şüar qırğızlara cəsarət və güc verirdi.

Qəddar Konqurbay çinli, mancu və kalmıkları heyvan kimi döyüb dava meydanına sürüklədi. Bu səfər neçə-neçə igid həlak oldu. Neçə at yəhərsiz, sahibsiz qaldı. Atlar qızıl qanla boyanan çöldə yıxılan igidlərin arasında dolaşaraq yanıqlı-yanıqlı kişnədilər.

Hər iki tərəfin ordusu qüvvətdən düşərkən kalmık xanı Konqurbay bir hiylə qurdu.

Xan Manasın önünə ağ bayraqlı Çin elçisi gəldi:

– Xan Manas, ölümdən qorxmayan döyüşçü olduğunuzu gördük. Xan Konqurbay yeddi günlük fasilə istəyir. Qaraxanla danışıqlar aparaq. Ölən igidlərin cəsədlərini yığaq. Artıq sizi Böyük Pekinə aparıb, başınıza qızıl tac qoyub ulu xan seçəcəyik.

Bahadır Manas elçinin yalvarışına inanıb Çin ordusuna yeddi gün möhlət verdi.

Qırğızların haldan düşən yorğun əsgərləri çinlilər təslim oldu deyə, rahatca yatmaq üçün silahlarını yerə qoyub, atlarını otlağa buraxıb uyudular.

– Bahadır Manasın Çin ordusuna möhlət verdiyini iki gündən sonra bilən Almambet karıxıb hirslənərək belə dedi:

– Əzizim Manas, sözümü eşitmirsən. Qəbrimi qazıb məni dəli eləyirsən. Əgər yeddi gün möhlət verməsəydin çinlilərin canını almazdımmı? Əyləncə nə olduğunu göstərməzdimmi? Kanqaydakı çinliləri bir-birinə qatmazdımmı? Məsləhətləşmədən möhlət vermisən. Çinlilər təzədən hazırlaşacaqlar! Yeni ordu qurub təkrar gələcəklər. Bizim əsgərlərimiz yorulub. Köməyə gələsi qüvvəmiz yox. Çinlilər usta nişançını gətirməsələr yaxşıdır. Əgər gəlsə bizim buradan Talasa sağ qayıda biləcəyimizə heç inanmıram. Bax, onda fəlakət olacaq, bahadır.

Manas səhvini anlasa da başqalarına bildirmədən, özünü sındırmadan dedi:

– Ey, Almambet! İgidə yaraşmayan söz danışırsan. İgid taxtda yox, yəhər üstündə ölər. Oğul doğan xalq ölməz. Başı-

mıza gələni görərik, bahadır.

Ər Almambet uzaqgörən adam idi. Düşündüyü doğru çıxdı. Çin ordusundan xəbər tutmaq üçün gedən Acıbay qayıdıb belə dedi:

– Çinlilərin günəşi doğub. Tüpkördən təzə ordu gəlib. Nişançı Şıpşayı gətiriblər.

Vəziyyəti dərk edən bəzi qırğızlar yaralı Manasa acıyıb onu tələsik yola saldılar. Özləri isə təzədən döyüşə atıldılar.

Çinlilər boz, ala-bula bayraqlarını qaldırıb, zurna çalıb, az qalan qırğız əsgərlərinə hücum etdilər. Qırğızlar da «Manas!» deyə birlikdə savaşa girdilər. Qeyrətli ərənlər canından keçib döyüşməyə başladılar.

Heyvanlardan at öldu, igidlərdən aslan öldü, neçəsinin qanı töküldü, ağzını açıb ölən atların leşi dağ kimi qalaqlandı. Bığları eşmə, ölən igidlərin meyitləri dağ kimi qalaqlandı.

Manas xanın qırx çorosu ara-sıra döyüşə atılıb igidliyini göstərdi.

Çinlilərin igidi Konqurbay yaralı Aydarxanın oğlu Ər Kökçönü öldürdü. Buudayık xanın oğlu Muzburçak, Kökötöyün oğlu Bokmurun öldü.

İgidlərindən ayrı düşən Ər Sırqak Kökçəbiçini sürüb çinlilərə hayqıraraq rast gəldiyini devirib yeddi igidi bir anda qılıncdan keçirib gedirdi.

Ər Sırqakı görüb qaçan çinliləri geri qaytarmağa çalışan Alookenin oğlu Konqurbay nişançı Şıpşaya yalvardı:

– Qurban olum, Şıpşay, bu qırğızların Sırqak deyilən bahadırı cavan olsa da neçə igidimin belini qırdı. Məni də öldürmək istəyir. Qadan alım, nişançım, başqasını demirəm, bu Sırqaka bir bax...

Qaraçoy oğlu Şıpşay deyilən igid qaynar gözlü, usta nişançı idi, Ər Konqurbay, ər Almambet ilə gəncliyində Suuk-Tör adlı meşəli dağda təkgözlü əjdahanın yanında birgə oxumuşdu, çevik atı vardı. Qaranlıqda iynənin dəliyini çaşmadan vuran, önündən insan keçə bilməyən, oxu boşa çıxmayan, bənzəri tapılmayan bir bəla idi. Qırğızların Sırqak bahadırını nişan aldı.



Qəhrəman Sırqak nəfəs almadan düşmənin ortasını yaran qırx çoroya kömək edirdi.

Çin əsgərləri çığır-bığırla qaçırdılar.

Ər Sırqak bayraq sancılan yerə çatıb nişançı Şıpşayın atası Qaracoyu vurub atından saldı. O, özünə gəlincə bahadır Almambet Sarala atma qamçı vurub gələrək qorxunc bir hayqırtıyla pəhləvan Qaracoyun başını kəsdi.

Bu çinlinin oğlu Konqurbay haray-həşir qoparıb bığlarını yolaraq «Almambeti öldürəcəyəm» deyə atına qamçı vurdu.

Ər Konqurbay Alqarasını sürüb Almambetə yaxınlaşmış, onu öldürmək istəyərkən, Ər Sırqak yan tərəfdən çıxıb qocaman hərifi at üzərindən alacıq kimi devirib keçdi.

Ər Sırqak düşmənin Alqara atını qənimət olaraq götürmək istəyrkən altındakı Kökçəbic sürüşdü, başındakı polad dəbilqə uçub yerə düşdü.

Elə bu vaxt hədəfi vurmağa fürsət gözləyən nişançı Şıpşay ox atdı. Ər Sırqak yerə yıxıldı. Kökçəbic onun yanından ayrılmayanda ona da ox atdı.

İgidlərini itirən Almambet Çin ordusuna nişançı Şıpşayın gəldiyini başa düşdü. Başa düşdü, amma nə edə bilərdi ki, çin əsgərləri nişançını bayrağın yanına qoyub göz bəbəyi kimi qoruyurdular. Kimsəyə görünməsin deyə ətrafına ilan kimi sarılmışdılar. «Şıpşayı ələ keçirəcəyəm» deyə əllərini qaldırıb, ətrafına baxmadan canını heç düşünmədən təkbaşına hücuma keçdi igid. «Dostum Almambetə kömək edəcəyəm» deyə uzun boylu, enli kürəkli, aslana yenilməz, saysız-hesabsız əsgəri saymayan xan Bakayın oğlu Çubak da döyüşə atıldı.

Ər Çubak belini bağlayıb Göyalasına qamçı vuraraq çinlilərin Qançarqol adlı pəhləvanını öldürdü. Qançarqolun öldüyünü görən Ər Konqurbay gözlərindən od yağdırıb, daşı yaracaq şəkildə kükrəyərək gəlib Ər Çubakı atından yerə saldı.

Çubak atından düşürdüləndə onu altı min pəhləvan arasına aldı. Çarəsiz qalan qəhrəman Çubak ölməyini düşünmədən göy-

dən enən altı poladın biri olan kəskin qılıncını əlinə alıb qarşısına çıxanı öldürdü. Ər Çubak doqquz gün düşmənlə döyüşdü.

«Çubak hardadır» deyə axtaran Ər Almambet ətrafa boylanaraq dara düşmüş dostunu görcək dəli bir nərə çəkdi. Qarşısına çıxan igidləri qılıncıyla, mizrağıyla vuraraq Ər Çubaka yaxınlaşdı. Onu Saralaya mindirib aradan çıxartdı.

Ər Çubak yolda duran Göyalasını mindikdən sonra yenidən geri dönüb savaşa girdi.

Sübh çağı, yer aydınlaşarkən Manasın qırx çorosu birbirindən ayrı düşdü. Ərənlərin bəziləri altı yerindən, bəziləri yetmiş yerindən yaralandı.

Çöl-Maydan düzündə qırğızlar bölünüb, çarəsiz «vur-qaç» döyüşünə əl atmaqla qaçmağa başladılar.

Beli qırılan ordusunu görüb kədərlənərək ağlayan Almambet qırx igidə yalvardı:

– Belə etməyin, qırx çoro! Dirəyimiz Manas yanımızda olmasa da dalğalanıb gələn çinlilərlə döyüşüb ordunu xilas edək. Ordudan ayrılıb Ər Manasa necə baxa bilərik. «Qorxaq qırx çoro qaçıb qurtardı» deməzlərmi?

Almambetin arxasınca qırx çoro nərə çəkib döyüşə atıldı. Günlərin gəlib-keçdiyi bilinmirdi.

Arqın xanın oğlu Acıbayı çinlilər diri tutmuşdu. Acıbayı görən Çubak da yetişdi. İgid Almambet də hücuma keçdi. Ər Almambet Acıbayı atının tərkinə alaraq aradan çıxartdı.

Çinlilər bölüklərə ayrıldılar. Öldürüldükcə çoxaldılar, getdikcə gücləndilər.

Gen dünya dar oldu. Yer üzü igidlərin, atların qanı ilə suvarıldı. Bir içim su tapılmırdı. Atlar susundan ölürdü. İgidlər bayılıb qalmışdılar. Neçə pəhləvanın bədənindən qan sicim kimi axırdı. Onlar mizraqlarına dirənib halsız qalmışdılar.

Cəngəllikdə gizlənən, rəngli paltar geyinmiş, gözə görünməyən, harada olduğu bilinməyən nişançı Şıpşay qüvvətdən düşən qırğızlara yağış kimi ox yağdırdı.

Nərə çəkəndə saysız-hesabsız əsgərə bərabər olan, noyqutların qəhrəmam xan Baltanın oğlu Çubak öldürüldü.



İt-ölbösün çölündə, qələbəlik çinlinin içində yalqız qalan Almambet gözlərindən yaş tökərək «igidlərin intiqamını alacağam» deyə çoxlu sayda kalmıkla savaşdı.

Çinlilərin bəzi igidləri də qırıldı. Buna məyus olan Konqurbay Şıpşaya yalvardı:

– Bahadır, yaş otla yanan ocaq pisdir, öz içərisindən çıxan düşmən pisdir. Sirrimizi bilən Almambet qorxuludur. Xalqımı bu donuz qırıb qurtardı, igidlərimi öldürdü. Başqasını vurmasan da bu Almambeti vur. Qarşısına çıxıb qaçırmış kimi onu yaxına gətirək. İti öldür, qisasımı al.

İnsanlar arasında bənzəri tapılmayan, belini möhkəm bağlamış, qılıncı əlində, baltası belində parıldayan, sirli mizrağı sivricə duran, qara bulud kimi görünən, əzrayilə bənzəyən, ağzından alov püskürən, altı min igidə cavab verə biləsi əjdaha heybətli Almambet təpədən çıxıb gəldi.

Almambetin zəhmi basan Konqurbay atını qamçılayaraq qaçdı.

Almambet «mancuru əlimə keçirəcəyəm» deyə ətrafına baxmadan onu təqib etdi.

İki bahadırın atlarının yorğa olduğu düzəngahda bilindi. Yamacda kalmık igidi Konqurbayın qanadlı Alqarası uçurdu. Almambetin Saralası da arxasından çatmaqdaydı.

Sarala heyvanların ən çeviki idi. Ancaq bu dəfə heyi kəsilmiş bir halda gedirdi. Ər Almambet Saralasına belə yalvardı:

– Yaxşı dostum Sarala, Qəmbərbozun soyundansan, məni Konqurbaya yaxınlaşdır, ona mizrağımı vursam istəyimə yetərəm.

Düzə çıxanda Sarala Alqaraya lap yaxınlaşdı, bu məqamda soylu aslan Almambet Konqurbayın sağ çiyninə mizraq sapladı.

Konqurbay şüurunu itirdi, gözləri qaraldı, ayaqları üzəngidən çıxdı, qaçmağa başladı. Kürək tərəfdən sancılmış mizraq isə arxasınca sallanırdı.

Almambet isə «Konqurbayı ələ keçirib qurbanlıq kimi başını

kəsəcəyəm» deyib gözləri dörd olmuş Saralanı qamçılayırdı.

Bu zaman, bir göz qırpımında Arqın xanın oğlu Acıbay özünü yetirib Saralanın cilovunu çəkdi:

– Getmə, Alma ağa, qəzəb düşmən, ağıl dostdur! O, özünü qaçırmış kimi göstərib səni tələyə salmaq istəyir. Səbr et, Almoş, səbr et.

Acıbay ağzını yumana kimi düşmən qarğa-quzğun kimi tökülüb Almambeti araya aldı.

Lənətə gəlsin belə dünyanı! Zavallı Almambetin yüz yerinə mizraq saplandı, dolu kimi yağan oxla yetmiş yerdən yaralandı. Canına qüvvət verib darda qalmasına baxmayaraq heç nəyə məhəl qoymadan çin pəhləvanları ilə döyüşdü. Qan içmədən qınına girməyən, hədəfdən yaymmayan, daşı parçalayan qılıncıyla düşmənlərini məyus etdi.

Ər Konqurbay dağın yamacında görünəndə xan Almambet hiddətlə Saralanı qamçıladı. Gücdən düşən Sarala bir qara daşa ilişib yıxıldı.

Bayaqdan fürsət gözləyən Şıpşay Almambet qalxanını üzünə tutana kimi ona ox atdı.

Ər Almambet vuruldu. Büsbütün açıq olan göy bir anda qaranlığa büründü, qırğızlar üçün böyük itki oldu. Almambet ölərkən sevimli aslanından ayrılan ordu üzülərək ağladı.

Yəhərli, yüyənli Sarala sağ ayağına ox batdığı üçün döyüş meydanından çıxdı. Qulununu itirmiş at kimi kişnəyib sahibini axtardı.

Qırğız ordusunun qüvvətlilərinin çoxusu bu savaşda şəhid oldu. Qırx çoronun on ikisi öldü. Ordu Almambet kimi sərkərdəsindən, arxalandığı dağından məhrum oldu. Heydən düşüb halsızlaşan qırx çoronun sağ qalanları bir yerə toplaşıb «çinlilərlə son damla qanımıza qədər döyüşəkmi, yoxsa geri dönəkmi» fikrinin hansını seçmək məqsədilə arxadakı yaralı Manasın yanına xəbərçi göndərdilər.

Iramandın Irçıoğlu xan Manası görüncə sol böyrəyini tutub, qamçısıyla yerə dirənərək şeir söylədi, qırx çoro igidlərinin öldüyünü, əsgərlərin qırıldığını, əzildiyini anlatdı:

– Aslanım, bəyim xan Manas! Aslanlardan ayrıldıq. İt-ölbösün çölündə döyüşüb çolpan kimi çorolardan ayrıldıq. Bahadır Almambetin qılıncı əyildi.

Dərd çəkən yaralı Manas çox üzüldü, dolan gözlərindən yaş axıtdı, hıçqıra-hıçqıra ağladı:

– Uca soylu sevimli Almambet, əkiz qardaş idik, səndən ayrı necə yaşayaram?! Əsillərdən ayrılıb Talasa dönməkdənsə, Pekinə girib ölsək yaxşıdır! Lənətə gəlmiş çinlilərdən Almambetin qisasını almalıyıq.

Onun səsi yerin-göyün yeddi qatına çatdı.

Xan Manasın bu halını görən igidləri sarsıldı. Dava-dərmansız qalan canlarından umudlarını kəsdilər.

Bahadır Manas qeyrətə gəlib zirehini geyindi, davul çalaraq geridəki əli silah tutan əsgərləri topladı.

– Ey, ərənlər, qeyrətə gələk! Namus üçün atlanaq! – dedi Manas.

– Xanın sözü Tanrının iradəsidir. Kişi xalqın içində yox, düşmənin qarşısında olmalıdır! – deyərək arxadakı yaralı əsgərlər çinlilərlə savaşan qırğızlara kömək etmək üçün hərəkətə gəldilər.

Qırğız ordusu məğlub olub qaçmağa başlamışdı. Bahadır Manası uzaqdan görüncə qeyrətə gəlib təzədən döyüşə atıldı.

İgidlərini itirmiş bahadır Manas qəhərlə hayqırır, çinliləri məhv etmək üçün Ağqulaya minib ağ mizrağından yapışıb ətrafı sərt baxışla süzürdü.

Manası tapa bilməyən Çin nişançısı Şıpşay bir qayanın yanına gəldi. Manasın özünü vursam ox batmaz, deyə altındakı Ağqulanı vurdu.

Qaplanım Ağqulası əvvəlcə kişnədi, sonra çənəsini Manasa söykəyib başını yana çevirib dağ uçurmuş kimi yıxıldı.

– Qurban olum, Ağqula, qanadım qırıldı. Gözəl atım, yer üzündəki dırnaqlılar arasında bənzəri olmayan tulparım. Yaşıdım, qulam, qaçışı heç bir ata bənzəməyən dayağım.

Manasın iki gözü iki çeşmə oldu. Ağqulanın qumaş çulunu

götürüb saplanan oxu onun bədənindən çəkib çıxartdı, boynunu qucaqlayaraq əzizlədi.

Bahadır Manas alaca saplı bəyaz qılıncını sıyırıb dəvənin göz yaşları kimi yaş axıdaraq qıvrılan Ağqulanı kəsdi.

Qiymətli gövhər Ağqula qırğızların yaxşı uzmanları, bəsirət sahibləri tərəfindən dəyrləndirilmiş çöl atının nəslindən idi. Qulun ikən yeddi atın südünü əmən, dağı-daşı birnəfəsə dolaşan, nəmli yerlərdə ağnayan, çevik bir heyvan idi. Dırnağı çevrilmiş çanağa bənzəyirdi. Altı ay minilsə yorulmayan, kəşfiyyata çıxanda usanmayan, savaşdan qaçmayan, gurultudan ürkməyən, tulparın tulparı, atların qanadlısı bir at idi. İndiAğqula çanağa bənzəyən iri dırnaqlarını yerə vurduqdan sonra gözləri dağ qoçunun gözləri kimi qızarmış vəziyyətdə tərpənmədən yatırdı.

İndi xan Manas, neçə xanlara diz çökdürən bahadır Manas, Pekini ələ keçirən aslan dünyanın vəfasız, yalan olduğunu gördü, «yalan dünya, xeyirsiz dünya» deyərək fəryad qoparıb qumu ovuclayaraq yumruqları arasında sıxdı.

Alp Manas bəyaz kaftanının yaxası açıq vəziyyətdə «Tanrının yazısı beləymiş» deyə yerində ixtiyarsız qalmışdı.

Manas dar ayağa saxladığı ucu kəskin oxunu götürüb qara bir daşın arxasında gizlənərək «sonsuz səhrada qırğızın atını öldürdük, özü hara qaçacaq» deyə sevinən çinlilərin bəylərinə göz qoydu.

Alov saçan ox şimşək kimi şığıyıb çinlilərin nişançısı Şıpşayın qırtlağını dəlib keçdi. Bunu görən çinli əsgərlər dağılıb qaçdılar.

Dişlərini qıcayan, belini düzəldən aslan Manas yeni doğmuş günəş kimi əzəmətli görünürdü.

Bu zaman çinlilər və mancurlar Manası diri tutmaq üçün onu mühasirəyə aldılar. Zavalıl aslan ümidini itirib çaşqın vəziyyətdə qalırkən yaxınlıqdakı qayanın arxasından tanış bir səs gəldi.

Bahadır Manas bir də baxdı ki, övliyaya bənzəyən Ər Bakay göydən enmiş kimi göy atına minib, Narbuudan ilə Tayburulu da yedəyinə alıb gəlir.



– Ölən canı diriləldən, sönən ocağı alovlandıran ağabəyim Bakay, burdasanmı? – deyən Manas yaşıdı Bakayı uşaq kimi qaldırıb atdan yerə endirdi.

Bakayı sevimli yengə Kanıkey göndərmişdi. Bəd xəbəri altı ay öncədən xəbər verən mələyi olan Kanıkey pis bir yuxu görmüşdü. Yuxusunda göy bayrağın altında qışqırırdı. Qarğaları qovan bəyaz sunqur quşu qanadsız qalmışdı. «Əmi, dostun ölməyibsə, gətir» deyə zavallı Kanıkey gözlərindən yaş töküb kiçik bir məktubla Ər Bakayı göndərmişdi. Bakay bəbir dərisindən qalpaq geyinib göy atına minərək gecəli-gündüzlü on iki gün yol gəlib özünü Manasa yetirmişdi.

Ağ buğda unundan bişirilmiş çörək yeyən, dodaqaltı kəlmeyi-şərifi mızıldayan Ər Bakay ağ quyruqlu Tayburulun belinə Ağqulanın bəyaz Monqol yəhərini qoyub Manası mindirdi.

Ox işləməz çul örtüklü ata minib silah-sursatını qurşanandan sonra Bozqurd Manas durardımı daha, düşmənin qabağından geri çəkilərdimi heç. «Konqurbaydan qisasımı alacağam» deyə ağzından alov çıxarıb, gözündən od yağdırdı.

Manas qırx çorosunun sağ qalanlarını toplayıb onları qeyrətə gətirdi, cəsarətləndirdi. Ordunu toplayıb mizraq tutanaları, balta tutanları və nişançıları ayırıb, gücsüzləri bir kənara çıxarıb, Ər Bakayın əlinə bayraq verdi. Bahadır ac aslan kimi qeyzlə, əjdaha kimi heybətlə onu dövrəyə almış düşmənlə karıxmadan savaşdı.

Sonsuz çöldə çinlilər ilə qırğızlar arasında ölüm-dirim savaşı başlandı.

Birdən-birə dağ yerindən oynamış kimi toz-dumana qarışdı.

İgidlər atından yumalanır, atlar yerdə çapalayırdı.

Savaş beş gün, beş gecə sürdü.

Bahadır Manas çinliləri məğlub etdi. Çin əsgərləri qaçaraq böyük qapılı sərhədlərindən içəri doluşdular.

Pekin səddi qırx arşın hündürlükdə idi, ətrafında qazılan göl də qırx arşın dərinlikdə idi. Toz-dumanın girə bilmədiyi, üstündən quş da səkə bilmədiyi, kimsənin aça bilmədiyi qapısı

daş kimi dayanıqlı idi.

Qırğızların alp-ərənləri hasarın dibinə gəlib «qapını qıracağıq» deyə bir-birinin ardınca qapını döyəclədilər.

Bu zaman mavi göydən bir səs eşitdi Manas:

– Tanrının oğlu Manas! Çinlilərə gücün yetməz, daha Pekinə girmədən geri dön!

Manas Tanrının əmrinə qulaq asıb savaşı saxladı.

Bahadır Manas savaşdan sonra qan qoxuyan döyüş meydanında sıraya düzülmüş əsgərlərini nəzərdən keçirdi.

Qırx çoronun daha yeddisi həlak olmuşdu. Vəfasız dünya! Bir-birlərinə and içmiş ərənlər bir-birlərini qoruyaraq, düşmənə boyun əymədən canlarına qıymışdılar.

– Sevimli bahadırlar! – dedi Manas, atından düşüb başını əyərək, – əsilzadə ərənlərim, sizlərdən ayrıldım! Savaşda düşmənə atılan ox idiniz, üşüyənə od-ocaq idiniz! Millətimizi və namusumuzu qorumaq uğrundakı mücadiləmiz heç zaman unudulmayacaq...

Qırğız igidlərinin axan qanı mavi göydə buluda çevrilib sonra da yağış kimi yağaraq torpağı sulayırdı.



## YAS



Qırğız ordusu savaşda neçə igidini şəhid verdi. Arxadan təqib edən çinlilərin önünü alp-ərənlər alır, düşməni zərərsizləşdirəndən sonra yoluna davam edirdi.

Bahadır Manas «ordunun iradəsini sındırmayaq, etibarını itirməyək, birliyimizi pozmayaq, bahadırların əlbisələrini çıxarmayaq, aulu ürkütməyək» deyə qeyrətə gəlib Kanıkeyin savaş üçün hazırlayıb verdiyi məlhəmi kürəyindəki yaraya Acıbayın sürtməsini istədi.

Qırğızlar meydandakı igidlərin cəsədlərini topladı. Bir xəndəyə silah-sursatları ilə birlikdə cəsədləri dəfn etdilər. Üzərlərinə daş qoyub bahadırların həyat hekayəsini yazdılar.

Bahadır Manas çöldə Ər Almambetin tanış qılıncını tapdı.

– Bahadır Almambetin canı bax, bu qılıncdadır. Bunu kim götürəcək? Buna altun saçlı Almambet kimi igid lazımdır-dedi Manas qılıncı qaldırıb seyrələn əsgərlərə baxaraq.

Manas çorolarına baxdı. İgidlər yerə baxdılar. Kimsə səsini çıxartmadı. «Qılıncı mən götürəcəyəm» deyən igid çıxmadı.

Bahadır Manas qılıncın ucundan tutub yanı üstə çevirdi.

Çöldə nə qədər arayıb-axtarsalar da Ər Almambet ilə Ər Çubakın cəsədlərini tapa bilmədilər. Bozqurd Manas ləkəsi olmayan duru gözlü, çili olmayan bəyaz üzlü Ər Almambetin Pekinə gələrkən söylədiyi vəsiyyətini xatırladı: «Aslan Manas, can dostum, əcəlim gəlsə, ölsəm günəş görməyən şəhərdən məni çıxart, cəsədimi apar get».

Bahadır Manas «can dostum Almambetin cəsədini tapmadan getməyəcəyəm» deyə orduya əmr verib hər tərəfi axtartdı.

Bir anda övliya sifətli Ər Bakay təpənin arxasından Ər Almambetin cəsədini qatıra yükləyib götürməkdə olan çinli əsgərləri yaxaladı. Baxdılar ki, çinlilər böyük xana Almambetin cəsədini müjdə olaraq aparmaq istəyirlər.

Ər Almambetin cəsədini qucağına alan bahadır Manas dayanmadan ağı söyləyirdi:

«Vay, vəfasız dünya, vay! Əkiz qardaşım Almambet döyüşdə uğur gətirirdi. Daş kəsən polad qılınc idi. Almoş nərə çəkəndə mən Pekini xarabazara çevirəcəyəm deyirdim. Bir orduya cavab verən əsilim Almambet, məni tək qoyma...

Bu zaman Almambetin Saralası, heyvanların ən ağıllısı balaca vaxtından bir yerdə böyüdüyü sahibinə başını əyərək yas tutdu; ot yemədi, su içmədi zavallı heyvan.

Aslan Bakay Almambetin Saralasını dərədən tutub gətirdi. Sonra övliya Bakay xan Almambetin cəsədi üzərinə qoxulu bitki qoyub, ardıc ağacı ilə göy bayrağa sarıyaraq on iki yerdən bağlayıb Saralaya yüklədi.

Bahadır Almambetin cəsədi Saralaya yüklənərkən qələbəlik xalq haray qopardı. Əsgərlər ağladılar, xan ağladı. Göydəki bulud da, yerdəki dəvə balası da ağladı. Dağdakı keçi üzüldü, ağacların başı əyildi.

– Bakay Saralayın cilovundan tutub ağlayaraq Almambetin cəsədini ona əmanət etdi:

– Qurban olum, Sarala. Heyvan deyil, aslansan. Sənə qurban olum, Sarala, dostum Almambetin cəsədini sənə yüklədim!



Başını yerə əyərək yolunu çaşmadan Almambeti Talasa apar! Bənzərsiz aslan Almambet sənə əmanət!

Bu sözləri deyən Bakay Saralanın yalmanını oxşayıb yola çıxartdı.

Qaplan Manas ikiqat vəziyyətdə baltasına dirənib dizi üstdə oturdu. Qara gözlərindən yaş töküb dostuna ağladı.

Pekinə hücum edən qırğız ordusu çinlilərə məğlub olub igidlərini itirdi, xanlar bayraqlarını endirdilər, ölən neçə igidin altun qənimətlərini atlarına yükləyib «yalan dünya!» deyə üzülərək əvvəl gəldikləri yola çıxdılar.

Bahadır Manasın balta yarası getdikcə pisləşirdi. Şəhid olan can dostlarının ağrısından danışmaq da istəmirdi. Dünyası qaraldı.

Ər Bakay ata minməkdə çətinlik çəkən yaralı Manas üçün ardıc ağacından düzəldilmiş tabut gətizdirib altına xam qumaşdan üzlənmiş döşək saldırdı. Sonra bahadırı möhkəmcə ona bağladı. Yol boyu dörd atlı növbəylə onu apardı.

Qanadı qırılıb, hüznlü bir şəkildə geri dönməkdə olan ordunun arxasında əli silah tutan igidlər təqibçilərlə «vur-qaç» savaşı edərək düşmənin hücumunu əngəlləyirdi. Yola dərdli Bakay başçılıq edirdi. Ordunun başı, ayağı üç günlük bir məsafəyə qədər uzanmış, əsgərlər dincəlmədən, gecə yatmadan yola davam edirdilər.

Beli qırılmış orduya göz-qulaq olan Bakay igidlər ilə məsləhətləşib «gözlənilmədən bu vəziyyətdə getsək bütün millətin odü partlayar» deyə Talasdakı Kanıkeyə məktub yazıb xəbərçi göndərdi.

Övliya Bakay xəbərçi Iramandın Irçıoğluna belə bir əmr verdi:

– Qurban olum, Irçı oğlu, xalqına «qaplan Manası Pekinə xan seçdik» de. Kalmık xanını əsir aldı de. Xalqım min qara qısraq ilə min qara dəvə kəsib bayram eləsin! Ər Almambetin ağ otağını Talasın ətəyində tiksinlər, Aruukə geyindirilsin. Almambet və Çubakın otaqlarını qarşı-qarşıya tiksinlər...

Iramandın Irçıoğlu xəbəri mahnı oxuyaraq çatdırdıqdan sonra ümid ilə kədər içində görünən zavallı millətin hamısı-çoluq-çocuğundan qarı-qocasına kimi canlandı, sevindi.

Obanın taleyi Kanıkey başda olmaqla xalq Ər Bakayın söylədiklərini yerinə yetirdi. Sevinən xalq böyük tədbir üçün birlikdə hazırlıq gördü. Qırmızı bənizli qızlar qırmızı əlbisələr geydilər. Saçlarına saçbağı taxdılar. Uzun hörüklü gəlinlər başlarına örpək örtdülər, qoçaq igidlər qısraq kəsdilər.

Fəqət yalnız Kanıkey-yaşanacaq dərdi, bəlanı altı ay öncədən bilən Kanıkey xalqın qabağında nə hıçqıra-hıçqıra ağlaya bildi, nə də qışqırıb içini boşalda bildi. Bəyaz gülahlı dərvişin Semetey adı verdiyi balasını bağrına basdı. Günəşi qaralmış kədərli Kanıkey yerində dura bilmədi. Xalqın gözündə tədbirə hazırlıq görürmüş kimi apardı özünü, amma əli bərəkətli yengə yarım günlük uzaqlığında bir yerə kimsəyə bildirmədən xəndək qazdırıb üstünə çadır qurdurdu. Sonra saçlarını başına yığıb qara yorğa alıb kimsəyə söyləmədən bahadır Manası qarşılamağa getdi.

Xan xanımı kanıkey kəramətini göstərdi. «Manası öncə özüm görməliyəm, vəziyyəti pisdirsə zavallı millət əndişələnər, bəd niyyətli altı xan qovğa qoparar. Bəyim yaxşılaşıncaya qədər xalqın gözündən uzaqda baxmalıyam» deyə yaxınlıqdakı karvansarada bahadırı gözlədi.

Ər Bakayın başçılıq etdiyi ordu yaxınlaşanda zavallı Kanıkey Semeteyə əmzik vermişdi, altı aylıq körpə baş ağrıdacaq bir səslə çığıra-çığıra ağladı.

Körpənin səsini eşidəndə ardıc ağacından düzəldilmiş tabutda gözünü açmadan hərəkətsiz uyuyan qaplan Manas başını qaldırıb iki əlinə dirənərək Bakaya sarı döndü:

– Can əmi, qışqırıb ağlayan bir körpə səsi gəldi. Ölüm vaxtımda mənim oğlumun səsi olmaz ki! Bəlkə yengən Kanıkey bizi qarşılamağa gəlib! Bakay, bir baxsana!

Ər Bakay çığırıb ağlayan körpə səsinin çıxdığı səmtə hərəkət etdi. Körpənin səsini yenə eşidəndə qeyrətə gələn Manas atlıları saxlayıb ox işləməz zirehli paltarını geyindi, müqəddəs bəyaz kəmərini belinə bağladı, yedəyə alınmış yorğa Narbuudana mindi.



Bahadır Manas atına minib aslan kimi oturarkən gözəllər gözəli, qadınların ən nurlusu, altun kəmər bağlamış sevgili Kanıkey oğlu qucağında Manasın qarşısına çıxdı.

Xan xanımı Kanıkey, gözəlliyi insanı heyran edən zavallı Ağqulanı görmədi, bahadırın rəngi qaçmış üzünü görcək kədərlənərək belə dedi:

– Uca soylu xanım, padşahım quş səkə bilməyən, at ayaq basmadığı o gedər-gəlməz Pekindən sağ-salamat qayıtdımı? «İgidllərim qayıtmadı» deyə ağlamayıb qeyrətə gəl, bahadır. Ağrılara əyilmə, bəyim, Talasa gəldiniz-millətimizin içinə...

Kanıkey sözünü bitirən kimi xan Manas dedi:

– Xanım, ürəyimi parçalama, yaramı açma. Belə deməkdənsə mənim bu ölümlü vaxtımda oğlumu gətir görüm.

Xan Manasın sözündən alovlanan baxtsız Kanıkey bu istəyi qəbul etmədi, beşikdə ay kimi parlayan körpəsini bağrına basdı və onu bəyinə vermədi. Səbəbi belə idi: Bahadır tutduğunu parçalayan aslan kimiydi. Alovlanan gözlərində qara bir kölgə vardı. Üzü qorxunc idi. Ona baxan kimsə sağ qalmazdı. Bunu özü də hiss edən Manas küsməyərək Kanıkeyə qamçısını uzatdı. Kanıkey bahadırın qamçısını altı aylıq körpəsinin alnına xəfifcə toxundurub sonra geri qaytardı.

Bahadır məsum körpəsinin alnına toxunan qamçısını dərindən qoxlayaraq güc tapdı:

– Tanrım, axırda dərdlərimi, bu oğlumun gəlişi ilə ovutdun! Səndən razıyam, ey yaradanım! Bu körpəni özün verdin, özün də qoru! Atasının şərəfini qorusun, xalqına dayaq olsun, – dedi Manas əllərini göyə açaraq.

Yol boyu talesiz Kanıkey ana gözlərindən yaz yağışı kimi yaş töküb ağladı.

Bakayın söylədiyi kimi, Talasın ətəyində Almambetin ağ otağı tikilmişdi. Maraq içindəki milləti görən bahadır Manas atının başını Almambetin otağına çevirdi, göz yaşlarını saxlaya bilmədi. Altun haşiyəli baltasını başından yuxarı qaldırıb fər-

yad qoparıb ağı dedi:

– Zavallı əkiz tayım Almambeti itirdim, ay-vay! Ona yaxşı baxa bilmədim, qanadımdan ayrıldım, ay-vay! Dünyaya, Böyük Pekinə maraq göstərib bahadırlarımdan ayrıldım, ay-vay! Bahadırlarımı itirib mən necə yaşayaram, ay-vay! On səkkiz min aləm əlimdəykən, Almambet həyatta ikən niyə ölmədim, ay-vay!..

Manas ağlayarkən su sahilindəki söyüdlər və bütün millət ağladı.

Ər Almambetin xanımı, qara geyinən Aqınay qızı Aruukə fəryad qoparıb ağı söylədi:

– Dağdakı saysız-hesabsız at sürüsündə qısraqlar ilə yorğalar qarışıqdır. Məni dərd içində qoyub hara gedirsən, məni də al yanına, bəyim...

Bahadır Manas Ər Çubakın, Ər Sırqakın otağına varıb yerə mizrağını sancdı, hıçqıra-hıçqıra ağladı.

Xan Manasın ağladığını görüncə bahadırların qara geyinən qadınları caçlarını yolub, üzlərini cırıb ağladılar. Gözlərinin yaşı üzlərindən axan qana qarışdı.

At üstündə hönkür-hönkür ağlayan Manası dövrələyən xalqdan bir kimsə "ağlama, bəsdir" deməyə cəsarət etmədi."

Həmin zavallı Kanıkey xan Manasın önünə gələrək ona təsəlli verdi:

– Uca soylu bəyim, başını qaldır, bu gidi dünyadan köçən igidlər bir daha geri dönməz. Bahadırım, dünyanın işi belədir, ölənə ağlamağın faydası yoxdur.

Bu sözləri söyləyən Kanıkey bahadır Manasın qoltuğuna girib atdan endirdi və qalaya – xan iqamətgahına apardı.

Uca soylu Kanıkey Manasın boynuna balta dəydiyini və onu yaraladığını gördü. Bakay ilə məsləhətləşib bahadır hamıdan aralı qalsın deyə Muzdakın başındakı Muz-Cayloo deyilən sərin təpəyə köçdü.

Duyğulu qadın Kanıkey Batıya və Doğuya məxsusi adam göndərib xəstəliyə şəfa verən ən yaxşı məlhəmləri gətizdirdi. Min çeşid bitkidən hazırlanmış və qaynadılmış məlhəmi bahadırın yarasına sürtdü Kanıkey.



Bahadır Manasın yarası sağaldıqca çinar kimi canlandı, ağrıları kəsdi, gözləri fal daşı kimi açıldı, günbəgün yaxşılaşmağa başladı.

Xan Manas əvvəlki halına gələndən sonra, payızda Talas boyunda məskunlaşdı. Əzabkeş xalqın qayğısına qalan yenə bahadır Manas oldu. Şəhid verən evlərə at və qurbanlıq göndərdi, evi olmayana ev tikdirdi, yoxsullara pal-paltar geyindirdi.

Günlərin birində, dan üzü Manas ağ obanın təpəsində Tanrıya ibadət edərək sükut içində otururdu. Günəşin şəfəqləri yerə çatanda uzaqdan bir qaraltı gördü. At desən ata bənzəməyən, insan desən insana bənzəməyən, xəyalət kimi bir heyvan qərərgaha tərəf gəlirdi.

Bahadır Manas Tayburulu yəhərləyib bir şey cezmiş kimi qaraltıya doğru hərəkət etdi.

Bahadır manas bir ət, bir sümük qalan, sozala-sozala gələn ata yaxınlaşarkən haray saldı:

– Qurban olum, Sarala, sənsən?

Manas atın yalmanını oxşayıb hıçqıra-hıçqıra ağladı. İt-Ölbosün çölündə igidlərini itirib dərd içində boğulan bahadır Manasın əmanət olaraq yüklədiyi Almambetin cəsədi Saralanın üstündə dururdu.

Saralanın şələ quyruğu vardı. Heyvanların ən ağıllısı idi, danışmağa dili yox idi, kədərli gözləri Manasa dik-dik baxdı, sonra Tayburul ilə bir-birlərini iylədilər. Sarala heyvan olsa da bir udum su içmədən, otlamadan, dincəlmədən, düşmənin gözünə görünmədən, neçə dağdan, təpədən keçmiş, Talasa çatmaq üçün çoxlu yol gəlmişdi. Almambetin sağlığında kişnəyib şahə qalxan Saralanın bu indiki səfərində hər yeri yağır olmuşdu.

Xan Almambetin cəsədini salamat çatdıran bu atın boynuna sarılaraq acı-acı göz yaşı tökən bahadır Manas Saralanı yedəyinə alıb ağ otağa gətirdi.

Xan Manasın davulu çalınanda xalq təcili ağ otağa toplandı.

Ər Almambetin cəsədini bahadır Manas Çeç-Döböyə, qırğızların adətinə görə başını Pekinə tərəf çevirib dəfn etdi. Sarala da bahadırı ilə birgə torpağa gömdü.

Bahadır Manas Ər Almambetin otağına ağlayaraq gəldi:

– Zavallı əkiz qardaşım, saysız-hesabsız düşmənə təkbaşına cavab verən Almambet dostum, sənsiz necə yaşayaram. Qara haşıyəli baltanı kim götürəcək, lənətə gəlmiş Pekinin yoluna kim bələdçilik edəcək? Uca soylu Almambet aslanımı qara torpağa necə verim?

Bahadır Manas Almambetin otağında gah qusub bayılır, gah ayılıb ağlayırdı. Bahadırın vəziyyətinin ağırlaşdığı duyulurdu.

Qaplan yengə Kanıkey Manasın bu halını görüncə başını əlləri arasına alıb ağladı:

– Dünya fanidir, bəyim! Mənə deyəcəklərini indidən de, belə qusmağın yaxşı hal deyil, mən baxtsızı dərdə salacaqsan. Bahadırım, yaranın vəziyyətini mənə de.

Cəsur Manas tərpənmədən belə dedi:

– Xanım, mən böyük Pekinin civarında, dan sökülərkən üzü günəşə sakitcə otururdum, növbətçi keşikşilər yuxuya gedəndə kalmık xanı Konqurbay kürəyimə balta vurub getmişdi. Yəqin ki, baltanm ağzı sümüyümdə qırılıb qalıb. Sirdaşım Kanıkey, bir baxsana.

Bunu eşidincə özünü itirən Kanıkey "vay, bəyim, belindəki yaranı yaxşı görməyən gözlərim kor olsun"" deyə ağladı.

Xan ordugahına Bakaydan başqa kimsə girmədi. Bahadırın ağırlaşdığını obada kimsə bilmədi.

Hərarəti yüksələn bahadır Manası biçarə qadın üzüqoylu uzadıb yarasına baxdı. Bahadırın yarası irinləyib şişmişdi. Ağ qəmə ilə bahadırın yarasının ağzını iynə gözü boyda deşdi. Bahadırın belindəki irin-qan axmağa başladı. Manas özünə gəlib az da olsa rahatlandı. Sonra Kanıkey dedi:

– Bir az dayan, gözəlim. Baltanın qırığını çəkməyə çalışaq.

Biçarə Kanıkey ucu görünən polad qırığını dişi ilə çəkib çıxartdı. Sümüyün açılan yerindən qapqara çirk axdı.



Bahadır Manas danışmaq ictəsə də gücü yetmədi, hərəkətsiz yataqda qaldı.

Biçarə qadın Kanıkey başına qara günlərin gəldiyini, bəyinin yaxşılaşmayacağını anladı. Qeyrətə gəlib övliya Bakay ilə məsləhətləşdi, ona öz dərdini danışdı:

- Ağıllı əmim, yaradandan qismətim bu imiş, talesizin biriymişəm, amma bəyim ilə yaşadığım üçün çox xoşbəxtəm. Başımın tacı bu günlərdə ağır vəziyyətdədir, əgər qəfildən gözləri qapanarsa arxasından yolunu davam etdirəcək oğlu hələ çox kiçikdir, qopanları bir-birinə bağlayan bahadırın kömək əli uzadan doğmaları qalmayıb, taxtına oturası qardaşı, uca soylu aslanları qalmadı. Qısqanc, bədxah xanlar, bəd niyyətli qardaşları var. Bunu necə edək? Bu dərdi Manasa söyləyəkmi? Bunu eşidincə yarası qövr etməzmi? Bəs nə edək? Açıqca söyləyin, əmi?

Övliya sifətli Bakay söyləyəcəklərini söylədi. Kanıkey ilə Bakay Manasın hüzuruna gəldilər.

Kanıkey cəsarətlənərək bəyinin alnına əlini qoyub dərdli-dərdli belə dedi:

– Can sirdaşım, bəyim, hüzuruna Bakay əmin gəlib. Gözünü aç, başını qaldır! Pislik olmadan yaxşılıq olmaz, bu yalan dünyadan getməyən kim var? Açıq söylədiyim üçün incimə, nə qədər ki, ağlın başındadır vəsiyyətini söylə, padşahım. Arxandakı oğlun çox kiçik, qardaşlarının hamısı düşmən, bir gün başımıza bəla gəlirsə mən dul qadın olaraq nə edəcəyəm? Çərxi-gərdişin çətinliyində qalsaq bayrağı tutan kim olacaq?

Bahadır Manas yastığa dirsəkləndikdən sonra belə dedi:

– Xanım, əgər əcəlim gəlib ölsəm Küykün keçidindən keçərək atan Temirxana tərəf qaç. Xanı ölən qadın üçün ən uyğunu ata evidir. Bu Talas sənə məkan olmaz. Abikə, Köböş və altı zibilin niyyəti bəddir. Atamız Temirxanın yanına gedərkən Semeteyə nəzər dəyməsin deyə onu it ayağından keçir, qılıncın üstündən atlandır, saçlarının arxasını kəsib qardaşın İsmayıla övladlığa ver. On iki yaşma yetənə kimi atası haqqında heç nə söyləmə, atası haqqında da bir şey eşitməsin, elə ki, on iki yaşı

tamam oldu ox işləməz əlbisə geydirib, anası və atası haqqındakı hər şeyi danışıb ona Talası göstər. Ruhum ölməsə onu yolunda özüm qarşılayıb xeyir-dua verəcəyəm. Sevdiciyim, heç kəsə bildirmədən məzarımı özün qaz. Bakay əmimlə ikiniz kimsənin bilmədiyi bir yerə basdırın məni...

Bahadır Manas arabir yorulunca su içir, ağrısı tutanda Çin məlhəmini kürəyinə sürtdürürdü. Zavallı Kanıkey kimsəyə söyləmədən, kimsəyə hiss etdirmədən, millətdən gizlədərək Manasa yalnız özü baxdı. Hətta qırx çoronun sağ qalan igidlərinə belə sir vermədi.

Bahadır Manas xalqın sevimlisi xan Bakayı yanına çağırıb «dostlarımla, yaxın qohumlarımla, xanlar və bahadırlarla gözüm açıq ikən bir görüşüm» deyə hamısına gizlicə xəbər göndərdi.

Bahadır Manasın gözləri hədəqəsindən çıxmışdı. Qara qan qusurdu, dərmanı azalırdı. Gah huşu gedir, gah ayılırdı.

Saçlarından tutub ağlayan yengə Kanıkeyə bahadır Manas belə bir xahiş etdi:

– Camm, yay oxunun çatmadığı, polad ucunun dələ bilmədiyi, qasırğanın devirə bilmədiyi Akolpoku (zireh geyim – A.C.) üstümə ört.

Neçə savaşdan geçdiyim Akolpokla özümü ovudum, məni pis nəzərlərdən qorusun! Kanıkeyim, Akolpokdan yayımı da as. Əmanət canım çıxana qədər namus üçün, millətimi qorumaq üçün Kakançini alt-üst etdiyimi xatırlayım. Kanıkey, qan içməyincə qınına girməyən göydən enmiş qılıncımı da bağla bu əlbisəyə. Sirdaşım, düşmənə tuşlayanda ay kimi parıldayan sirli mizrağımı əlimin çatdığı yerə qoy. Gözüm açıq ikən bununla təsəlli tapım...

Sonra bahadır Manas əmisi Bakaya üzünü çevirib boğuq səslə dedi:

– Övliya Bakay əmi, xan Manas öləndə bir yerə toplaşan xalqdan və auldan aralı dur, dəvə aparıb təpələrdə dolaş. Kelmayan ilə Boz buğranın boynuna zınqrov taxıb «xanımdan yadigar qaldı» deyə yetim Semeteyin dəvəsi kmi bax. Əmi, dağılan xalqı toplayıb millət qıldım, körpə quşu bəsləyib alıcı quş



qıldım. Mən xalqımdan razıyam. Günahım varsa, bağışlayın. Qələbəlik milləti toplayıb, gözü açıq igidlərinə özün başçılıq edərək məni qara torpağın qoynuna-Tanrıya ver.

Bahadır Manas vəsiyyətini xanımı Kanıkey ilə Ər Bakaya söylədikdən sonra dili tamam tutuldu.

Xan Manasın altun noxtalı, qaçışma heyvan, sürətinə külək çatmayan Kelmayan qara nəri ağ otağın yanında, bahadırın yatdığı tərəfə çöküb boynunu uzatdı. Gözlərindən yaş axıdaraq yatdı.

Ağqula öldükdən sonra Bahadır Manas Qaracanın qızı Saykalın hədiyyə verdiyi Tayburulu bəyənib savaşa minmişdi. Dərədən-təpədən yel kimi keçən at bahadırın ağ otağının önündəki altun dirəyin yanma özü gələrək yeddi gün ot yemədən, yerindən tərpənmədən yas tutdu.

Xan xanımı Kanıkey Arqın xanının oğlu Acıbayı çağırıb dedi:

– Altmış cür dil bilən Peyğəmbər sifətli əmi, bahadırının görəcək günü, içəcək suyu bitdi. İndi can üstədir. Əmican, indi gen dünyam daraldı, yanan ocağım söndü. Daha ağılar onu geri qaytarmaz, ağlamaq fayda verməz. Qeyrətə gəlməliyik. Xanı hörmətlə dəfn etmək boynumuzun borcudur. Xan Kökötoyun yasından da hörmətli bir yas məclisi düzənləməliyik. Dünyanın hər tərəfinə xəbər verməliyik.

Acıbay xəbər verməyi qəbul etdikdən sonra Kanıkey «doğmalarıma, yaxşı niyyətli xanlara, sərkərdə dostlarına, ünlü bəylərə xəbər ver, xan Manasın yasına hazırlaşsınlar» deyə bir məktub da yazıb «Cet-Kayta qədər get» söyləyib ona yeddi gün möhlət verdi, igid əlbisəsi geydirdi, çevik bir at seçdirib yola çıxmağa hazırladı.

Acıbay xəbər verməyə o qədər də məmnun olmadığını hiss etdirərək Kanıkeyə dərdini açdı:

– Kanıkey, övladım, dediklərini edəcəyəm, hər yerə xəbər verəcəyəm. Mindiyim bu Qartkürənin dırnağı bərk deyil, arxamca düşmən gəlsə bu at məni məhv edəcək. Qızım, Tayburu-

lu versənə minəm.

Kanıkey göz yaşlarını saxlaya bilməyərək ürəyi sızlaya-sızlaya Tayburulu verməyə razı oldu.

Ağ otağım ortasındakı altun dirəyə baxıb başını yerə əyib duran Tayburul Acıbayı yaxınına qoymur, yəhərləməsinə imkan vermir, yedəyə alsa da yerimirdi. Bahadıra yaxın olan bu atın fəlakət hiss edərək sahibinə yas tutduğunu görən Kanıkeyin gözləri dolub-boşaldı.

Axırda əlacsız qalan Acıbay qaçışına, yerişinə bələd olduğu Qartkürənə minərək çox uzaqlara gedib bu xəbəri çatdırdı.

Acıbay qırx günlük yolu yeddi gündə qət edərək bu xəbəri lazım olan yerlərə çatdırdı, düşmən xanlara ayağının səsini belə eşitdirmədən Talasa döndü.

Bahadır Manasın bütün işləri Kanıkeyə qalmışdı. Bacarıqlı yengə Kanıkeyin sezdiklərini sezən, bildiklərini bilən igid yoxdu. Qapqara uzun hörüklərini başının ortasına yığıb xəbər verdiyi xanlar, bəylər, qüvvətlilər gələnə kimi xəstə yatan Manasın işlərini gördü. Altı yüz at hzırladıb Əndicandan kisələrdə torpaq gətizdirdi. Yeddi min keçi yunu ilə inək yununu qarışdırıb altmış pəhləvana ayaqladıb, kərpic hazırlatdırıb «bəyimin məzarı yeddi əsr pozulmasın» deyə möhtəşəm bir məqbərə yapdırdı. Usta rəssamları çağırıb məqbərə içinə Akolpok geyinən, Ağqulaya minən bahadır Manas başda olmaqla on iki xanın, qırx çoronun, qüvvətli igidlərin rəsmini çəkdirdi.

Zavallı qadın Kanıkey kimsəyə bildirmədən, kimsəyə görünmədən Urum xalqından yetmiş usta gətirdib «bəyimi açıq şəkildə dəfn etsəm altı düşmən xan kin bəslədikləri üçün məzarı açıb qisas alarlar» deyə Eçkilikin Qara – Zoo deyilən yerində Manasın məzarını qazdırdı, ağzını bir adam girə biləcək şəkildə düzəltdirdi, içərisini isə altı min qoyun sığa biləcək şəkildə düzəltdirdi. Tavan çökməsin deyə altına dirək vurdurdu, mərmərdən qəndil asdırdı, axan suyu məzarın içindən keçirtdi, altından yataq düzəltdirdi, üstünü qumaşla örtdürdü. Altı çürüməsin deyə ardıc ağacının külünü tökdürüb özünə görə yatacaq



yeri hazırlatdı. Sirri açmasınlar deyə yetmiş kölənin hamısını aradan götürdü.

Xan Manasın yasına xəbər verilən yerlərdən dostlar, tanışlar, hörmətli insanlar bir-birinin ardınca gəlməyə başladılar.

Ceti-Suuda məskunlaşan xalqın atası olan doxsan beş yaşlı qoca, milləti duasıyla zənginləşdirən, tədbirli, xalqın könlünü heç zaman qırmayacaq qədər ağıllı qara kitayı idarə etmək qüdrətinə malik Katağan xanı Koşoy xan Manasın yasında qulluq etmək üçün erkəndən gəldi.

Kenq Alayda məskunlaşan, toxunduğunu sağ buraxmayan Ər Töşdük də köhnə dostunun yasında altmış gün xidmət edəcəyəm deyə gəldi.

Aşağıdakı Urum deyilən xalqdan, yəni qırx günlük yerdən hərəkət edən Urumxanın oğlu Kökbörü «can dostum həyatda ikən əlini sıxım, oğlu Semeteyi görüb gəlim, heç olmasa yengəmdən üzr diləyim» deyə bəyaz atına sarı altun yükləyib – Narbuudanını sürüb yanına xanımını və on iki yaşında bir igid olan, köhnə paltar geymiş Koyonalı deyilən bahadır oğlunu alaraq gəldi. Koyonalın yaşı azdı, amma bir aslan görkəmindəydi, bənzərsiz igiddi, çay kimi qan axıdan, düşmənlərinin canına vahimə salan bir alpdı! «Bahadır atama özüm xidmət edəcəyəm, yasının qulluqçusu olacağam» deyə biləklərini çırmayıb işə girişdi.

Acıbayın verdiyi xəbərdən sonra Manasın dəyərli dostlarının ardınca Oyrat xanı Karacın qızı Saykal da qara hörüklərini başının ortasına toppuz kimi yığaraq Manasın qırx günlük yasında qulluq edəcəyəm deyə gəldi. Bu həmin Saykal idi ki, Manasla təkbətək döyüşə girmişdi, məğlub etdiyi bahadıra qıymamışdı. Basdığı yerdən toz-duman, baxdığı yerdən can çıxaran bu qız bir zamanlar düzənlənən mizraq qovğasında «qırğızın beli qırılar» deyə bahadır Manasa mizraq vurmağa əli gəlməmişdi. Mazeyil deyilən yerdə məskunlaşmışdı, geniş Turfanda qışlayırdı.

Bahadır Manas gözünü açdı, son dəfə özünə gəlif başının üstündə sızlayan Kanıkeyə dedi:

– Xatun, vida zamanı gəldi. Qaçılmaz an gəldi. Axirət

dostlarımla son dəfə görüşmək istəyirəm, igidləri bura çağır.
Bunları deyən Manas yastığına dirsəklənib oturdu.
Otağın qapısını Kanıkey açdı.
Bahadırın otağına Bakay, Koşoy başda olmaqda on iki xanı, çoroları, qulluqçuları, dostları girib bir-bir vidalaşdılar.
Bahadır Manas ağlayan igidlərin səsini əlinin işarəsi ilə batırdı.
Bahadır sanki o biri dünyaya getməyəcəkmiş kimi, qiyamət gününü görməyəcəkmiş kimi nə qaşlarını çatır, nə də kədərlənirdi, çəkdiyini hiss etdirmədən, qeyrətini itirmədən dağların qartalı kimi dururdu.
Zavallı yengə Kanıkey Manasın dostu Kökbörünün on iki yaşındakı oğlu Koyonalını zorla saxlamışdı. Manasla görüşmək istəyən yeniyetməyə Kanıkey yalvarırdı:
– Getmə oğul, atan Manasın baxdığı kimsə sağ qalmaz. Üz-gözündə ağır bir zəhm var. Onun baxışlarına hər kəs davam gətirə bilmir. Sözümü eşit, övladım...
– Atam Manasla görüşmədən, əllərini sıxmadan necə qapısında qala bilərəm. Onun üzünü görməməkdənsə arxasınca getməyə razıyam – deyən Koyonalı Kanıkeyin əlindən qoparaq çevik bir hərəkətlə içəri soxulub Manasın əllərindən tutdu.
– Yolunuz uğurlu olsun, xan ata! – dedi Koyonalı ağlayaraq.
Dönüşü olmayan yerə getməkdə olan Ər Manas gözlərini təzədən açıb əllərini möhkəm sıxan yaramaz uşağa baxıb:
– Bu pəhləvanı heç görməmişdim. Kimdir bu? – soruşdu.
– Bahadırım, gözünü aç! Bu, dostun Kökbörünün oğludur – dedi Kanıkey ağlayaraq.
Manas üzünü Kökbörüyə tutdu:
– Kökbörü, axirət dostum, sənin bu oğlun çox qüvvətliymiş, güclüymüş. Bahadırın yolu dar imiş, vəfasız dünyaya erkən gələn bir oğlan imiş. Dostum, icazə ver o biri dünyaya mənə yoldaş olsun, oğlunu mənə halal et.
– Dostum, oğlum yox, lazımdırsa canımı da bərabər al! – dedi Kökbörü bahadır Manasa diqqətlə baxaraq.



Bahadır Manas bir daha danışmadı, igidlərlə vidalaşdıqdan sonra əlli iki yaşında vəfat etdi.
Xan evinin dirəyindən asılmış göy bayraq qara bayrağa əvəz oldu.
Talesiz yengə Kanıkey otuz iki yaşında bahadırından ayrılıb daraq dəyməyən saçlarını yoldu, nurlu üzünü cırdı. Bütün vücudu əsdi, çarəsiz qalıb üzüntü içində hıçqıra-hıçqıra ağladı: bu gün gördüyün sabah yox – belə vəfasız dünyadır bu.
Dul qalan zavallı Kanıkey bir daha dönməyəcək ərinin arxasınca ağı deyib belə ağladı:
– Ah, dönüşü olmayan yerə gedən bəyim, dağda saysız atların qaldı. Məni cəhənnəmdə qoyub getmə, özünlə apar. Qırğız xalqını kim idarə edəcək?! Məni bu dərdlərin əlindən alıb özünlə apar, bahadır bəyim!
Bahadır Manasın öldüyü gün yer yarıldı, günəş tutuldu, altı gün zil qaranlıq oldu, ay çıxmadı. Göydə buludlar, yerdə quşlar ağladı.
– Xan Manasın Ağşumkarı (sunqur quşu) altun iplərini parçalayıb göylərə uçdu. Ağ sarayın üstündə yeddi dəfə dövrə vurduqdan sonra gözdən itdi.
Ağ otaqlar qaraya büründü, xalq yas tutub qara geyindi.
Ağ evə yaxınlaşanda sağ tərəfdən on min, sol tərəfdən on min igid alnma qara bağlayıb, yolunun iki kənarında diz çöküb durdular. Ortada geniş yol buraxıb dağları sarsıdacaq bir şəkildə ağladılar. Uzaqdan bahadırı görməyə gələnlər kədərlənərək ortada buraxılan yol ilə ağ evə yaxınlaşdılar. Bahadır Manasın cənazəsi qırx qanadlı ağ otağa qoyulmuşdu.
Fitnəkar, gözlərindən hiyləgərlik oxunan Abikə, Köböş və altı bədniyyət xan təpədən gec endilər. Xalq görsün deyə arasıra yalandan hönkürdülər. Lakin nə gözlərində yaşı, nə ürəklərində bir dərdləri vardı. Sanki toya gəlmiş kimi ürəklərində gülürdülər.
Xan Cakıbın kiçik xanımının oğullarından olan Abikə və Köböşün sifətini görən cəsur qadın Kanıkey «bəyimin cəsədini

dəfn edənə qədər nələr olacaq Allah bilir, evdən çıxan yanğın, öz içindən çıxan düşmən dəhşətli olur, indidən «xanlığı paylaşmağa qalxmasınlar təki» deyə nə edəcəyini bilməyib beşikdəki Semeteyi qucağına alaraq bədniyyət bəylərə və xalqlara sözünü ünvanladı:

– Oğullar, dirəyinizdən ayrıldıq! Dağların qartalı uçdu getdi, oğullar! Bayrağı tutan xanınızdan ayrıldıq, oğullar! Mənim kimi zavallının çəkəcəyi varlığım oğlumdur! Xanınız yoxkən Ağ ev yağmalanmasın, oğullar. Olacağa çarə yoxdur, ağanız o biri dünyaya getsə də bu dünyada sizin kimi qardaşları qaldı. Xanı ölən qırğızın dövlət quşu uçub, bərəkəti qaçıb, ocağı sönmüş deyə düşmənlər bizimlə cəngə girməsinlər. Bəyimizin olmadığından istifadə edib heyvanlarımızı dağıtmasınlar, qiyam qoparmasınlar, matəmli xalqa əziyyət verməsinlər. Sizdən başqa kimim var ki, mənim? Güvəncim sizsiniz, xalqı idarə edin, məsləhətlə iş görün. Xan ağanızın cənazəsini hörmətlə torpağa tapşıraq, ruhu şad olsun!

Kanıkey bu sözləri deyib ağlayarkən tərbiyəli Abikə əzmlə işə girişib hüzünlü xalq arasında dolaşdı, matəmə gəlib ağlayan qonaqları xüsusi çadırlara və evlərə paylaşdırdı.

Bəd niyyətlilər matəmə qatılmadan qonaq kimi sakitcə oturdular.

Qaranlıq basanda, xalq yatmağa çəkiləndə yenilməz qadın Kanıkey əndişəli bir halda əmisi Koşoyun yanına getdi:

-Əmican, bahadır Manas qardaşınız bir çoxlarına dili ilə, bir çoxlarına əli ilə toxunmuşdu. Onların bir çoxu hələ yaşayır. Manası məzara qoysaq qəbri açıb qisas alarlar. Belə olan halda nə etmək yaxşıdır, bir məsləhət ver!

Xan Koşoy, xan Bakay, Ər Töşdük, Ər Kökbörü, bahadır Koyonalı bir yerdə Kanıkeylə məsləhətləşdilər.

Qaranlıq gecədə zavallı Kanıkey məsləhətləşdiyi igidlərlə xan Manasın cəsədini yudurdub, kəfənə bükdürüb, tabuta qoyub, üstünü kilimlə örtdü. Bahadırın cənazəsini qırx mollaya qaldırdıb özü əvvəlcədən hazırlatdığı məzara götürdü.



Manas hələ ölməmişdən hazırlanan məzarı görən igidlərin heyrətdən ağızları açıq qaldı.

Bu anlarda Katağan xanı Koşoy Kanıkey xatuna altmış dəfə yalvarıb diləklərini dilədi:

– Kanıkey övladım, sənə qadın deyən kor olsun, sənə dişi deyənin bəxti batsın. Manasın ruhu köməyin olsun. Soyun davam etsin, diləklərin hasilə yetsin!

Ərənlər Tanrıya dua etdilər. Manasın cənazəsinin yanına silah-sursatını qoydular. Sonra dağın ağzını qapayıb səhərə yaxın heç kimə hiss etdirmədən qərərgaha döndülər.

Təkcə sözdə deyil, işdə də bacarıqlı olan aslan Bakay qovaq taxtasından Manasın bənzərini düzəltdirdi. Onu qumaşa bükküb üstünü bəyaz keçə ilə örtdü, tabuta qoydu.

Yalandan ağlayan qohumlar Manasın tabutundan yapışaraq ondan ötrü yalandan hazırlanmış məzarına götürdülər və bu məzara quru taxtanı basdırdılar.

Ər Koşoy, Ər Bakay, Ər Töşdük, Ər Koyonalı Kanıkeyin yanında yas tutub oturdular. Bu dünyadan köç edən aslanın yasını layiqli vermək üçün kəlmeyi-şəhadət oxuyub geri döndülər.

Xan Koşoyun zöhrə ulduzuna bənzəyən iri gözlərindən axan yaş saqqalından sızaraq atının yalmanına düşdü. «Ömrünü yaşamış olan məni niyə aparmadın, Tanrım!» deyə dərdli-dərdli sızlayaraq yurduna döndü Xan Koşoy.

Əzəmətli Talası titrədən şəkildə «yer altında yaşarkən Manas kimi aslanı görmədim, yer üzündə yaşarkən də Manasa tay gələni görmədim, vəfasız dünya. Bahadırımla birlikdə niyə ölmədim?!» deyən Ər Töşdük də yurduna qayıtdı.

Xan Manasın dəyərli yarı olan qara geyinmiş Saykal bəyaz üzündən qan çıxarıb, yığılmış hörüklərini dağıdıb, üzünün qanına qarışan gözünün yaşını atının cilovundan sızdırıb, qırx çorosunu arxasına alıb ağı deyə-deyə öz obasına yetişdi. Obasına yetişərkən Manasın ölümünə çox kədərlənən atası Qaraca «Manas kimi aslana acımamaq mümkünmü?» deyə yas tutub altmış qadına ağı dedirtdi. O gün Saykal gecəni səhərə çıxmadan bu

dünyadan köç etmişdi. Saykalın cəsədi evində tapılmadı. Bəsirətli övliyalar «Tanrının sevimli qulu Saykal xalqıyla vidalaşdıqdan sonra əziz dostu Manasın yanına getmişdir» dedilər.

Urumxanın oğlu Kökbörü yadigar olaraq dostu Manasın çadırını almışdı. Oğlu ilə birlikdə geri dönərkən yolun yarısında düşmənlərin hücumuna məruz qalıb on iki yaşlı oğlu Koyonalı itirdi. Kökbörü Koyonalının cəsədini tapa bilmədi. Nasili xanın qızı olan ağıllı Gülnar kədərlənən ərinə belə dedi:

– Göz bəbəyin oğlunu can dostun Manas istəyəndə verməmişdin, padşahım. Tanrının əmriylə sirdaşın Manasa yoldaş olmağa getmiş oğlun, qəm yemə.

Bahadır Manasın ölümündən bir il keçdi. Yalan dünyada neçə çaylar daşıb, göllər dalğalanıb, yamaclar yaşıllaşdı. Söz verən xanlar yasa gəlmədilər. Manasın atası Cakıb da, onun oğulları Abikə, Köböş də xanlığı ələ keçirmək çəkişməsinə girdikləri üçün qəbilənin bərəkəti qaçdı. Qəhrəmanın yasını verə bilmədilər.

Ağ otaqda yas tutan Kanıkey bahadırdan qalan tək oğlu Semeteyi bağrına basıb dərdli-dərdli ağı deyərək ağlayırdı.

Bahadırın atı altun dirəyə məhzun-məhzun baxıb dururdu.

Xan qalasının qara daşı üstündə kədərli-kədərli oturan qoca Bakayın ağlamaqdan gözləri qaralırdı...



## KİTABIN İÇİNDƏKİLƏR

Manasın cocuqluğu ... 3
Xan Manasın zəfərləri ... 71
Ata-baba yurdunda ... 105
Kökötöy xanın yası ... 175
Böyük yürüş ... 210
Yas ... 269

Manas.
Bakı, "Nurlan" nəşriyyatı, 2009.

**Nəşriyyatın direktoru:** *Nadir Məmmədli*
**Kompüterdə yığdılar:** *Aygün Balayeva*
**Kompüter tərtibçisi və texniki redaktoru:** *Ramin Abdullayev*

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 290 səh.
Tirajı: 500
Qiyməti müqavilə ilə.

**Kitab Azərbaycan MEA Folklor İnstitutunun kompüter mərkəzində yığılmış, "Nurlan" NPM-də hazır diapozitivlərdən çap edilmişdir.**

## ADİL CƏMİL



1954-cü ildə Kəlbəcər rayonunda anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib (1977). Müxtəlif mətbuat orqanlarında rəhbər vəzifələrdə çalışıb. Hazırda «Ədəbiyyat qəzeti»nin şöbə müdiri, AMEA Folklor İnstitutunun böyük elmi işçisidir.

1970-ci ildən bədii yaradıcılıqla məşğul olur. Tanınmış şair, publisist, tədqiqatçı və tərcüməçidir. 10-dan artıq şeir, 2 publisistika kitabının, 2 monoqrafiyanın müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin (1985), Azərbaycan Jurnalistlər Birliyinin (1979) üzvü, «Qızıl qələm», «H.B.Zərdabi», «Araz» media mükafatçısı, Prezident təqaüdçüsüdür.

Qırğız eposu «Manas»ın Azərbaycanda ilk tərcüməçisi və tədqiqatçısıdır. Dastanın orijinalından (S.Orozbəyov versiyası) poetik tərcümələri «Gənclik» jurnalında, «Ədəbiyyat qəzeti»ndə, xalq yazıçısı Anarın tərtib etdiyi «Min beş yüz ilin oğuz şeiri» antologiyasında (1-ci cild), akademik Nizami Cəfərovun müəllifi olduğu dörd cildlik «Türk xalqları ədəbiyyatı»nın 2-ci cildində və s. mətbuat orqanlarında işıq üzü görüb, ayrıca kitab şəklində (Bakı, «Səda», 1995) çapdan çıxıb, televiziyada səsləndirilib.

«Manas» eposu və türk dastançılıq ənənəsi» mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. Eyni adlı monoqrafiya «Elm» nəşriyyatı tərəfindən 2002-ci ildə çapdan buraxılıb.

Türk dastanlarının elmi analizi ilə bağlı Beynəlxalq konfrans və simpoziumlarda manasşünas alim kimi məruzə edib.

1995-ci ildə Ulu Öndər Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan Nümayəndə Heyətinin tərkibində Qırğızıstanda keçirilən «Manas-1000» Beynəlxalq yubiley tədbirinin də iştirakçısı olub.